# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# QIRX DÖRDÜNCÜ KİTAB

## DEKABR 2010 - MART 2011

**AZƏRNƏŞR**
**BAKI - 2017**

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

**AZƏRNƏŞR**
**BAKI – 2017**

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2017, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində daxili və xarici siyasətə, iqtisadi potensialın möhkəmlənməsinə, ordu quruculuğuna, regionların sosial inkişafının həyata keçirilməsinə, cəmiyyətimizin müasirləşdirilməsi istiqamətində önəmli nailiyyətlərə, ictimai-siyasi həyatın digər sahələrinə dair nitqləri, çıxışları, tövsiyələri öz əksini tapmışdır.

Kitabda dövlət başçısının Rusiya, Latviya və İsveçrəyə rəsmi və işgüzar səfərləri, həmçinin ölkəmizə səfərə gəlmiş İsveçrə prezidenti Mişelin Kalmi-Re və Avropa Komissiyasının sədri Xose Manuel Barrozu ilə ölkələrimiz arasında çoxşaxəli əlaqələrin inkişafından, enerji və qeyri-neft sektoruna aid bağlanan müqavilələrdən, eyni zamanda, beynəlxalq əməkdaşlığın daha da möhkəmləndirilməsi və genişləndirilməsindən bəhs olunur.

Bu cilddə, həmçinin Prezidentin ölkəmizə səfərə gəlmiş bir sıra beynəlxalq təşkilatların nümayəndələri, mədəniyyət və din xadimləri ilə görüşləri, xarici ölkələrin televiziya kanallarına verdiyi müsahibələri də yer almışdır.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07)– 2017}}$ **ББК - 32**

© Azərnəşr, 2017

## PAYTAXTDA YENİ İNŞA OLUNMUŞ BİR SIRA YOL-NƏQLİYYAT KOMPLEKSİ OBYEKTLƏRİNİN AÇILIŞI MƏRASİMİ

*29 dekabr 2010-cu il*

*Dekabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev paytaxtın müxtəlif yerlərində yeni inşa olunmuş bir sıra yol-nəqliyyat kompleksi obyektlərinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Fətəli Xan Xoyski prospekti ilə Koroğlu Rəhimov küçəsinin kəsişməsində yerləşən yol qovşağı və tunelin açılışına gəldi.*

*İnşaatçılar prezident İlham Əliyevi hərarətlə qarşıladılar.*

*Nəqliyyat naziri Ziya Məmmədov dövlətimizin başçısına qovşağın texniki göstəriciləri barədə məlumat verdi. Bildirildi ki, tikintisinə 2010-cu ilin martında başlanılan tunel tipli yol qovşağı Nəqliyyat Nazirliyi «Azəryolservis» ASC-nin sifarişi ilə inşa olunmuşdur. Avtomobil tuneli Fətəli Xan Xoyski prospekti ilə Koroğlu Rəhimov küçəsinin kəsişməsində nəqliyyatın hərəkətinin tənzimlənməsi, avtomobil tıxaclarının qarşısının alınması və piyadaların təhlükəsizliyinin təmin edilməsi baxımından əhəmiyyətlidir. Prezident İlham Əliyev tunelin inşa olunduğu ərazinin əvvəlki və tikintidən sonrakı vəziyyətini əks etdirən fotostendə baxdı.*

*Prezident İlham Əliyev yol qovşağı və tunelin açılışını bildirən lenti kəsdi və inşaatçıları təbrik etdi.*

**İlham Əliyev:** Bu tunelin açılışı münasibətilə sizə təşəkkürümü bildirirəm. Qısa müddət ərzində gözəl iş görmüsünüz. Bir ildən az müddətdə belə gözəl körpü-tunel tikilib və bu ərazidə nəqliyyatın hərəkətinin tənzimlənməsi üçün bunun çox böyük əhəmiyyəti vardır. Ancaq bu, işin bir

hissəsidir, ondan sonra da işlər həyata keçiriləcək və beləliklə, bütün bu zona artıq nəqliyyat baxımından ən yüksək standartlara cavab verəcəkdir. Əsas bu işlərdə keyfiyyət və əlbəttə ki, sürətdir. Hər iki məsələ burada həll olunub. Əminəm ki, burada bütün başqa işlər də eyni sürətlə və keyfiyyətlə görüləcəkdir.

Sizi qarşıdan gələn bayramlar münasibətilə ürəkdən təbrik edirəm, sizə yeni uğurlar arzulayıram.

*Dövlətimizin başçısı tunelin üst hissəsindən keçən yol qovşağına baxdı. Məlumat verildi ki, Fətəli Xan Xoyski prospektindən metronun «Nəriman Nərimanov» stansiyası və əks istiqamətdə hərəkət edən sürücülər tuneldən, Koroğlu Rəhimov küçəsinə çıxmaq istəyənlər isə üst hissədən istifadə edə bilərlər. Bundan əlavə, Koroğlu Rəhimov küçəsindən gələn nəqliyyat vasitələri köməkçi yoldan istifadə etməklə metronun «Nəriman Nərimanov» stansiyası istiqamətində hərəkət edə, həmçinin tunelin üstündən əks istiqamətə dönmə əməliyyatı apara bilərlər.*

*Prezident İlham Əliyev yol qovşağı və tunelin tikintisi ilə bağlı görülən işlərdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.*

* * *

*Sonra prezident İlham Əliyev paytaxtın Nərimanov rayonunda Koroğlu Rəhimov küçəsi ilə Təbriz küçəsinin kəsişməsində yerləşən avtomobil tunelinin açılışında iştirak etdi.*

*İnşaatçılar dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Nəqliyyat naziri Ziya Məmmədov prezident İlham Əliyevə məlumat verdi ki, tikintisinə 2010-cu ilin aprelində başlanılan tunel Koroğlu Rəhimov və Təbriz küçələri istiqamətində hərəkətin işıqforsuz tənzimlənməsinə xidmət edir. Bu isə öz növbəsində həmin yol kəsişməsində avtomobil tıxacının qarşısını alır. Tunel yerləşdiyi ərazinin ümumi görünüşü ilə uzlaşdırılmışdır. Tunelin içərisində və üstündə quraşdırılan işıq di-*

*rəkləri yolötürücünün həm gözəl görünüşünə, həm də hərəkətin tənzimlənməsinə imkan yaradır.*

*Prezident İlham Əliyev Heydər Əliyev prospekti, Koroğlu Rəhimov küçəsi və Xətai prospekti arasında avtomobillərin sərbəst və təhlükəsiz hərəkətinin təmin olunması üçün təklif edilən yeni yolun planına, həmin ərazidə tikintisi başa çatmaq üzrə olan və inşası nəzərdə tutulan yolların sxeminə baxdı, tapşırıq və tövsiyələrini verdi.*

*Dövlətimizin başçısı tunelin açılışını bildirən lenti kəsdi.*

* * *

*Prezident İlham Əliyev paytaxtın Xətai rayonunda avtomobillərin və piyadaların daha sıx olduğu Yusif Səfərov və Mehdi Mehdizadə küçələrinin kəsişməsində yeni inşa olunan tunellərin açılışı mərasimində də iştirak etdi.*

*Nəqliyyat naziri Ziya Məmmədov tunellərin texniki göstəriciləri ilə tanış olan dövlətimizin başçısına məlumat verdi ki, Yusif Səfərov küçəsinin altından keçən piyada keçidi «Tunel-1» ilə Mehdi Mehdizadə küçəsinin altından keçən piyada keçidi «Tunel-2» bir-birinə bitişikdir.*

*Dövlətimizin başçısı inşaatçıları təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Bakının bütün keçidləri memarlıq əsərləridir. Belə də olmalıdır. Bakı dünyanın ən gözəl şəhərlərindən biridir və nəqliyyat infrastrukturu da ən yüksək səviyyədə olmalıdır. Çox şadam ki, bütün bu gözəl işləri Azərbaycan şirkətləri görür. Artıq Azərbaycan şirkətləri nəinki ölkənin nəqliyyat sektorunda, xaricdə də işləyir.

*Prezident İlham Əliyev bir daha paytaxt sakinlərini və inşaatçıları 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik günü və Yeni il bayramı münasibətilə təbrik etdi.*

*Dövlətimizin başçısı açılışı bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, tunellərin örtülü hissəsinin ümumi uzunluğu 136 metrdir. Yusif Səfərov küçəsinin altından keçən piyada keçidinin uzunluğu 76 metr, Mehdi Mehdizadə küçəsinin altından keçən piyada keçidinin uzunluğu*

*isə 50 metrdir. Hər iki tunelin eni 5, hündürlüyü isə 3 metrdir. Keçidlərdə təhlükəsizlik kameraları quraşdırılmışdır. Keçid piyadaların təhlükəsizliyini təmin etməklə yanaşı, paytaxtın bu hissəsinin memarlıq ansamblına da yaraşıq verir.*

*Görülən işləri yüksək qiymətləndirən dövlətimizin başçısı paytaxtda yenidənqurma tədbirləri zamanı keyfiyyətin və müasirliyin başlıca meyar kimi götürülməsinin zəruriliyini vurğuladı.*

* * *

*Daha sonra prezident İlham Əliyev Neftçilər prospekti, 135 ünvanında inşa olunan yeraltı piyada keçidinin açılışında iştirak etdi.*

*Nəqliyyat naziri Ziya Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, yeraltı piyada keçidinin inşasına bu ilin fevralında başlanılmışdır. İşlərin keyfiyyətlə, həm də tez bir zamanda yekunlaşması üçün bütün qüvvələr səfərbər olunmuşdur. Tikintinin gedişində 60-a yaxın işçi çalışmışdır. Yeni yeraltı keçid piyadaların Milli parka və əks istiqamətə təhlükəsiz hərəkətini təmin etmək üçün mühüm rol oynayır.*

*Prezident İlham Əliyev keçidin açılışını bildirən lenti kəsdi.*

* * *

*Həmin gün prezident İlham Əliyev paytaxtın Bülbül prospekti ilə 28 May küçəsinin kəsişməsində əsaslı yenidənqurmadan sonra açılan piyada keçidi ilə tanış oldu.*

*Nəqliyyat naziri Ziya Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, piyadaların və avtomobillərin hərəkətinin sıx olduğu bu ərazidəki keçiddə əsaslı təmir işlərinə cari ilin aprelində başlanılmışdır.*

*Prezident İlham Əliyev yeraltı keçidi gəzdi və görülən işlərlə yaxından tanış oldu.*

* * *

*Prezident İlham Əliyev Yasamal rayonundakı 20 nömrəli orta məktəbin yanında, Mikayıl Müşfiq küçəsi ilə Parlament prospektinin kəsişməsindəki yeraltı piyada keçidinin də açılışında iştirak etdi.*

*İnşaatçılar və mərasim iştirakçıları dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Nəqliyyat naziri Ziya Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, bu piyada keçidinin tikintisi ərazidə nəqliyyatın hərəkətinin tənzimlənməsi, avtomobil tıxaclarının qarşısının alınması və piyadaların təhlükəsizliyinin təmin edilməsi baxımından çox əhəmiyyətlidir. Həmin obyektin tikintisi zamanı ətrafda da əsaslı abadlıq və yaşıllaşdırma tədbirləri həyata keçirilmişdir.*

*Prezident İlham Əliyev mərasim iştirakçılarını əlamətdar hadisə münasibətilə təbrik etdi.*

**S a b i r  M ə m i ş o v** (*əməkdar müəllim*): Bu, yalnız bizim məktəb üçün deyil, ətrafda yaşayan əhali üçün ən böyük hədiyyədir. Çünki övladlarını bu məktəbə yola salan valideynlər narahat qalırdılar ki, görəsən yolu necə keçdilər. Dəfələrlə məktəbə zəng edib maraqlanırdılar, gəlib çatdılarmı? Siz bu intizara son qoydunuz. Sizə həddindən artıq təşəkkür edirik. Ulu öndərimiz Heydər Əliyev Azərbaycanı müstəqil bir dövlət kimi qurdu, onu parçalanmaqdan qorudu. Siz isə Azərbaycanı daha da inkişaf etdirirsiniz. Hər gün respublikamızda yeni-yeni binalar tikilir, yeni-yeni keçidlər açılır. Sizə bir daha təşəkkür edirik.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Sizi qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəylik günü və Yeni il bayramı münasibətilə təbrik edirəm. Sizə, Azərbaycanın bütün müəllimlərinə xoşbəxtlik, cansağlığı arzulayıram. Bu gün Bakı şəhərində çox əlamətdar bir gündür. Bu gün 4 piyada keçidi, 2 tunel açılıb. Bu keçidin, əlbəttə ki, öz xüsusiyyəti, çox böyük önəmi vardır və qeyd etdiyiniz kimi, burada böyük məktəb

yerləşir. Bir neçə il bundan əvvəl bu məktəb də əsaslı təmir edilmişdi və yadımdadır, mən bu məktəbdə vəziyyətlə tanış olmuşdum.

Uşaqlarımız bilikli, savadlı olmalıdırlar, ölkəmiz üçün, gələcəyimiz üçün işləməlidirlər, yaxşı tərbiyə almalıdırlar. Siz bilirsiniz ki, ölkəmizin müxtəlif yerlərində 2 mindən artıq məktəb tikilib, təmir edilib və bu proses davam edir. Çünki hələ təmirə ehtiyacı olan məktəblərin sayı kifayət qədərdir. Hesab edirəm ki, gələn 2-3 il ərzində Azərbaycandakı bütün məktəblər ən yüksək səviyyədə təmir olunub istifadəyə veriləcək və yeniləri tikiləcəkdir. Bir daha sizi bu bayramlar münasibətilə təbrik edirəm, sizə uğurlar arzulayıram.

*Prezident İlham Əliyev keçidin ən müasir standartlara uyğun inşa olunduğunu vurğuladı.*

*Sabir Məmişov 20 nömrəli orta məktəbdə tədrisin yüksək səviyyədə aparıldığını, 12 şagirdin prezident təqaüdçüsü, 3 müəllimin əməkdar müəllim adı daşıdığını və 2 müəllimin isə «Tərəqqi» medalına layiq görüldüyünü söylədi.*

*Sonra prezident İlham Əliyevə yeraltı keçidin digər texniki-iqtisadi göstəriciləri barədə məlumat verildi. Qeyd olundu ki, bu qurğunun uzunluğu ümumilikdə 173, eni 6 və hündürlüyü 3 metrdir.*

*Yeraltı piyada keçidi ilə tanış olan prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.*

## BAKI TİCARƏT LİMANININ YAXINLIĞINDA YENİ PARKIN AÇILIŞI MƏRASİMİ

*29 dekabr 2010-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ailə üzvləri ilə birlikdə dekabrın 29-da Bakı Ticarət Limanının yaxınlığındakı yeni parkın açılışında iştirak etmişdir.*

*Bakı Ticarət Limanının ərazisindəki yeni parkda tikinti işləri Nazirlər Kabinetinin 2010-cu ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında prezident İlham Əliyevin verdiyi tapşırıqlara əsasən həyata keçirilmişdir. Dövlətimizin başçısı həmin iclasda yeni beynəlxalq ticarət limanının inşa olunacağını vurğulayaraq əvvəlki ticarət limanının yerində abadlıq və quruculuq işlərinin aparılması və burada müasir tələblərə cavab verən yeni istirahət guşələrinin yaradılmasının zəruriliyini bildirmişdi. Həyata keçirilən yenidənqurma işləri Dənizkənarı Milli Parkın hər iki istiqamətə uzadılacağını nəzərdə tuturdu. Prezident İlham Əliyevin tapşırıqları qısa vaxt ərzində ən müasir standartlara uyğun şəkildə həyata keçirilmişdir.*

*Prezident İlham Əliyev parkda əhaliyə xidmət göstərəcək istirahət obyektlərinin şəraiti ilə də maraqlandı.*

*Dövlətimizin başçısı və ailə üzvləri yeni istirahət guşəsində yaradılan şəraitlə yaxından tanış oldular.*

*Yeni parkın istifadəyə verilməsi paytaxt sakinlərinə Azərbaycan prezidentinin bayram hədiyyəsi oldu.*

## ƏBÜLFƏZ QARAYEV ADINA 2 SAYLI KLİNİK UŞAQ XƏSTƏXANASININ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*30 dekabr 2010-cu il*

*Dekabrın 30-da Bakıda Əbülfəz Qarayev adına 2 saylı Klinik Uşaq Xəstəxanasının əsaslı təmirdən və yenidənqurmadan sonra açılışı olmuşdur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*Dövlətimizin başçısı xəstəxananın kollektivini təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Bayramınız mübarək olsun! Sizi qarşıdan gələn bütün bayramlar münasibətilə ürəkdən təbrik edirəm. Bu il Azərbaycanda səhiyyə sisteminin təkmilləşməsi sahəsində çox böyük işlər görülüb, 50-yə yaxın səhiyyə müəssisəsi tikilib, ya da təmir olunub. Bu işlər Azərbaycanda geniş vüsət alıbdır və son illər ərzində bu sahədə əsaslı dönüş yaradılmışdır. Yeni il ərəfəsində artıq ikinci xəstəxanadır ki, əsaslı təmirdən sonra açılır. Bir neçə gün bundan əvvəl Cərrahiyyə Mərkəzinin açılışında iştirak etmişəm. Bu gün uşaq xəstəxanasının açılışında iştirak edirəm. Çox şadam ki, bayramlar ərəfəsində biz bu gözəl işləri bir yerdə qeyd edirik. Bilirsiniz ki, bu məsələlərə Azərbaycanda böyük diqqət göstərilir. Bakıda, ölkəmizin bütün bölgələrində müasir diaqnostika, müalicə mərkəzləri, rayon xəstəxanaları, poliklinikalar tikilib və onların hamısı yüksək standartlara cavab verir. Şərait yaxşı olmalıdır, müasir avadanlıqlar olmalıdır və xəstələrə yaxşı tibbi xidmət göstərilməlidir, xüsusilə uşaqlara.

Uşaqlar bizim gələcəyimizdir, həyatımızdır. Azərbaycan vətəndaşları uşaqlıq illərindən sağlam böyüməlidirlər.

Mən bu gözəl hadisə münasibətilə sizi bir daha ürəkdən təbrik etmək istəyirəm, sizə yeni ildə uğurlar, cansağlığı, xoşbəxtlik arzulayıram.

*Sonra dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva xəstəxanada aparılmış yenidənqurma işləri ilə tanış oldular.*

*Səhiyyə naziri Oqtay Şirəliyev məlumat verdi ki, respublikamızda bütün sahələrdə olduğu kimi, səhiyyə sistemində də islahatlar uğurla reallaşdırılır. Ötən illərdə çoxlu sayda tibb müəssisələri tikilib istifadəyə verilmiş, mövcud səhiyyə ocaqları ən müasir standartlara uyğun olaraq yenidən qurulmuşdur.*

*Xəstəxanada aparılmış yenidənqurma işləri ilə tanış olan dövlətimizin başçısı tapşırıq və tövsiyələrini verdi.*

*Prezident İlham Əliyev xəstəxananın əsaslı təmir və yenidənqurmadan sonra açılışı, Dünya Azərbaycanlılarının Həmrəylik günü və Yeni il münasibətilə tibb işçilərini bir daha təbrik etdi.*

## AZƏRBAYCAN DÖVLƏT FİLARMONİYASININ KAMERA VƏ ORQAN MUSİQİSİ ZALININ BİNASININ ƏSASLI TƏMİR VƏ BƏRPA İŞLƏRİNDƏN SONRA AÇILIŞI MƏRASİMİ

*30 dekabr 2010-cu il*

*Dekabrın 30-da Müslim Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının kamera və orqan musiqisi zalının binasının əsaslı təmir və bərpa işlərindən sonra açılışı olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva açılışda iştirak etmişlər.*

*Azərbaycan Dövlət Filarmoniyasının kamera və orqan musiqisi zalının binası Bakıda tikilən memarlıq abidələri sırasında xüsusi yer tutur. Özündə böyük tarix yaşadan və möhtəşəm memarlıq quruluşu ilə paytaxta xüsusi yaraşıq verən bu bina hazırda zəngin Azərbaycan mədəniyyətinin bir parçasıdır.*

*Tarixi araşdırmalar təsdiqləyir ki, XIX əsrin ortalarından Bakıya daha çox alman və isveç əsilli insanlar gəlməyə başlamışlar. Bakıda yaşanan neft bumu ölkəyə xaricdən işçi qüvvəsinin gəlməsi ilə nəticələnir. O dövrdə Bakıda məskunlaşan alman və isveç əsilli insanlar burada dini ibadət üçün bu kilsəni tikmək qərarına gəlirlər. Tarix boyu tolerantlığı ilə nümunə olan xalqımız bu ideyanın həyata keçirilməsində onlara dəstək verib. Beləliklə, 1896-cı ilin martında Bakıda yevangelik-lüteran kilsəsinin təməli qoyulmuş və 1899-cu ildə istifadəyə verilmişdir. 24 yaşlı alman Adolf Eyxlerin memarı olduğu bina o dövrdə Bakının ən nadir arxitektura inciləri sırasına daxil*

*olur. O vaxtlar bu binanın tikintisinə Nobel qardaşları da diqqət göstərir, odur ki, kilsənin istifadəyə verilməsi mərasimində Bakı qubernatoru ilə yanaşı, Emmanuel Nobelin də iştirak etməsi təsadüfi deyildir.*

*1900-cü ildə kilsədə orqan quraşdırılır və elə həmin il burada ilk konsert təşkil olunur. Sovet dönəmində bir çox dini ibadət ocaqları kimi, bu kilsənin də fəaliyyəti dayandırılır, bəzi hallarda bina sökülmək təhlükəsi ilə üzləşir. Sonrakı illərdə bina Nazirlər Kabinetinin qərarı ilə kamera və orqan musiqisi zalı adlandırılaraq Azərbaycan Dövlət Filarmoniyasının tabeliyinə verilir. Keçən dövr ərzində illər bu binada öz izini qoyur. Baxımsızlıq üzündən binanın tavanı, demək olar ki, tamamilə yararsız vəziyyətə düşmüşdü.*

*Prezident İlham Əliyevin təşəbbüsü ilə 2010-cu ildə binada əsaslı təmir və bərpa işlərinin aparılmasına başlanılmışdır. Mədəni dəyərlərə xüsusi diqqət və qayğı ilə yanaşan dövlətimizin başçısı Azərbaycan Dövlət Filarmoniyasının kamera və orqan musiqisi zalının da təmiri və bərpası haqqında imzaladığı sərəncama əsasən prezidentin ehtiyat fondundan 1 milyon manat vəsait ayrılmışdır. Bir neçə ay ərzində burada aparılan işlər bu tarixi binanın həyatında mühüm rol oynamışdır.*

*Azərbaycan Dövlət Filarmoniyasının direktoru Murad Adıgözəlzadə binada həyata keçirilmiş əsaslı bərpa və yenidənqurma işləri barədə prezident İlham Əliyevə məlumat verərək bildirdi ki, uzun illər burada müxtəlif mədəniyyət tədbirləri keçirilmişdir. Bu tarixi bina bir çox möhtəşəm konsertlərə ev sahibliyi etmişdir.*

*Dövlətimizin başçısı və xanımı binada yaradılmış şəraitlə maraqlandılar.*

*Qeyd olundu ki, Azərbaycan mütəxəssisləri əsaslı təmir və bərpa işlərini binanın özünəməxsus orijinal üslubunu, qədim tarixi memarlığını qorumaqla həyata keçirmişlər.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva binanın təmirdən əvvəlki vəziyyətini əks etdirən şəkillərə baxdılar.*

*Dövlətimizin başçısı binada görülmüş işlərdən razılığını bildirdi.*

## DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli xanımlar və cənablar!

Əziz həmvətənlər!

Mən sizin hamınızı Yeni il bayramı münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Artıq arxada qalan 2010-cu il ölkəmiz üçün uğurlu il olmuşdur. Baxmayaraq ki, bu il də dünyada iqtisadi və maliyyə böhranı hələ də davam edir, Azərbaycan 2010-cu ildə böyük uğurlara nail olmuş, iqtisadiyyatımız artmış, bütün sosial proqramlar, infrastruktur layihələri icra olunmuş, bir sözlə, ölkə qarşısında duran bütün vəzifələr şərəflə yerinə yetirilmişdir. İqtisadiyyatımız təxminən 5 faiz, əhalinin pul gəlirləri 12 faiz artmış, inflyasiya cəmi 5,7 faiz təşkil etmişdir. Ölkəmizə 15 milyard dollar sərmayə qoyulmuşdur. Valyuta ehtiyatlarımız 20 milyard dollardan 29 milyard dollara qalxmışdır. Bu nəticələr onu göstərir ki, Azərbaycanın seçdiyi yol tərəqqi və inkişaf yoludur.

2010-cu ildə sosial sahədə böyük işlər görülmüşdür. 45 səhiyyə müəssisəsi, 70-dən çox məktəb tikilmiş və təmir edilmişdir, 5 Olimpiya İdman Mərkəzi tikilmişdir. Minimum əməkhaqqı və pensiyanın baza hissəsi qaldırılmış, ünvanlı sosial yardım proqramı uğurla icra edilmişdir. Bu onu göstərir ki, bizim siyasətimiz sosialyönümlü siyasətdir. Biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq və iqtisadiyyatımız tam şəkildə bazar iqtisadiyyatı prinsipləri üzərində qurulubdur. Güclü sosial siyasət bizim əsas vəzifəmizdir.

2010-cu ildə ölkəmizdə siyasi proseslər müsbət istiqamətdə inkişaf etmişdir. Azərbaycanda demokratiyanın inkişafı yolunda böyük və uğurlu addımlar atılmışdır. 2010-cu ildə Azərbaycanda parlament seçkiləri şəffaf, ədalətli şəkildə keçirilmişdir. Azərbaycan xalqının iradəsi parlament seçkilərinin nəticələrində tam şəkildə öz əksini tapmışdır. Bu onu göstərir ki, Azərbaycan nəinki iqtisadi sahədə, eyni zamanda, siyasi islahatların aparılması işində də çox uğurla inkişaf edir. Bu bizə imkan verir ki, ölkəmiz hərtərəfli inkişaf etsin, müasir dövlətə çevrilsin. Bu istiqamətdə atılmış addımlar bizi ruhlandırır.

Xarici siyasət sahəsində 2010-cu ildə böyük uğurlara nail olduq. Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin sayı artır. Biz həm ikitərəfli müstəvidə, həm regional formatda, həm çoxtərəfli formatda uğurlu xarici siyasət aparırıq. Beynəlxalq təşkilatlarla əlaqələrimiz artıq oturuşmuş əlaqələrdir, qarşılıqlı hörmət, qarşılıqlı inam, qarşılıqlı maraqlar üzərində qurulmuş münasibətlərdir.

2010-cu ildə Avropa parlamenti Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair çox əhəmiyyətli və ədalətli qətnamə qəbul etmişdir. Beləliklə, münaqişənin həlli ilə bağlı gedən işlərdə bizim siyasi və diplomatik mövqelərimiz daha da möhkəmləndirilmişdir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün ən başlıca vəzifədir, ən böyük problemdir. Çalışırıq ki, məsələni sülh yolu ilə, danışıqlar yolu ilə həll edək. Azərbaycan öz tərəfindən bütün səyləri göstərir ki, bu məsələ tezliklə həll olunsun. Beynəlxalq birlik tərəfindən tanınmış ərazi bütövlüyümüz bərpa olunsun. Azərbaycan heç vaxt bu vəziyyətlə barışmayacaq, heç vaxt bizim əzəli torpağımız olan Dağlıq Qarabağda ikinci erməni dövlətinin yaradılmasına icazə verməyəcəkdir. Biz hamımız yaxşı bilirik ki, bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaradılıbdır. İrəvan xanlığı, Zəngəzur mahalı, digər bölgələr bizim tarixi torpaqlarımızdır. İkinci erməni dövlətinin Azərbaycan torpağında yaradılmasına Azərbaycan dövləti və Azərbaycan

xalqı heç vaxt icazə verməyəcəkdir. Bu münaqişə yalnız beynəlxalq hüquq normaları əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Dağlıq Qarabağda yaşayan azərbaycanlılar və ermənilər orada muxtariyyət statusu çərçivəsində yaşayacaqlar və bu, məsələnin həlli üçün yeganə variantdır.

2010-cu ildə ölkəmizdə böyük infrastruktur layihələri icra edilmişdir. Nəqliyyat sektorunda, inşaat sektorunda, elektrik enerjisi güclərinin yaradılması işində önəmli addımlar atılmışdır. 2010-cu ildə Bakıda böyük Gəmiqayırma zavodunun və Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi başlanmışdır. Bu layihələr bölgədə gedən əməkdaşlıq proseslərinə çox güclü təkan verəcək, Azərbaycanın qeyri-neft sektorunun inkişafına çox müsbət təsir göstərəcək və ölkəmizin inkişafına xidmət edəcəkdir. Bu layihələr böyük maliyyə vəsaiti tələb edən layihələrdir. Ancaq iqtisadi vəziyyətimiz imkan verir ki, biz bu layihələri öz gücümüzlə, öz pulumuzla icra edək.

2010-cu ildə Oğuz–Qəbələ–Bakı su kəmərinin tikintisi başa çatmışdır. Bu, ölkəmiz üçün tarixi hadisədir. Yeni böyük su kəməri Bakını təmiz, keyfiyyətli içməli su ilə təmin edəcək və demək olar ki, Bakının əsas problemlərindən biri olan su təchizatının yaxşılaşdırılmasına böyük töhfə verəcəkdir. Bu tarixi layihənin həyata keçirilməsi Azərbaycan dövlətinin böyük uğurudur və bir daha onu göstərir ki, bizim siyasətimiz insanların yaşayış səviyyəsinin qaldırılmasına, rifah halının yaxşılaşdırılmasına yönəldilibdir.

Bildiyiniz kimi, 2010-cu il Azərbaycanda «Ekologiya ili» elan edilmişdir. Bu, şüar naminə atılmış addım deyil, biz 2010-cu ildə ekoloji məsələlərin həlli ilə çox ciddi məşğul olduq. Bundan sonrakı illərdə də bu məsələ daim diqqət mərkəzində olacaqdır. Təkcə bir il ərzində görülmüş işlər və irəli sürülmüş təşəbbüs nəticəsində Azərbaycanda 6 milyondan çox ağac əkilmişdir. Bu, tarixdə misli görünməmiş bir nəticədir. Biz ilin əvvəlində qarşıya məqsəd qoymuşduq ki, 3 milyon ağac əkilsin. Ancaq 6 milyon ağacın əkilməsi onu göstərir ki, hər bir

bölgədə, hər bir kənddə insanlar bizim təşəbbüsümüzə qoşularaq Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılmasına öz töhfələrini vermişlər.

Əhalini, xüsusilə çaylar boyu yerləşən kəndlərdə yaşayan insanları içməli su ilə təmin etmək üçün təmizləyici qurğular tikilmişdir. Artıq o çaylar boyu yerləşən kəndlərdə yaşayan 300 min Azərbaycan vətəndaşı təmiz, Dünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su ilə təchiz edilir.

2010-cu ildə iqtisadiyyatımızın aparıcı sahəsi olan neft-qaz sektorunda da böyük uğurlar əldə edilmişdir. Ölkəmizdə 51 milyon ton neft, 27 milyard kubmetr qaz hasil edilmişdir. Biz dünyanın enerji təhlükəsizliyi məsələlərinin həlli üçün öz töhfəmizi veririk. Azərbaycan çox etibarlı tərəfdaşdır və bizim neft-qaz resurslarımız ölkəmizi, ölkə iqtisadiyyatını gücləndirir, beynəlxalq mövqelərimizi də gücləndirir. 2010-cu ildə Azərbaycanda böyük qaz yatağı kəşf edilmişdir. «Ümid» yatağı Azərbaycan neftçiləri tərəfindən kəşf edilmişdir və bu yataq bizim enerji potensialımıza böyük dəstək verəcəkdir. Artıq yatağın aşkarlanması dünyada böyük səs salıb və Azərbaycanın enerji potensialının dünya bazarlarına təqdim edilməsi üçün bu hadisənin böyük əhəmiyyəti olacaqdır.

Əziz dostlar, bu gün Dünya Azərbaycanlılarının Həmrəylik günüdür. Mən dünyada yaşayan bütün soydaşlarımızı bu bayram münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Onlar bilməlidirlər və bilirlər ki, onların arxasında güclü, qüdrətli, müasir, azad Azərbaycan dövləti dayanır. Azərbaycan onların dayağıdır, onların arxasıdır. Onlar da yaşadıqları ölkələrdə Azərbaycanı təmsil edirlər və ölkəmizin maraqlarının təmin edilməsinə gündəlik fəaliyyətləri ilə öz töhfələrini verirlər. Dünyada yaşayan bütün azərbaycanlılar bilirlər ki, Azərbaycan dövləti daim onlarla birlikdədir, onların fəaliyyətini izləyir, onların qayğıları ilə yaşayır. Dünyada mövcud olan Azərbaycan diaspor təşkilatları da öz səmərəli fəaliyyətləri ilə bizim gücümüzü artırırlar.

Əziz dostlar, 2010-cu ildə ölkəmizdə, ölkəmizin paytaxtında çox əlamətdar hadisə baş vermişdir. Bakıda Dövlət Bayrağı Meydanı yaradılmışdır və dünyanın ən böyük, ən hündür bayrağı Bakıda ucaldılmışdır. Bizim bayrağımız milli rəmzimizdir, dövlət rəmzimizdir, qürur mənbəyimizdir. Bizim bayrağımız bu gün işğal edilmiş torpaqlarda qaldırılmalıdır və qaldırılacaqdır. Şuşada, Xankəndidə bizim milli bayrağımız dalğalanmalıdır və dalğalanacaqdır. Bu günü biz hamımız yaxınlaşdırmalıyıq, bu günə biz hamımız nail olacağıq. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək və Azərbaycan dövləti bundan sonra da ancaq və ancaq inkişaf və tərəqqi yolu ilə gedəcəkdir.

Bir daha sizi bu gözəl bayramlar münasibətilə ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, xoşbəxtlik, ailə səadəti arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 dekabr 2010-cu il*

## AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Müqəddəs Milad bayramı münasibətilə sizi və Azərbaycanın bütün xristian icmasını ürəkdən təbrik edir, bu əziz gündə hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Azərbaycanda ayrı-ayrı mədəniyyətlərin daşıyıcıları olan xalqlar və etnik azlıqlar həmişə sülh və əmin-amanlıq içində yaşamış, səmavi dinlər əsrlər boyu qarşılıqlı hörmət və etimad şəraitində fəaliyyət göstərmişlər. Biz mütərəqqi milli-tarixi ənənələr üzərində bərqərar olmuş müasir cəmiyyətimizdə hökm sürən tolerantlığı, ictimai-siyasi sabitliyi, vətəndaş həmrəyliyini Azərbaycan dövlətçiliyinin misilsiz nailiyyəti kimi qiymətləndirir və haqlı olaraq bununla fəxr edirik. Ölkəmizdə etnik-mədəni müxtəlifliyin qorunub saxlanmasına və daha da inkişaf etdirilməsinə bundan sonra da daimi diqqət və qayğı göstəriləcəkdir.

Əziz həmvətənlər!

İsa peyğəmbərin mübarək mövludu ilə əlamətdar olan Milad bayramı özündə yeniliyi, əmin-amanlığı, mərhəmət və şəfqət duyğularını təcəssüm etdirir. Qoy bu nurlu bayram ailələrinizə xoşbəxtlik, süfrələrinizə bərəkət, həyatınıza firavanlıq gətirsin.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *5 yanvar 2011-ci il*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA**

Hörmətli cənab Prezident!

Urmiyə şəhəri yaxınlığında baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün İran xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 yanvar 2011-ci il*

## HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ XANIM PRATİBHA DEVİSİNQH PATİLƏ

Hörmətli xanım Prezident!

Hindistan Respublikasının milli bayramı – Respublika günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Hindistan arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı, əlaqələrimizin daim genişlənməsi bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Hindistan xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 yanvar 2011-ci il*

**AVSTRALİYA İTTİFAQININ GENERAL-QUBERNATORU XANIM KVENTİN BRAYSA**

Hörmətli xanım General-qubernator!

Ölkənizin milli bayramı – Avstraliya günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Avstraliya arasında yaranmış dostluq münasibətlərinin möhkəmləndirilməsi yolunda səylərimiz əməkdaşlığımızın inkişafı üçün yeni imkanlar açacaqdır.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Avstraliya xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *12 yanvar 2011-ci il*

# İRANIN NEFT NAZİRİ SEYİD MƏSUD MİRKAZİMİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 yanvar 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 12-də İran İslam Respublikasının Neft naziri Seyid Məsud Mirkaziminin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*İki ölkə arasında münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini xatırladan prezident İlham Əliyev enerji sektorunda əlaqələrin böyük tarixinin olduğunu dedi. Dövlətimizin başçısı əməkdaşlığın yeni sahələrinin müəyyən edilməsinin önəmini vurğulayaraq, hazırkı mərhələdə enerji sahəsində də əməkdaşlığın yeni imkanlarını araşdırmağın zəruriliyini söylədi və bunun üçün yaxşı potensialın olduğunu bildirdi. Prezident İlham Əliyev enerji sahəsində əlaqələrin genişləndirilməsi ilə bağlı yüksək səviyyədə fikir mübadiləsinin aparıldığını və razılaşdırılmış məsələlərin həyata keçirilməsinin vacibliyini vurğuladı.*

*Seyid Məsud Mirkazimi İran prezidenti Mahmud Əhmədinejadın səmimi salamlarını dövlətimizin başçısına çatdırdı. İkitərəfli münasibətlərin, xüsusilə enerji sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi ilə bağlı ötən il dövlət başçılarının imzaladığı sənədin əhəmiyyətinə toxunan nazir Bakıya səfəri zamanı bu məsələ ilə bağlı müzakirələrin davam etdiriləcəyini dedi.*

*Dövlətimizin başçısı İran prezidenti Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirdi və özünün də səmimi salamlarını İranın dövlət başçısına çatdırmağı xahiş etdi.*

## BOSNİYA VƏ HERSEQOVİNANIN XARİCİ İŞLƏR NAZİRİ SVEN ALKALAYIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 yanvar 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 12-də Bosniya və Herseqovinanın Xarici İşlər naziri Sven Alkalayın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Bosniya və Herseqovinanın Xarici İşlər naziri Sven Alkalayın ölkəmizə ilk səfərinin qarşılıqlı əlaqələrin inkişafı baxımından önəmli olduğunu vurğulayaraq, bu səfərin uğurlu olacağına və əlaqələrimizin inkişaf etdirilməsi üçün yaxşı imkanlar yaradacağına əminliyini bildirdi. İkitərəfli münasibətləri genişləndirməyin zəruriliyini vurğulayan dövlətimizin başçısı bu əlaqələrin inkişaf etdirilməsində Azərbaycanın maraqlı olduğunu dedi. Prezident İlham Əliyev Azərbaycan ilə Bosniya və Herseqovinanın dost ölkələr olduğunu, iki ölkə arasında iqtisadi əlaqələrin inkişafı üçün də yaxşı imkanlar yarandığını bildirdi.*

*Ölkəmizə ilk dəfə gəldiyini deyən Bosniya və Herseqovinanın Xarici İşlər naziri Sven Alkalay bu səfərin ikitərəfli əlaqələrin inkişafına xidmət edəcəyinə ümidvar olduğunu söylədi. O, Azərbaycan ilə Bosniya və Herseqovina arasında əlaqələri təkcə ikitərəfli müstəvidə deyil, eləcə də ölkələrimizin üzv olduğu beynəlxalq təşkilatlar çərçivəsində inkişaf etdirməyin vacibliyini bildirdi. İki ölkə arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu bildirən nazir ikitərəfli münasibətlərin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini vurğuladı.*

## «EURONEWS» TELEKANALININ MÜŞAHİDƏ ŞURASININ SƏDRİ PYER LUİCİ MALEZA VƏ TELEKANALIN BAŞ İCRAÇI DİREKTORU FİLİP KAYLAN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 yanvar 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də «Euronews» telekanalının Müşahidə Şurasının sədri Pyer Luici Malezanı və telekanalın Baş icraçı direktoru Filip Kaylanı qəbul etmişdir.*

*Görüşdə «Euronews» telekanalı ilə Azərbaycanın müvafiq qurumları arasında əlaqələrin müxtəlif sahələri ilə bağlı fikir mübadiləsi aparıldı, informasiya sahəsində beynəlxalq əməkdaşlığın əhəmiyyətinə toxunularaq, müasir dövrdə informasiya mübadiləsinin önəmi vurğulandı.*

## AVROPA KOMİSSİYASININ SƏDRİ XOSE MANUEL BARROZU İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı*

*13 yanvar 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə rəsmi səfərdə olan Avropa Komissiyasının sədri Xose Manuel Barrozunu qarşıladı.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyevin və Avropa Komissiyasının sədri Xose Manuel Barrozunun təkbətək görüşü oldu.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, enerji sahəsində əməkdaşlığın yaxşı potensialının olduğu vurğulandı. Əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

*Söhbət zamanı Azərbaycan–Avropa İttifaqı əlaqələrinin hazırkı vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## AVROPA KOMİSSİYASININ SƏDRİ XOSE MANUEL BARROZU İLƏ GENIŞ TƏRKİBDƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 yanvar 2011-ci il*

*Yanvarın 13-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Avropa Komissiyasının sədri Xose Manuel Barrozunun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Cənab Sədr, bir daha xoş gəlmisiniz! Sizi və nümayəndə heyətinizi burada salamlayıram. Sizi Azərbaycanda qəbul etməyimdən çox məmnunam. Qeyd etdiyimiz kimi, sizin səfərinizi gözləyirdik. Çox şadam ki, bu ili belə bir mühüm səfərlə başlayırıq və bu, münasibətlərimizin səviyyəsinin və keçmişdə apardığımız əməkdaşlığın göstəricisidir. Əminəm ki, bu səfər Avropa təsisatları ilə Azərbaycan arasında münasibətlərin inkişafında mühüm rol oynayacaqdır. Münasibətlərimizin artıq yaxşı tarixi və səmərəli gələcək perspektivləri vardır. İkitərəfli gündəliyimiz çox genişdir və bu gün ətraflı şəkildə müzakirə etdiyimiz bir çox sahələri əhatə edir. Səmimi müzakirələrə və açıq söhbətə görə çox minnətdaram. Bu çox faydalı və səmərəli oldu. Əminəm ki, bu ilin yaxşı başlanğıcı bütün məqsədlərimizin həyata keçirilməsinə zəmin yaradacaqdır. Bu baxımdan enerji təhlükəsizliyi, siyasi və iqtisadi islahatlar kimi məsələlər nəzərdə tutulubdur. Bildiyiniz kimi, Azərbaycanın Avropa İttifaqına üzv olan dövlətlərlə çox yaxşı münasibətləri vardır. Hesab edirik ki, bu səfər münasibətlərimizi irəliyə doğru aparacaq və gələcəkdə

biz bir çox müsbət nəticələrin şahidi olacağıq. Bir daha Azərbaycana xoş gəlmisiniz!

**X o s e  M a n u e l  B a r r o z u:** Cənab Prezident, Bakıda olmağımdan çox məmnunam. Sizin xeyirxah dəvətinizi məmnunluqla qəbul etdim. Fikrimcə, bu səfər Azərbaycanla Avropa İttifaqı arasında yüksək səviyyədə olan münasibətlərin daha da genişləndirilməsi üçün fürsətdir. Azərbaycan bizim regiondakı etibarlı tərəfdaşımızdır. Biz bunu əvvəllər də bəyan etmişdik, indi isə bir daha bunu əyani şəkildə görürük. 2008-ci ildə ölkənizdə nümayəndəliyimizi, indi isə səfirliyimizi açmışıq. Azərbaycanın iqtisadiyyatı yüksək sürətlə inkişaf edir, artım tempiniz çox yüksəkdir. Deyərdim ki, bu, dünyada ən yüksək tempdir. Bilirəm ki, cəmiyyətiniz də çox dinamik cəmiyyətdir. Mən bunu alqışlayıram.

Azərbaycanın beynəlxalq məsələlərdə, xüsusən də terrorçuluğa qarşı mübarizədə oynadığı mühüm rolu yüksək dəyərləndirirəm. Azərbaycan müəyyən ölkələrdə davam edən münaqişələrin qarşısının alınmasına da öz töhfəsini verir. Sizin bu məsələlərdə tutduğunuz mövqe xüsusi əhəmiyyət kəsb edir.

Təbii ki, enerji münasibətlərimizin təməl daşıdır. Biz bu məsələləri də müzakirə edəcəyik. Lakin aydın şəkildə onu da bəyan etmək istəyirik ki, münasibətlərimiz təkcə neft və qaz sahəsi ilə məhdudlaşmır. Biz ümumi maraq doğuran məsələlərə əsaslanan daha geniş münasibətlər qurmaq əzmindəyik.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*13 yanvar 2011-ci il*

*Yanvarın 13-də geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan–Avropa İttifaqı sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Xose Manuel Barrozu «Cənub qaz dəhlizi haqqında Birgə Bəyannamə»ni imzaladılar.*

*«Azərbaycan Respublikası və Avropa Komissiyası arasında 2011–2013-cü illər üzrə Milli İndikativ Proqrama dair Anlaşma Memorandumu»nu, «Azərbaycan Respublikası və Avropa Komissiyası arasında hərtərəfli institusional quruculuq proqramının çərçivə sənədi üzrə Anlaşma Memorandumu»nu Azərbaycanın Avropa İttifaqı yanında daimi nümayəndəliyinin rəhbəri Emin Eyyubov və Avropa Komissiyasının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Roland Kobia imzaladılar.*

# AVROPA KOMİSSİYASININ SƏDRİ XOSE MANUEL BARROZU İLƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*13 yanvar 2011-ci il*

*Yanvarın 13-də sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan prezidenti İlham Əliyevin və Avropa Komissiyasının sədri Xose Manuel Barrozunun mətbuat konfransı olmuşdur.*

*Prezident İlham Əliyev və Xose Manuel Barrozu əvvəlcə bəyanatlarla çıxış etmişlər.*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Sədr!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən Avropa Komissiyasının sədri cənab Barrozunu bir daha burada salamlamaq istəyirəm. Dəvətimizi qəbul edib 2011-ci ilin əvvəlində ölkəmizə səfər etdiyinizə görə minnətdarlığımızı bildiririk. Bu, ilin çox yaxşı başlanğıcıdır və hesab edirik ki, Avropa təsisatları ilə Azərbaycan arasında olan münasibətlərin çox gözəl göstəricisidir. Bu münasibətlərin çox yaxşı tarixi var. Müstəqilliyimizin ilk günlərindən biz Avropa İttifaqının dəstəyini hiss etmişik və indi də hiss edirik.

Avropa Komissiyası sədrinin səfəri tərəfdaşlığımızın bugünkü səviyyəsinin göstəricisidir və təbii ki, bu səfər bizim münasibətlərimizin gələcək inkişafına yönəlibdir. Biz bu münasibətləri çox yüksək dəyərləndiririk. Uzun illərdir ki, müxtəlif formatlarda ümumi nəticələri əldə etmək üçün birgə çalışırıq. Hazırda Azərbaycanın da üzvü olduğu «Şərq Tərəfdaşlığı» proqramı var. Bu da bizim əməkdaşlığımız üçün yeni

üfüqlər açır. Bizim ikitərəfli münasibətlərimizə aid geniş gündəliyimiz mövcuddur və burada bir çox sahələr əhatə olunmuşdur.

Bu gün apardığımız müzakirələr, səmimi və çox mehriban söhbət zamanı biz, demək olar ki, ikitərəfli əlaqələrimizin hər bir aspektini nəzərdən keçirdik. Biz iqtisadi inkişafa, iqtisadi əməkdaşlığa aid olan məsələləri, siyasi islahatları müzakirə etdik, Azərbaycanda aparılan islahatları, demokratikləşmə prosesini nəzərdən keçirdik, regional vəziyyət və təhlükəsizliklə bağlı olan vəziyyət haqqında fikir mübadiləsi etdik. Enerji daşıyıcılarının nəqlinin şaxələndirilməsi məsələlərindən də danışdıq və eyni zamanda, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsini də müzakirə etdik. Bir sözlə, biz gördük ki, hər iki tərəfin ümumi bir istəyi, arzusu vardır ki, bu münasibətlər inkişaf etdirilsin və gələcək illərdə, onilliklərdə tərəfdaşlıq daha da güclənsin.

Söhbətimizin əsas mövzuları arasında enerji sahəsində əməkdaşlıq məsələsi dayanır. Biz elə indicə Cənub qaz dəhlizi haqqında Birgə Bəyannaməyə imza atdıq. Bu da çox-məzmunlu, mühüm bir sənəddir və enerji əməkdaşlığının bütün aspektlərini, Avropa təsisatları ilə Azərbaycan arasında bu sahədə əməkdaşlığı əhatə edir.

Azərbaycan etibarlı tərəfdaşdır və Azərbaycanın neft əməliyyatlarının uzun tarixi var. Sənaye üsulu ilə dənizdə neft hasilatı dünyada ilk dəfə məhz Azərbaycanda baş vermişdir. Müstəqil ölkə olaraq biz öz enerji siyasətimizi XX əsrin 90-cı illərinin ortalarından bu günə qədər aparırıq və bu baxımdan Azərbaycanın siyasəti çox açıq, səmimi, şəffaf olmuşdur. Milyardlarla dollar xarici sərmayə cəlb edə bildik və bu gün müxtəlif marşrutlarımız vardır. Bizim 7 boru kəmərimiz mövcuddur. Bu infrastruktur neft və qaz yataqlarımızdan enerji resurslarımızı müxtəlif istiqamətlərdə nəql etməyə imkan yaradır. Biz çoxlu maliyyə resursları əldə etmişik və bu bizim enerji siyasətimiz nəticəsində mümkün olmuşdur. Bu gün isə biz enerji sahəsində inkişafımızın yeni bir mərhələsindəyik və

Avropa təsisatları ilə münasibətlərimiz bizim üçün çox əhəmiyyətlidir. Enerji təhlükəsizliyi məsələsi, enerji təchizatının şaxələndirilməsi hasilatçılar, istehlakçılar, tranzit ölkələr üçün eyni dərəcədə vacibdir. Zənnimcə, maraqların kombinasiyası və səylərin bir araya yönəldilməsi və bunun bir növ sinxronlaşdırılması bizim planlarımızın uğurla həyata keçirilməsi üçün əsas ilkin şərtdir. Azərbaycan əvvəldən Cənub enerji dəhlizinə dəstək vermişdir. Əslində, bu elə Azərbaycanın başladığı layihəyə yönəlir: Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft və qaz boru kəmərləri – məhz bunlar bu istiqamətdə həyata keçirilən ilk təşəbbüs olmuşdur. Bundan sonra isə biz nəql dəhlizləri üzərində işləməyə başladıq, çünki bilirik ki, bu dəhlizlər bizim prioritetlərimizdən biridir və bu istiqamətdə apardığımız ciddi bir işdir. Zənnimcə, bu gün imzaladığımız Birgə Bəyannamənin yaxşı gələcəyi vardır. Əminəm ki, gələn aylar ərzində biz bir çox mühüm hadisələrin şahidi olacağıq. Enerji tərəfdaşlığı, Avropa İttifaqı, Avropa təsisatları ilə Azərbaycan arasında olan bu əməkdaşlıq uğurla davam edəcəkdir.

Bu gün Azərbaycanda siyasi və iqtisadi islahatlara aid vəziyyəti də müzakirə etdik və bu çox səmimi və dostluq şəraitində keçdi. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsini də müzakirə etdik. Fakt ondan ibarətdir ki, artıq uzun illərdir Azərbaycanın əraziləri Ermənistanın işğalı altındadır. Təbii ki, bu, Azərbaycanda bir çox narahatlıqlar doğurur. Bu, regional təhlükəsizliyə potensial hədədir. Biz beynəlxalq təsisatlara, xüsusən də Avropa parlamentinə çox minnətdarıq ki, ötən il Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə aid qətnamə qəbul etdilər. Bu qətnamə əvvəl qəbul olunmuş qətnamələrə tamamilə uyğundur. BMT-nin, Avropa Şurasının və ATƏT-in qətnamələrinə uyğundur. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə həlli nəinki bizim qaçqın və məcburi köçkünlərimizi öz yerlərinə qaytaracaq, həm də bütün dünya tərəfindən tanınmış

ərazi bütövlüyümüzü bərpa etməyə gətirib çıxaracaq, habelə regiona proqnozlaşdırma, təhlükəsizlik gətirəcəkdir.

İkitərəfli gündəliyimiz çox genişdir. Çox şadam ki, cənab sədri Azərbaycanda qəbul edirəm. 2011-ci il məhz burada, Bakıda belə mühüm səfərlə başlayır. Əminəm ki, belə tərəfdaşlıq ruhu bizim ikitərəfli münasibətlərimizdə həmişə əsas yer tutacaq və gələn aylar ərzində daha çox müsbət nəticələrimiz olacaqdır. Cənab Sədr, ölkəmizə səfər etdiyinizə görə çox sağ olun və mən sizə səfərinizin yaxşı keçməsini arzulayıram.

## Avropa Komissiyasının sədri Xose Manuel Barrozunun bəyanatı

Sağ olun, cənab Prezident! Mən də Sizin xeyirxah dəvətinizi qəbul edib, bu gün burada, Bakıda olmağımdan çox məmnunam.

Görüşümüz çox açıq və səmimi, dostluq, mehribanlıq şəraitində keçdi və biz olduqca strateji əhəmiyyət daşıyan məsələləri müzakirə etdik. Bildiyiniz kimi, bu məsələlər həm Avropa İttifaqı, həm də Azərbaycan üçün əhəmiyyətlidir. Biz Azərbaycan ilə Avropa İttifaqı arasında olan tərəfdaşlığı əhatə etdik və bir meyil kimi, bu tərəfdaşlıq artıq reallıqdır. Mən bizə göstərilmiş səmimi qonaqpərvərliyə görə minnətdaram. Mən sabah da buradayam və hesab edirəm ki, çıxışlarım olacaqdır. Mən Bakı Dövlət Universitetində çıxış edəcəyəm və bilirəm ki, Azərbaycan Xalq Cümhuriyyəti müsəlman dünyasında ilk olaraq bir çox mütərəqqi işlər görmüşdür. Çox sağ olun, mənə belə bir fürsət yaratmısınız ki, səfərimi belə başlayım və eyni zamanda, sabah həmin ali təhsil ocağında çıxış edim.

Avropa İttifaqı prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən islahatları dəstəkləyir. Bu gün Prezident bildirdi ki, o, Avropa İttifaqının «Şərq Tərəfdaşlığı»nda üstün tutulmuş dəyərlərini ölkəsinin inkişafı üçün bir ilhamlandırıcı amil kimi qəbul edir. Bu həm də bizim prinsiplərimizin aliliyini nəzərdə tutur. Biz bunu cənab Prezidentlə müzakirə etdik və bildirdik ki,

demokratiya, qanunun aliliyi, insan hüquqlarına hörmətlə yanaşma – bunlar da bizim münasibətlərimizdə vacib bir məqamdır.

İkitərəfli tərəfdaşlığımıza gəldikdə, yeni Assosiasiya Sazişi mövcuddur ki, bununla bağlı artıq danışıqlar başlanıbdır. Məqsəd strateji əlaqələrimizi daha da dərinləşdirmək və Azərbaycanı Avropa İttifaqının bazarına daha da yaxın etməkdən ibarətdir. Biz vizanın asanlaşdırılması sazişi üzərində də danışıqlara başlayacağıq. Bu da yaxın gələcəkdə baş verəcək, Azərbaycan vətəndaşlarının Avropa İttifaqı ölkələrinə səfərlərini daha da asanlaşdıracaqdır. Bu, olduqca əhəmiyyətli məsələdir ki, insanlar arasında təmaslar daha da sıx olsun. Avropa İttifaqı siyasi və iqtisadi islahatların aparılmasında Azərbaycanı dəstəkləməkdə əzmlidir. Hesab edirik ki, gələn illər ərzində münasibətlərimizdə bu kimi məsələlər də vacib hesab olunacaqdır. Bu baxımdan Azərbaycan öz töhfəsini verir.

Enerji sahəsində əməkdaşlığımız çox yaxşı qurulubdur. Burada, mənim nümayəndə heyətimdə cənab Günter Ottinger də var, o da xüsusi olaraq məhz həmin məsələlərlə məşğuldur. Mən prezident İlham Əliyevlə ikitərəfli dialoq apardım. Azərbaycan bu sahədə Avropa İttifaqının etibarlı tərəfdaşıdır. Biz hesab edirik ki, Azərbaycan həm hasilatçı, həm tranzit ölkə kimi, çox mühüm rol oynayır. Əslində, Azərbaycan şaxələndirmə məsələsinə ilk yol açan bir ölkə rolunu oynayır. Azərbaycan ötən əsrin 90-cı illərinin ortalarında Bakı–Tbilisi–Ceyhan neft kəməri layihəsinin həyata keçirilməsi təşəbbüsü ilə çıxış etmişdi. İndi isə artıq növbə qazındır. Elə buna görə də biz bu gün Cənub qaz dəhlizi ilə bağlı Birgə Bəyannaməni imzaladıq. Bu da Avropa İttifaqının Azərbaycan qazını birbaşa almasına imkan yaradacaqdır. Bu dəhlizin yaradılması bizim müştərək strateji marağımızdan irəli gəlir.

Bizim təhlükəsizliyimiz və enerji təchizatımızın şaxələndirilməsi olduqca vacibdir. Bu həm də tələblə bağlıdır. Azərbaycan istəyir ki, öz ixracını daha da şaxələndirsin və Avropa İttifaqına idxala öz töhfəsini versin. Məhz «Cənub Dəhlizi» sayəsində Azərbaycan çox etibarlı bir çıxış olacaqdır.

Bu da bizim inkişafımız üçün uzunmüddətli perspektiv açır. Çox istəyirik ki, «Şahdəniz» qaz yatağı da yaxın vaxtlarda işlənilsin. Ümidvaram, bu bizə elə bir imkan verəcək ki, Azərbaycanın XXI əsrdə bu sahədə ən ilkin addımlar atan bir ölkə olduğunu bəyan edək.

Xanımlar və cənablar, biz bir çox digər məsələləri də müzakirə etdik, regional vəziyyəti nəzərdən keçirdik. Mən xüsusi olaraq Azərbaycanın bu gün Əfqanıstanda sülhün təmin edilməsində, İraq və Kosovoda oynadığı rolu yüksək dəyərləndirdim və bildirirəm ki, bunu Avropa İttifaqı da çox yüksək dəyərləndirir.

Bu regiona gəldikdə, Dağlıq Qarabağ münaqişəsində irəliləyişin olmaması ilə bağlı öz narahatlığımı yenə də sizinlə bölüşürəm. Mən həm ailələrə, həm də icmalara üzümü tutaraq deyirəm ki, bəli, siz münaqişələrdən çox əziyyət çəkmisiniz. Artıq vaxt çoxdan yetişib ki, bu məsələnin həlli sülh yolu ilə təmin edilsin. Buna görə də ATƏT-in Minsk qrupu öz fəaliyyətini davam etdirməlidir. Avropa İttifaqı da öz səylərini göstərir. Mən fürsətdən istifadə edərək, prezident Əliyevə və sizə demək istəyirəm ki, münaqişədən əziyyət çəkmiş bütün ailələrə və icmalara öz narahatlığımı bildirirəm. Əmin etmək istəyirəm ki, bu baxımdan Avropa İttifaqı öz səylərini davam etdirəcəkdir. Biz ərazi bütövlüyü prinsipini dəstəkləyəcəyik və bu baxımdan istəyirik ki, Azərbaycan Respublikasının ərazi bütövlüyü təmin edilsin. Biz ATƏT-in Minsk qrupu həmsədrlərinin fəaliyyətini də dəstəkləyirik. Çox ümidvar olduğumuzu bildirmək istəyirik ki, tərəflərin razılaşdırdığı hər hansı bir variant ortaya çıxarsa, biz bunu dəstəkləməyə hazır olacağıq və ondan sonra da bərpa işlərini görəcəyik.

Mənə deyirdilər ki, qışın bu vaxtında bəlkə Bakıya səfər etməyim. Dedim ki, Bakıda hava şəraiti tamamilə fərqlidir və buradakı insanlar da çox gözəl və cazibədardır. Yəni belə bir tərəfdaş ölkəni belə bir şəraitdə görəndə, həqiqətən, insanın ürəyi açılır. Mən görürəm, burada nəinki gözəl şərait yaradılıb, həm də ətrafda çox gözəl inkişaf var.

* * *

*Sonra Azərbaycan prezidenti İlham Əliyev və Avropa Komissiyasının sədri Xose Manuel Barrozu jurnalistlərin suallarına cavab verdilər.*

**S u a l («*Der Spiegel» jurnalının müxbiri*): Cənab prezident Əliyev, Cənub qaz dəhlizinin ölkəniz üçün strateji əhəmiyyəti nədən ibarətdir? Cənab Barrozu, bu gün imzalanmış sənəd – bəyannamə bir növ sıçrayışdırmı, irəliləyişdirmi?**

**İ l h a m  Ə l i y e v**: Bildiyiniz kimi, uzun illərdir Azərbaycan fəal surətdə çalışır ki, öz enerji resurslarını dünya bazarlarına çatdırsın. Biz neft hasilatından başladıq və beləliklə, neft kəmərini tikdik. Hazırda bizim şaxələndirilmiş nəqletmə marşrutlarımız var. İndi 3 neft kəməri var ki, bizim neftimizi Qara dənizə və Aralıq dənizinə çıxarır. Təbii ki, neft və qaz məsələsi vacib məsələdir. Əsas məsələ odur ki, biz gərək bazar tapaq. Bu yataqların ehtiyatlarına uyğun bazar müəyyən edilsin. Bu gün artıq bizim təsdiqlənmiş qaz ehtiyatlarımız 2,2 trilyon kubmetr həcmindədir və əminəm ki, potensial ehtiyatlar hətta bundan da artıqdır. Onda bizə nə lazımdır?! Bizə proqnozlaşdırılmış, uzunmüddətli, qanunvericiliklə tənzimlənən rəqabətcil bir bazar lazımdır ki, bacardığımız qədər qaz hasil edə bilək. Buna görə də Cənub qaz dəhlizi bizim üçün strateji əhəmiyyət daşıyır, bu, qaz potensialımızı realizə etməkdə bizə yardımçı olacaqdır.

Biz uzun illər ərzində bu layihələr üzərində işləmişik, çalışmışıq. 1996-cı ildə «Şahdəniz» qaz yatağı haqqında saziş imzalananda bilmirdik ki, oradan nə qədər qaz çıxarılacaq. İndi çox məmnunluq hissi ilə demək istəyirik ki, «Şahdəniz» dünyada ən böyük qaz yataqlarından biridir. İlkin olaraq ehtiyatlar 1,2 trilyon kubmetr deyilmişdi. Amma daha sonra isə biz yeni yataqlar aşkar etdik. Bildiyiniz kimi, ötən ilin sonunda yeni yataq kəşf etdik. Bu, gələn illər üçün nəinki bizim təchizat potensialımızı, həm də proqnozlaşdırma imkanımızı daha da artırır. Hazırda bizim 4 qaz boru kəmərimiz vardır. Biz artıq 3 ölkəyə qaz nəql edirik.

Bugünkü hasilatın həcminə uyğun olaraq, ixracımızın şaxələndirilməsinə bir növ nail olmuşuq. Amma «Şahdəniz-2» əlavə qaz hasilatını təmin edəcəkdir. Təbii ki, yeni kəşf etdiyimiz qaz yataqlarının işlənilməsinə də başlanacaqdır. Ona görə yeni bazarların tapılması, müəyyən edilməsi bizim üçün vacibdir. Bizə həm yaxın bazarlar, həm uzaq bazarlar, artan, inkişaf edən bazarlar lazımdır. İstərdik ki, qaz sahəsindəki əməkdaşlığımız da neft sahəsindəki kimi olsun.

Bu gün nadir vəziyyət yaranıbdır. Çünki istehlakçıların, tranzit ölkələrin və hasilatçıların maraqları bir araya gəlib. Biz güclü tərəfdaşlıq qurmuşuq və bu tərəfdaşlıq yalnız sərbəst elementlərdən təşkil olunarsa, uğura gətirib çıxara bilər. Əminəm ki, bu gün imzalanmış sənədlər uğurla həyata keçiriləcək və Azərbaycan qaz potensialından öz xalqının rifahı, ölkəmizin gələcək inkişafı və Avropadakı dostlarımızın enerji təhlükəsizliyinin təmin edilməsi üçün istifadə edəcəkdir.

**Xose Manuel Barrozu**: Prezident Əliyev bu məsələni o qədər aydın şəkildə təsvir etdi ki, bu şərhə nə isə bir şey əlavə etmək çətindir. Biz bu bəyannamənin imzalanmasını bir təkan kimi qəbul edirik. Çünki bu, sonradan böyük, vacib qərarların qəbul edilməsinə yol açacaqdır. Müştərək maraqlar var, burada hər bir tərəf qazanır, həm Azərbaycan, həm Avropa. Fakt ondan ibarətdir ki, şəxsən mənim özüm burada Avropa İttifaqı adından bunu imzaladım və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də imzaladı. Biz bu Birgə Bəyannaməni imzalamaqla gördük ki, onun məzmunu çox əhəmiyyətlidir, onun olduqca böyük əhəmiyyəti var. Əminəm ki, bunun müəyyən praktik nəticələri yaxın aylarda olacaqdır.

**Sual: Mənim sualım cənab Barrozuyadır. Avropa enerji təhlükəsizliyi çərçivəsində Nabukko, Türkiyə–Yunanıstan–İtaliya, AGRİ kimi layihələr müzakirə edilir. Bu layihələrdən hansı Avropa İttifaqı üçün daha əhəmiyyətlidir?**

**Xose Manuel Barrozu**: Biz Cənub qaz dəhlizini dəstəkləyirik və sonrakı qərarlar kommersiya əsasında qəbul

edilməlidir. Bu baxır həcmə, yəni ondan asılıdır ki, bu Nabukkonun və digər layihənin əlavə dəyəri nədən ibarətdir. Bilməliyik ki, bizim fikrimizcə, hansı layihə daha qəbul-ediləndir. Bu, həmçinin Azərbaycan üçün əhəmiyyətlidir. Cənab Prezident indicə çox aydın şəkildə izah etdi ki, yeni yataqlar kəşf edilibdir. Mən deyərdim ki, Nabukko öz əhəmiyyəti ilə, öz ölçüsü ilə həmin ehtiyatlara daha çox cavab verir. Biz inanırıq ki, «Cənub Dəhlizi»nə artıq siyasi dəstək var. Mən bu layihələri bir-biri ilə ziddiyyət təşkil etməyən layihələr kimi görürəm. Burada kommersiya məsələsi var, yenə də bu həmin o qərarlarla bağlıdır. Biz hamımız bilməliyik ki, bu həmin qərarlar əsasında müəyyən ediləcəkdir. Zənnimcə, onların arasında ən vacib əhəmiyyəti olan Nabukkodur. Bu yaxınlarda belə bir qərar qəbul olunmuşdur ki, müəyyən fondlardan bu layihənin həyata keçirilməsinə maliyyə resursları ayrılsın və ona görə də mən bir müddət əvvəl Türkiyəyə səfər etdim. Bildiyiniz kimi, Nabukko ilə bağlı hökumətlərarası saziş imzalandı. Bu da çox vacib bir addım idi və görürsünüz ki, bizim dəstəyimizin bir rəmzidir. Çox sağ olun.

## BEYNƏLXALQ CÜDO FEDERASİYASININ PREZİDENTİ MARİUS VİZER İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 yanvar 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 14-də Beynəlxalq Cüdo Federasiyasının prezidenti Marius Vizeri qəbul etmişdir.*

*Görüşdə ölkəmizdə idmanın inkişafı ilə bağlı həyata keçi-rilən məqsədyönlü tədbirlərdən söhbət açılmış, idman sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi istiqamətində Azərbaycanın gördüyü işlərdən danışılmışdır.*

*Söhbət zamanı Azərbaycanda ardıcıl olaraq mötəbər bey-nəlxalq idman tədbirlərinin keçirildiyi və bunların yüksək səviyyədə təşkil edildiyi vurğulanmışdır.*

## NAZİRLƏR KABİNETİNİN 2010-cu İLİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ 2011-ci İLDƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA NİTQ*

*14 yanvar 2011-ci il*

Bu gün biz 2010-cu ilin sosial-iqtisadi yekunlarını və 2011-ci ildə ölkəmizin əsas inkişaf istiqamətlərini müzakirə edəcəyik. Bütövlükdə deyə bilərəm ki, 2010-cu il ölkəmizin inkişafı üçün çox əhəmiyyətli il olmuşdur. 2009 və 2010-cu illər tarixdə maliyyə və iqtisadi böhran illəri kimi yadda qalacaq və bu illər bizim üçün də sınaq olmuşdur. Mən çox şadam ki, Azərbaycanda aparılan islahatlar və düzgün iqtisadi siyasət nəticəsində həm 2009-cu ildə, həm 2010-cu ildə ölkə iqtisadiyyatı inkişaf etmişdir. 2009-cu ildə ümumi daxili məhsul 9,3 faiz, keçən il isə iqtisadiyyatımız 5 faiz artmışdır. Əksər ölkələrdə həm 2009-cu, həm də 2010-cu ildə tənəzzül müşahidə olunduğunu nəzərə alsaq, bizim uğurlarımızın əhəmiyyəti daha da artır.

Bu böhranlı illər ərzində biz iqtisadi siyasətimizi inamla aparmışıq. Ölkə qarşısında duran bütün vəzifələr icra edildi, sosial proqramlar öz həllini tapdı. Keçən il minimum əməkhaqqı və pensiyanın baza hissəsi artırıldı. Halbuki Avropanın bir çox ölkələrində əks istiqamətdə proseslər gedirdi, maaşlar, pensiyaların məbləği aşağı düşürdü.

---

* Назирляр Кабинетинин 2010-ъу илин сосиал-игтисади инкишафынын йекунларына вя 2011-ъи илдя гаршыда дуран вязифяляря щяср олунмуш иъласында Игтисади Инкишаф назири Шащин Мустафайев, Milli Банкын İdarə Heyətinin sядри Елман Рцстямов, Мядяниййят вя Туризм назири Ябцлфяс Гарайев вя Эянъляр вя Идман назири Азад Рящимов чыхыш етдиляр.

Əlbəttə ki, bütün bu uğurlarımızın təməlində uzun illər aparılan düşünülmüş iqtisadi siyasət, iqtisadi islahatlar dayanır. Bizim iqtisadiyyatımız çoxşaxəlidir, təkcə bir sektora arxalanmır. Məqsədimiz ondan ibarət idi ki, ölkədə çoxşaxəli iqtisadiyyat yaradaq. Baxmayaraq ki, 2009-cu ildə dünyada neftin qiyməti bir neçə dəfə, demək olar, 4 dəfə düşmüşdü, bizim iqtisadiyyatımız yenə də artmışdır.

Əminəm ki, 2011-ci il də ölkə iqtisadiyyatının inkişafı üçün uğurlu olacaqdır. Bunu deməyə bütün əsaslar var. Keçən ilin yekunlarına nəzər salsaq görərik ki, nəinki iqtisadiyyatımız 5 faiz artmışdır, makroiqtisadi vəziyyət də sabit olaraq qalmışdır. 2009-cu ildə bölgəmizdəki ölkələrdə milli valyutanın dəyəri aşağı salınmışdır, devalvasiyaya uğramışdır. Bizdə isə manat sabit olaraq qalır və beləliklə, biz həm əhalinin sosial müdafiəsinə dəyərli töhfələr vermişik, həm də manatın sabit qalması ölkə iqtisadiyyatı üçün çox vacib bir amildir. Makroiqtisadi sabitlik qorundu, inflyasiya cəmi 5,7 faiz təşkil etmiş, əhalinin pul gəlirləri isə 12,3 faiz artmışdır. Bu onu göstərir ki, gəlirlər inflyasiyanı üstələyir. 2010-cu ilin yekunlarına görə, yoxsulluğun səviyyəsi daha da aşağı düşmüşdür və artıq Azərbaycanda yoxsulluq şəraitində yaşayanlar 9,1 faizdir. Hesab edirəm ki, bu bizim böyük nailiyyətimizdir. 7 il ərzində Azərbaycanda yoxsulluq 4-5 dəfə aşağı düşmüşdür. Bizim apardığımız islahatlar və iqtisadi artım ilk növbədə Azərbaycan vətəndaşlarının rifah halının yaxşılaşdırılmasına yönəldilibdir. Onu da göstərir ki, Azərbaycanda enerji sektorunda görülən işlər nəticəsində ölkə xəzinəsinə daxil olunan vəsait ədalətli bölünür və sosial ədalət prinsipi yüksək səviyyədə tətbiq olunur.

2010-cu ildə ölkə iqtisadiyyatına 15,5 milyard dollar vəsait qoyulmuşdur. Bu da çox böyük rəqəmdir, investisiyaların strukturu da çox ümidverici və müsbətdir. Daxili investisiyalar xarici investisiyaları üstələyir. Artıq birinci il deyil ki, bu belədir. Bu onu göstərir ki, həm dövlət tərəfindən, həm özəl sektor tərəfindən ölkə iqtisadiyyatına böyük məbləğdə

investisiyalar qoyulur. Qeyri-neft sektoruna qoyulan investisiyalar neft sektorundakından çoxdur. 15,5 milyard dollardan 9,3 milyard dolları qeyri-neft sektoruna qoyulan sərmayədir. Bu da bizim siyasətimizin əsas istiqamətidir. Ölkə iqtisadiyyatının neft sektorundan asılılığını azaltmaq üçün əməli-praktiki tədbirlər görülür. Bu da onu göstərir ki, bir neçə il əvvəl bəyan etdiyimiz proqram və konseptual yanaşmamız həyatda öz əksini tapır. Yəni bizim planlarımız həyata keçirilir, nəzərdə tutduğumuz bütün proqramlar reallaşır və dediyim rəqəmlər bunun bariz nümunəsidir. Əminəm ki, bu il də ölkə iqtisadiyyatına böyük məbləğdə investisiyalar qoyulacaqdır. Biz elə etməliyik ki, bu investisiyalar daha da böyük rəqəmlərlə ölçülsün və beləliklə, ölkə iqtisadiyyatı daha da sürətlə inkişaf etsin.

2010-cu ildə bütün sosial proqramlar icra edildi. Qeyd etdiyim kimi, minimum əməkhaqqı və pensiyanın baza hissəsi 75 manatdan 85 manata qaldırıldı. Ünvanlı sosial yardım proqramı icra edilir, bu proqram çərçivəsində 550 min nəfər dövlətdən yardım alır və biz bu siyasəti bundan sonra da davam etdirəcəyik. Çünki hələ də ehtiyac içində yaşayanlar var. Baxmayaraq ki, yoxsulluğun səviyyəsi aşağı düşür, ancaq biz elə etməliyik ki, çətinlik çəkənlər üçün də dövlət öz qayğısını əsirgəməsin.

Sosial infrastrukturun yaradılmasında böyük işlər görülmüşdür. 40-dan çox tibb müəssisəsi, 70-dən çox məktəb tikilmiş, təmir edilmişdir. 5 olimpiya mərkəzi tikilmişdir, mədəniyyət ocaqlarının tikilməsinə və təmirinə vəsait ayrılır. Bir sözlə, ölkə iqtisadiyyatı və ümumiyyətlə, ölkənin inkişafı üçün vacib olan sosial sahə həmişə olduğu kimi, diqqət mərkəzindədir. Bu, 2011-ci ildə də belə olmalıdır və şübhəsiz, investisiya proqramında sosialyönümlü layihələr nəzərdə tutulacaqdır.

Regional inkişaf proqramı icra edilir. Keçən il 70 mindən çox iş yeri açılmışdır, onun 53 mini daimi iş yeridir. Regional inkişaf proqramlarının icrasının başlanmasından, yəni 2004-cü ilin fevralından bu günə qədər ölkəmizdə 900 mindən artıq iş

yeri açılmışdır ki, bu da işsizliyin aradan qaldırılması üçün əsas amildir. İş yerlərinin açılması, yeni müəssisələrin işə salınması nəticəsində ölkə daxilində istehsal olunan malların sayı artır, ixracdan asılılığımız azalır. Biz artıq qeyri-neft ixrac potensialına malikik və öz məhsullarımızı artıq başqa ölkələrdə nümayiş etdiririk. Bu il həmin siyasət daha da sürətlə aparılmalıdır.

Bir sözlə, regionların inkişafı reallıqdır və regionlarda yaradılan müasir infrastruktur – tikilən səhiyyə ocaqları, məktəblər, çəkilən yollar, qaz xətləri, indi böyük su layihələri də həyata keçirilməyə başlanmışdır – dövlət tərəfindən, özəl sektor tərəfindən regionlara qoyulan sərmayədir. 2011-ci ildə də bu proseslər davam etdiriləcəkdir.

Bizim iqtisadiyyatımız üçün əsas olan sektorda – neft-qaz sektorunda keçən il bütün planlar yerinə yetirildi. 51 milyon ton neft hasil edildi ki, onun da böyük hissəsi ixrac olundu. 27 milyard kubmetr qaz hasil edildi. Hesab edirəm ki, bu il qazın hasilatı və ixracı daha da artmalıdır. Keçən il Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən böyük qaz yatağı aşkar edilmişdir. «Ümid» yatağı bizim qaz potensialımıza əlavə həcm gətirir. Təsdiq edilmiş qaz ehtiyatlarımız 2,2 trilyon kubmetrdir. Ümid edirəm ki, bu il və gələn il aparılacaq kəşfiyyat nəticəsində bu rəqəm daha da artacaqdır.

Keçən il nəqliyyat sektoruna böyük investisiyalar qoyulmuşdur. Azərbaycanda bu da artıq ənənəvi mənzərədir. Bu sektor ölkə iqtisadiyyatı üçün çox böyük əhəmiyyət daşıyır. Avtomobil yolları tikilir, yeni təyyarələr alınır. Ələtdə böyük beynəlxalq ticarət limanının təməli qoyulmuşdur, Gəmiqayırma zavodunun tikintisinə başlamışıq. Bunlar böyük sərmayə tələb edən layihələrdir. Ancaq biz bunu edirik və gələcəkdə edəcəyik ki, Azərbaycanda bizim coğrafi vəziyyətimizə uyğun, müasir və güclü nəqliyyat infrastrukturu yaradılsın. Demək olar ki, nəzərdə tutduğumuz layihələr içində əsas layihələr ya reallaşıb, ya da artıq onların icrasına başlanılmışdır. Növbəti illərdə o layihələrin icrası və başa çatdırılması nəticəsində nəqliyyat sek-

torunda bütün məsələləri həll edəcəyik. Magistral, şəhərlərarası yollarda işlər gedir, bəzilərində başa çatıbdır. Dəniz nəqliyyatının inkişafı üçün tankerlər, quru yük gəmiləri alınır. Gələcəkdə Azərbaycanda bu gəmiləri ixrac edəcəyik. Dəmir yolunun inkişafı üçün proqram icra edilir. Hava nəqliyyatını mən qeyd etdim, bizim kifayət qədər müasir təyyarə parkımız var və bu park ancaq ən yüksək keyfiyyətə malik təyyarələrdən ibarətdir. Beynəlxalq aeroportlar tikilibdir. Demək istəyirəm ki, bu sahədə işlərin böyük hissəsi görülübdür.

2011-ci ildə Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi davam etdiriləcəkdir. Bu layihəyə biz böyük əhəmiyyət veririk. Bu layihənin icrasına başlanması təşəbbüsü Azərbaycan tərəfindən irəli sürülmüşdür və indi üç ölkənin birgə səyləri nəticəsində bu layihəni uğurla icra edirik. Qarşıdakı illərdə işlər başa çatdırılmalıdır və bu bizim növbəti böyük uğurumuz olacaqdır.

2010-cu il Azərbaycanda «Ekologiya ili» elan edilmişdi. Mən çox şadam ki, «Ekologiya ili» çərçivəsində həm dövlət tərəfindən böyük işlər görüldü, həm də özəl sektor bu işlərə qoşuldu. Ölkə əhalisi də bu təşəbbüsə qoşularaq, ekoloji vəziyyətin yaxşılaşdırılmasına öz dəyərli töhfələrini vermişdir. 6 milyondan artıq ağac əkilmişdir. Proses bu il də davam etdiriləcəkdir, bu tempi azaltmamalıyıq. Ekoloji vəziyyətin yaxşılaşdırılması ölkəmizin uğurlu inkişafı üçün, əhalinin sağlamlığı üçün çox böyük əhəmiyyət daşıyır.

Ekoloji tədbirlər ancaq ağac əkməklə bitmir, məhdudlaşmır. Çaylar boyunca yerləşən kəndlərdə təmizləyici qurğuların istifadəyə verilməsi nəticəsində artıq 300 min Azərbaycan vətəndaşı Ümumdünya Səhiyyə Təşkilatının standartlarına uyğun içməli su ilə təmin edilibdir. Keçən ilin sonunda Oğuz–Qəbələ–Bakı su kəməri istismara verilibdir. Yaxın vaxtlarda yəqin ki, bir-iki aydan sonra bu kəmər tam gücü ilə işləyəcək və beləliklə, Bakının təmiz, keyfiyyətli içməli su ilə təmin olunması üçün əlavə böyük imkanlar yaranacaqdır. Kəmərin tikintisi sırf sosial xarakter daşıyır. Bu, kommersiya layihəsi

deyil, lakin ona böyük vəsait qoyulubdur. Ancaq biz bunu etməliydik. Çünki xalqımız ən yüksək şəraitdə yaşamalıdır. Azərbaycanda ən qabaqcıl texnologiyalar tətbiq olunmalıdır. Azərbaycanda istifadəyə verilmiş səhiyyə ocaqlarında ən qabaqcıl avadanlıqlar quraşdırılır. Biz dünyanın aparıcı, inkişaf etmiş ölkələrinin ən qabaqcıl klinikalarında olan avadanlığı, aparatları gətiririk. Biz Azərbaycana ən keyfiyyətli malları gətirməliyik. Azərbaycan vətəndaşları buna layiqdirlər. Biz ölkəmizi müasirləşdiririk və dünyada gedən texnoloji tərəqqiyə gərək həmişə diqqətlə yanaşaq. Ölkəmizə ən qabaqcıl texnologiyaları gətirək ki, Azərbaycanda bütün işlər yüksək səviyyədə görülsün. Beləliklə, görülən işlər nəticəsində həm insanlar üçün yaxşı şərait yaradılır, həm də ölkə daha da güclənir. Əminəm ki, bizim uğurlu inkişafımız gələcək illərdə də yüksək templərlə davam edəcəkdir.

2010-cu ildə başqa istiqamətlərdə də böyük uğurlara nail ola bilmişik. Baxmayaraq ki, təbiət də bizi sınağa çəkdi. Sellər və daşqınlar nəticəsində on minlərlə hektar torpaqlarımızda subasma halları baş verdi, 70 min hektardan çox ərazini su basmış, minlərlə ev uçmuş, yararsız vəziyyətə düşmüşdü. Ancaq görülən operativ və çevik tədbirlər nəticəsində biz ona nail ola bildik ki, bir nəfər də həlak olmadı. İnsanlar vaxtında təhlükəsiz yerlərə köçürüldülər. Onların müvəqqəti məskunlaşdığı yerlərdə bütün şərait yaradılmışdı. Hava şəraiti imkan verən kimi, təmir-bərpa işlərinə başlamışdıq. Deyə bilərəm ki, 4-5 ay ərzində minlərlə ev tikildi, təmir olundu. İlin sonuna olan məlumata görə, 3 mindən artıq ev təmir edilmiş, 1500 ev yenidən tikilmişdir, təxminən 700–800 evin tikintisi isə davam edir. Bu onu göstərir ki, biz ən çətin hallara da hazırıq. Həm texniki imkanlarımz, həm peşəkar kadrlar, həm də maliyyə vəsaiti var. Bu işləri biz öz hesabımıza görmüşük, heç kimdən yardım istəməmişik. Bunu etmək üçün güclü iqtisadi potensialımız olmalıdır.

Azərbaycan bu bölgədə mühüm regional amilə çevrilibdir. İmkanlarımız artır və növbəti illərdə daha da artacaqdır. 2010-

cu ildə valyuta ehtiyatlarımız da artmışdır. Baxmayaraq ki, bəzi ölkələrdə valyuta ehtiyatları aşağı düşmüşdür, çünki həmin ölkələr sosial məsələlərin həlli üçün ondan istifadə etmişdir. İlin sonuna olan məlumata görə, valyuta ehtiyatlarımız 29,1 milyard dollar təşkil edirdi. Dünən mənə verilən məlumata görə, artıq bu rəqəm 29,4 milyard dollara çatmışdır. Təkcə on gün ərzində vəsaitimiz nə qədər artır, növbəti illərdə bu daha da artacaqdır.

Biz artıq həm Azərbaycanda, həm də başqa ölkələrdə istənilən infrastruktur və sərmayə layihəsini icra edə bilərik, edirik də. Azərbaycan şirkətləri xaricə də vəsait qoyur. Hesab edirəm ki, bu, ölkə iqtisadiyyatı və gələcək planlarımızın həyata keçirilməsi üçün vacib amillərdir.

Əfsuslar olsun ki, 2010-cu ildə biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində irəliləyişə nail ola bilməmişik. Ermənistan tərəfi, demək olar ki, danışıqları pozmaq istəyir. Danışıqlar masasında əvvəlcə razılaşdırılmış məsələlərə yenidən qayıtmaq istəyir, vaxt uzatmaq istəyir. Bizdə belə fikir yaranır ki, Ermənistan işğal olunmuş torpaqları azad etmək istəmir. Nə qədər mümkündürsə, torpaqlarımızı o qədər işğal altında saxlamağa çalışır. Bundan istifadə edib Azərbaycandan Dağlıq Qarabağın statusu ilə bağlı onlara xeyir gətirən şərtləri əldə etmək istəyir. Bu isə mümkün deyildir. Biz bunu dəfələrlə bəyan etmişik: Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, beynəlxalq birlik tərəfindən Azərbaycan torpağı kimi tanınır. Azərbaycanın ərazi bütövlüyü bütün beynəlxalq aləm tərəfindən tanınır, BMT tərəfindən tanınır, bütün beynəlxalq təşkilatlar bizim ərazi bütövlüyümüzə hörmətlə yanaşır. Azərbaycan dövləti heç vaxt imkan verməz ki, ikinci erməni dövləti yenə də Azərbaycanın tarixi torpaqlarında yaradılsın. Bu, danışıqlar mövzusu deyil və heç vaxt olmayacaqdır. Məsələnin həlli üçün Ermənistan öz işğalçı qüvvələrini zəbt edilmiş torpaqlardan çıxarmalıdır. Ondan sonra sülh yarana bilər. Azərbaycan vətəndaşları öz doğma torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qayıtmalıdırlar, Dağlıq Qarabağda muxtariyyət şəraitində yaşamalıdırlar. Bütün sivil ölkələrdə

olduğu kimi, orada da işlər demokratik prinsiplər əsasında təşkil edilməlidir. Bundan kənarda məsələnin heç bir başqa istiqamətdə həlli mümkün deyildir.

Biz çalışacağıq ki, 2011-ci ildə öz mövqeyimizi daha da möhkəmləndirək. 2010-cu ildə beynəlxalq təşkilatlarda bu məsələ ilə bağlı çox mühüm hadisələr baş vermişdir. Avropa parlamenti Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair çox ədalətli qətnamə qəbul etmişdir. Bu məsələ digər beynəlxalq təşkilatlarda da müzakirə olunur və bizim mövqeyimiz dəstəklənir. NATO-nun zirvə görüşündə bu məsələ ilə bağlı çox dəyərli, ədalətli, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən qətnamə qəbul olunmuşdur. Dünən Avropa Komissiyasının sədri cənab Barrozu ilə birgə mətbuat konfransında bu məsələ ilə bağlı Avropa Komissiyasının və Avropa İttifaqının mövqeyi ifadə edilmişdir. Bu da ondan ibarətdir ki, Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir.

Məsələnin həlli üçün beynəlxalq çərçivələr budur və o, yalnız bu çərçivələr daxilində öz həllini tapa bilər. Heç bir başqa variant müzakirə mövzusu deyildir. Hesab edirəm ki, Azərbaycan danışıqlar prosesində konstruktiv mövqe nümayiş etdirir. Biz çalışırıq ki, məsələ sülh yolu ilə həll olunsun. Ancaq beynəlxalq hüquq normaları burada əsas rol oynayır. Azərbaycanın ərazi bütövlüyünün bərpası qeyd-şərtsiz öz həllini tapmalıdır.

O da heç kimə sirr deyil ki, biz danışıqlar apardığımız zaman ordu quruculuğuna da böyük diqqət göstəririk, ordumuzu gücləndiririk. Bu sahədə böyük uğurlara nail ola bilmişik. Düşmən də bunu bilir və qorxudan əsir. Onların son aylarda isterik, əsəbi, qorxu ilə dolu çıxışları bunun əyani sübutudur. Azərbaycan ordusu istənilən anda düşmənə sarsıdıcı zərbə endirə bilər. O zərbə nəticəsində nəinki Dağlıq Qarabağda, Ermənistanda da vəziyyət başqa istiqamətdə inkişaf edə bilər. Lakin biz istəyirik ki, bu məsələ sülh yolu ilə həll olunsun. Son illərdə ordu quruculuğuna ayrılan vəsait artır, yeni müasir

silahlar, texnika – təyyarələr, artilleriya, hava hücumuna qarşı ən müasir qurğular, zirehli maşınlar alınır, onların hamısını sadalamaq üçün bəlkə də bir neçə saat lazımdır. Azərbaycanda istehsal olunan hərbi məhsullar, 500 növə qədər məhsul həm ordumuza xidmət edir, həm də biz artıq xarici bazarlara çıxırıq, beynəlxalq sərgilərdə iştirak edirik. Bu sahədə 2011-ci ildə də çox mühüm hadisələr baş verəcək, Azərbaycanda ən müasir avadanlığın, texnikanın, döyüş sursatının istehsalı başlanmalıdır.

2011-ci ildə ordu xərcləri, müdafiə xərcləri 3 milyard dollardan çox olacaqdır. Onun böyük hissəsi yenə də silah-sursat, hərbi texnika alınmasına sərf olunacaq, biz bu prosesi bundan sonra da davam etdirəcəyik. Əminəm ki, Azərbaycanın güclü ordusu Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün öz sözünü deməlidir və vaxt gələndə deyəcəkdir.

2011-ci ildə həm iqtisadi, həm sosial, həm də beynəlxalq məsələlərin həllində, hesab edirəm ki, heç bir problemimiz olmayacaqdır. Biz 2010-cu ildə beynəlxalq müstəvidə də uğurlu siyasət aparmışıq. Həm beynəlxalq təşkilatlar çərçivəsində, həm ikitərəfli müstəvidə çoxsaylı görüşlər olmuşdur. Bakıda bir neçə beynəlxalq səviyyəli zirvə görüşü keçirilmişdir. Qonşu ölkələrlə münasibətlərimiz daha da güclənmişdir. Beynəlxalq vəziyyət və bölgədə mövcud olan vəziyyət müsbətdir. Azərbaycan bölgədə əməkdaşlığın dərinləşməsinə öz dəyərli töhfəsini verir. Azərbaycan artıq çox ciddi regional amildir. Azərbaycan bölgədə gedən proseslərə təsiri artmaqda olan ölkədir. Elə etməliyik ki, bu proses daim davam etsin, ölkəmiz güclənsin və inkişaf etsin.

## YEKUN NİTQİ

2011-ci ildə qarşıda duran vəzifələr aydındır. Biz bu ildə də iqtisadiyyatımızın inkişafını təmin etməliyik. Makroiqtisadi

sabitlik qorunmalıdır və əminəm ki, inflyasiya birrəqəmli olacaqdır. Biz xüsusilə istehlak bazarına nəzarətimizi gücləndirməliyik. Bu sahədə böyük işlər görülüb və davam etdirilməlidir. Qiymətlərin süni şəkildə şişirdilməsinə yol verməməliyik, azad rəqabəti təmin etməliyik, inhisarçılıq meyillərinin qarşısını almalıyıq. Lazımsız yoxlamalar aparılmamalıdır, xüsusilə hüquq mühafizə orqanları tərəfindən lazımsız yoxlamalara son qoyulmalıdır ki, ölkədə sahibkarlığı daha da sürətlə inkişaf etdirək, buna daha böyük təkan verək.

Sirr deyil ki, inkişaf etmiş ölkələri fərqləndirən cəhətlərdən biri də ümumi daxili məhsulun formalaşmasında kiçik və orta sahibkarlığın xüsusi yer tutmasıdır. Azərbaycan da bu yolla getməlidir. Düzdür, bizim güclü enerji sektorumuz var və qeyri-neft sektorunu neft sektoru ilə müqayisə etmək sadəlövhlük olardı. Ancaq biz çalışmalıyıq ki, Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı daha da sürətlə getsin. Dövlət tərəfindən buna dəstək verilir. Hesab edirəm ki, sahibkarlarla çoxsaylı görüşlərimdə verdiyim tövsiyələr, dediyim fikirlər və göstərdiyim siyasi dəstək sahibkarlığın inkişafında öz rolunu oynayır. Bununla bərabər, dövlət tərəfindən ayrılmış kreditlər, Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə görülən işlər də sahibkarlığın inkişafına çox böyük dəstəkdir.

Elə etməliyik ki, 2011-ci ildə bu sahəyə əlavə vəsait ayrılsın. İqtisadiyyatımızın çoxşaxəli iqtisadiyyat kimi formalaşmasında qeyri-neft sektorunun inkişafı həlledici rol oynayır. Əgər vaxtilə biz bu siyasətə başlamasaydıq, indi ölkə iqtisadiyyatı birtərəfli ola bilərdi. Bir neçə il əvvəl bəzi beynəlxalq qurumlarda Azərbaycanda «Hollandiya sindromu» haqqında fikirlər səslənmişdi, yəni Azərbaycanda iqtisadiyyat birtərəfli inkişaf edəcək, ancaq neft amilinə söykənir, iqtisadiyyatın digər sahələrində perspektivlər yoxdur. Bizim apardığımız siyasət isə onu göstərir ki, artıq Azərbaycan iqtisadiyyatı çoxşaxəli şəkildə formalaşır və «Hollandiya sindromu» haqqındakı fikirlər artıq səslənmir.

Biz bu müsbət dinamikanı davam etdirməliyik və 2011-ci ildə sahibkarlığın, özəl sektorun inkişafı üçün, qeyri-neft sektorunun inkişafı üçün əlavə tədbirlər görülməlidir. Dövlət tərəfindən, prezident tərəfindən siyasi dəstək verilib və veriləcəkdir. Dövlət qurumları – həm mərkəzi qurumlar, həm də bölgələrdə yerləşən qurumlar sahibkarlığın inkişafına kömək göstərməlidir, onlara maneçilik törətməməlidir, süni əngəllər də yığışdırılmalıdır.

Bununla bərabər, 2011-ci ildə biz vergilər bazasını genişləndirməliyik. Bunu etmək üçün böyük imkanlar var. Vergi sahəsində aparılan islahatlar uğurludur. «Bir pəncərə» prinsipi Azərbaycanda artıq tətbiq olunur. Digər mütərəqqi islahatlar aparılır, bütövlükdə bu sahədə işlər görülür. Ancaq o da həqiqətdir ki, vergilərdən yayınanların sayı da kifayət qədərdir. Biz bunları bilirik və bu hallarla mübarizə daha da ciddi və məqsədyönlü aparılmalıdır.

Elə etməliyik ki, ticarət, məişət, iaşə obyektlərində nağd şəkildə ödəmələr minimuma endirilsin. Artıq kredit kartları var, bizim əhalimizin böyük hissəsi kredit kartlarına malikdir. Hər bir məntəqədə, hər bir ticarət obyektində, hər bir restoranda kredit kartlarından, ödəmə kartlarından istifadə olunmalıdır. Belə olan halda vergilər bazası heç səy göstərilmədən, avtomatik olaraq genişlənəcəkdir. Yəni bu sahədə görüləsi işlər çoxdur. Mən bir müddət bundan əvvəl Vergilər nazirinə müvafiq göstərişlər vermişəm. Sadəcə olaraq, istərdim burada da bu barədə öz fikirlərimi bildirim ki, Azərbaycanda bu sahədəki vəziyyət inkişaf etmiş ölkələrdəki vəziyyətdən fərqlənməməlidir. 2011-ci ildə bu sahədə köklü və əsaslı tədbirlər görüləcəkdir.

Bizim iqtisadi potensialımız güclüdür. Dünya İqtisadi Forumunun hesablamalarına görə, rəqabət qabiliyyətliliyi baxımından bizim iqtisadiyyatımız MDB məkanında birinci yerdədir. İnsan inkişafı indeksi ilə bağlı verilən məlumatlar da onu göstərir ki, iqtisadiyyatımız və ölkədə gedən iqtisadi-sosial islahatlar uğurludur. Beynəlxalq aparıcı reytinq agentlikləri

böhran illərində bizim reytinqlərimizi artırıbdır. Bu onu göstərir ki, biz düzgün istiqamətdə inkişaf edirik. Nəzərə alsaq ki, bizim güclü neft-qaz ehtiyatlarımız var, valyuta ehtiyatlarımız 30 milyard dollara yaxınlaşır – əminəm ki, 2011-ci ildə bir neçə milyard dollar da artacaq – bu bizim üçün böyük bir dəstəkdir, böyük sərvətdir. Ancaq bu o demək deyil ki, ölkədə hər şey yaxşıdır. Biz çalışmalıyıq ki, 2011-ci ildə bu sahəyə daha da çox diqqət ayrılsın. Harada qüsurlar, çatışmayan cəhətlər varsa, onları aradan qaldırmalıyıq. Harada ki, bizdə görülən işlər hələ beynəlxalq standartlara cavab vermir, onları beynəlxalq standartlara yaxınlaşdırmalıyıq. Biz buna nail olsaq büdcə gəlirlərimiz də artacaq və ölkədə uçot-hesabat məsələləri daha da dəqiq həll olunacaqdır. Bir daha demək istəyirəm ki, bu sahədə işlərin daha səmərəli şəkildə aparılması üçün bütün imkanlar var.

Keçən il Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 115 milyon manat kreditlər verilmişdir. Bu kreditlərin, demək olar ki, 99 faizdən çoxu bölgələrə aid olan vəsaitdir. Hesab edirəm ki, bu il də biz təxminən həmin səviyyədə kreditlərin verilməsini təşkil etməliyik. Bu kreditlər işləyir və nəticə verir. Kreditlərin işləməsi nəticəsində yüzlərlə müəssisə yaradılıb və mühüm amil ondan ibarətdir ki, bu kreditlər vaxtlı-vaxtında qayıdır və yenidən kreditləşməyə cəlb olunur.

Azərbaycanda biznes mühiti müsbətdir, investisiya mühiti yaxşıdır. Adambaşına düşən birbaşa xarici sərmayənin həcminə görə Azərbaycan, həmişə olduğu kimi, indi də MDB məkanında aparıcı yerlərdədir. Ancaq bununla bərabər, biz biznes mühitinin yaxşılaşdırılması üçün əlavə tədbirlər görməliyik. Bürokratik əngəllər aradan qaldırılmalı, rüşvətxorluğa və korrupsiyaya qarşı mübarizə daha da ciddi aparılmalı, ictimai nəzarət gücləndirilməlidir. Bütün bunlar çox vacib məsələlərdir. Biz istədiyimizə nail olsaq, Azərbaycan iqtisadiyyatı daha da sürətlə inkişaf edəcək, ümumi daxili məhsulumuz daha da artacaq, vergilərdən daha da çox vəsait daxil olacaq və Dövlət Neft Fondundan dövlət büdcəsinə transferlər də azalacaqdır.

Elə etməliyik ki, Vergilər Nazirliyi və digər qurumlar tərəfindən yığılan vəsait cari xərclərin bağlanması üçün kifayət etsin. Neft fondundan transferlər yalnız və yalnız investisiyayönümlü layihələrə sərf olunsun.

2011-ci ildə kənd təsərrüfatının inkişafını stimullaşdırmaq üçün əlavə tədbirlər görülməli, subsidiyaların verilməsi davam etdirilməlidir. Əvvəlki illərdə görülmüş işlər öz bəhrəsini verir, soyuducu anbarların, taxıl anbarlarının tikintisi kənd təsərrüfatının inkişafına öz müsbət təsirini göstərmişdir. Növbəti illərdə bu müsbət meyillər daha da gücləndirilməlidir. Kənd təsərrüfatının inkişafı üçün çox mühüm sahə sayılan toxumçuluğu da inkişaf etdirməliyik. Bu sahədə Azərbaycanda böyük özəl müəssisələr yaradılmışdır. Mən o müəssisələrdə olmuşam. Hesab edirəm ki, biz bu təşəbbüsləri dəstəkləməliyik, sahibkarlara yeni imkanlar yaradılmalı, kreditlər ayrılmalıdır. Yerli icra orqanları onları dəstəkləməlidir ki, toxumçuluqla bağlı məsələlər tezliklə həllini tapsın.

Heyvandarlıq sahəsində cins mal-qaranın gətirilməsi prosesi gedir, bu iş 2011-ci ildə də davam etdirilməlidir, əlavə vəsait də ayrılacaqdır. Biz bunun da gözəl nəticələrini görürük. Ümumiyyətlə, biz dəfələrlə bu barədə danışmışıq və məsələ qaldırılmışdır ki, çalışmalıyıq Azərbaycanda maksimum dərəcədə ərzaq məhsullarının istehsalını təşkil edək, idxaldan asılılığımızı minimuma endirək. Bir sıra məhsullar üzrə buna nail ola bilmişik, ancaq harada ki, hələ idxaldan çox asılıyıq, o sahələri gücləndirməliyik. Bu barədə müvafiq göstərişlər verilmişdir. Bunu investisiya proqramı çərçivəsində müəyyən qədər həll etmək olar. Kreditlərin verilməsi məhz bu sahələrə yönəldilməlidir. Quşçuluğun inkişafı sahəsində biz hələ ki, özümüzü 70-75 faiz səviyyəsində təmin edirik, 100 faizə çatmaq üçün bütün imkanlar var. Hesab edirəm ki, 2011–2012-ci illərdə biz bu məsələni həll etməliyik.

Aqrolizinq, aqroservislərin fəaliyyəti kənd təsərrüfatının inkişafına böyük dəstəkdir, bu sahədə də dövlətin müdaxiləsi və siyasəti, əlbəttə ki, həlledicidir. Əgər indi Azərbaycanda traktor

istehsal olunmasaydı, vəsait kənara gedəcəkdi. Onsuz da, Azərbaycan dövləti bu vəsaiti ayırıb, texnikanı alır. İndi texnikanın bir hissəsi artıq Azərbaycanda istehsal olunur. Bu sahədə və buna oxşar digər sahələrdə işlər daha da sürətlə aparılmalıdır.

Taxıl istehsalının artırılması üçün əlavə tədbirlər görülməlidir. Keçən il taxıl istehsalında tənəzzül baş vermişdir. Bunun müəyyən təbii səbəbləri vardır. Çalışmalıyıq ki, 2011-ci ildə biz 2009-cu ilin səviyyəsinə və ondan da yüksəyə qalxaq. Bu barədə də artıq fikir mübadiləsi aparılmışdır. Böyük fermer təsərrüfatlarının yaradılması üçün müəyyən addımlar atıla bilər. Çünki Azərbaycanda torpaq islahatı aparılmışdır, hesab edirəm ki, Azərbaycan bu sahədə MDB məkanında qabaqcıl yerlərdədir, ən mütərəqqi islahatlar aparılmışdır. Hələ istifadə olunmayan torpaqların istifadəyə cəlb edilməsi üçün əlavə tədbirlər görülməlidir. Böyük fermer təsərrüfatlarının yaradılması üçün dövlət tərəfindən bütün infrastruktur, təchizat məsələləri həll olunmalıdır. Tender prinsipi əsasında sahibkarlar öz təkliflərini verməlidirlər və o təkliflərə baxılmalıdır. Ondan sonra dövlət yenə də öz maliyyə imkanlarından istifadə edib, böyük taxılçılıq təsərrüfatlarının yaradılması üçün maliyyə dəstəyini də göstərəcəkdir. Biz bunu etməliyik, ola bilsin ki, böyük fermer təsərrüfatlarının yaradılması üçün sahibkarlarda kifayət qədər vəsait olmasın. Dövlət ayrıca maddə ilə bu sahələrə uzunmüddətli, güzəştli şərtlərlə kreditlər ayırmalıdır.

2011-ci ildə ilk növbədə bu məqsədlər üçün istifadə olunacaq yerlər müəyyən edilməlidir – onların müəyyən hissəsini biz bilirik və dəqiqləşdirilməlidir. Mexanizm işlənib hazırlanmalıdır ki, il ərzində biz artıq bu prosesə təkan verək. Nəzərə alsaq ki, hazırda Azərbaycanda bir çox məhsullarla biz nəinki özümüzü təmin edirik, ixrac da edirik və gələcəkdə ixracın artması da gözlənilir. Özümüz üçün yeni bazarlar tapmalıyıq və o bazarlara daxil olmalıyıq. Bu məsələlərin həlli üçün həm İqtisadi İnkişaf Nazirliyi, həm də Xarici İşlər Nazirliyi birgə səylər göstərməlidir. Bu barədə mən bir neçə

dəfə öz fikirlərimi bildirmişəm. Xarici ölkələrin bazarlarına həm investisiyalarla, həm də hazır məhsullarla daha da geniş şəkildə çıxmalıyıq. Buna imkan var, Azərbaycanda istehsal olunan məhsulların bir çoxu artıq dünya standartlarına cavab verir, çox keyfiyyətli, təmiz, təbii kənd təsərrüfatı məhsullarıdır. Milli sərgilərin keçirilməsi bu məqsədə nail olmaq üçün kömək göstərə bilər. Burada deyildiyi kimi, bizim birinci milli sərgimiz uğurla keçirilmişdir. 2011-ci ildə isə bir neçə ölkədə Azərbaycanın milli sərgisinin keçirilməsi nəzərdə tutulur.

Nəzərdə tutulmuş və icrada olan bütün infrastruktur layihələri 2011-ci ildə davam etdiriləcəkdir. 2011-ci il üçün dövlət büdcəmizin xərcləri təxminən 16 milyard dollara bərabərdir, icmal büdcəmiz 19 milyard dollar təşkil edir. Yəni kifayət qədər vəsait var ki, infrastruktur layihələrinin həyata keçirilməsi üçün ondan istifadə edək. Əminəm ki, yaxın vaxtlarda 2011-ci ilin investisiya proqramı da mənə təqdim olunacaq və o proqramda bütün tapşırıqlar öz əksini tapmalıdır. İnvestisiyayönümlü siyasətimiz davam etdirilməlidir. Bu sahədə infrastrukturun yeniləşməsi üçün çox böyük əsaslı işlər görülübdür. Ancaq görüləsi işlər hələ çoxdur: yolların tikintisi, əhalinin içməli su ilə təchiz edilməsi, kanalizasiya sisteminin bərpası, yenidən qurulması, suvarma, meliorasiya işləri, sosial infrastrukturun yaradılması, qazlaşdırma, elektrik xətlərinin çəkilməsi. Ancaq biz bilirik nə vaxt və nəyi etməliyik, biz fəaliyyətimizi konkret proqramlar əsasında qurmuşuq. 2011-ci il də istisna olmamalı və investisiya proqramı tezliklə təsdiq edilməlidir ki, vaxt itirməyək. Artıq yanvarın yarısı arxada qalır, investisiya proqramı təsdiq olunmalı və vəsait ayrılmalıdır.

Ekoloji tədbirlər davam etdiriləcək, bu barədə mən öz fikirlərimi giriş sözümdə bildirdim. Ekoloji tədbirlər çox vacibdir. 2010-cu ildə biz bu sahəyə çox ciddi nəzarət etmişik və çox ciddi diqqət vermişik, böyük vəsait ayrılmışdır. Dediyim kimi, doğrudan da bu, ümumxalq təşəbbüsünə çevrilmişdir. «Ekologiya ili» rəsmən başa çatsa da, «Ekologiya ili»nə xas

olan ab-hava gərək davam etsin. Həm ağac əkilməsi eyni templə davam etdirilməli, həm də təmizləyici qurğular istifadəyə verilməli, içməli su layihələri icra olunmalıdır.

Hesab edirəm ki, 2011-ci ildə biz ilk növbədə Xəzər dənizinin suyunun şirinləşdirilməsinə dair layihəni icra etməliyik. Mən bir neçə ay əvvəl bu barədə təşəbbüs irəli sürdüm. Bilirsiniz ki, içməli su təchizatı həmişə diqqət mərkəzində olmalıdır. Oğuz–Qəbələ–Bakı su kəməri bu sahədə çox tarixi bir nailiyyətdir. Samur–Abşeron kanalı, Taxtakörpü su anbarının tikintisi 2012-ci ildə başa çatdırılmalıdır. Bu da bizə əlavə imkanlar yaradacaqdır. Ancaq bizim Xəzər dənizi kimi böyük su mənbəyimiz var və onun suyu o qədər də duzlu deyildir. Biz Yaxın Şərq ölkələrinin təcrübəsini də öyrənmişik, bilirik ki, onlar suları necə şirinləşdirir, həm suvarma üçün, həm də içməli su kimi istifadə edirlər. Yəni biz də bu layihələri həyata keçirməyə başlamalıyıq – 2011-ci ildə birinci pilot layihəni, yəni Xəzər suyunun ilk növbədə suvarmada istifadə olunması üçün konkret layihəni icra etməliyik. Əgər bu layihə uğurlu olarsa – mən buna şübhə etmirəm – ondan sonrakı illərdə konkret proqram çərçivəsində genişmiqyaslı tədbirlər görülməlidir.

2011-ci ildə bərpa olunan enerji mənbələrinin yaradılması işində əlavə tədbirlər görüləcək, bu sahədə birinci addımlar atılmışdır. Artıq dağ çaylarında kiçik su elektrik stansiyaları quraşdırılır. Bütün su mənbələrimizin xəritəsi təsdiq olunubdur. Keçən il mən bir neçə stansiyanın təməlinin qoyulmasında şəxsən iştirak etmişəm. Bu işlər bu il də davam etdirilməlidir. Bərpa olunan digər enerji mənbələrindən istifadə üçün daha da ciddi tədbirlər görülməlidir. Bu vəzifəni mən keçən ilin əvvəlində qoymuşam, üstündən bir il keçibdir. Hələ ki, nə günəş, nə külək enerji qurğularımız var. Varsa da, çox cüzi xarakter daşıyır. İl ərzində bu sahədə müəyyən işlər görə bilərdik. Təəssüf edirəm ki, buna nail ola bilməmişik. 2011-ci ildə Azərbaycanda günəş batareyalarının quraşdırılması işinə mütləq başlanmalıdır. Azərbaycanda günəş batareyaları istehsal

edən müəssisələr də tikiləcək, özəl sektor da buna maraq göstərir. O müəssisələr tikilənə qədər biz xaricdən günəş batareyaları almalıyıq. Bir il əvvəl göstəriş vermişdim ki, yerlər müəyyən edilsin. O torpaqlar ki, kənd təsərrüfatı üçün yararsızdır, orada biz bu qurğuları qurmalıyıq. O torpaqlar ki, elektrik xətlərinə yaxındır, çox da xərc tələb etməyəcəkdir. Əfsuslar olsun ki, 2010-cu ildə bu sahədə biz nəticəni görməmişik. Bu, dözülməz haldır. Bir halda ki, prezident tərəfindən göstəriş verilir, o göstəriş yerinə yetirilməlidir. Hesab edirəm ki, bu məsələlərlə bağlı olan qurumlar arasında səlahiyyət bölgüsü məsələlərində problemlər çıxmışdır. Buna da son qoyulmalıdır. Bu bizim hamımızın işidir, göstəriş verilirsə, deməli, o, yerinə yetirilməlidir. Onun mexanizmi işlənilməlidir. Bizim kifayət qədər vəsaitimiz, yəni dövlət büdcəsində bu məqsədlər üçün nəzərdə tutulan vəsaitimiz istifadəsiz qalmışdır. Nə üçün? Bizim iqtisadi, maliyyə problemimiz yoxdur, kifayət qədər vəsaitimiz var. Sel və daşqınlar baş verəndən sonra büdcəyə dürüstləşmə etdik. Əlavə 300 milyon dollar vəsait cəlb olundu. Onun böyük hissəsi evlərin tikintisinə, qalan hissəsi bəndlərin tikintisinə yönəldilmişdir. Nə üçün onlardan istifadə olunmayıb? 2011-ci ilin elə əvvəlindən bu məsələyə çox ciddi diqqət verilməlidir və mən konkret nəticələr gözləyirəm. Bu, gələcəyə atılan addımlardır.

Bizim neft, qaz ehtiyatlarımız var və ən azı 100 ilə bəs edəcəkdir. İndi elektrik enerjisinin istehsalında da yeni güclər yaradılıb, elektrik enerjisini ixrac da edirik. Biz öz enerji təhlükəsizliyimizi tam şəkildə təmin edə bilmişik. Ancaq bu sahə – bərpa olunan enerji mənbələri həm ekologiyadır, həm iqtisadiyyatdır, həm müasirlikdir, həm texnoloji tərəqqidir, həm də inkişafdır. Ona görə biz sürətlə bu işlərə başlamalıyıq.

2011-ci ildə informasiya-kommunikasiya texnologiyalarının inkişafı üçün əlavə tədbirlər görüləcəkdir. Azərbaycan artıq kosmik sənayesi olan ölkəyə çevrilir. 2012-ci ildə birinci süni peykimiz orbitə çıxarılacaqdır. Mən hesab edirəm ki, ondan sonra da bu sahədə işlər aparılmalıdır. Başqa peyklər də səmaya

çıxarılmalıdır. Beləliklə, Azərbaycan çox ciddi kosmik sənayeyə malik ölkəyə çevriləcəkdir. Bu da gələcəyə atılan bir addımdır. Biz görürük ki, indi dünyada qüvvələr nisbətini texniki tərəqqi müəyyən edir. Həmişə belə olub, indiki şəraitdə isə bu özünü daha da qabarıq şəkildə büruzə verir. Texniki tərəqqi, texnoloji irəliləyiş, müasir texnologiyalar, xüsusilə informasiya-kommunikasiya sahəsində, rabitə sahəsində, elektronika, kosmik sənayedə əldə edilmiş uğurlar ölkələrin inkişafını və gücünü müəyyən edir. Biz də bu sahədə geri qalmamalıyıq. Baxmayaraq ki, bu sahə Azərbaycanda heç vaxt inkişaf etməmişdir, ancaq biz bunu etməliyik. Bizdə müdafiə sənayesi də heç vaxt olmamışdır. Amma 5 il ərzində elə güclü müdafiə sənayesi yaratmışıq ki, indi özümüzü təmin edirik, ixrac da edirik və sərgilərdə iştirak edirik. Kosmik sənayeyə də eyni qaydada yanaşmalıyıq. Qısa müddətdə Azərbaycanda çox güclü kosmik sənaye yaradılmalıdır. Bu bizə hər cəhətdən lazımdır.

Ordu quruculuğu sahəsində 2011-ci ildə kifayət qədər işlər görüləcəkdir. Müdafiə hərbi xərclərimiz 3 milyard dollardan artıqdır. Bu, Ermənistanın büdcəsindən 30 faiz çoxdur. Ermənistanın ümumi dövlət xərcləri 2 milyard dollar həddindədir. Biz isə təkcə hərbi xərclərə 3 milyard dollar vəsait ayırırıq. Azərbaycanı Ermənistanla müqayisə etmək mümkün deyil, Azərbaycan inkişaf edən, müasir, güclü, zəngin ölkədir. Ermənistan isə tənəzzülə uğrayan, kasıb, yoxsul, xarici yardımdan asılı ölkədir. Yəni bu iki ölkə arasındakı fərq müqayisəedilməz səviyyədədir və bu fərq getdikcə daha da artacaqdır. Biz hərbi xərclərə istədiyimiz qədər vəsait ayıra bilərik. Ermənistan isə xaricdən aldığı yardımla ancaq özünü yola verə bilər. Əlbəttə ki, bu asılılıq siyasi müstəviyə də təsir edir. Ermənistandan fərqli olaraq, Azərbaycanın müstəqilliyi tamdır. Müstəqil siyasət aparmaq üçün bizdə həm iqtisadi, həm siyasi imkanlar var, həm də güclü iradə var. Bayaq dediyim kimi, 2011-ci ildə müdafiə sənayesi sahəsində yeni müəssisələrin işə salınması gözlənilir. Elə etməliyik ki,

ordumuzun və hərbi qurumların ehtiyaclarını ödəmək üçün istehsal müəssisələri işləsin. Çalışmalıyıq və artıq buna nail oluruq ki, bu sahədə ən müasir texnologiyaları Azərbaycana gətirək və gətiririk.

Bu il də sosial infrastrukturun – məktəblər, xəstəxanalar, idman kompleksləri, mədəniyyət ocaqları – tikintisi davam etdirilməlidir, bütün bunlar investisiya proqramında öz əksini tapacaqdır. 2010-cu ildə məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması və məşğulluğun artırılması üçün əlavə addımlar atılmışdır. Keçən il 6600 köçkün yeni evlərə köçürülmüşdür. Köçkünlər üçün 3 böyük qəsəbə tikilmişdir. Bu il də biz bu işləri davam etdirəcəyik.

Bakıda, digər şəhər və rayonlarımızda abadlıq-quruculuq işləri uğurla gedir, şəhərlərimiz gözəlləşir, yeniləşir, müasirləşir. Elə etməliyik ki, 2011-ci ildə də bu sahəyə diqqət göstərilsin ki, bütün şəhərlərdə, rayon mərkəzlərində, kəndlərdə abadlıq-quruculuq işləri aparılsın.

2011-ci ildə Dövlət Bayrağı Meydanının ətrafında abadlıq işləri başa çatdırılmalıdır. Biz keçən il böyük təntənə ilə Azərbaycanın Dövlət bayrağının açılışını qeyd etdik. İndi bayrağın ətrafında olan yerlərdə – ora təxminən 60–70 hektarlıq bir ərazidir – abadlıq-quruculuq işləri aparılır, parklar, yeni bulvar salınır. 2011-ci ildə Dövlət Bayrağı Meydanının ətrafı abadlaşmalı və meydandan bulvara qədər yeni yolun, yeni dənizkənarı bulvarın salınması layihəsi də icra edilməlidir. O ərazilərdə yerləşən zavodlar başqa yerlərə köçürülür. Orada istifadəsiz olan obyektlər köçürülür, bəziləri sökülür. Biz bulvarın sonundan, yəni İdman sarayından Dövlət Bayrağı Meydanına qədər yeni bulvarın tikintisinə başlamışıq. Bu, böyük bir layihədir, böyük vəsait tələb edir, biz bunu etməliyik. Belə olan halda, şəhər əhalisi üçün, gəzinti üçün yeni, gözəl yerlər istifadəyə veriləcəkdir.

Keçən il Bakıda yeni parkların yaradılması üçün böyük işlər görülübdür. Bakı limanının Ələtə köçürülməsi nəzərdə tutulur. Keçən ilin sonunda limanın ərazisində, istifadə olunmayan

yerlərdə böyük, 4 hektarlıq gözəl park yaradılmışdır. Biz sənaye zonasını şəhərin mərkəzindən çıxarmalıyıq. Xüsusilə dənizə yaxın olan yerlərdəki bütün sənaye obyektləri köçürülməlidir və o zonada ancaq əhalinin istifadəsi üçün nəzərdə tutulacaq obyektlər tikilməlidir. Dəniz kənarında hər iki tərəfə doğru – həm Zığ istiqamətində, həm də Bayıl istiqamətində parklar, xiyabanlar, bulvarlar, gəzinti yerləri yaradılmalıdır. 2011-ci ildə bu sahəyə diqqət daha da böyük olmalıdır və bu tapşırıqlar investisiya proqramında nəzərə alınmalıdır.

Keçən il ölkəmizin həyatında çox əlamətdar hadisə baş vermişdir, 9 milyonuncu vətəndaş dünyaya gəlmişdir. Bu çox sevindirici haldır, əhalimizin sayı artır. Bu günə olan məlumata görə, Azərbaycan əhalisi 9 milyon 111 min nəfər təşkil edir. Mən çox şadam ki, artım çox sürətlidir. 2010-cu ildə Azərbaycanda 166 min körpə dünyaya gəlmişdir. Bu da son 16 ildə ən yüksək göstəricidir və bizim inkişafımızın təzahürüdür. Mən çox istəyirəm ki, Azərbaycanın əhalisi daha da artsın və əminəm ki, ölkədə gedən proseslər bu məqsədə çatmaq üçün şərait yaradacaqdır.

Bu il müstəqilliyimizin bərpasının 20 illiyini qeyd edəcəyik. 20 ildir Azərbaycan müstəqil ölkə kimi yaşayır. Təbii ki, müstəqilliyimizin bərpası Sovet İttifaqının dağılması nəticəsində baş vermişdir. Azərbaycan və bütün başqa müttəfiq respublikalar müstəqil olmuşdur. Azərbaycan isə müstəqilliyini bərpa etmişdir, çünki bizim müstəqilliyimizin tarixi 1991-ci ildən deyil, 1918-ci ildən başlayır. Buna görə Azərbaycanda 28 May xüsusi təntənə ilə qeyd olunur. Bizim üçün müstəqilliyimizin əsas tarixi 28 may 1918-ci ildir.

20 il həm böyük, həm də çox da böyük olmayan müddətdir. 20 il ərzində çox iş görmək olar, heç nə görməmək də olar. Azərbaycanda son 17 ildə, müstəqilliyimizin birinci iki ilini çıxmaq şərti ilə, doğrudan da tarixi nailiyyətlər əldə edilmişdir. Bu gün danışdığımız bütün uğurlar bu müstəqilliyin nəticəsidir. Müstəqillik bizim üçün ən böyük sərvətdir, dəyərdir. Müstəqillikdən qiymətli heç bir şey ola bilməz. İl ərzində biz

həm Azərbaycanda, həm də xaricdə müstəqilliyimizin bərpasını qeyd etməliyik. Bu məsələlərlə bağlı yaxın günlərdə mən müvafiq sərəncam da imzalayacağam.

2011-ci il başlayıb, keçən il bizdə «Ekologiya ili» elan olunmuşdu. Dediyim kimi, yaxşı nəticələr əldə edilmişdir. Təklif edirəm ki, 2011-ci ili biz «Turizm ili» elan edək. 2011-ci ildə Bakıda 5 beşulduzlu mehmanxana açılacaq. Bu, dünyada analoqu olmayan hadisədir. Bir ildə bir şəhərdə 5 beşulduzlu mehmanxana açılacaq, mən Bakını nəzərdə tuturam. Ancaq Bakıda dördulduzlu, üçulduzlu otellər də tikilməkdədir. Bölgələrdə otel tikintisi ilə bağlı çox böyük işlər görülür, artıq Azərbaycanda turizmin inkişafı reallıqdır. Bu infrastrukturu yaratmaq üçün dövlət tərəfindən böyük vəsait tələb olunur. Ancaq bu, infrastruktur məsələlərinə yönəldilir. Otellər isə özəl sektor tərəfindən tikilir. Deməli, Azərbaycanın inkişafına inam o qədər böyükdür ki, buraya, bu otellərə milyonlarla, yüz milyonlarla vəsait qoyulur. İnvestorlarda inam var ki, bu vəsait onlara dividendlər gətirəcəkdir. Şəhərə gələn qonaqlar üçün gözəl şəraitin yaradılması da vacib məsələdir.

Bununla bərabər, «Şahdağ» qış-yay xizək kurortu, xizək infrastrukturu yaradılır. Bu da sırf dövlət tərəfindən yaradılan layihədir. Mən o bölgələrdə dəfələrlə olmuşam. İlk dəfə oraya gedəndə heç nə yox idi. Dağlar idi, yaşayış məntəqələrindən bir neçə kilometr uzaqlıqda yerləşən dağlar idi. İndi orada yollar, elektrik xətləri, qaz xətləri, su xətləri çəkilir, birinci mehmanxana dövlət tərəfindən tikilir. Əminəm ki, bundan sonra özəl sektor da bu təşəbbüsə qoşulacaq, çünki orada çoxlu mehmanxana tikilməlidir. Xizək bazası, qaldırıcılar, tibb məntəqələri, restoranlar, əyləncə yerləri olacaqdır. Bir sözlə, «Şahdağ» kurort mərkəzi dünya səviyyəli mərkəzə çevriləcəkdir. Bu ölkəmizə həm yeni investisiyalar gətirəcək, həm də şimal zonasında yaşayan əhali üçün əlavə şərait yaradacaq, minlərlə yeni iş yerləri açılacaqdır.

2011-ci il başlayıb, mən gələcəyə çox böyük nikbinliklə baxıram. Tam əminəm ki, 2011-ci il də ölkəmizin hərtərəfli inkişafı üçün uğurlu il olacaqdır. Buna nail olmaq üçün hamımız yaxşı işləməliyik ki, ölkəmizi daha da gücləndirək,

Azərbaycanı inamla irəliyə aparaq. Bu işlərdə sizə uğurlar arzulayıram. Sağ olun!

## LATVİYAYA RƏSMİ SƏFƏR

*16 yanvar 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Latviyaya rəsmi səfərə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Latviya Respublikasına rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və Latviyanın dövlət bayraqları ilə bəzədilmiş Riqa Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Latviyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar. Azərbaycanın birinci xanımına gül dəstəsi təqdim olundu.*

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Riqa*

*17 yanvar 2011-ci il*

*Yanvarın 17-də Latviya prezidentinin iqamətgahında – «Riqa» qəsrində Azərbaycan prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı qəsrin qarşısında Azərbaycan prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Latviya prezidenti Valdis Zatlers və xanımı Lilita Zatlere Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı qarşıladılar.*

*Hərbi orkestrin ifasında Azərbaycanın və Latviyanın dövlət himnləri səsləndi.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi.*

*Prezidentlər Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Latviyanın dövlət və hökumət nümayəndələri Azərbaycan prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri Latviya prezidenti Valdis Zatlersə təqdim olundu.*

*Prezidentlər və xanımları rəsmi foto çəkdirdilər.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva «Riqa» qəsrinin «Gerblər» salonunda Fəxri qonaqlar kitabına ürək sözlərini yazdılar.*

## «AZADLIQ» ABİDƏSİNİ ZİYARƏT

*Riqa*

*17 yanvar 2011-ci il*

*Yanvarın 17-də Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, Latviya prezidenti Valdis Zatlers və xanımı Lilita Zatlere Riqa şəhərində «Azadlıq» abidəsinin ucaldıldığı mərkəzi meydana gəldilər.*

*Meydanda Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Dövlət başçıları abidənin önünə gül qoydular, Latviyanın müstəqilliyi uğrunda həlak olanların xatirəsini yad etdilər.*

*Hərbi orkestrin ifasında Azərbaycanın və Latviyanın dövlət himnləri səsləndirildi.*

*Latviya prezidenti Valdis Zatlers Azərbaycanın dövlət başçısına məlumat verdi ki, latış xalqının azadlıq rəmzi olan bu abidə 1935-ci il noyabrın 18-də ucaldılmışdır. Latviya 1918-ci ildə məhz noyabrın 18-də müstəqil respublika elan edilmişdi. 1940-cı ildə Latviya Sovet İttifaqına birləşdirildikdən sonra bu abidənin önünə gül-çiçək qoymaq qadağan olunmuşdu. Buna baxmayaraq, latış xalqı milli azadlıq hərəkatlarının, tarixi hadisələrin ildönümünü, repressiya qurbanlarının xatirəsini burada yad edirdi. Keçən əsrin sonunda xalqın yenidən müstəqillik uğrunda mübarizəsi də məhz buradan başlanmışdı.*

*Dövlətimizin başçısına abidənin yerləşdiyi meydanın ətrafında aparılmış abadlıq işləri barədə də məlumat verildi.*

*Azərbaycan prezidenti İlham Əliyev Riqanın qocaman sakini ilə söhbət etdi, xatirə şəkli çəkdirdi.*

## LATVİYA PREZİDENTİ VALDİS ZATLERS İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Riqa*

*17 yanvar 2011-ci il*

*Yanvarın 17-də Riqada rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan prezidenti İlham Əliyevin və Latviya prezidenti Valdis Zatlersin təkbətək görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişafından məmnunluq ifadə edildi, əməkdaşlığın genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu bildirildi.*

*Söhbət zamanı Azərbaycan ilə Latviya arasında əlaqələrin Avropa İttifaqı çərçivəsində əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyəti vurğulandı, ikitərəfli münasibətlər və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Riqa*

*17 yanvar 2011-ci il*

*Yanvarın 17-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan və Latviya prezidentlərinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə danışıqları olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyevi Latviyada görməkdən məmnun olduğunu bildirən prezident Valdis Zatlers özünün Azərbaycana rəsmi səfərinin uğurlu olduğunu xatırlatdı. Azərbaycanın dövlət başçısının indiki səfərindən sonra Bakı ilə Riqa arasında əlaqələrin daha da inkişaf edəcəyinə ümidvar olduğunu söylədi.*

*Latviya kimi gözəl ölkəyə səfər etməsindən məmnunluğunu ifadə edən Azərbaycan prezidenti İlham Əliyev vurğuladı ki, bu səfər ikitərəfli münasibətlərin müzakirəsi, qarşılıqlı surətdə faydalı dialoq və əməkdaşlığı inkişaf etdirmək üçün yaxşı bir imkandır. Keçiriləcək Latviya–Azərbaycan biznes-forumunun nəticələri uğurlu olacaq və ölkələrimiz arasında əməkdaşlığın inkişafına fayda verəcəkdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlar, ölkələrimiz arasında iqtisadi, enerji, informasiya-kommunikasiya texnologiyaları, qarşılıqlı sərmayələrin qoyuluşu, humanitar, təhsil sahələrində əlaqələr müzakirə edildi, ikitərəfli münasibətlərin Avropa İttifaqı çərçivəsində əməkdaşlığın inkişafı baxımından əhəmiyyəti vurğulandı və bu əməkdaşlığın daha da genişlənəcəyinə əminlik ifadə olundu.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Riqa*

*17 yanvar 2011-ci il*

*Yanvarın 17-də Riqada Azərbaycan–Latviya sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*Dövlət başçıları İlham Əliyev və Valdis Zatlers «Azərbaycan Respublikası Prezidentinin və Latviya Respublikası Prezidentinin Birgə Bəyannaməsi»ni imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti ilə Latviya Respublikası Hökuməti arasında fövqəladə halların xəbərdar edilməsi və aradan qaldırılması sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov və Latviyanın Daxili İşlər naziri xanım Linda Murniese imzaladılar.*

*«Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Latviya Respublikasının Dövlət Gəlirlər Xidməti arasında vergi qanunvericiliyinə əməl edilməsi məsələləri üzrə qarşılıqlı inzibati yardım və informasiya mübadiləsi haqqında Saziş»i Azərbaycanın Vergilər naziri Fazil Məmmədov və Latviyanın Gəlirlər üzrə Dövlət Agentliyinin Baş direktoru xanım Nelija Jezdakova imzaladılar.*

## AZƏRBAYCAN–LATVİYA BİZNES-FORUMU

*Riqa*

*17 yanvar 2011-ci il*

*Yanvarın 17-də Riqada Azərbaycan–Latviya biznes-forumu keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və Latviya prezidenti Valdis Zatlers biznes-forumda iştirak etmişlər.*

*Forum iştirakçıları Azərbaycanın və Latviyanın dövlət başçılarını hərarətlə qarşıladılar.*

*Biznes-forumda hər iki ölkədən 200 iş adamı iştirak etmişdir. Forumun əsas məqsədi sahibkarlar arasında iqtisadiyyatın müxtəlif sahələrində səmərəli əməkdaşlığın qurulması və mövcud iqtisadi potensialdan yararlanaraq, ticarət dövriyyəsini hər iki ölkəni qane edən səviyyəyə çatdırmaqdır.*

*Prezidentlər biznes-forumda çıxış etdilər.*

### Latviya prezidenti Valdis Zatlersin çıxışı

Cənab Prezident, zati-aliləri!

Nazirlər, Azərbaycanın və Latviyanın işgüzar dairələri, xanımlar və cənablar!

Riqa şəhərinə xoş gəlmisiniz! Latviya–Azərbaycan biznes-forumunda çıxış etmək imkanından məmnunam. Mən iki ölkənin işgüzar dairələri arasında bu cür görüşlərin və biznes-forumların təşkil edilməsinin ənənəyə çevrilməsini alqışlayıram. Tədbirin təşkilatçılarına – Latviyanın İnvestisiya və İnkişaf Agentliyi və Azərbaycanın AZPROMO şirkətinə öz minnətdarlığımı bildirmək istəyirəm. Onlar bu görüşün keçirilməsi üçün böyük işlər görmüşlər.

Coğrafi baxımdan Latviya və Azərbaycan arasında məsafə kifayət qədər böyükdür. Lakin bu, ölkələrimizin əməkdaşlığına mane olmayıb. Çox şadam ki, ötən biznes-forumlar zamanı işgüzar dairələrimiz biznes əlaqələri qura bilib və bu, tərəfdaşlıq sazışlərinin əldə olunması ilə nəticələnib. Onlar həqiqətən, birgə çalışmaqda maraqlıdırlar.

Xanımlar və cənablar, iqtisadi əlaqələr üçün ilkin şərt uğurlu siyasi əməkdaşlıqdır, o cümlədən yüksək səviyyəli siyasi səfərlər və iqtisadi əlaqələr üçün zəruri qanunvericilik bazasının olmasıdır.

Cənab Prezident, Sizin Latviyaya səfəriniz ölkələrimiz arasında uğurlu əməkdaşlığı, o cümlədən Azərbaycan və Latviya arasındakı ikitərəfli əlaqələrdə mövcud olan sabitliyin və qarşılıqlı anlaşmanın olmasını təsdiq edir. Mən şadam ki, Latviya–Azərbaycan Hökumətlərarası Komissiyası ikitərəfli əlaqələrin yüksəldilməsi və əlaqələndirilməsində, həmçinin hökumət səviyyəsində biznes prioritetlərinin dəstəklənməsində səmərəli bir alətə çevrilə bilib.

Tərəfdaşlığımızın ikitərəfli olmasını bu gün prezident Əliyevin və mənim imzaladığımız bəyannamə nümayiş etdirir. Bu onu da göstərir ki, biz tərəfdaşlığımızın qanunvericilik bazasını elə bir səviyyədə genişləndirmək istəyirik ki, ikitərəfli əlaqələrimizin yüksəldilməsini daha da sürətləndirək. Hər iki tərəf malların və xidmətlərin bazarlara çıxışına şərait yaratmaqla, biznes mühitinin yaxşılaşdırılmasına dəstək verməklə və mütəmadi olaraq biznes-forumların keçirilməsi yolu ilə iqtisadi artıma yardımçı olmağa razılıq verdi.

Bəyannamədə ikitərəfli iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün sərmayələrin vacibliyini qeyd etdik. Vədimiz odur ki, biz əlaqələri, beynəlxalq və regional təhlükəsizlik baxımından təcrübə mübadiləsini mütəmadi davam etdirəcəyik.

İqtisadi əməkdaşlıq Latviya və Azərbaycan arasındakı ikitərəfli əlaqələrdə ən mühüm amillərdən biridir. Biz ötən bir neçə il ərzində bu əlaqələrdə müsbət inkişaf dinamikasının şahidi olduq. Misal üçün, 2009-cu ilin eyni dövrü ilə müqayisədə, 2010-cu ilin ilk üç rübündə Azərbaycan və Latviya arasında olan ticarət dövriyyəsi 10 faiz artmışdır. Son 5 il ərzində

ölkələrimiz arasında ticarət dövriyyəsi 81 faizədək artmışdır. Bu, böyük nailiyyətdir. Bu sahənin daha da inkişaf etdirilməsi üçün böyük potensial vardır. Mən ölkələrimiz arasında səmimi dostluğu, həmçinin iqtisadi, sosial və mədəniyyət sahələrində uğurlu əməkdaşlığı yüksək qiymətləndirirəm.

Latviya son 20 ildə Avropa İttifaqına və NATO-ya daxil olmaq üçün böyük işlər görüb. Mən fəxr edirəm ki, bizim üzv ölkə olmağımız, həmin təşkilatlar ilə Azərbaycan arasında olan etibarlı tərəfdaşlıq ölkələrimiz və regionlarımızın əməkdaşlığı üçün daha da geniş imkanlar açır.

İqtisadi əməkdaşlıq baxımından Latviya və Azərbaycan arasında elə xüsusi sahələr var ki, onlar çox vədedicidir. Bunların arasında Latviyanın yüksək səviyyədə inkişaf etmiş kimya, əczaçılıq və informasiya texnologiyaları, həmçinin ərzaq sənayesi və maliyyə sektorları vardır. Eyni zamanda, tikinti, metal emalı, enerji, elektronika, nəqliyyat və logistika, o cümlədən təhsil sahələrində böyük biznes əlaqələrinin qurulması üçün geniş imkanlar mövcuddur.

İcazə verin, iki misal çəkim. İnformasiya texnologiyalarına gəldikdə, biz dilçilik texnologiyaları sahəsində Azərbaycanla əməkdaşlığımızı genişləndirmək imkanlarını görürük. Beləliklə, informasiya-kommunikasiya texnologiyaları və həll variantlarına gəldikdə, milli dildən istifadəni təşviq etmiş oluruq. Biz uğurla başlamış bu sahədəki əməkdaşlıqdan məmnunuq və dilçilik texnologiyalarının inkişaf etdirilməsində Latviyanın İnformasiya Texnologiyaları Mərkəzi ilə onun «Language Shore» təşəbbüsü əsasında işin aparılması üçün böyük potensialı görürük.

Ölkələrimizin iş adamları arasında əməkdaşlıq üçün olduqca perspektivli digər istiqamət bank və sığorta sektorunun kompyuterləşdirilməsidir. Latviya bu baxımdan təqdim oluna biləcək həll variantlarını inkişaf etdirib.

Ərzaq ixracı sahəsində məhsulların çatdırılması və paylanmasında ən münasib yolların araşdırılması baxımından daha fəal əməkdaşlıq etmək üçün, həmçinin böyük potensial

mövcuddur. Ümid edirəm ki, Latviyada istehsal olunan çox ləziz ərzaq malları haqqında Siz daha dolğun məlumatı əldə edəcəksiniz.

Biznes-forum iştirakçılarına müraciət edərək bildirmək istərdim ki, Latviya Azərbaycanın iş adamlarının Latviyada sərmayə yatırımlarında maraqlıdır və təqdim etdiyimiz imkanlardan istifadə edilməlidir. Məsələn, təhlükəsiz biznes mühiti, coğrafi mövqeyimiz, keyfiyyətli işçi qüvvəsi, innovasiya baxımından yüksək səviyyəli potensial və Avropa İttifaqının ümumi bazarının bir hissəsi olmağımız kimi faktları qeyd etmək olar.

Baltik dənizi regionu yüksək texnologiyalar, innovasiyalar və elm baxımından Avropa İttifaqında ən inkişaf etmiş regionlardan biridir. Riqa iqtisadiyyatı və inkişafı əks etdirən əsas şəhərlər sırasındadır. Latviya və Riqanın coğrafi üstünlükləri, eləcə də Baltik dənizi regionunda artan iqtisadi potensialımız cəlbedici sərmayə mühitinin olmasını nümayiş etdirir. Sürətli tənəzzüldən sonra Latviyanın iqtisadiyyatı son il ərzində iqtisadi inkişaf və biznes mühiti baxımından bir sıra göstəricilərini yaxşılaşdırmışdır. Ən yüksək artım ixrac sektorunda müşahidə olunur. Bu sahədəki göstəricilər bir neçə rüb ərzində yüksələn xətlə artmışdır. Bu onu göstərir ki, şirkətlərimiz və sənayemiz məhsuldarlıqda gözəçarpan artımı təmin etmək məqsədi ilə yenidən strukturlaşma işləri aparmışlar.

Dünya Bankının «Doing Business» hesabatındakı reytinqdə Latviya biznes inkişafı baxımından ən uğurlu ölkələr sırasında olaraq 24-cü yeri tutur. Son il ərzində biz üç pillə qalxmışıq. Latviya bütün Avropa İttifaqında ən aşağı korporativ vergiləri təmin edən ölkələr sırasında olmasından qürur hissi duyur. Korporativ gəlir vergisinin səviyyəsi 10 faizdən aşağıdır. Latviyada xarici sərmayələr və istehsalatın inkişafı üçün münbit şərait vardır.

Xanımlar və cənablar, bugünkü biznes-forumu alqışlayır və bu tədbiri ölkələrimizin iş adamları arasında qarşılıqlı əlaqələrin

dərinləşməsi üçün fürsət kimi görürəm. Ümidvar olduğumu qeyd etmək istəyirəm ki, Latviyanın Sərmayə və İnkişaf Agentliyi ilə Azərbaycanda İnvestisiyaların və İxracın Təşviqi Fondu arasında səmərəli əməkdaşlıq davam və inkişaf edəcəkdir.

Latviya iş adamları nailiyyətlərini əldə etdiyi təqdirdə bundan çox məmnun olar və əminik ki, biz biznes və sərmayə üçün daha münbit şəraiti inkişaf etdirəcəyik. Xanımlar və cənablar, sizə uğurlar arzulayıram. Ümid edirəm ki, siz ölkəmdə – Latviyada biznesin inkişaf etdirilməsi üçün yeni imkanlar tapacaqsınız.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Mən ilk növbədə, biznes-forumun bütün iştirakçılarını səmimi-qəlbdən salamlayıram!

Hesab edirəm ki, bugünkü tədbir çox əhəmiyyətlidir. Artıq Latviya–Azərbaycan biznes-forumlarının keçirilməsi gözəl ənənəyə çevrilibdir. Birinci dəfə deyil ki, ölkələrimizin iş adamları bir araya gəlirlər. Görünür, qarşılıqlı maraq o qədər böyükdür ki, biznes-forumların mütəmadi qaydada keçirilməsi artıq reallığa çevrilibdir.

Həqiqətən, qarşılıqlı maraq böyükdür. Baxmayaraq ki, Latviya ilə Azərbaycan arasında iqtisadi əlaqələr hazırda bizi qane etmir və bu gün biz cənab Prezidentlə bu barədə fikir mübadiləsi apardıq. Hesab edirəm ki, potensial daha da güclüdür. Ancaq bugünkü siyasi əlaqələr və iki ölkə arasında inkişafda olan əməkdaşlıq meyilləri biznes sahəsində inkişafa da gözəl şərait yaradır.

Biz çalışmalıyıq ki, aramızdakı əlaqələr çoxşaxəli olsun, bütün sahələri əhatə etsin, o cümlədən iqtisadi sahədə daha da böyük işlərin görülməsi üçün yaxşı imkanlar vardır.

Bu gün Latviya ilə Azərbaycan arasında çox önəmli sənədlər imzalanmışdır. Onların arasında Birgə Bəyannaməni xüsusilə qeyd etmək istəyirəm. Bəyannamədə əks olunan məsələlər münasibətlərimizin perspektivlərini müəyyən edir və niyyətimizi ifadə edir. Bu gün, bütövlükdə mənim Latviyaya ikinci səfərim zamanı çox faydalı danışıqlar, geniş fikir mübadiləsi aparılmışdır. Əminəm ki, bu səfər iki ölkə arasındakı münasibətlərə güclü təkan verəcəkdir.

Azərbaycan iqtisadi cəhətdən sürətlə inkişaf edən ölkədir. Son illər iqtisadiyyatımız dünyada ən yüksək templərlə inkişaf etmiş, son 7 ildə Azərbaycanda ümumi daxili məhsul təxminən 3 dəfə artmışdır, yoxsulluq 4-5 dəfə azalmışdır, ölkəmizdə 900 mindən artıq yeni iş yeri açılmışdır, ölkə iqtisadiyyatına çox güclü təkan verilmişdir, Azərbaycana investisiyalar cəlb olunur. Təkcə keçən il ölkəmizə 15,5 milyard dollar sərmayə qoyulmuşdur. Onun böyük hissəsi artıq daxili sərmayələrdir. Azərbaycan şirkətləri və Azərbaycan dövləti tərəfindən 9 milyarddan çox vəsait qoyulmuşdur.

Ölkəmizdə çox əlverişli investisiya mühiti vardır. Adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə Azərbaycan MDB məkanında birinci yerdədir. Dünya İqtisadi Forumunun hesablamalarına görə, rəqabət qabiliyyətliliyinə görə yenə də Azərbaycan MDB məkanında birinci yerdədir. Yəni biz çalışırıq ki, iqtisadi islahatlarımız ölkəmizin hərtərəfli inkişafına xidmət etsin.

Bu gün biz iqtisadiyyatımızın şaxələndirilməsini təmin etmək üçün çox böyük səylər qoyuruq və bu səylər özünü göstərir. Energetika, neft-qaz sənayesi iqtisadiyyatımızın əsas sektorudur. Baxmayaraq ki, 2009-cu ildə dünyada neftin qiyməti, demək olar ki, 4-5 dəfə aşağı düşmüşdü, Azərbaycan iqtisadiyyatı 9,3 faiz artmışdı. Bu artımın əsas səbəbi əvvəlki illərdə aparılan islahatlardır və qeyri-neft sektoruna, infrastruktur layihələrinə qoyulmuş vəsaitdir. Keçən il Azərbaycanda yenə də iqtisadi inkişaf müşahidə olunmuşdur,

iqtisadiyyatımız 5 faiz artmışdır. Əminəm ki, bu gözəl meyillər növbəti illərdə daha da güclənəcəkdir.

Mən hesab edirəm ki, bu tərkibdə görüşlər çox böyük məna daşıyır. Çünki mövcud layihələr yenə də nəzərdən keçirilir. Gündəliklə tanış olarkən gördüm ki, Azərbaycanda icrada olan və icrasını gözləyən layihələr burada təqdim edildi. Biz Azərbaycanda yeni sahələrin fəaliyyəti üçün çox böyük səylər göstəririk. Bizim üçün ənənəvi olmayan sahələrə çox böyük diqqət göstəririk. Cənab prezident Zatlers qeyd etdi ki, əməkdaşlığımızın perspektivli sahəsi olan informasiya-kommunikasiya texnologiyaları sahəsində Latviyanın çox böyük uğurları vardır. Azərbaycan da bu istiqamətdə çox vacib addımlar atır və İKT-nin inkişafına görə yenə də MDB məkanında birinci sıralardadır.

Biz artıq Azərbaycanda kosmik sənayenin inkişafına başlamışıq. İki ildən sonra Azərbaycanın birinci süni peyki orbitə çıxarılacaqdır. Beləliklə, bundan sonrakı tədbirlər nəticəsində Azərbaycanda ənənəvi olmayan kosmik sənayenin yaranması mümkün olacaqdır.

Biz ölkəmizdə geniş modernləşdirmə siyasəti aparırıq. Bu siyasət bizə imkan verəcək ki, enerji resurslarından daha da az asılı olaq. Bizim əsas məqsədimiz güclü, dayanıqlı, uzunmüddətli iqtisadi inkişafı təmin etmək, insanların rifah halını yaxşılaşdırmaq, Azərbaycanda sosial məsələlərin həlli üçün bütün lazımi tədbirləri görməkdir. Bu məqsədlə ölkəmizin müxtəlif sahələrinə dövlət tərəfindən böyük investisiyalar qoyulur. Mən hesab edirəm ki, Latviya iş adamları bu imkanlardan da istifadə edə bilərlər. Bizim investisiya portfelimiz çox böyükdür və Latviya iş adamları təcrübələrini müxtəlif inşaat sahələrində təqdim edə bilərlər.

Azərbaycan investisiyalar üçün də çox əlverişli ölkədir və biz Latviyadan investisiyaları gözləyirik. Əminəm ki, bu investisiyalar daha da böyük həcmlə ölçüləcək, Azərbaycan öz tərəfindən xarici ölkələrə böyük həcmdə investisiyalar qoymağa başlamışdır. Son bir neçə ildə qonşu ölkələrə bir neçə milyard dollar Azərbaycan

investisiyaları qoyulubdur və bu proses davam etdirilir. Biz maraqlıyıq ki, bizim üçün dost olan ölkələrlə investisiya layihələri əsasında əməkdaşlığımızı gücləndirək.

Bizim üçün ənənəvi olan energetika sektoru Azərbaycanda sürətlə inkişaf edir. Keçən il Azərbaycanda 51 milyon ton neft və 27 milyard kubmetr qaz hasil olunmuşdur ki, bunların böyük hissəsi dünya bazarlarına ixrac edilmişdir. Bir neçə gün bundan əvvəl Avropa Komissiyasının sədri cənab Barrozunun Azərbaycana səfəri zamanı Avropa İttifaqı ilə Azərbaycan arasında energetika sektoruna dair çox vacib bəyannamə imzalanmışdır. Bəyannamənin Avropa İttifaqı ilə Azərbaycan arasındakı gələcək əməkdaşlığa da çox böyük təsiri olacaqdır. Bütövlükdə, Avropa İttifaqı ilə Azərbaycan arasındakı münasibətlər çox sağlam təməl üzərində qurulubdur. Bu, qarşılıqlı maraqlar, qarşılıqlı hörmət üzərində qurulmuş münasibətlərdir. Latviya Azərbaycan üçün dost ölkə kimi, Avropa İttifaqı–Azərbaycan əlaqələrinə də öz dəyərli töhfəsini verir. Biz hər zaman Latviyanın bu sahədəki fəaliyyətini qeyd etmişik və bunu bu gün də qeyd edirik. Şübhə yox ki, növbəti illərdə Avropa İttifaqı ilə Azərbaycan arasındakı münasibətlər daha da güclənəcək, daha da çox sahəni əhatə edəcək və beləliklə, Azərbaycan Avropaya daha da yaxınlaşacaqdır. Biz bunu istəyirik və hesab edirik ki, hər iki tərəfin bir-birinin maraqlarına töhfə verə biləcək məsələlər, amillər kifayət qədərdir, sadəcə olaraq, bütün bu işləri vaxtında və düzgün həll etməliyik.

Deyə bilərəm ki, nə 2009-cu ildə, nə də 2010-cu ildə Azərbaycan əhalisi bu böhranın acı nəticələrini hiss etmədi. Bizim milli valyutamızın – manatın məzənnəsi sabit olaraq qalırdı. Valyuta ehtiyatlarımız keçən il daha da artdı. Bu gün Azərbaycanın valyuta ehtiyatları 30 milyard dollara bərabərdir. Bu, böyük rəqəmdir və bizə imkan verir ki, özümüzü çox əmin hiss edək. İstənilən layihənin Azərbaycanda həyata keçirilməsi üçün beynəlxalq maliyyə qurumlarına müraciətimizə artıq ehtiyac qalmır. Azərbaycan yaxın gələcəkdə beynəlxalq maliyyə

təşkilatları ilə bərabər, üçüncü ölkələrdə müxtəlif yardım proqramlarında da iştirak etməyə hazırdır.

Bizim regionlar bir-biri ilə, demək olar ki, təzə-təzə əlaqə yaratmaqdadır. Xəzər hövzəsi və Baltik dənizi hövzəsində yerləşən ölkələr arasında ənənəvi olaraq münasibətlər yaxşı səviyyədə qurulmuşdur. İndiki şəraitdə bu münasibətlər yeni müstəvidədir və regional əməkdaşlıq üçün nəqliyyat layihələri də böyük əhəmiyyət kəsb edir. Onların arasında Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisini xüsusilə qeyd etmək istəyirəm. Azərbaycan bu layihə üzərində öz qonşuları ilə işləyir. Ümid edirəm ki, iki ildən – bu dəmir yolu istismara veriləndən sonra Avropanı Asiya ilə birləşdirən yeni İpək yolu fəaliyyətə başlayacaq və həm Avropada, həm Asiyada yerləşən ölkələr bu işlərdən faydalanacaqlar. Qürur hissi ilə deyə bilərəm ki, uzun illərdir müzakirə mövzusu olan bu layihə Azərbaycanın fəal səyləri nəticəsində həyata keçirilməyə başlanmışdır.

Hər bir iqtisadi təşəbbüs Azərbaycan tərəfindən çox yüksək qiymətləndirilir. Biz özümüz bölgədə müxtəlif iqtisadi və infrastruktur təşəbbüsləri ilə çıxış etmişik və bu gün bu təşəbbüslər reallaşıb, xüsusilə energetika və nəqliyyat sektorunda.

Latviya–Azərbaycan əlaqələrinə qayıdaraq qeyd etmək istəyirəm ki, bu əlaqələr çox möhkəmdir. Bizim güclü siyasi iradəmiz vardır. Siyasi maraqlar çox yüksək səviyyədədir və belə olan halda, əlbəttə ki, iş adamları bu gözəl imkanlardan istifadə etməlidirlər. İnvestisiyalar dost ölkələrə qoyulur. İnvestisiyalar proqnozlaşdırıla biləcək ölkələrə qoyulur. Bizim müttəfiqliyimiz və əməkdaşlığımız iş adamları üçün də hesab edirəm ki, çox gözəl dəstəkdir.

Mən bir daha biznes-forumun bütün iştirakçılarını ürəkdən salamlayıram, latviyalı dostlarımıza, xüsusilə cənab prezident Zatlersə bizə göstərdiyi qonaqpərvərliyə görə minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, bu biznes-forumun gələcəkdə çox gözəl nəticələri olacaqdır.

Sağ olun!

* * *

*Tədbirdə Azərbaycan ilə Latviya arasında biznes və investisiyalar sahəsində əməkdaşlığa dair birgə sənədlər imzalandı.*

*Biznes-forumda Azərbaycanın və Latviyanın iqtisadi inkişafı, investisiya imkanları və əməkdaşlıq potensialı barədə ətraflı məlumat verildi, müxtəlif layihələrin təqdimatları keçirildi.*

*Azərbaycan və Latviya prezidentləri tədbir çərçivəsində təşkil edilmiş sərgi ilə tanış oldular, hər iki ölkədə istehsal edilən müxtəlif növ məhsulların nümunələrinə baxdılar.*

## MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*Riqa*

*17 yanvar 2011-ci il*

*Yanvarın 17-də Riqada Azərbaycan–Latviya biznes-forumu başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Latviya prezidenti Valdis Zatlersin birgə mətbuat konfransı olmuşdur.*

*Dövlət başçıları əvvəlcə bəyanatlarla çıxış etdilər.*

### Latviya prezidenti Valdis Zatlersin bəyanatı

Mən dostum, Azərbaycan prezidenti İlham Əliyevi Riqada salamlamağa çox şadam. Biz burada çox gözəl mühitdə və xoş niyyətlərlə ölkələrimizin iqtisadi və mədəni əməkdaşlığını inkişaf etdirmək əzmindəyik.

İki ölkənin münasibətləri çox müsbət inkişaf edir. Məsələn, biz iqtisadi tənəzzül illərinə baxsaq görərik ki, Azərbaycan ilə Latviyanın iqtisadi əməkdaşlığının həcmi 10 faiz artıb. Bugünkü biznes-forum və mənim Bakıya səfərim zamanı keçirilən biznes-forum iqtisadi əməkdaşlığımızın daha da sıx olması üçün atılan növbəti addımlardır. Bu gün Azərbaycan–Latviya İşgüzar Şurası yaranacaqdır. Yəni, ölkələrimiz arasında əlaqələri təkcə dövlət başçıları və hökumətlər deyil, həm də iş adamları möhkəmləndirəcəklər.

Biz gələcəyə baxarkən ikitərəfli əlaqələrimizi möhkəmləndirmək və Avropa İttifaqı ilə Azərbaycan arasında daha sıx əməkdaşlığa dəstək vermək üçün «Şərq Tərəfdaşlığı» layihəsindən necə yararlanmağı da düşünürük. Burada bizim

təhsil və məhz dövlət idarəçiliyində informasiya texnologiyaları sahələrində əməkdaşlığa dair çox yaxşı müzakirələrimiz olub. Biz sərhədlərin qorunmasında və gömrük məsələlərində necə əməkdaşlıq edə biləcəyimiz haqqında söhbət etdik. Zənnimcə, «Şərq Tərəfdaşlığı»nın müvəffəqiyyəti üçün olduqca əhəmiyyətlidir ki, Azərbaycan bu tərəfdaşlığı, onun mahiyyətini necə gördüyünü və Latviyanın Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin inkişafına hansı töhfə verə biləcəyini dəqiq desin.

Biz energetika məsələlərinə də toxunduq. Çünki Azərbaycan enerji ehtiyatlarının Avropaya çatdırılmasında mühüm rol oynayır. Gələcəkdə biz – hər iki tərəf bu rolun artması üçün əlimizdən gələni əsirgəməyəcəyik.

Bir sözlə, müzakirə edilən məsələlər çox idi. Sonra isə mən sizin birbaşa konkret suallarınıza cavab verəcəyəm.

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə qeyd etmək istəyirəm ki, yenidən dost Latviyada olmağımdan çox məmnunam. Cənab Prezident, məni Latviyaya dəvət etdiyiniz üçün Sizə minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, səfərim Latviya–Azərbaycan əlaqələrinin inkişafı üçün mühüm rol oynayacaqdır. Cənab Prezident, biz Sizin 2009-cu ildə Azərbaycana səfərinizi xatırlayırıq və o səfər zamanı əldə edilmiş razılaşmalar uğurla icra edilir və bu gün imzalanmış vacib sənədlər gələcək illərdə də münasibətlərimizi müəyyən edəcəkdir. Mən imzalanmış sənədlərin arasında Birgə Bəyannaməni xüsusi vurğulamaq istəyirəm. Bəyannamə çox ciddi bir sənəddir və orada gələcək əməkdaşlığımızın bütün istiqamətləri öz əksini tapıbdır.

Artıq Latviya prezidenti bu gün müzakirə edilmiş məsələlər haqqında məlumat verdi, onu təkrarlamaq istəmirəm. Sadəcə olaraq, demək istəyirəm ki, həm siyasi, həm iqtisadi, həm

mədəniyyət sahəsində gələcək əməkdaşlıq üçün çox gözəl perspektivlər vardır. Ölkələrimiz dost ölkələrdir. Siyasi əlaqələr çox yüksək səviyyədədir. Ümid edirəm ki, iqtisadi sahədə görüləcək işlər iqtisadi münasibətlərimizi də siyasi münasibətlərin səviyyəsinə qaldıracaqdır.

Bu məqsədlər üçün bu gün keçirilən biznes-forum çox böyük əhəmiyyətə malikdir. Azərbaycandan Latviyaya mənimlə bərabər 50-dən çox iş adamı gəlmişdir ki, öz həmkarları ilə gələcək planlar haqqında fikir mübadiləsi aparsın.

Enerji məsələlərinə gəldikdə, Azərbaycan Avropa İttifaqı ilə bu sahədə çox uğurlu əməkdaşlıq edir. Bu ayın 13-də Bakıda Avropa Komissiyasının sədri cənab Barrozunun səfəri zamanı Avropa İttifaqı ilə Azərbaycan arasında enerji məsələlərinə dair Birgə Bəyannamə imzalanmışdır. Bəyannamə gələcək əməkdaşlığımızın istiqamətlərini müəyyən edir. Bəyannamədə nəzərdə tutulmuş məsələlər 2011-ci ildə icra edilməyə başlanacaqdır. Azərbaycanın zəngin neft-qaz ehtiyatları dünya bazarlarına müxtəlif yollarla nəql edilir. Azərbaycan Avropa İttifaqının enerji təhlükəsizliyi məsələlərinə öz töhfəsini verməyə hazırdır.

Bu gün də biz regional məsələlər haqqında fikir mübadiləsi apardıq. Xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair danışıqların son mərhələsi haqqında prezident Zatlersə məlumat verdim. Bu məsələ uzun illərdir ki, öz həllini gözləyir. Məsələ isə beynəlxalq hüquq normaları əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Beynəlxalq təşkilatların – BMT, ATƏT, Avropa Şurası, Avropa parlamenti və başqa bu kimi təşkilatların ədalətli qətnamələri və qərarları əsasında öz həllini tapmalıdır.

«Şərq Tərəfdaşlığı» proqramına gəldikdə isə, Azərbaycan bu proqramın icrasına çox böyük ümidlərlə baxır. Əminəm ki, bu proqramın icrası bizi Avropa ilə daha da yaxınlaşdıracaqdır.

* * *

*Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.*

**S u a l: Sualım hər iki dövlətin başçısınadır. Burada artıq iqtisadi əməkdaşlıq imkanları məsələsi səslənib. Konkret sahələri qeyd etmək olar və Azərbaycan yüklərinin Riqa limanına cəlb edilməsi layihəsi barədə ətraflı məlumat verə bilərsinizmi?**

**V a l d i s  Z a t l e r s:** İqtisadi əməkdaşlığın istiqamətləri kifayət qədər çoxdur. Biz adət etmişik ki, Latviya öz qida məhsullarını ixrac edir və onlar bir çox ölkədə, o cümlədən Azərbaycanda yüksək dəyərləndirilir. Azərbaycanın özəl şirkətləri və dövlət müəssisələri üçün Latviyanın informasiya texnologiyaları layihələrinin ixrac imkanlarına da böyük maraq vardır. Biz həmçinin təhsil sahəsində əməkdaşlıq imkanları barədə danışdıq. Çünki təhsil də bir növ ixrac məhsuludur. Biz Azərbaycanın və Latviyanın qarşılıqlı maraqlarını müzakirə etdik. Nəqliyyat, energetika haqqında danışdıq.

Bilirsiniz, biznes-forum daha çox imkan nümayiş etdirəcəkdir. Mənim «Dillər sahili» layihəsindən çox xoşum gəlir. Bu, rəqəmsal formatda hazırlana biləcək tərcümələr layihəsidir. Bu, azsaylı xalqlar üçün öz dilindən istifadə edərək internet mühitinə daha yaxşı çıxış əldə etmək, tərcümə etmək, bir-birini anlamaq imkanıdır. Bir sözlə, imkanlar çoxdur, çünki həm Latviya, həm Azərbaycan əməkdaşlıq və iqtisadiyyatın modernləşdirilməsi yolu ilə addımlayır.

**İ l h a m  Ə l i y e v:** Etiraf etməliyəm ki, iqtisadi sahədə aramızdakı əlaqələr siyasi əlaqələrin səviyyəsinə hələ ki, qalxmayıbdır. Əminəm ki, biz bu sahədə də yaxşı nəticələri görəcəyik. Mən perspektivli sahələr arasında informasiya-kommunikasiya texnologiyalarını qeyd etmək istərdim. Azərbaycan bu istiqamətə çox böyük önəm verir və bilirəm ki, Latviyada da bu sahədə böyük işlər görülübdür.

Kənd təsərrüfatı sahəsində əməkdaşlığın yaxşı perspektivləri ola bilər. Biz energetika sahəsində qarşılıqlı sərmayələrin qoyuluşu məsələlərinə daha da diqqətlə baxmalıyıq. Bu gün Azərbaycan şirkətləri artıq öz kapitalını xarici bazarlara yönəldirlər. Bu gün keçirilən biznes-forumda iştirak edən şirkətlər Azərbaycanın aparıcı şirkətləridir. Bu şirkətlərin böyük təcrübəsi və artıq böyük maliyyə imkanları vardır. Bu məsələlər mövcud olan birgə hökumətlərarası komissiyanın iclasları zamanı daha da hərtərəfli və səmərəli qaydada müzakirə oluna bilər. Komissiyanın növbəti iclası bir neçə aydan sonra Riqada keçiriləcəkdir. Bütün təkliflər orada təhlil ediləcək və biz gələcəkdə iqtisadi əlaqələrimizi konkret proqram əsasında quracağıq.

**V a l d i s Z a t l e r s:** Biznes-forumun nə dərəcədə populyar olduğunu Latviya tərəfindən bu tədbirdə 250-dən çox iş adamının iştirak etməsi bildirir.

**S u a l: Mənim sualım hər iki prezidentədir. Ölkələrimiz arasında qarşılıqlı investisiya qoyuluşunun perspektivlərini necə dəyərləndirirsiniz?**

**İ l h a m Ə l i y e v:** Mən çıxışımda qeyd etdim ki, bu sahə perspektivli ola bilər və biz Latviya şirkətlərinin investisiyalarını alqışlayırıq. Ümid edirəm ki, bu investisiyalar Azərbaycanın iqtisadiyyatının şaxələndirilməsində mühüm rol oynayacaqdır. Biz bu gün Azərbaycanda iqtisadiyyatın bütün istiqamətlərinə böyük əhəmiyyət veririk. Biz elə etməliyik ki, iqtisadiyyatımızın neft-qaz sektorundan asılılığı minimum səviyyəyə endirilsin və buna artıq nail oluruq. İqtisadiyyatımızın şaxələndirilməsi üçün investisiyaların cəlb olunması bizim üçün çox vacibdir.

Qeyd etməliyəm ki, təkcə 2010-cu ildə Azərbaycan iqtisadiyyatına 15,5 milyard dollar sərmayə qoyulmuşdur. Onun 9,3 milyardı daxili sərmayədir, qalanı isə xarici investisiyalardır. Bizdə çox gözəl investisiya mühiti yaradılıbdır. Xarici şirkətlərin sərmayəsi lazımi səviyyədə qorunur. Azərbaycan şirkətləri artıq xarici bazarlara sərmayə qoyuluşuna başlamışlar. Bu sərmayələr artıq bir neçə milyard dolları ötüb keçib və əlbəttə ki, bizə dost ölkə

olan Latviyada investisiya imkanlarını araşdırmaq bizim üçün çox maraqlı ola bilər. Hesab edirəm ki, bu gün keçirilən biznes-forum bu məsələnin həlli üçün də öz rolunu oynamalıdır.

**V a l d i s  Z a t l e r s:** Gələcək iqtisadi əməkdaşlığın əsasını birmənalı olaraq investisiyalar təşkil edir. Hər iki tərəfin Latviyaya və Azərbaycana sərmayə qoymaqda maraqlı olduğunu nəzərə alsaq, biz 20 ildən sonra görüşə bilərik və müsbət nəticəni görəcəyik ki, ticarət dövriyyəmiz daha da çoxdur, ölkələrimizin iqtisadiyyatları qarşılıqlı qaydada bir-biri ilə daha çox bağlıdır və bir-birini tamamlayır.

**S u a l: Cənab prezident Əliyev, Siz sədr Barrozunu və imzalanmış sənədi xatırlatdınız. Avropa üçün enerji təchizatçısı olmaq və bunu xüsusən də Rusiyadan kənardan keçən boru kəməri vasitəsilə etməkdə Azərbaycanın sadiqliyi nə dərəcədə ciddidir?**

**İ l h a m  Ə l i y e v:** Biz enerji layihəmizi keçən əsrin 90-cı illərinin ortalarından başladıq. Azərbaycan Xəzər dənizində işləmək üçün xarici neft şirkətlərini dəvət edən ilk ölkə oldu. Enerji layihələrimizin tarixi 15-16 ildən əvvəlki dövrə təsadüf edir. Biz bu günə qədər neft və qazımızı beynəlxalq bazarlara nəql etmək məqsədilə zəruri infrastruktur layihələrini həyata keçirdik. Hazırda Azərbaycan neft və qazını müxtəlif istiqamətlərdə nəql edən üç neft və dörd qaz boru kəmərinə malikdir. Hasilat həcminə gəldikdə, ötən il Azərbaycanda 50 milyon tondan artıq neft və təxminən 30 milyard kubmetr qaz hasil edilmişdir. Bu həcmin əksər hissəsi ixrac edilmişdir. Qonşularımızı qazla təchiz edirik. Türkiyə, Gürcüstan, Rusiya və İranla müqavilələrimiz vardır. Hasilat və imkanlarımızı, ixrac qabiliyyətimizi artırmaq istəyirik. Birincisi, artıq işlədiyimiz bazarlara qaz təchizatını artırmaq – mən həmin ölkələri qeyd etdim – ikincisi isə yeni bazarları tapmaq nəzərdə tutulur. Bu halda biz Avropa ölkələrinin və Avropa İttifaqının olduqca ciddi yanaşmasını görürük. Həmin ciddi yanaşma öncə qeyd etdiyim kimi, Bakıda bir neçə gün əvvəl sədr Barrozunun

və mənim imzaladığımız Birgə Bəyannamədə öz əksini tapmışdır.

Bizim qaz ehtiyatlarımızın həcmi trilyonlarla kubmetrlə ölçülür. Müasir və olduqca effektiv şaxələndirilmiş infrastruktura – qaz boru kəmərlərinə malikik. Avropada isə daha çox qaza ehtiyacı olan böyük bazarımız vardır. Enerji strategiyamızda biz heç vaxt heç kimə qarşı çıxış etməmişik. Bizim üçün ən vacibi odur ki, qaz potensialımızı tam şəkildə həyata keçirək. Qaz hasilatımız ən azı iki dəfə artırıla bilər. Buna görə də bizə bazarlar lazımdır. Qazımıza ehtiyac duyan bazarlar, rəqabətcil, açıq, qanunvericiliklə tənzimlənən və uzunmüddətli bazarlar lazımdır. Hesab edirəm ki, Avropa istehlakçılarının və Azərbaycanın maraqları üst-üstə düşür. Hazırda isə istehlakçılar, hasilatçılar və əlbəttə ki, tranzit ölkələrin maraqlarını təmin etmək üçün uzunmüddətli perspektivdə birgə işləmək üzərində düşünmək vaxtı yetişib.

**S u a l: Mənim də sualım hər iki prezidentədir. Azərbaycan ilə Latviya arasında əlaqələrin regional iqtisadi əməkdaşlıq baxımından əhəmiyyəti barədə nə deyə bilərsiniz? Təşəkkür edirəm.**

**V a l d i s  Z a t l e r s:** Latviyanı birmənalı olaraq Avropa İttifaqı ölkəsi kimi dəyərləndirmək lazımdır. Ticarət dövriyyəmizin 70 faizi Avropa İttifaqı ilə bağlıdır. Azərbaycanla ikitərəfli iqtisadi münasibətləri inkişaf etdirərkən biz Azərbaycanın Avropa İttifaqı ilə iqtisadi münasibətlərinə dəstək vermiş oluruq və əksinə. Biz Qafqaz regionunda böyük iqtisadi inteqrasiyanı görmək istəyirik. Biz hər bir ölkə ilə ikitərəfli münasibətlərin formalaşdırılması hesabına regionun ümumi iqtisadi əməkdaşlığını dəstəkləyəcəyik. Bu gün iqtisadiyyat qlobaldır. Biz daha «biz – sizə, siz – bizə» deyə bilmərik. Bunun həmişə regional, bir çox halda isə, həmçinin qlobal konteksti olub.

**İ l h a m  Ə l i y e v:** Mən qeyd etmək istəyirəm ki, iqtisadi sahədə görüləcək işlər çoxdur. İki tərəfin bu məsələlərin həlli üçün böyük marağı vardır. Baxmayaraq ki, iki ölkə arasında

iqtisadi sahədə müəyyən qədər canlanma var və ticarət dövriyyəsi artır, hələ ki, bu bizim potensiallarımızı əks etdirmir. Əlbəttə, həm ikitərəfli formatda Latviya–Azərbaycan iqtisadi əlaqələri bizim üçün vacibdir, həm də Latviya Avropa İttifaqının üzvü kimi, Azərbaycan üçün çox cəlbedici ölkədir. Ən önəmlisi ondan ibarətdir ki, hər iki tərəfdə qarşılıqlı və çox güclü siyasi iradə vardır, ölkələrimiz dost ölkələrdir. Qeyd etdiyim kimi, siyasi əlaqələr mütəmadi qaydada öz əksini tapır. Belə olan halda biz maksimum dərəcədə iki ölkənin iqtisadi potensialını aşkarlamalıyıq, bir-birimizə təqdim etməliyik. Beləliklə, uzunmüddətli və çox uğurlu iqtisadi əməkdaşlığa nail olmalıyıq ki, bu da özlüyündə siyasi əlaqələrin inkişafı üçün mühüm töhfəsini versin.

## LATVİYA SEYMİNİN SƏDRİ XANIM SOLVİTA ABOLTİNA İLƏ GÖRÜŞ

*Riqa*

*17 yanvar 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev yanvarın 17-də Riqada Latviya Seyminin sədri xanım Solvita Aboltina ilə görüşmüşdür.*

*Latviya parlamentinin rəhbəri dövlətimizin başçısına qanunvericilik orqanının binası, strukturu və fəaliyyəti barədə ətraflı məlumat verdi.*

*Daha sonra keçirilən görüşdə Latviya Seyminin sədri bildirdi ki, onun ölkəsi Azərbaycan ilə parlamentlərarası əlaqələrin inkişafına böyük önəm verir.*

*Seymdə Azərbaycan ilə dostluq qrupunun fəaliyyət göstərdiyini xatırladan sədr Solvita Aboltina Latviyanın Azərbaycan ilə parlamentlərarası əlaqələrin genişlənməsində maraqlı olduğunu vurğuladı. Gələcəkdə bu əməkdaşlığın möhkəmlənəcəyinə əminliyini bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Latviya arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini dedi. Dövlətimizin başçısı parlamentlərarası əlaqələrin inkişafının ölkələrimiz arasında ikitərəfli münasibətlərimizə böyük töhfə verdiyini vurğuladı.*

*Azərbaycan* prezidenti *ölkələrimiz arasında əlaqələrin, o cümlədən parlamentlərarası əməkdaşlığın genişlənəcəyinə əminliyini ifadə etdi.*

## LATVİYANIN BAŞ NAZİRİ VALDİS DOMBROVSKİS İLƏ GÖRÜŞ

*Riqa*

*17 yanvar 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 17-də Riqada Latviyanın Baş naziri Valdis Dombrovskis ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Latviya arasında iqtisadi əməkdaşlığın, müxtəlif sahələrdə əlaqələrin inkişaf perspektivləri barədə müzakirələr aparıldı.*

*Energetika, qarşılıqlı investisiyaların qoyuluşu, ticarət dövriyyəsinin artırılması üçün imkanların araşdırılması önəminin vurğulandığı görüşdə iqtisadi əməkdaşlığın genişləndirilməsində hökumətlərarası komissiyanın işinin vacibliyi qeyd olundu.*

*Azərbaycan ilə Latviya arasında iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi üçün böyük potensialın və geniş imkanların olduğu vurğulanan görüşdə bu əlaqələrin gələcəkdə möhkəmlənəcəyinə əminlik ifadə edildi.*

## AZƏRBAYCAN PREZİDENTİNİN VƏ XANIMININ ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏT

*Riqa*

*17 yanvar 2011-ci il*

*Yanvarın 17-də Riqada Latviya prezidenti Valdis Zatlers və xanımı Lilita Zatlere tərəfindən Azərbaycan prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Dövlət başçıları ziyafətdə çıxış etdilər.*

### Latviya prezidenti Valdis Zatlersin çıxışı

Cənab Prezident!

Xanım Əliyeva!

Zati-aliləri, xanımlar və cənablar!

Mən və xanımım Azərbaycan Respublikasının Prezidentini və xanım Mehriban Əliyevanı Riqada qəbul etməkdən çox məmnunuq.

Mən 2009-cu ilin avqust ayında Sizin gözəl ölkənizə səfərimi məmnuniyyətlə xatırlayıram. Əminəm ki, bu səfər də Azərbaycan və Latviya müstəqilliyini bərpa etdikdən sonra 20 il ərzində ölkələrimiz arasında qurulmuş qarşılıqlı anlaşmanın davamlı təsdiqinə xidmət edəcəkdir.

Cənab Prezident və xanım Əliyeva, 1918-ci ildən başlanmış müstəqilliyin ilk mərhələsi Latviya və Azərbaycanın inkişafı üçün həlledici olmuşdur. Təəssüf ki, o dövr Azərbaycan üçün 2 ildən az müddət davam etmişdir. Lakin bu müddət

parlamentarizm və demokratiya toxumlarının ölkənizdə səpilməsi üçün kifayət etmişdir. Azərbaycan islam dünyasında ilk parlamentli respublika olmuşdur və sizin ölkəniz qadınlara hətta Böyük Britaniya və ABŞ-dan da əvvəl seçib-seçilmək hüququnu vermişdir. Bunlar bu gün Azərbaycanı demokratik dəyərlərə doğru aparan tarixi əhəmiyyətə malik hadisələrdir.

Latviya və Azərbaycan coğrafi cəhətdən strateji mövqeyə malikdir. Biz Qərblə Şərqin, Avropa ilə Asiyanın kəsişməsində yerləşirik. Bu yerləşmə heç də hər zaman bizim insanlar üçün rifah və əmin-amanlıq gətirmir. Lakin bu, xalqlarımızın ruh yüksəkliyini möhkəmləndirmiş və mədəniyyətimizi əsaslı şəkildə zənginləşdirmişdir.

Cənab Prezident və xanım Əliyeva, ötən 20 il ərzində Latviya Avropa İttifaqının və Şimali Atlantika Müqavilə Təşkilatının tam üzvü olmaq kimi strateji məqsədinə çatmaq üçün böyük işlər görmüşdür. Mən fəxrlə bildirmək istəyirəm ki, bizim üzvlük statusumuz, habelə Azərbaycanın bu təşkilatlarla sadiq tərəfdaşlığı ölkələrimiz və regionlarımız arasında əməkdaşlığa daha geniş imkanlar açmışdır.

Qısa müddət ərzində Latviya ümumi Avropa məkanına qoşulmada böyük işlər görmüşdür. Biz hətta deyə bilərik ki, islahatlar sahəsindəki təcrübəmiz, nailiyyətlərimiz və uğursuzluqlarımız bu cəhətdən Latviyanın ən dəyərli ixracat məhsullarından biri olmuşdur. Biz Azərbaycanda islahatlar istiqamətində göstərilən səylərə dəstək olaraq öz təcrübəmizlə bölüşməyə hazırıq.

Cənab Prezident, xanım Əliyeva, nümayəndə heyətlərimizin son bir neçə gün ərzində keçirdiyi konstruktiv müzakirələri alqışlayıram. Çünki bu müzakirələr ölkələrimizin qarşılıqlı maraqlarını nümayiş etdirmişdir.

Ölkələrimiz arasında mövcud olan təkmilləşdirilmiş hüquqi və müqavilə bazası, hər ikimizin imzaladığı bəyannamə ölkələrimiz üçün gələcək əməkdaşlığın sahələrini açıq şəkildə nümayiş etdirir. Mən Latviya və Azərbaycan xalqlarının

rifahının yüksəldilməsinə kömək edəcək iqtisadi əlaqələri xüsusi olaraq vurğulamaq istəyirəm.

Ümidvar olduğumu bildirmək istəyirəm ki, ölkələrimiz arasında daim artan ticarət dövriyyəsi ilə nəticələnən mövcud iqtisadi tərəfdaşlıq, eləcə də iki ölkənin biznes dairələrindən ibarət nümayəndə heyətləri üçün bu gün keçirilmiş biznes-forum sayəsində Latviya ilə Azərbaycan arasında əməkdaşlıq əhəmiyyətli dərəcədə artacaqdır.

Cənab Prezident, xanım Əliyeva, icazənizlə öz adımdan və xanımımın adından bu badəni Latviya və Azərbaycan arasında dostluq və uğurlu əməkdaşlığın, xalqlarımızın gələcəyi və rifahı şərəfinə qaldırıram. Sizin sağlığınıza, cənab Prezident! Sizin sağlığınıza, xanım Əliyeva! Yaşasın Latviya! Yaşasın Azərbaycan!

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli xanım Zatlere!

İlk öncə, nümayəndə heyətimiz adından Azərbaycan dilində söylədiyiniz sözlərə görə Sizə dərin minnətdarlığımızı bildirmək istəyirəm. Çox mürəkkəb Azərbaycan sözlərini belə ustalıqla tələffüz etməyiniz bizdə iftixar hissi yaratdı. Sizə söz vermək istəyirəm ki, növbəti görüşümüz zamanı mən də bir sıra sözləri latış dilində söyləyəcəyəm.

Hörmətli cənab Prezident!

Hörmətli xanım Zatlere! Xanımlar və cənablar!

İlk növbədə, mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə, cənab Prezident, Sizə minnətdarlığımı bildirirəm. Zəngin tarixi və mədəniyyəti, füsunkar təbiəti ilə seçilən dost ölkənizi ikinci dəfə ziyarət etməyimdən çox məmnunam. Son 6 ildə Azərbaycanın və Latviyanın prezidentləri yeddinci dəfədir ki, görüşürlər. Bu, ölkələrimiz və xalqlarımız arasında mövcud olan sıx münasibətlərin əyani göstəricisidir.

Sizin 2009-cu ildə Azərbaycana etdiyiniz səfər ölkələrimiz arasındakı əlaqələrin yeni müstəviyə keçməsində mühüm rol oynamışdır. Azərbaycan ilə Latviya arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanlar mövcuddur. Lakin iqtisadi əlaqələrimizin bugünkü göstəriciləri ölkələrimizin potensialına cavab vermir. İki ölkə arasında ticarət dövriyyəsi və sərmayə qoyuluşunun həcmi arzu olunan səviyyədə deyildir. Biz Latviya ilə əməkdaşlığın bütün sahələrdə genişlənməsinin tərəfdarıyıq.

Cənab Prezident, ümid edirəm ki, bu gün Sizinlə qarşılıqlı maraq doğuran məsələlər ətrafında apardığımız fikir mübadiləsi, əldə olunmuş razılaşmalar, imzalanmış sənədlər, Birgə Bəyannamə və keçirilən biznes-forum ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafına yeni təkan verəcəkdir.

Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, Latviya Azərbaycanın Avropa İttifaqı və NATO ilə əməkdaşlığına xüsusi önəm verən ölkələrdəndir.

«Şərq Tərəfdaşlığı» proqramı çərçivəsində qarşılıqlı fəaliyyətimiz faydalıdır və Azərbaycanı Avropa ailəsinə daha da yaxınlaşdıracaqdır.

Azərbaycan ilə Latviya arasında əlaqələrin tarixi kökləri vardır. Ötən əsrlərdə Latviyanın bir çox nümayəndələri – diplomat Antons Balodis, rəssam Yanis Yaunsudrabinş, yazıçılar Ernest Birzniyek-Upits, Pavlis Rozitis, Sudrabu Edjus, Yanis Vanyuskis və Avqust Arays Berts uzun illər Azərbaycanda yaşayıb yaratmışlar.

İnanıram ki, burada yaşayan, Latviya vətəndaşları olan soydaşlarımız ölkənizin həyatında fəal iştirak edir, onun inkişafına, xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına dəyərli töhfələr verir və bundan sonra da bu missiyanı davam etdirəcəklər.

Ötən illər ərzində Azərbaycanda çox uğurlu siyasi və iqtisadi islahatlar həyata keçirilmişdir. Bunun nəticəsi olaraq son 7 ildə ölkədə ümumi daxili məhsul təxminən 3 dəfə, maaşlar və pensiyalar orta hesabla 5-6 dəfə artmış, yoxsulluğun səviyyəsi 4-5

dəfə azalmış, ölkəmizə 82 milyard dollar həcmində sərmayə qoyulmuş, 900 mindən çox yeni iş yeri açılmışdır.

Azərbaycan zəngin təbii resurslara malikdir. Neft ehtiyatları ilə yanaşı, Azərbaycanın beynəlxalq səviyyədə təsdiq olunmuş qaz ehtiyatları 2,2 trilyon kubmetrdən artıqdır. Enerji sahəsində əməkdaşlıq Avropa İttifaqı ilə münasibətlərimizin əsas istiqamətlərindən biridir. Hazırda Azərbaycanın enerji ehtiyatlarını müxtəlif istiqamətlərə nəql edən neft və qaz boru kəmərləri çəkilmişdir. Ölkəmiz enerji resurslarının ixracının şaxələndirilməsinə mühüm əhəmiyyət verir və Avropanın enerji təhlükəsizliyinin təmin olunması üçün öz töhfəsini verməyə hazırdır.

Bununla bərabər, Azərbaycanın ən ağrılı problemi – Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hələ də həll olunmamış qalır. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi – Dağlıq Qarabağ və ətrafdakı 7 rayon işğal olunmuşdur. Bu ərazilərdə etnik təmizləmə siyasəti aparılmış, bir milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

Münaqişə ilə bağlı BMT-nin Təhlükəsizlik Şurasının dörd qətnaməsi, o cümlədən BMT-nin Baş Məclisi, ATƏT, Avropa Şurası, NATO, Avropa parlamenti və digər beynəlxalq təşkilatların qərarları yerinə yetirilməlidir. Bizim qəti mövqeyimiz bundan ibarətdir ki, münaqişə beynəlxalq hüquq normalarına uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Hörmətli cənab Prezident, Latviyaya səfər etməyimdən məmnun olduğumu bir daha ifadə edir, Sizə cansağlığı, ölkənizə və xalqınıza daim inkişaf və uğurlar arzulayır, bu badəni Sizin və xanımınızın şərəfinə, Latviya ilə Azərbaycan arasında səmimi dostluq və faydalı əməkdaşlıq əlaqələrinin inkişafı şərəfinə qaldırıram.

## Səfər başa çatdı

*Yanvarın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Latviya Respublikasına rəsmi səfəri başa çatmışdır.*

*Azərbaycanın və Latviyanın dövlət bayraqları ilə bəzədilmiş Riqa Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Hava limanında prezident İlham Əliyevi Latviyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

* * *

*Həmin gün dövlətimizin başçısı Vətənə qayıtdı.*

*Heydər Əliyev Beynəlxalq Aeroportunda prezident İlham Əliyevi Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## «SƏS» QƏZETİNİN KOLLEKTİVİNƏ

Hörmətli jurnalistlər!

Sizi – müasir Azərbaycanın ilk müstəqil mətbuat orqanlarından olan «Səs» qəzetinin kollektivini fəaliyyətə başlamağınızın 20 illik yubileyi münasibətilə təbrik edirəm.

İlk nömrəsi gərgin ictimai-siyasi proseslərin cərəyan etdiyi mürəkkəb dövrdə, 1991-ci ilin yanvarında işıq üzü görmüş «Səs» qəzeti qısa zamanda əsl müstəqil və demokratik mətbuat nümunəsinə çevrilmişdir. Cəmiyyətdə siyasi plüralizmə böyük ehtiyac duyulduğu həmin illərdə qəzet sağlam düşüncəli vətənpərvər ziyalıların tribunasına çevrilmiş, müxtəlifyönlü təqib və təzyiqlərə baxmayaraq dövrün aktual problemlərini ictimai müzakirəyə çıxarmaqdan geri çəkilməmişdir.

Yeni şəraitdə Azərbaycanın digər mətbuat orqanları arasında özünəməxsus dəst-xətti və mövqeyi ilə seçilən «Səs» qəzeti də iş prinsiplərini zamanın tələblərinə uyğun quraraq cəmiyyətin həyatının bütün sahələrini, ictimai maraq kəsb edən aktual mövzuları həmişə diqqət mərkəzində saxlamış, milli dövlətçilik ənənələrinin əsl təbliğatçısı olmuş, oxucu auditoriyasının informasiya ehtiyacını ödəməyə çalışmışdır. Ulu öndər Heydər Əliyev mətbuatda plüralizmin formalaşmasına və inkişafına mühüm töhfə vermiş «Səs» qəzetinin fəaliyyətini və cəmiyyət qarşısında xidmətlərini daim yüksək qiymətləndirmişdir.

İnanıram ki, «Səs» qəzetinin kollektivi bundan sonra da həqiqət carçısı olacaq, milli dövlətçilik mənafelərinin qorunmasında yüksək peşəkarlıq göstərərək, xalqımızın mütərəqqi mətbuat ənənələrini layiqincə davam etdirəcəkdir.

Bir daha qəzetin bütün kollektivini yubiley münasibətilə təbrik edir və yeni yaradıcılıq uğurları arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 yanvar 2011-ci il*

**BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ XANIM DİLMA ROUSSEFƏ**

Hörmətli xanım Prezident!

Ölkənizdə baş vermiş təbii fəlakət nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Braziliya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 yanvar 2011-ci il*

## GÜRCÜSTANIN XARİCİ İŞLƏR NAZİRİ QRİQOL VAŞADZE İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 yanvar 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Gürcüstanın Xarici İşlər naziri Qriqol Vaşadzeni qəbul etmişdir.*

*Xarici İşlər naziri Qriqol Vaşadze Gürcüstan prezidenti Mixeil Saakaşvilinin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin siyasi, iqtisadi və digər sahələrdə inkişaf etdiyi vurğulandı, Azərbaycan ilə Gürcüstan arasında enerji layihələrində uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd olundu. Söhbət zamanı ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı prezident Mixeil Saakaşvilinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Gürcüstan dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## TÜRKİYƏ JANDARM QÜVVƏLƏRİNİN BAŞ KOMANDANI, ORDU GENERALI NECDET ÖZELİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 yanvar 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də Türkiyə Respublikası Jandarm Qüvvələrinin Baş Komandanı, ordu generalı Necdet Özelin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Türkiyə Respublikası Jandarm Qüvvələrinin Baş Komandanı, ordu generalı Necdet Özel yeni vəzifəyə təyin olunduqdan sonra ilk xarici səfərini dost və qardaş Azərbaycana etdiyini vurğulayaraq Azərbaycanı ikinci vətən saydıqlarını dedi. O, Türkiyədə gənc nəslin də bu ruhda yetişməsinə çalışdıqlarını bildirdi. Necdet Özel səfər zamanı əməkdaşlığımızın inkişafına dair çox yaxşı müzakirələr apardıqlarını qeyd etdi.*

*Dövlətimizin başçısı Türkiyənin yüksək rütbəli rəsmilərinin ilk xarici səfərlərini Azərbaycana etməsinin artıq yaxşı bir ənənə halını aldığını dedi. Ölkələrimizin dostluq və qardaşlıq münasibətlərinin insanlar arasında da özünü büruzə verməsindən məmnun olduğunu deyən prezident İlham Əliyev hər iki ölkə rəsmilərinin sıx əlaqələrinin yaradılmasının vacibliyini bildirdi. Necdet Özelin Azərbaycana səfərinin ölkəmizi yaxından tanımaq üçün yaxşı imkan yaratdığını qeyd edən dövlətimizin başçısı qonağın azərbaycanlı həmkarları ilə səmərəli əməkdaşlıq həyata keçirəcəyinə əminliyini ifadə etdi.*

**ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHİNDA RACAPAKSAYA**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Müstəqillik günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Şri-Lanka arasında yaranmış dostluq münasibətlərinin inkişafı əməkdaşlığımızın genişləndirilməsi üçün yeni imkanlar açacaqdır.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Şri-Lanka xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 yanvar 2011-ci il*

## QANLI YANVAR FACİƏSİNİN 21-ci İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR ŞƏHİDLƏR XİYABANINI ÜMUMXALQ ZİYARƏTİ

*20 yanvar 2011-ci il*

*1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olmuşdur. Doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucalmışlar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından 21 il keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının o vaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.*

*Bədnam M.Qorbaçov başda olmaqla, SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən Ermənistanın təcavüzkar hərəkətlərinin açıq-aşkar dəstəklənməsinə və o zamankı respublika rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz əlaməti olaraq ayağa qalxmış xalqa qarşı sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciəyə gətirib çıxartdı, böyük itkilərlə, günahsız insanların ölümü ilə nəticələndi.*

*Həmin vaxt Moskvada yaşayan xalqımızın dahi oğlu Heydər Əliyev həyatını təhlükədə qoyaraq, faciənin ertəsi günü Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı.*

*Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən qayıdışından sonra, 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin*

*adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar Ümumxalq Hüzn günü elan edildi.*

*Azərbaycan xalqı hər il Ümumxalq Hüzn günündə 20 Yanvar faciəsi qurbanlarının xatirəsini ehtiramla yad edir.*

*Hər il olduğu kimi, Azərbaycan prezidenti Administrasiyası tərəfindən Qanlı Yanvar faciəsinin 21-ci ildönümü ilə əlaqədar geniş tədbirlər planı hazırlanmış, respublikanın bütün şəhər və rayonlarında, xarici ölkələrdəki səfirliklərimizdə, diaspor təşkilatlarında anma mərasimləri keçirilmişdir. Ümumdövlət və ümumxalq ehtiramı sübut edir ki, şəhidlər ölməzdir. Bu ölməzlik müstəqilliyimizdə, birliyimizdə və xoşbəxt gələcəyimizdə yaşayır.*

* * *

*Yanvarın 20-də səhər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəldilər.*

*Prezident İlham Əliyev «Əbədi məşəl» abidəsi önünə əklil qoydu.*

*Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycanın Dövlət himni səsləndi.*

*Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etməyə gəlmişdilər.*

# LÖKBATAN QƏSƏBƏSİNDƏ HEYDƏR PARKI, HEYDƏR ƏLİYEV MƏRKƏZİ VƏ «CIRTDAN» UŞAQ ƏYLƏNCƏ PARKININ AÇILIŞI MƏRASİMİ

*21 yanvar 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 21-də Bakının Lökbatan qəsəbəsində Heydər parkının, Heydər Əliyev Mərkəzinin və «Cırtdan» uşaq əyləncə parkının açılışlarında iştirak etmişdir.*

*Mərasim iştirakçıları dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyevə Lökbatan qəsəbəsinin mərkəzində yerləşən Heydər parkında aparılmış əsaslı yenidənqurma və abadlıq işləri barədə məlumat verildi. Bildirildi ki, ölkənin ən böyük sənaye mərkəzlərindən olan Qaradağ rayonunun inkişafı dövlətimizin başçısının daim diqqət mərkəzindədir. Qaradağ rayonunun inkişafı ilə bağlı böyük tədbirlər həyata keçirilir, əhalinin sosial problemlərinin həlli istiqamətində mühüm addımlar atılır.*

*Heydər parkının ərazisi əsaslı yenidənqurma işləri nəticəsində xeyli genişləndirilmiş, burada qəsəbə sakinlərinin mənalı istirahəti üçün hər cür şərait yaradılmışdır. Prezident İlham Əliyevin Bakı şəhərində park və xiyabanların əsaslı təmiri və yenidən qurulması ilə bağlı tapşırıqlarına uyğun olaraq inşa edilmiş parkda yeni yaşıllıq zolaqları salınmış, müasir işıqlandırma sistemi və oturacaqlar quraşdırılmış, yaraşıqlı fəvvarələr tikilmişdir.*

*Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin zəngin siyasi irsinin öyrənilməsi və təbliği məqsədilə parkın ərazisində Heydər Əliyev Mərkəzi inşa edilmişdir.*

*Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin parkda ucaldılmış abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.*

# QARADAĞ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*21 yanvar 2011-ci il*

*Yanvarın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qaradağ rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

**İ l h a m  Ə l i y e v**: Sizi Heydər Əliyev Mərkəzinin açılışı münasibətilə ürəkdən təbrik edirəm. Biz bu Mərkəzin açılışında da bərabər iştirak edirik. Mərkəz həm Qaradağ rayonuna, həm də rayonun mərkəzi Lökbatan qəsəbəsinə əlavə yaraşıq verir. Bütövlükdə burada gedən işlər məni çox sevindirir. Əminəm ki, siz də mənim fikrimlə razılaşırsınız. Qəsəbənin sakinləri burada gedən gözəl dəyişiklikləri görürlər və bu dəyişikliklərin həyata keçirilməsində fəal iştirak edirlər. Bu park, demək olar ki, Bakının ən gözəl parklarından biridir. Gözəl şərait yaradılıb, abadlıq işləri görülüb. Parkdan başqa, bütün bu binalar təmir olunub, küçələr salınıb, genişləndirilib.

Mən çox şadam ki, son dövrlər qısa zamanda Qaradağ rayonunda belə gözəl işlər görülmüşdür. Bilirsiniz ki, Qaradağ rayonuna mənim həmişə xüsusi münasibətim, diqqətim olub. Siyasi fəaliyyətim, demək olar ki, bu rayonda başlayıb. Birinci dəfə 1995-ci ildə qaradağlılar mənə etimad göstərmiş, Milli Məclisə deputat seçmişlər. Mən də çalışırdım ki, bu böyük etimadı doğruldum. Dəfələrlə Qaradağ rayonuna gəlmişəm, vəziyyətlə tanış olmuşam. Bu gün ölkə prezidenti kimi, çalışıram ki, Bakının ən böyük rayonu olan Qaradağ rayonunun inkişafı üçün öz köməyimi göstərim.

Rayonun iqtisadi və sənaye inkişafı sürətlə gedir. Qaradağ rayonu Azərbaycanın güclü sənaye mərkəzinə çevrilir. Burada yaradılan müəssisələr və tikilməkdə olan zavodlar rayonun

iqtisadi gücünü artıracaq, yeni iş yerlərinin açılmasına gətirib çıxaracaqdır.

Bir müddət əvvəl xarici investorlar tərəfindən tikilən böyük Qaradağ Sement zavodunun təməl daşını qoyduq. Yəqin ki, gələn il bu zavod fəaliyyətə başlayacaqdır. Ondan sonra Qaradağ rayonunda ölkəmiz üçün çox böyük əhəmiyyətə malik olan Gəmiqayırma zavodunun təməl daşı qoyuldu. Keçən il Bakının yeni ticarət limanı yenə də Qaradağda tikilməyə başlanmışdır.

Qaradağ rayonunun ərazisi çox böyükdür. Ərazi baxımından Bakının yarısı qədərdir. Coğrafi vəziyyəti belədir ki, buranı böyük sənaye mərkəzinə çevirmək üçün yaxşı imkanlar vardır. Ölkəmizdə indi çox güclü sənayeləşmə siyasəti aparılır. Biz müxtəlif istiqamətlərdə güclü sənaye potensialının yaradılması ilə məşğuluq. Hazırda ölkə miqyasında Bakıdan sonra iki böyük sənaye mərkəzinin yaradılması ilə ciddi məşğuluq. Onlardan biri neft-kimya sənayesinin ənənəvi mərkəzi olan Sumqayıt şəhəridir. Hazırda bu ənənəvi sahə ilə bərabər, Sumqayıtda çox güclü sənaye potensialı yaradılır. İkinci sənaye mərkəzi Qaradağ rayonu olmalıdır. Gələcəkdə Qaradağ rayonunda böyük neft-kimya kompleksinin yaradılması da planımızda vardır. Rayonun bu sürətli inkişafını nəzərə alaraq, hələ bir neçə il əvvəl mənim təşəbbüsümlə Qaradağ rayonunda böyük elektrik stansiyası tikilib istifadəyə verilmişdir. Modul tipli Səngəçal Elektrik Stansiyasının istehsal gücü 300 meqavata bərabərdir. Bu, gələcəyə atılmış bir addımdır. Çünki burada yaradılacaq yeni sənaye müəssisələri əlavə elektrik enerjisi tələb edəcəkdir. Biz hər şeyi planlı şəkildə edirik və yenə də demək istəyirəm ki, sənaye sahəsində görülən bütün bu işlərlə bərabər, rayonda qısa müddət ərzində belə gözəl abadlıq işlərinin aparılması məni çox sevindirir. Mən istəyirəm ki, bütün şəhərlərimiz, meydanlarımız belə gözəl olsun, insanlar üçün gözəl şərait yaradılsın, vətəndaşlar rahat yaşasınlar. Biz bu meydandan bu yaxınlarda istifadəyə verilmiş gözəl evi də

görürük. Şəhid ailələri, Qarabağ müharibəsi əlilləri üçün tikilmiş gözəl bina bu meydana əlavə yaraşıq verir.

Həm iqtisadi, həm də sosial məsələlərin həlli daim diqqət mərkəzindədir. 2011-ci ili biz böyük ümidlərlə başlayırıq. 2011-ci ildə mənim ilk belə görüşüm Qaradağ rayonundadır. Keçən ildə də, əvvəlki illərdə də dəfələrlə rayonda olmuşam, gələcəkdə də gələcəyəm, çünki burada hələ açılışlar çox olacaqdır. Sizi görülən bu işlərlə, əldə edilmiş uğurlarla ürəkdən təbrik edirəm. Sağ olun

**T ə r a n ə İ s m a y ı l o v a** *(Lökbatan qəsəbəsinin sakini):* Hörmətli möhtərəm cənab Prezident! Sizi – ulu öndər Heydər Əliyevin layiqli davamçısını Qaradağ rayonunda səmimi-qəlbdən salamlayıram və rayon ictimaiyyəti adından Sizə «Xoş gəlmisiniz!» – deyirəm.

Biz həmişə fəxr etmişik ki, Siz böyük siyasətə məhz Qaradağ rayonundan başlamısınız. 1995–2000-ci illərdə Siz parlamentdə bizim rayonun deputatı olmusunuz və o zaman da bizim rayon üçün çox böyük işlər görmüsünüz. Sizin təşəbbüsünüzlə yaradılmış Qaradağ rayonunun Sosial-İqtisadi İnkişafına Yardım Fondunun köməyi ilə rayonda bir çox işlər görülmüşdür. Bu işlər bu gün də davam edir. Qaradağda Sizin təşəbbüsünüz və dəstəyinizlə çox böyük infrastruktur layihələrinə rəvac verilmişdir. Qeyd etdiyiniz kimi, Sahil qəsəbəsində regionun ən böyük Gəmiqayırma zavodu və Ələt qəsəbəsində dəniz limanının təməli qoyulmuşdur. Qaradağ rayonunun inkişafında Heydər Əliyev Fondunun prezidenti, əzizimiz Mehriban xanım Əliyevanın da çox böyük zəhməti vardır. Rayonun ucqar qəsəbələrindən olan Çeyldağ və Ələtdə yeni orta məktəb binaları inşa olunmuş və balalarımızın istifadəsinə verilmişdir.

Möhtərəm Cənab Prezident!

Bu diqqət və qayğıya görə Sizə bütün qaradağlılar adından səmimi-qəlbdən təşəkkür edirəm. Əmin olun ki, qaradağlılar hər zaman sizinlədir və Sizin bütün işlərinizi dəstəkləyirlər. Sizə və ailənizə möhkəm cansağlığı, uzun ömür, Azərbaycanımızın gələcəyi, dövlətimizin inkişafı naminə böyük uğurlar arzulayıram.

Tanrı Sizi və Mehriban xanımı bizim millətimiz üçün qorusun. Çox sağ olun.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun, xoş sözlərinizə görə təşəkkür edirəm. Mən 1995-ci ildən 2000-ci ilə qədər çalışırdım ki, imkan daxilində rayonun problemlərini həll edim. O vaxt burada dediyiniz fondun xətti ilə Ümid qəsəbəsi salınmışdı. O vaxt imkanlarımız o qədər də geniş deyildi. Amma bu gün Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən ölkədir. Ölkəmizin maddi imkanları da çox artıbdır. Çalışırıq ki, bu böyük sərvəti ölkəmizin inkişafına, insanların rifah halının yaxşılaşmasına yönəldək. Keçən il dünyada hələ də maliyyə və iqtisadi böhran hökm sürürdü, Avropa qitəsində ölkələrin böyük əksəriyyətində maddi sıxıntılar ucbatından maaşlar, pensiyalar kəsilmişdi və bilirsiniz ki, bu çox böyük etirazlara səbəb olmuşdu. Amma Azərbaycanda minimum əməkhaqqı, pensiyanın baza hissəsi artmışdır, investisiya layihələri icra edilmişdir, sosial məsələlər həll olunmuşdur, 70-dən yuxarı məktəb, 40-dan artıq xəstəxana tikilmiş və təmir edilmişdir, olimpiya kompleksləri, belə gözəl parklar, xiyabanlar, yollar salınmışdır. Azərbaycanın uğurlu inkişafı artıq reallıqdır, iqtisadi imkanlarımız artdıqca daha da böyük işlər görməyə qadir olacağıq.

Keçən il böyük infrastruktur layihələrinin arasında Qaradağ rayonunda görülən işlər də xüsusi yer tutur. Dairəvi yolun tikintisi nəinki Bakı sakinlərinə, bütün ölkə vətəndaşlarına rahatlıq yaradacaqdır. İndi bu yoldan bütün istiqamətlərdən gələn avtomaşınlar istifadə edir. Gələcək planlarımız da çox böyükdür. Elə etməliyik ki, Azərbaycan dünya miqyasında inkişaf etmiş ölkələrin sırasına daxil olunsun. Bunu etmək üçün bizdə çox ciddi proqram hazırlanır. İqtisadi və sosial məsələlərin həlli işində bizdə bütün meyarlar ən yüksək səviyyədə olmalıdır. Biz buna nail olacağıq.

Bu gün – Heydər Əliyev Mərkəzinin açılışı günündə bu barədə söhbət aparmaq yerinə düşür. Çünki bütün uğurlarımızın təməlində ulu öndərin fəaliyyəti dayanır. Əgər 1993-cü ildə Azərbaycan xalqı Heydər Əliyevi hakimiyyətə dəvət etməsəydi,

ölkənin inkişafı tam başqa istiqamətdə gedə bilərdi. Biz o günləri yaxşı xatırlayırıq, şəhərlərimiz, rayonlarımız hansı vəziyyətdə idi. Bu gün Azərbaycanın uğurlu inkişafı məhz o illərdə şərtləndirildi. Bizim vəzifəmiz ondan ibarətdir ki, bu siyasəti davam etdirək, ölkəmizi inkişaf etdirək, qabağa aparaq, iqtisadi, sosial məsələlərin həlli işində dünya miqyasında birincilər sırasında olaq. Bu işlərdə sizə və bütün xalqımıza uğurlar arzulayıram.

* * *

*Sonra dövlətimizin başçısı burada orijinal üslubda inşa edilmiş Heydər Əliyev Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi və bina ilə yaxından tanış oldu.*

*Vurğulandı ki, burada ulu öndər Heydər Əliyevin zəngin irsinin öyrənilməsi və təbliği üçün hər cür şərait yaradılmışdır, müasir avadanlıqlarla təchiz olunmuş internet zalı fəaliyyət göstərir.*

*Prezident İlham Əliyev Mərkəzin foyesində ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən fotolara baxdı.*

*Bildirildi ki, Heydər Əliyev Mərkəzində nümayiş olunan bu fotolar ümummilli liderin Qaradağ rayonuna səfərlərini, böyük sənaye obyektlərinin açılışında iştirakını əks etdirməklə yanaşı, rayonun inkişafının hər zaman ulu öndərin diqqət mərkəzində olduğunu bir daha sübut edir.*

*Diqqətə çatdırıldı ki, Mərkəzdə ümummilli liderin həyatından bəhs edən nəşrlərin toplandığı kitabxana, kiçik kafeteriya fəaliyyət göstərir. Burada 50 yerlik konfrans və 220 yerlik iclas zalları vardır.*

*Dövlətimizin başçısı iclas zalında yaradılan şəraitlə tanış oldu, ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən 3D formatında hazırlanan filmə baxdı.*

*Heydər Əliyev Mərkəzi ilə tanışlıqdan sonra dövlətimizin başçısı Xatirə kitabına ürək sözlərini yazdı.*

* * *

*Daha sonra prezident İlham Əliyev Heydər Əliyev Fondunun təşəbbüsü ilə qəsəbə ərazisində yeni salınmış «Cırtdan» uşaq əyləncə parkı ilə tanış oldu.*

*Bildirildi ki, Lökbatan qəsəbəsində uşaqlar üçün salınan park xüsusi zövqlə inşa edilmişdir. Ərazidə inşa edilmiş qapalı «Cırtdan» uşaq kafesi müasir mebel dəstləri və avadanlıqla təchiz olunmuşdur. Bildirildi ki, 10 min kvadratmetr ərazisi olan park xüsusi dizayn əsasında qurulmuş, burada müxtəlif attraksionlar və əyləncəli qurğular quraşdırılmışdır.*

*Vurğulandı ki, parkda uşaqların mənalı istirahətinin təşkili üçün geniş imkanlar yaradılmışdır. Bu, uşaqlara göstərilən diqqət və qayğının Azərbaycanda dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu təsdiq edir. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən çoxsaylı layihələr bu sahədə xüsusi önəm daşıyır. Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın bu nəcib missiyası uşaqların xoşbəxt gələcəyinin təmin olunmasına yönəlmişdir.*

*Prezident İlham Əliyev görülmüş işlərdən razılığını bildirdi.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev Lökbatan qəsəbəsinin girişində yeni salınan dəmiryol ötürücüsü ilə də tanış oldu.*

*Bildirildi ki, köhnə yolötürücü müasir tələblərə cavab vermirdi. Dövlətimizin başçısının tapşırığı ilə yeni yolötürücüsünün inşasına başlanılmış və yüksək tələblərə cavab verən dəmiryol ötürücüsünün tikintisi qısa vaxt ərzində başa çatdırılmışdır. Burada müasir işıqlandırma sistemi quraşdırılmışdır.*

*Prezident İlham Əliyev ətraf ərazilərdə abadlıq və yaşıllaşdırma işlərinin həyata keçirilməsi ilə bağlı tövsiyə və tapşırıqlarını verdi.*

## BAKI BULVARININ GENİŞLƏNDİRİLMƏSİ PROQRAMI ÇƏRÇİVƏSİNDƏ HƏYATA KEÇİRİLMİŞ YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*21 yanvar 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev yanvarın 21-də Bakı bulvarının genişləndirilməsi proqramı çərçivəsində Gəmi təmiri zavodunun ərazisində həyata keçirilmiş yenidənqurma işlərinin gedişi ilə tanış olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə yanvarın 14-də Nazirlər Kabinetinin 2010-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında dövlət başçısı 2011-ci ildə qarşıda duran vəzifələr sırasında Bakı bulvarının Dövlət Bayrağı Meydanı ilə birləşdirilməsi barədə tapşırıqlar vermişdir. Azərbaycan prezidentinin tapşırıqlarının həyata keçirilməsi ilə əlaqədar Bakı buxtasında yerləşən bir sıra müəssisə və obyektlərin, o cümlədən Xəzər Dəniz Gəmiçiliyinin Gəmi təmiri zavodunun və digər sənaye obyektlərinin köçürülməsi zərurəti yaranmışdı.*

*Verilən tapşırıqların operativ həlli istiqamətində görülən işlərlə yaxından tanış olan dövlətimizin başçısı Gəmi təmiri zavodunun sökülən hissəsində işlərin gedişi ilə maraqlandı, müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## RUSİYA PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ SERGEY NARIŞKİN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 yanvar 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri Sergey Narışkini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Sergey Narışkinə ölkəmizdəki bütün görüşlərinin uğurlu keçəcəyinə ümidvar olduğunu bildirdi. Bu il Bakı Beynəlxalq Humanitar Forumuna hazırlıq mərhələsində işləri daha da aktivləşdirməyin zəruriliyini vurğulayan prezident İlham Əliyev forumun yeni statusda keçiriləcəyini dedi. Azərbaycan ilə Rusiya arasında münasibətlərin geniş sahələri əhatə etdiyini deyən prezident İlham Əliyev Rusiya prezidenti Dmitri Medvedevlə görüşlərinin önəmini vurğuladı, bu görüşlərdə əlaqələrimizin inkişafı ilə bağlı bütün məsələlərin operativ və konstruktiv şəkildə həll edildiyini bildirdi. Xəzəryanı ölkələrin Bakı sammitinin çox yüksək səviyyədə keçirildiyini deyən dövlətimizin başçısı regional məsələlərdə də ölkələrimiz arasında tam qarşılıqlı anlaşmanın olduğunu vurğuladı.*

*Sergey Narışkin Rusiya prezidenti Dmitri Medvedevin salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkələrimiz arasında əməkdaşlığın iqtisadi və siyasi sahələrdə böyük perspektivə malik olduğunu, humanitar sahədə də geniş proqramın həyata keçirildiyini bildirdi.*

*Dövlətimizin başçısı Rusiya prezidenti Dmitri Medvedevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiyanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

## TÜRKİYƏNİN ENERJİ VƏ TƏBİİ EHTİYATLAR NAZİRİ TANER YILDIZIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 yanvar 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Türkiyə Respublikasının Enerji və Təbii Ehtiyatlar naziri, hökumətlərarası birgə Komissiyanın həmsədri Taner Yıldızın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan–Türkiyə hökumətlərarası birgə Komissiyanın iclasının əhəmiyyətini vurğuladı. Bu yaxınlarda İstanbulda Türkiyə prezidenti Abdullah Gül və Baş nazir Rəcəb Tayyib Ərdoğanla səmərəli görüşlər keçirdiyini xatırladan prezident İlham Əliyev Türkiyənin Enerji və Təbii Ehtiyatlar naziri, hökumətlərarası birgə Komissiyanın həmsədri Taner Yıldızın ölkəmizə səfərinin önəmli olduğunu vurğuladı. Türkiyənin Enerji və Təbii Ehtiyatlar naziri, hökumətlərarası birgə Komissiyanın həmsədri Taner Yıldız Türkiyə prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. O, böyük bir heyətlə ölkəmizə səfər etdiklərini, əlaqələrimizin daha da inkişaf etdirilməsi istiqamətində bir çox məsələlərlə bağlı birgə müzakirələr aparacaqlarını dedi. Taner Yıldız Azərbaycan prezidenti İlham Əliyevin rəhbərliyi ilə bu məsələlərin həll olunacağına əminliyini bildirdi.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında birliyin gündən-günə möhkəmləndiyini və bunun bölgəyə də müsbət təsir göstərdiyini dedi. Ölkələrimizin gələcəkdə də bütün məsələlərlə bağlı bərabər mövqe nümayiş etdirməsinin zəruriliyini bildirən prezident İlham*

*Əliyev Azərbaycanla Türkiyənin maraqlarının həm dünya miqyasında, həm də bölgədə eyni olduğunu dedi. Azərbaycan–Türkiyə dostluğunun daha da möhkəmləndiyini, qardaşlığımızın əbədi olduğunu vurğulayan dövlətimizin başçısı bu təməl üzərində qurulan əlaqələrin bizi gələcəyə aparacağına əminliyini bildirdi.*

*Görüşdə Azərbaycanla Türkiyə arasında qaz sahəsində gələcək əməkdaşlığın perspektivləri müzakirə edildi, Bakı–Tbilisi–Ərzurum, Bakı–Tbilisi–Ceyhan layihələrinin uğurlu fəaliyyətindən danışıldı. Görüş zamanı Bakı–Tbilisi–Qars dəmiryol layihəsinin önəmi vurğulanaraq 2011-ci ildə Azərbaycanın bu layihəyə əlavə vəsait ayırdığı qeyd olundu. Söhbət zamanı elektrik enerjisi sahəsində əməkdaşlıq məsələlərinə toxunularaq Türkiyə–Gürcüstan–Azərbaycan elektrik xətlərinin birləşdirilməsi layihəsi və gələcəkdə Türkiyəyə elektrik enerjisinin ixracı məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Türkiyə prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## «*bp*–AZƏRBAYCAN» ŞİRKƏTİNİN PREZİDENTİ RƏŞİD CAVANŞİR İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 yanvar 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də «bp–Azərbaycan» şirkətinin prezidenti Rəşid Cavanşiri qəbul etmişdir.*

*Görüşdə bp şirkətinin Azərbaycanda fəaliyyəti, «Şahdəniz-2» yatağında işlərin uğurlu icrası ilə bağlı məsələlər müzakirə edildi, Azərbaycan Dövlət Neft Şirkəti ilə bp şirkəti arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB DMİTRİ MEDVEDEVƏ**

Hörmətli Dmitri Anatolyeviç!

«Domodedovo» aeroportunda törədilmiş terror aktı nəticəsində çoxlu insan tələfatı haqqında xəbər məni dərindən sarsıtmışdır.

Biz terrorizmin bütün forma və təzahürlərini qətiyyətlə pisləyirik.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Rusiya xalqına dərin hüznlə başsağlığı verirəm. Zərər çəkənlərin tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 yanvar 2011-ci il*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 yanvar 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Avropa Komissiyasının sədri Xose Manuel Barrozunun bu yaxınlarda ölkəmizə səfərinin Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin daha da inkişafı baxımından önəmi qeyd olunmuş, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, ölkəmizin Avropa İttifaqı ilə əməkdaşlığının hazırkı vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.*

# BAKIDA BİR SIRA YOL-NƏQLİYYAT KOMPLEKSİ OBYEKTLƏRİNİN AÇILIŞI MƏRASİMİ

*24 yanvar 2011-ci il*

*Yanvarın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda yeni inşa olunmuş bir sıra yol-nəqliyyat kompleksi obyektlərinin açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyev əvvəlcə paytaxtın Xəzər rayonunda avtomobillərin və piyadaların daha sıx olduğu ərazidə – Aeroport dairəsi–Zuğulba yolunun 4,4-cü kilometrliyində yeni inşa olunmuş yerüstü piyada keçidinin açılışında iştirak etdi.*

*Dövlətimizin başçısı keçidin açılışını bildirən lenti kəsdi.*

*Nəqliyyat naziri Ziya Məmmədov məlumat verdi ki, Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə tədbirlər planına uyğun olaraq bu obyektdə tikinti işlərinə ötən ilin may ayında başlanılmışdır.*

*Prezident İlham Əliyev yerüstü piyada keçidini gəzdi.*

*Bildirildi ki, keçidin metal konstruksiya hissələri yerli mütəxəssislər tərəfindən quraşdırılmışdır. Tikinti zamanı 800 kvadratmetrlik rəngli laminat şüşədən istifadə olunmuşdur. Bu şüşənin vurulması keçidə xüsusi gözəllik verməklə yanaşı, həm də onun maksimum işıqlı olmasına şərait yaradır. Bundan başqa, burada təbii havalandırma sistemi quraşdırılmışdır ki, bu da ilin bütün fəsillərində keçidin içərisində havanın daim tənzimlənməsinə imkan verəcəkdir.*

*Prezident İlham Əliyev görülmüş işlərdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.*

* * *

*Prezident İlham Əliyev sonra Heydər Əliyev Beynəlxalq Aeroportu – Zuğulba qəsəbəsi avtomobil yolunda inşa edilmiş Binə yol qovşağının açılışında iştirak etmişdir.*

*Nəqliyyat naziri Ziya Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, qovşağın tikintisinə nazirliyin sifarişi ilə 2009-cu ilin sonunda başlanılmışdır. Bildirildi ki, burada polad aşırımlı asma körpü inşa edilmişdir. Ümumi ağırlığı 4147 ton olan körpünün inşasında 662 ədəd burazdan istifadə edilmişdir. Layihəyə əsasən körpünün istismar müddəti 100 ilə hesablanmışdır. Qurğunun inşası zamanı ən müasir standartlara cavab verən inşaat materialları, o cümlədən poladdan istifadə edilmişdir.*

*Məlumat verildi ki, qovşaq yollarının ümumi uzunluğu 3700 metrdir. Yollara yüksək keyfiyyətli asfalt döşənmişdir. Polad aşırımlı asma körpünün uzunluğu 95, eni isə 27,5 metrdir. Körpüdə hər birinin eni 9,25 metr olan dördzolaqlı, ikihissəli yol inşa edilmişdir. Onun yerdən hündürlüyü 5,6 metrdir. Seysmik dayanıqlılığı 9 bal gücündə zəlzələyə hesablanmış körpünün tikintisi zamanı dünyanın aparıcı ölkələrinin təcrübəsindən və texnologiyalarından istifadə olunmuşdur.*

*Qeyd edildi ki, asma körpü həm də piyada keçidi rolunu oynayır. Heydər Əliyev Beynəlxalq Aeroportu – Zuğulba qəsəbəsi avtomobil yolunda nəqliyyatın hərəkətinin sıx olması əvvəllər piyadaların təhlükəsiz hərəkətinə maneələr yaradırdı. Bu körpüdə piyadalar üçün keçidin də nəzərə alınması artıq təhlükəni aradan qaldırmışdır. Burada yolun hər iki hissəsində piyadalar üçün pilləkənlər quraşdırılmış, körpünün üzərində hər iki tərəfdə eni 4 metr olan piyada yolu salınmışdır.*

*Dövlətimizin başçısı inşaatçıları təbrik etdi.*

**İlham Əliyev:** Sizi təbrik edirəm. Sizə təşəkkürümü bildirirəm. Bu gözəl körpünü yaratmısınız. Bu körpü həm şəhərə yaraşıq verir, həm də ki, insanlara rahatlıq. Körpü ən müasir texnologiyalar əsasında tikilibdir. Azərbaycanda artıq ən qabaqcıl texnologiya tətbiq olunur, xüsusilə yolların və körpülərin

tikintisində. Bu körpünün tikintisi onu göstərir ki, vaxtilə planlaşdırdığımız bütün məsələlər həyatda öz əksini tapır. Bakının yol-nəqliyyat sisteminin yaxşılaşdırılması üçün körpülər, yolötürücüləri, yollar tikilir və bu proses çox geniş vüsət alıb. Bakıda artıq 10-dan çox yeni yol qovşaqları tikilib və bu proses davam edir. Tikilən bütün körpülər, yol qovşaqları ən yüksək standartlara cavab verir.

Binə qəsəbəsində yaşayan sakinlər üçün bu körpü xüsusi məna daşıyır. Vaxtilə bu məntəqədə daim tıxaclar yaranırdı, işıqforlar bir neçə istiqamətdə yol hərəkətini tənzimləyirdi. Hazırda çox rahat, heç bir vaxt itirmədən Binə qəsəbəsinə və Binə qəsəbəsindən şəhərə, digər kənd və qəsəbələrə gedən sərnişinlər, vətəndaşlar rahat imkanlara malikdirlər. Bu onu göstərir ki, Azərbaycanda görülən işlər maddi imkanlarımıza, maliyyə resurslarımıza əsaslanır. 2011-ci ilin investisiya proqramı yaxın günlərdə təsdiq olunacaqdır. Bu proqramda nəqliyyat sektorunun inkişafı üçün kifayət qədər vəsait nəzərdə tutulub və bu da bizə imkan verəcək ki, həm bu gün, həm qarşıdakı illərdə Azərbaycanda bütün nəqliyyat sistemini müasirləşdirək, yaxşılaşdıraq və ən yüksək standartlara çatdıraq.

Mən çox şadam ki, xarici mütəxəssislərlə bərabər, Azərbaycan mütəxəssisləri, fəhlələri, şirkətləri bu gözəl işlərdə fəal iştirak edirlər. Bu həm şirkətlərimizin təcrübəsini artırır, həm də onu göstərir ki, artıq Azərbaycanda bu sahədə çox yaxşı və müasir şirkətlər vardır. Vəsait Azərbaycanda qalır, insanlarımız işlə təmin olunur, ölkəmiz də inkişaf edir.

2011-ci il yaxşı başlayır. Biz artıq birinci böyük açılışı qeyd edirik. Belə açılışlar il ərzində çox olacaqdır.

Sizə, bu körpünün tikintisində iştirak etmiş bütün insanlara bir daha minnətdarlığımı bildirmək istəyirəm. Sizə yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

*Prezident İlham Əliyevə körpünün burazlarının sınağı zamanı istifadə edilən qurğu barədə də məlumat verildi. Bildirildi ki, inşaat işləri zamanı burazlar bu qurğu vasitəsilə bir neçə dəfə sınaqdan çıxarılmışdır.*

*Dövlətimizin başçısı qovşağın ətrafında aparılmış abadlıq işləri ilə tanış oldu. Məlumat verildi ki, burada ümumilikdə 8 hektar sahədə abadlıq və yaşıllaşdırma işləri görülmüş, müxtəlif dekorativ ağac və gül kolları əkilmişdir. İnşaat işləri zamanı yaşıllıqların suvarılmasının təşkili məsələsinə də diqqət yetirilmişdir. Bunun üçün uzunluğu 4 kilometr olan drenaj sistemi quraşdırılmışdır. Körpü və qovşaq yollarında müasir işıqlandırma sistemi yaradılmışdır.*

* * *

*Dövlətimizin başçısı İlham Əliyev paytaxtın Xəzər rayonunda avtomobillərin hərəkətinin daha intensiv olduğu aeroport dairəsi – Zuğulba yolunun 1,6 kilometrlik hissəsində inşa olunmuş yeni yeraltı piyada keçidinin açılışı mərasimində iştirak etmişdir.*

*Prezident İlham Əliyev açılışı bildirən qırmızı lenti kəsdi.*

*Nəqliyyat naziri Ziya Məmmədov məlumat verdi ki, Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsinə dair Tədbirlər Planına uyğun olaraq inşa edilmiş bu keçidin tikintisinə 2010-cu ilin mart ayında başlanılmışdır. Keçidin inşasında əsas məqsəd Milli Aviasiya Akademiyasında təhsil alan tələbələrin, «Azərbaycan Hava Yolları» QSC-nin əməkdaşlarının, yaxınlıqda yerləşən bir sıra müəssisələrdə çalışanların və sakinlərin təhlükəsizliyini təmin etməklə yanaşı, aeroport istiqamətində və əks istiqamətdə avtomobillərin fasiləsiz hərəkətinə nail olmaqdır.*

*Görülən işləri yüksək qiymətləndirən dövlətimizin başçısı müvafiq tapşırıq və göstərişlərini verdi.*

* * *

*Sonra prezident İlham Əliyev aeroport qovşağı körpü keçidinin açılışı mərasimində iştirak etmişdir.*

*Nəqliyyat naziri Ziya Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, bu qovşaq «Bakı şəhəri – Heydər Əliyev Beynəlxalq Aeroportu–Zuğulba qəsəbəsi avtomobil yolunun yenidən qurulması, yol qovşaqlarının və piyada keçidlərinin tikintisi» layihəsi çərçivəsində inşa edilmişdir. Aeroport yol qovşağı ikisəviyyəlidir və «yonca yarpağı» tiplidir. Böyük əhəmiyyətə malik olan bu qovşaq Zığ qəsəbəsi–aeroport və Bakı şəhəri–Mərdəkan qəsəbəsi istiqamətlərində avtomobillərin hərəkətinin tamamilə təhlükəsiz və maneəsiz tənzimlənməsini həyata keçirir.*

*Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi.*

*Bildirildi ki, tikintisinə ötən ilin may ayında başlanılmış aeroport qovşağı körpüsündə inşaat işləri yüksək səviyyədə aparılmışdır. Yeni istifadəyə verilən qovşaq yollarının ümumi uzunluğu 6 min 757 metrdir. İki istiqamətli, dörd aşırımlı körpünün uzunluğu 127 metr, eni isə 39,8 metrdir. Körpünün konstruksiyası gərginləşdirilmiş dəmir-betondandır. Burada 8,8 kilometr uzunluğunda müasir drenaj sistemi də quraşdırılmışdır. Körpü 9 bal gücündə zəlzələyə davamlıdır və istismar müddəti 100 ilə hesablanmışdır.*

*Prezident İlham Əliyevə körpünün ətrafında görülmüş işlər barədə də məlumat verildi. Qovşağın ətrafında 26 hektar sahədə abadlaşdırma və yaşıllaşdırma işləri aparılmış, müasir suvarma sistemi yaradılmışdır. Körpüdə işıqlandırma sistemi də yüksək səviyyədə quraşdırılmışdır.*

*Dövlətimizin başçısı görülən işlərdən razılığını bildirdi, müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## «BAKIELEKTRİKŞƏBƏKƏ» ASC-nin MƏRKƏZİ DİSPETÇER XİDMƏTİNİN VƏ YENİ İNŞA EDİLMİŞ 6 YARIMSTANSİYANIN AÇILIŞI MƏRASİMİ

*24 yanvar 2011-ci il*

*Yanvarın 24-də «Bakıelektrikşəbəkə» ASC-nin Mərkəzi Dispetçer Xidmətinin və yeni inşa edilmiş 6 yarımstansiyanın açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*«Bakıelektrikşəbəkə» ASC İdarə Heyətinin sədri Baba Rzayev bildirmişdir ki, 2006-cı ilin avqustunda prezident İlham Əliyevin «Bakıelektrikşəbəkə» ASC-nin yaradılması və onun maddi-texniki bazasının yaxşılaşdırılması ilə bağlı imzaladığı fərman paytaxtın elektrik enerjisi təsərrüfatı sistemində mühüm keyfiyyət dəyişikliklərinə gətirib çıxarmışdır. Bakının sürətlə inkişaf etməsi, xeyli sayda yeni obyektlərin və yaşayış massivlərinin salınması, əhalinin enerjiyə olan tələbatının artması müasir tələblərə cavab verən elektrik stansiyalarının tikintisi zərurətini yaratmışdı. Qeyd edilmişdir ki, 1946-cı ildən paytaxtda fəaliyyətdə olan 111 saylı yarımstansiyada mövcud avadanlığın köhnəlməsi və yararsız hala düşməsi əhalinin və ərazidəki obyektlərin fasiləsiz elektrik enerjisi ilə təchizatında ciddi çətinliklər yaradırdı. Problem qısa vaxtda aradan qaldırıldı və paytaxtda yeni avadanlıqla təchiz olunan, ən müasir standartlara cavab verən elektrik stansiyası tikildi.*

*Bununla da paytaxtın elektrik enerjisi təchizatında keçmişdə olan bütün problemlər aradan qaldırılır, analoqu olmayan yeni sistem formalaşdırılır.*

*Mərkəzi Dispetçer Xidmətinin yerləşdiyi ərazidə olan 111 saylı yarımstansiyada aparılmış yenidənqurma işləri nəticəsində qurğunun gücü əvvəlki 35 meqavolt/amperdən 95 meqavolt/ampərə qədər artırılmışdır. Bu da ilk növbədə, əvvəllər baş verən qəza hallarının, şəbəkədən açılmaların və digər problemlərin aradan qalxmasına şərait yaradır.*

*Prezident İlham Əliyev Mərkəzi Dispetçer Xidmətinin yerləşdiyi binada yaradılan muzeylə də tanış oldu. Muzeydə ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızın energetika sektorunda, o cümlədən paytaxtda yeni elektrik stansiyalarının tikintisi ilə bağlı həyata keçirilən tədbirləri əks etdirən fotolar nümayiş etdirilir. Dövlətimizin başçısı Mərkəzi Dispetçer Xidmətində yaradılmış şəraitlə tanış oldu. Bildirildi ki, müasirləşdirilmiş yarımstansiyalara məhz buradan tam nəzarət edilir. Sistemin əsas özəlliyi onun avtomatlaşdırılmış qaydada idarə olunmasıdır.*

*Artıq «Bakıelektrikşəbəkə» ASC-yə məxsus yeni yarımstansiyaların hamısı SCADA sisteminə qoşulmuşdur və hazırda dispetçer xidmətindən idarə olunurdu.*

*Prezident İlham Əliyev Mərkəzi Dispetçer Xidmətini və məsafədən idarə etməklə 6 yeni yarımstansiyanı işə saldı.*

*Dövlətimizin başçısı daha sonra yeni yarımstansiyalarla bağlı filmə baxdı. Filmdə prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində paytaxtın elektrik enerjisi təsərrüfatında həyata keçirilmiş tədbirlərdən və yeni yarımstansiyalarda yaradılmış şəraitdən bəhs olunurdu.*

*Prezident İlham Əliyev Mərkəzdə yaradılmış şəraitdən razılığını bildirdi və kollektivə uğurlar arzuladı.*

## İSVEÇRƏYƏ İŞGÜZAR SƏFƏR

*26 yanvar 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davos şəhərində keçirilən ənənəvi illik Dünya İqtisadi Forumunda iştirak etmək üçün yanvarın 26-da İsveçrəyə işgüzar səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Yanvarın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Davosda keçirilən Dünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrəyə işgüzar səfərə gəlmişdir.*

*Prezident İlham Əliyev Sürixdən Davos şəhərinə yola düşdü.*

# KOREYANIN «SK GROUP» ŞİRKƏTLƏR QRUPUNUN SƏDRİ ÇEY TAE-VON İLƏ GÖRÜŞ

*Davos*

*26 yanvar 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev yanvarın 26-da Davosda «SK Group» şirkətlər qrupunun sədri Çey Tae-von ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev Koreya Respublikasına səfərini məmnunluqla xatırladaraq səfər çərçivəsində nəqliyyatın intellektual idarəetmə sistemi ilə bağlı aparılan danışıqların nəticəsi kimi, artıq bu layihənin yaxın vaxtlarda Azərbaycanda tətbiq ediləcəyinə ümidvar olduğunu bildirdi.*

*Dövlətimizin başçısı Koreya Respublikasının və Azərbaycan Respublikasının şirkətləri arasında fəal əməkdaşlığın həyata keçirildiyini vurğuladı, bu əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı potensialın olduğunu dedi.*

*Qeyd edək ki, «SK Group» şirkətlər qrupu 1953-cü ildə yaradılmışdır. Bu şirkət özündə 92 fəaliyyət sahəsini birləşdirir və sənaye, kimya, rabitə, informasiya texnologiyaları, tikinti və digər sektorlarda iri layihələr həyata keçirir. Şirkətin müxtəlif ölkələrdə 113 ofisi fəaliyyət göstərir. Həmin ofislərdə 300 mindən çox insan çalışır. Təkcə 2009-cu ildə şirkətin 80 milyard dollara yaxın ümumi gəliri olmuşdur.*

## «STATOYL ASA» ŞİRKƏTİNİN PREZİDENTİ VƏ BAŞ İCRAÇI DİREKTORU HELGE LUND İLƏ GÖRÜŞ

*Davos*

*26 yanvar 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev yanvarın 26-da Davosda «Statoyl ASA» şirkətinin prezidenti və Baş icraçı direktoru Helge Lund ilə görüşmüşdür.*

*«Statoyl ASA» şirkətinin prezidenti və Baş icraçı direktoru Helge Lund rəhbərlik etdiyi şirkətin Azərbaycanla uzun illərdir uğurlu əməkdaşlıq həyata keçirdiyini vurğulayaraq, bu əməkdaşlığın dərinləşməsi işinə Azərbaycan prezidentinin şəxsən verdiyi töhfəni yüksək qiymətləndirdi.*

*«Azərbaycan ilə əməkdaşlıq bizim strategiyamızın ən prioritet sahələrindən biridir» – deyən Helge Lund ölkəmizlə əməkdaşlığa böyük önəm verdiklərini bildirdi.*

*Dövlətimizin başçısı Azərbaycan ilə «Statoyl» arasında səmərəli əməkdaşlığın həyata keçirildiyini vurğulayaraq əmin olduğunu bildirdi ki, bu əməkdaşlıq bundan sonra da inkişaf edəcəkdir.*

*Prezident İlham Əliyev «Statoyl»ın «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunun istismarındakı iştirakını və ölkəmizə investisiya qoyuluşu istiqamətində həyata keçirdiyi işləri yüksək qiymətləndirdi.*

*Görüşdə Azərbaycan ilə «Statoyl» şirkəti arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

# «HUAWEİ TECHNOLOGİES» KORPORASİYASININ SƏDRİ XANIM SUN YAFANQ İLƏ GÖRÜŞ

*Davos*

*26 yanvar 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev yanvarın 26-da Davosda «Huawei Technologies» Korporasiyasının sədri xanım Sun Yafanq ilə görüşmüşdür.*

*«Huawei Technologies» Korporasiyasının sədri xanım Sun Yafanq rəhbərlik etdiyi şirkətin Azərbaycan ilə uzunmüddətli əməkdaşlıqda maraqlı olduğunu bildirdi. Qeyd etdi ki, bu şirkət hazırda Azərbaycan ilə müəyyən sahələrdə fəal əməkdaşlıq qurmuşdur. O, mobil rabitə, internet və informasiya-kommunikasiya texnologiyaları sahəsində «Huawei Technologies» Korporasiyasının Azərbaycan ilə əməkdaşlıqda maraqlı olduğunu bildirdi.*

*Dövlətimizin başçısı şirkətin Azərbaycan ilə fəal işləməsindən və sonuncu «Bakutel» sərgisində də iştirak etməsindən məmnun olduğunu dedi. Prezident İlham Əliyev «Huawei Technologies» Korporasiyasının Azərbaycanda fəaliyyətini genişləndirəcəyinə ümidvar olduğunu bildirdi.*

## «TELİASONERA EURASİA» ŞİRKƏTİNİN PREZİDENTİ TERO KİVİSAARİ İLƏ GÖRÜŞ

*Davos*

*26 yanvar 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev yanvarın 26-da Davosda «TeliaSonera Eurasia» şirkətinin prezidenti Tero Kivisaari ilə görüşmüşdür.*

*Görüşdə «TeliaSonera Eurasia» şirkəti ilə Azərbaycan arasında fəal əməkdaşlığın qurulduğu və bu əməkdaşlığın daha da genişləndirilməsinin önəmi qeyd edildi. Tero Kivisaari onların Azərbaycandakı fəaliyyətini dəstəklədiyinə görə prezident İlham Əliyevə minnətdarlıq etdi. Bildirildi ki, «TeliaSonera Eurasia» şirkəti Azərbaycanda əsasən informasiya-kommunikasiya texnologiyaları sahəsində əməkdaşlığa böyük önəm verir.*

*Görüşdə Azərbaycan ilə «TeliaSonera Eurasia» şirkəti arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

## «EDİSON» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU UMBERTO KUADRİNO İLƏ GÖRÜŞ

*Davos*

*26 yanvar 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev yanvarın 26*-da Davosda *«Edison» şirkətinin Baş icraçı direktoru Umberto Kuadrino ilə görüşmüşdür.*

*Görüşdə «Edison» şirkəti ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında əməkdaşlıq, «Cənub Dəhlizi» və Türkiyə–Yunanıstan–İtaliya qaz kəməri layihələri ilə bağlı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## İSVEÇRƏ PREZİDENTİ MİŞELİN KALMİ- RE İLƏ GÖRÜŞ

*Davos*

*27 yanvar 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Davosda İsveçrə Konfederasiyasının Prezidenti xanım Mişelin Kalmi-Re ilə görüşmüşdür.*

*İsveçrə prezidenti xanım Mişelin Kalmi-Re Azərbaycanla enerji sahəsində əməkdaşlığın ölkəsi üçün önəmini qeyd etdi. O, İsveçrənin Azərbaycanın müvafiq qurumları ilə uğurlu əməkdaşlıq etdiyini vurğulayaraq, Azərbaycanın ölkəsi üçün vacib tərəfdaş olduğunu bildirdi. Xanım Mişelin Kalmi-Re «Cənub Dəhlizi»nin inkişafında Azərbaycanın rolunu xüsusi vurğulayaraq, İsveçrənin Trans-Adriatik boru kəmərinə maraq göstərdiyini və bu layihəni dəstəklədiklərini diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən enerji sahəsində uğurla inkişaf etdiyini bildirdi. Dövlətimizin başçısı Azərbaycanın «Cənub Dəhlizi»nə daxil olan layihələrə, o cümlədən Trans-Adriatik boru kəməri layihəsinə də dəstək verdiyini dedi.*

*Azərbaycan prezidenti İlham Əliyev enerji sahəsində Avropa İttifaqı ilə uğurlu əməkdaşlığın həyata keçirildiyini dedi və İsveçrənin «Cənub Dəhlizi» layihələrinə maraq göstərməsindən razılığını bildirdi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## «MİCROSOFT» KORPORASİYASININ VİTSE-PREZİDENTİ VƏ «MİCROSOFT İNTERNATİONAL» ŞİRKƏTİNİN PREZİDENTİ JAN-FİLİP KURTUA İLƏ GÖRÜŞ

*Davos*

*27 yanvar 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev yanvarın 27-də Davosda «Microsoft» Korporasiyasının vitse-prezidenti və «Microsoft İnternational» şirkətinin prezidenti Jan-Filip Kurtua ilə görüşmüşdür.*

*Jan-Filip Kurtua prezident İlham Əliyev ilə bundan əvvəlki görüşünü xatırladaraq təmsil etdiyi şirkətin ölkəmizdə səmərəli fəaliyyət göstərməsi üçün verdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlıq etdi. O, neft gəlirlərinin insan kapitalına çevrilməsi ilə bağlı Azərbaycan prezidentinin fikirlərinin və ölkəmizdə təhsil sisteminin inkişafına böyük həcmdə investisiyaların qoyulmasının önəmini vurğuladı.*

*Prezident İlham Əliyev «Microsoft» şirkətinin Azərbaycanda fəaliyyətinin genişlənməsində və ölkəmizin bu şirkətlə əməkdaşlıqda maraqlı olduğunu deyərək bildirdi ki, Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları sistemi inkişaf edir və «Microsoft» şirkətinin ölkəmizdə daha geniş fəaliyyəti üçün yaxşı imkanlar vardır.*

*Görüşdə Azərbaycanın indiki inkişaf tempinin və prezident İlham Əliyevin bununla bağlı həyata keçirdiyi fəaliyyətin nəticələrinin «Microsoft» ilə əməkdaşlığın dərinləşməsi üçün geniş imkanlar açdığı vurğulandı.*

## RUSİYANIN «LUKOYL» ŞİRKƏTİNİN PREZİDENTİ VAHİD ƏLƏKBƏROV İLƏ GÖRÜŞ

*Davos*

*27 yanvar 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev yanvarın 27-də Davosda Rusiyanın «LUKoyl» şirkətinin prezidenti Vahid Ələkbərov ilə görüşmüşdür.*

*Görüşdə «LUKoyl» ilə Azərbaycan arasında uzun illər səmərəli əməkdaşlığın və bu şirkətin ölkəmizə investisiya qoyuluşu istiqamətində uğurlu fəaliyyətinin olduğu vurğulandı.*

*Görüşdə Azərbaycan Dövlət Neft Şirkəti ilə «LUKoyl» arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## *bp* ŞİRKƏTİNİN DİREKTORLAR ŞURASININ SƏDRİ VƏ QEYRİ-İCRAÇI DİREKTORU KARL-HENRİK SVANBERQ İLƏ GÖRÜŞ

*Davos*

*27 yanvar 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev yanvarın 27-də Davosda bp şirkətinin Direktorlar Şurasının sədri və qeyri-icraçı direktoru Karl-Henrik Svanberq ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə bp şirkəti arasında 1994-cü ildən fəal əməkdaşlığın həyata keçirildiyi vurğulandı. bp şirkətinin Bakı–Tbilisi–Ceyhan neft və Bakı–Tbilisi–Ərzurum qaz kəmərləri, «Azəri», «Çıraq», «Günəşli» və «Şahdəniz» yataqlarının işlənilməsində iştirakının, «Şəfəq–Asiman» yataqları ilə bağlı imzalanmış sazişlərin əhəmiyyəti qeyd olundu.*

*Söhbət zamanı Azərbaycan ilə bp arasındakı əməkdaşlığın strateji xarakter daşıdığı bildirildi və bu əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə edildi.*

*Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## TOTAL ŞİRKƏTİNİN SƏDRİ VƏ BAŞ İCRAÇI DİREKTORU KRİSTOF DE MARJERİ İLƏ GÖRÜŞ

*Davos*

*27 yanvar 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev yanvarın 27-də Davosda Total şirkətinin sədri və Baş icraçı direktoru Kristof De Marjeri ilə görüşmüşdür.*

*Görüşdə Totalın Azərbaycandakı fəaliyyəti, bu şirkətin «Şahdəniz» və «Abşeron» qaz yataqlarının işlənilməsi, həmçinin Azərbaycan ilə Total şirkəti arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparıldı.*

# AVSTRİYANIN AVROPA VƏ BEYNƏLXALQ MƏSƏLƏLƏR ÜZRƏ NAZİRİ MİXAEL ŞPİNDELEQQER İLƏ GÖRÜŞ

*Davos*

*27 yanvar 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev yanvarın 27-də Davosda Avstriyanın Avropa və Beynəlxalq Məsələlər üzrə naziri Mixael Şpindeleqqer ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Avstriya arasında ikitərəfli əməkdaşlığın uğurla inkişaf etdiyi bildirildi. Qeyd olundu ki, ölkələrimiz arasında əməkdaşlıq yaxşı səviyyədədir və bunu Avstriya şirkətlərinin Azərbaycanda müxtəlif sahələrdə səmərəli fəaliyyəti də təsdiqləyir. Avstriya ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlığın uğurlu olduğu bildirilən görüşdə qeyd olundu ki, bu sahədə OMV şirkətinin Azərbaycan ilə əməkdaşlığı faydalıdır.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsinin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## AVSTRİYA–İQTİSADİ ƏMƏKDAŞLIQ VƏ İNKİŞAF TƏŞKİLATININ BİRGƏ NAHAR MƏRASİMİNDƏ

*Davos*

*27 yanvar 2011-ci il*

*Yanvarın 27-də Davosda 41-ci Dünya İqtisadi Forumu çərçivəsində Avstriya–İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) birgə nahar mərasimi olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dünyanın məşhur siyasət və biznes dairələrinin nümayəndələrinin bir araya gəlmələri və fikir mübadiləsi aparmaları baxımından xüsusi əhəmiyyətə malik olan nahar mərasimində Azərbaycana maraq daha çox hiss edilirdi. Bu da ilk növbədə, son illərdə ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatların əhəmiyyətinə, Azərbaycanın malik olduğu potensiala söykənir. Dövlətimizin başçısının mərasimdən əvvəl keçirdiyi görüşlər də Azərbaycanın iqtisadi nailiyyətlərinin dünyanın işgüzar dairələrinin diqqət mərkəzində olduğunu təsdiqləyir.*

*Mərasimdə çıxış edən Avstriyanın Federal Kansleri Verner Fayman, Qazaxıstanın Baş naziri Kərim Məsimov, Ukrayna prezidenti Viktor Yanukoviç, OECD-nin Baş katibi Angel Qurria və başqaları Dünya İqtisadi Forumunun mahiyyətinə diqqət çəkərək forumun iqtisadi-siyasi əlaqələrin qurulmasındakı əhəmiyyətindən danışdılar.*

*Tədbirin aparıcısı, Avstriyanın Avropa və Beynəlxalq Məsələlər üzrə naziri Mixael Şpindeleqqer dövlətimizin başçısına müraciətlə dedi:* İndi isə böyük şərəf hissi ilə Azərbaycan prezidenti İlham Əliyevi çıxış etməyə dəvət edirəm.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli xanımlar və cənablar!

İlk növbədə mən Avstriyadan olan həmkarlarımıza, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına bu mühüm tədbirdə iştirak etmək üçün dəvətə görə təşəkkürümü bildirirəm. Əminəm ki, bu gün aparacağımız səmimi danışıqlar və müzakirələr regionumuz haqqında daha çox təəssürat və anlayış yaradacaq. Baxmayaraq ki, Azərbaycan Mərkəzi Asiya regionunun deyil, Qafqazın bir hissəsidir, lakin biz çox yaxınıq, qonşuyuq. Uzun illər ərzində biz bir ölkədə yaşamışıq. Buna görə də bizim bir çox əlaqələrimiz, mədəni və iqtisadi bağlılığımız mövcuddur. İndi isə biz həmin ənənəvi əlaqələrin bərpası və regionda layihələrin daha səmərəli olması üzərində düşünürük.

Biz Xəzər dənizi vasitəsilə Mərkəzi Asiyadakı tərəfdaşlarımızla bir çox məsələlərlə bağlı sıx işləyirik. Biz enerji və nəqliyyat sahəsində çalışırıq. Azərbaycanın coğrafi mövqeyi çox əlverişlidir. Hazırda biz Şərq–Qərb, Şimal–Cənub daşıma dəhlizləri sahəsində işləyirik. Türkiyə ilə Azərbaycan arasında olan dəmiryol xətti sırf iki ölkəni birləşdirən xətt deyil, əslində bu, Avropa ilə Asiya arasındakı bağlantıdır. Çünki həmin dəmir yolu Çindən başlayıb Avropaya qədər gedəcəkdir. Bu, yeni etibarlı alternativlərin yaranmasına imkan verəcək və bütün tərəflər üçün faydalı, səmərəli marşrut olacaqdır.

Azərbaycan neft ölkəsi kimi tanınır. Bu tamamilə doğrudur. Çünki dünyada ilk dəfə neft XIX əsrdə məhz Azərbaycanda hasil edilib. Sonradan dənizdə neft ilk olaraq yenə Azərbaycanda hasil edilib. Lakin bu gün təbii ki, biz bir sıra mühüm şaxələndirmə layihələri üzərində işləyirik. Bizim enerji daşıyıcılarını beynəlxalq bazarlara nəql edən 3 neft və 4 qaz boru kəmərimiz vardır. Biz nəhəng qaz yataqlarını aşkar etmişik. Onlar bizə böyük qaz ixracatçısı olmağa imkan verir. Hazırda biz təbii qazı qonşu ölkələrə ixrac edirik. Hasilatın artırılması və yeni bazarların tapılması ilə bağlı böyük planlarımız vardır. Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,2 trilyon kubmetrdir və bu həcm İqtisadi

Əməkdaşlıq və İnkişaf Təşkilatı sədrinin qeyd etdiyi kimi, bizim üçün 100 ildən artıq müddətə kifayətdir.

Bizim şaxələndirilmiş müasir daşıma infrastrukturumuz vardır. Hazırda üzərində çalışdığımız məsələ yeni bazarların müəyyən edilməsidir. Əslində biz həmin bazarların yerləşdiyi yeri bilirik. Lakin bu layihənin qarşılıqlı surətdə faydalı olması üçün biz hasilatçı, tranzit və istehlakçı ölkələrin maraqlarını bir araya gətirməliyik. Enerji resursları təbii ki, bizdə əlavə əminlik yaradır. Bunlar qeyri-neft sektoruna sərmayə qoymaq imkanı yaradır və biz bu işi uğurla aparırıq. İqtisadiyyatın şaxələndirilməsi və müasirləşdirilməsi bizim əsas məqsədimizdir.

İqtisadi artımımız çox sürətli olubdur. Son 7 il ərzində ÜDM 2,8 dəfə artıb. Bu təqribən 300 faiz təşkil edir. 2009-cu ildə böhranın baş verdiyi və neftin qiymətlərinin 4 dəfə aşağı düşdüyü halda, iqtisadiyyatımız 9,3 faiz, ötən il isə 5 faiz artmışdır. Hazırda artım əvvəlki illərdəki kimi o qədər böyük deyil, lakin davamlıdır. ÜDM-in strukturu çoxşaxəlidir və daha cəlbedicidir.

Söyləyə biləcəyimiz nailiyyətlərimizdən biri yoxsulluğun azaldılmasıdır. Bu, birbaşa iqtisadi islahatlarımızla bağlı idi. Çünki enerji sektoru çox sayda iş yeri yaratmır. Buna görə də vəsaitlərin neft sektorundan qeyri-neft sektoruna yönəldilməsi iqtisadiyyatımızı müəyyən dərəcədə şaxələndirməyə imkan yaratdı və 7 il əvvəl mövcud olmuş 49 faizlik yoxsulluğun 9 faizə qədər endirilməsini mümkün etdi.

Biz təhsil sahəsinə böyük sərmayələr yatırırıq. Rəqabətə davamlılıq baxımından Azərbaycan iqtisadiyyatını Dünya İqtisadi Forumu yüksək qiymətləndirir. Hazırda biz uğurlu və davamlı gələcəyi təmin edəcək iqtisadiyyatın sektorları üzərində çalışırıq. Biz gələcəyimizi regionda yaxşı mövqeyə və qonşularla yaxşı münasibətlərə, o cümlədən Avropa ilə strateji əlaqələrə malik olduqca dinamik və inkişaf etmiş ölkə kimi görürük. Azərbaycan Avropa İttifaqının «Şərq Tərəfdaşlığı» Proqramına qoşulub. Biz avropalı tərəfdaşlarımızla həyatımızın bütün sahələrini əhatə edən bu proqramın reallaşdırılması üzərində işləyirik. Biz iqtisadi və siyasi islahatları paralel şəkildə aparırıq.

Bu il biz müstəqilliyimizin 20 illiyini qeyd edəcəyik. Keçdiyimiz yol asan olmayıb. Xüsusən də müstəqilliyin ilk illərində bir çox çətinliklərlə üzləşmişik. İqtisadi, siyasi, hərbi böhran baş verirdi. Ermənistan tərəfindən Azərbaycan ərazisinin bir hissəsi işğal edildi. Lakin biz səylərimizi səfərbər edə bildik və müstəqillik fürsətini əldən qaçırmadıq. İqtisadi və siyasi nöqteyi-nəzərdən bu gün Azərbaycan müstəqil siyasət yürüdən, regionda yaxşı mövqeyə malik olan və gələcəyə böyük ümidlərlə baxan müstəqil ölkədir. Həmçinin ölkə daxilində və xaricində əmin-amanlıq istəyirik, Avropa və beynəlxalq maliyyə təsisatları ilə güclü əlaqələrin tərəfdarıyıq. Fikrimcə, xarici sərmayələrin cəlb olunması sahəsində əldə etdiyimiz təcrübə bu yolda ilk addımlarını atan ölkələr üçün faydalı ola bilər. Biz olduqca münbit sərmayə mühiti yaratmalı idik. Son 15 il ərzində Azərbaycana 95 milyard ABŞ dolları məbləğində sərmayə yatırılıb. Bunun yarısı xarici sərmayələrdir. Biz sərmayələrin qorunması üçün güclü hüquqi baza yaratmışıq və bütün əsas enerji müqavilələrimiz parlament tərəfindən təsdiq olunur və qanun qüvvəsini almaq məqsədi ilə prezident tərəfindən imzalanır. Hətta biz istəsək belə, həmin müqavilələrin şərtlərini dəyişdirmək hüququmuz yoxdur. Bu isə ən vacib amildir. Çünki sərmayədar, xüsusən də regionumuzdakı xarici investorlar 100 faiz əmin olmalıdırlar ki, sərmayələr qorunacaq və heç kim artıq imzalanmış müqavilələrdəki şərtləri dəyişdirməyə çalışmayacaqdır.

Mən təşkilatçılara, xüsusən də avstriyalı dostlarımıza bir daha təşəkkür edirəm. Avstriya ilə Azərbaycan arasındakı yaxşı siyasi və iqtisadi münasibətlərdən çox məmnunuq. Hazırda Avstriya şirkətləri ölkəmizdə mehmanxana və Xizəksürmə İstirahət Mərkəzinin tikintisi ilə məşğuldurlar. Onlar iqtisadiyyatımıza sərmayə yatırırlar və ümidvaram ki, bu müsbət meyillər davam edəcəkdir. Çox sağ olun.

## POLŞA RESPUBLİKASININ PREZİDENTİ BRONİSLAV KOMOROVSKİ İLƏ GÖRÜŞ

*Davos*

*28 yanvar 2011-ci il*

*Yanvarın 26-dan İsveçrədə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Polşa Respublikasının Prezidenti Bronislav Komorovski ilə yanvarın 28-də Davosda görüşmüşdür.*

*Bu görüşə böyük əhəmiyyət verdiklərini deyən Azərbaycan və Polşa prezidentləri ölkələrimiz arasında uğurlu əməkdaşlığın davam etdiyini vurğuladılar.*

*Görüşdə ikitərəfli münasibətlər və enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə edildi. Azərbaycan ilə Avropa İttifaqı arasında, xüsusilə də «Şərq Tərəfdaşlığı» Proqramı çərçivəsində əməkdaşlığın əhəmiyyəti, o cümlədən Polşanın bu istiqamətdə dəstəyi qeyd olundu.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Polşa arasında əlaqələrin bundan sonra da uğurla davam edəcəyinə əminliyini ifadə etdi. Ölkələrimiz arasında ikitərəfli əlaqələrin gündəliyinin çox geniş olduğunu deyən prezident İlham Əliyev bildirdi ki, Azərbaycan və Polşa siyasi, iqtisadi və müxtəlif sahələrdə uğurla əməkdaşlıq edir.*

*Dövlət başçıları münasibətlərin bundan sonra da inkişaf etdirilməsi istiqamətində ətraflı fikir mübadiləsi apardılar.*

*Prezident İlham Əliyev Polşa prezidenti Bronislav Komorovskini Azərbaycana səfərə dəvət etdi.*

# UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ VİKTOR YANUKOVİÇ İLƏ GÖRÜŞ

*Davos*

*28 yanvar 2011-ci il*

*Yanvarın 28-də Davosda Azərbaycan prezidenti İlham Əliyevin və Ukrayna prezidenti Viktor Yanukoviçin görüşü olmuşdur.*

**İlham Əliyev:** Hörmətli Viktor Fyodoroviç, Sizi yenidən görməyimə, böyük uğurla inkişaf edən dialoqumuzu davam etdirmək imkanına görə çox şadam. Mən Ukraynaya səfərimi məmnunluqla xatırlayıram. Bizim diskussiyalarımız münasibətlərimizin gələcək inkişafına çox mühüm təsir göstərir.

Bizim münasibətlərimiz çox fəal və dinamik inkişaf edir, «strateji tərəfdaşlıq», «dostluq münasibətləri» kimi terminlərlə səciyyələndirilir. Əminəm ki, siyasi dialoqun genişlənməsi, iqtisadi sahədə, xüsusən energetika sahəsində fəal qarşılıqlı əlaqələr xalqlarımızı daha da yaxınlaşdıracaq, təkcə ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafı üçün deyil, həm də Qara dəniz və Xəzər dənizi regionunda əməkdaşlığın hərtərəfli yüksəlişi üçün əlverişli şərait yaradacaqdır. Sizi bir daha ürəkdən salamlamaq istəyirəm. Ümid edirəm ki, Ukraynanın və Azərbaycanın rifahı naminə fəal işimiz davam edəcəkdir.

**Viktor Yanukoviç:** Sağ olun, hörmətli İlham Heydər oğlu. Sizinlə növbəti dəfə görüşməyimə çox şadam. Bizim yüksək səviyyədə görüşlərimizin intensivliyi hökumətlərimizə, Sizinlə ikitərəfli münasibətlərdə müəyyən etdiyimiz proqramların icraçılarına da sirayət edir. Əlbəttə, yüksək səviyyədə siyasi dialoq təsdiq edir ki, ölkələrimiz arasında strateji münasibətlər xalqlarımızın dostluğunun təməlidir. Bu, müxtəlif böhranlar

dövründə xüsusilə əhəmiyyətlidir. Ukrayna xalqı heç vaxt unutmayacaq ki, bizim üçün çətin bir dövrdə Sizin atanız Heydər Əliyev tarixi qərar qəbul etdi və Sizin ölkəniz Ukraynanı yanacaq-sürtkü materialları, neftayırma zavodlarımıza neft nəql edilməsi ilə dəstəklədi. Bu həmin dövrdə Ukraynaya çatışmayan bir udum hava kimi zəruri idi və prezident Heydər Əliyevin göstərişi ilə Azərbaycan bunu etdi.

Siz bu xoşməramlı ənənələri davam etdirirsiniz. Biz çox şadıq ki, bütün 2010-cu il ərzində ölkələrimiz arasında əmtəə dövriyyəsinin fəal artımı qeydə alınmış, yeni fəaliyyət növləri yaranmış, yanacaq-sürtkü materialları, neft ticarəti xeyli fəallaşmışdır və bu gün nazirlərimiz bizim strateji müqaviləni daha mənalı edən növbəti saziş hazırlamışlar. Bilirəm ki, bu fəallıq əsasən Sizin şəxsi iştirakınızla əlaqədardır. Bunu demək mənə çox xoşdur ki, əlbəttə, 2011-ci ilin əvvəlindən danışsaq, biz növbəti addım atırıq və ticarət münasibətlərinin, ticari-iqtisadi əlaqələrin genişləndirilməsi üçün birgə fəal səylərimizi davam etdirməliyik. Buna görə də məmnuniyyətlə qeyd etmək istəyirəm ki, biz birinci addımı birlikdə hazırlamışıq. Mən bu il Sizinlə razılaşdığımız kimi, həm Sizin üçün, həm də mənim üçün münasib vaxtda Azərbaycana səfər etməyi planlaşdırıram ki, siyasi, strateji dialoqu artıq dost Azərbaycan ərazisində davam etdirə bilək. Bu gün burada – bir sıra ölkələrin liderləri, hökumət rəhbərləri, siyasətçilər, işgüzar dairələrin nümayəndələrinin toplaşdığı Davosda təklif edirəm ki, nazirlərimiz bizim iştirakımızla ölkələrimiz arasında çox mühüm olan bu sənədləri imzalasınlar.

## BÖYÜK BRİTANİYANIN YORK HERSOQU ŞAHZADƏ ENDRYU İLƏ GÖRÜŞ

*Davos*

*28 yanvar 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev yanvarın 28-də Davosda Böyük Britaniyanın York Hersoqu şahzadə Endryu ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında iqtisadi əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, bu sahədə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə edildi.*

## RWE ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ YURGEN QROSMAN İLƏ GÖRÜŞ

*Davos*

*28 yanvar 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev yanvarın 28-də Davosda RWE şirkətinin İdarə Heyətinin sədri Yurgen Qrosman ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə RWE şirkəti arasında uğurlu əməkdaşlığın davam etdiyi bildirildi. Qeyd olundu ki, RWE şirkəti Azərbaycan ilə enerji sahəsində səmərəli əməkdaşlıq qurmuşdur.*

*Energetika sahəsində əlaqələrin önəminin qeyd olunduğu görüşdə RWE şirkətinin Azərbaycan və bütövlükdə Xəzər regionu ilə əməkdaşlıqda, ölkəmizə investisiya qoymaqda maraqlı olduğu bildirildi.*

## «AVROPANIN ENERJİ GƏLƏCƏYİ» MÖVZUSUNDA SESSİYADA İŞTİRAK

*Davos*

*28 yanvar 2011-ci il*

*Yanvarın 28-də Davosda «Avropanın enerji gələcəyi» mövzusunda sessiya keçirilmişdir.*

*Böyük əhəmiyyətə malik bu sessiyada Azərbaycan prezidenti İlham Əliyev iştirak etmişdir.*

*Sessiyada çıxış edən prezident İlham Əliyev Avropanın enerji təhlükəsizliyi sistemində Azərbaycanın rolundan bəhs etdi. Dövlətimizin başçısı Azərbaycanın Avropa İttifaqı ilə enerji sahəsində əməkdaşlığı, «Cənub Dəhlizi» çərçivəsində nəzərdə tutulan layihələrin perspektivləri və digər məsələlər barədə danışdı.*

**PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ANİBAL KAVAKU SİLVAYA**

Hörmətli cənab Prezident!

Portuqaliya Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Portuqaliya arasındakı dostluq münasibətləri, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Portuqaliya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 yanvar 2011-ci il*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA**

Hörmətli cənab Prezident!

İran İslam Respublikasının milli bayramı – İslam İnqilabı günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə İran arasındakı dostluq, mehriban qonşuluq və hərtərəfli əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İran xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 fevral 2011-ci il*

**SERBİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB BORİS TADİÇƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Dövlətçilik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Serbiya münasibətlərinin inkişafı, dostluq əlaqələrimizin möhkəmləndirilməsi, əməkdaşlığımızın əhatə dairəsinin genişləndirilməsi yolunda səylərimiz bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Serbiya xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 fevral 2011-ci il*

## BRUNEY-DARÜSSALAMIN SULTANI ƏLAHƏZRƏT HACI HƏSSƏNAL BOLKİAHA

Əlahəzrət!

Ölkənizin milli bayramı münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Bruney-Darüssalam arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 fevral 2011-ci il*

**KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA**

Əlahəzrət!

Küveyt Dövlətinin milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, xalqlarımızın iradəsini ifadə edən Azərbaycan–Küveyt münasibətləri, dostluq və əməkdaşlıq əlaqələrimiz bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Küveyt xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 fevral 2011-ci il*

**LİTVA RESPUBLİKASININ PREZİDENTİ
XANIM DALYA QRİBAUSKAYTEYƏ**

Hörmətli xanım Prezident!

Milli bayramınız – Litva dövlətinin bərpası günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Litva arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri bu gün dinamik inkişaf yolundadır. Əminəm ki, dövlətlərarası münasibətlərimizin, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Litva xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 fevral 2011-ci il*

**ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB TOOMAS HENDRİK İLVESƏ**

Hörmətli cənab Prezident!

Əziz dostum!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan–Estoniya münasibətləri bu gün hərtərəfli inkişaf yoluna qədəm qoymuşdur. Əminəm ki, dostluq əlaqələrimizin möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Estoniya xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 fevral 2011-ci il*

## TÜRKİYƏNİN MİLLİ İSTİHBARAT TƏŞKİLATININ RƏHBƏRİ HAKAN FİDAN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 fevral 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 7-də Türkiyənin Milli İstihbarat Təşkilatının rəhbəri Hakan Fidanı qəbul etmişdir.*

*Dövlətimizin başçısı Türkiyənin Milli İstihbarat Təşkilatının rəhbəri Hakan Fidanın yeni vəzifədə ölkəmizə ilk səfərindən məmnunluğunu ifadə etdi. Azərbaycan ilə Türkiyə arasında münasibətlərin dostluq və qardaşlıq prinsipləri üzərində qurulduğunu deyən prezident İlham Əliyev bütün sahələrdə olduğu kimi, milli təhlükəsizlik sahəsində də ölkələrimiz arasında əlaqələrin sürətlə inkişaf edəcəyinə əminliyini bildirdi. Yaşadığımız bölgədə təhlükəsizlik tədbirlərinin gücləndirilməsinin vacibliyini qeyd edən dövlətimizin başçısı bu sahədə Türkiyə–Azərbaycan əlaqələrinin inkişafının bütün bölgəyə müsbət təsir göstərdiyini bildirdi.*

*Türkiyənin Milli İstihbarat Təşkilatının rəhbəri Hakan Fidan Türkiyə prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Yeni vəzifədə ölkəmizə səfərindən qürur hissi keçirdiyini bildirən Hakan Fidan Bakıda böyük dəyişikliyin və inkişafın şahidi olduğunu və bundan çox sevindiyini dedi.*

*Dövlətimizin başçısı Türkiyə prezidenti Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## FRANSA SENATININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 fevral 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 7-də Fransa Senatının nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Fransa Senatı nümayəndə heyətinin ölkəmizə səfərinin münasibətlərimizin daha da genişləndirilməsi baxımından əhəmiyyəti vurğulanmış, bu səfərin parlamentlərarası əlaqələrin möhkəmlənməsində önəmi qeyd olunmuş, bu sahədə əməkdaşlığımızın perspektivləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.*

## LİTVA SEYMİNİN SƏDRİ XANIM İRENA DEQUTİENENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 fevral 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 8-də Litva Seyminin sədri xanım İrena Dequtienenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*İki ölkə arasında siyasi sahədə qarşılıqlı fəaliyyətin yaxşı səviyyədə olduğunu bildirən prezident İlham Əliyev iqtisadi əlaqələrin genişlənməsi üçün də yaxşı perspektivlərin olduğunu söylədi. Parlamentlərarası əlaqələrin önəmini vurğulayan dövlət başçısı ölkələrimizin Avropa parlamenti, Avropa Şurası, ATƏT və NATO-nun parlament assambleyaları kimi müxtəlif beynəlxalq təşkilatlarda əməkdaşlıq təcrübəsinə malik olduğunu xatırlatdı və bu əməkdaşlığın artıq ənənəvi xarakter daşıdığını bildirdi. Prezident İlham Əliyevin Litva Seyminin sədri xanım İrena Dequtienenin ölkəmizə səfərinin bu sahədə əlaqələrin genişlənməsinə töhfə verəcəyinə əminliyini söylədi.*

*Litva Seyminin sədri xanım İrena Dequtiene Azərbaycana səfərindən və ölkəmizlə yaxından tanış olmaq imkanı qazanmasından məmnunluğunu bildirdi. O, ölkəsini təmsil edən şirkətlərin Bakıda keçiriləcək Azərbaycan–Litva biznes-forumunda iştirak edəcəyini xatırladaraq, bu tədbirin müxtəlif sahələrdə əlaqələrin inkişafı baxımından önəmini vurğuladı. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan xanım İrena Dequtiene Litvanın Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bildirdi.*

## QAZAX VƏ TOVUZ RAYONLARINA SƏFƏR

*Qazax*

*9 fevral 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev fevralın 9-da respublikamızın qərb bölgəsinə səfəri çərçivəsində Qazax rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Qazax şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyevə abidənin ətrafında salınmış Heydər parkında görülmüş abadlıq və quruculuq işləri barədə ətraflı məlumat verildi.*

## QAZAX RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*9 fevral 2011-ci il*

*Fevralın 9-da Azərbaycan prezidenti İlham Əliyev Qazax rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.*

**İ l h a m  Ə l i y e v:** Mən sizi ürəkdən salamlayıram. Hamınızı xoş gördük. Yenidən sizinlə görüşə gəlmişəm. Bu gün Qazax rayonunda bir neçə tədbirdə, açılışda iştirak edəcəyəm. Hər dəfə burada olarkən sevinirəm ki, Qazax rayonunda işlər çox yaxşı gedir. Böyük quruculuq-abadlıq işləri aparılır, rayon inkişaf edir, yeni müəssisələr yaradılır. Azərbaycanın bütün regionlarında aparılan işlər bir məqsədi güdür – bizim ölkəmiz daha da güclənsin, inkişaf etsin və iqtisadiyyatımız çoxşaxəli iqtisadiyyata çevrilsin. Biz tədricən buna nail oluruq. 2010-cu ilin nəticələri çox müsbətdir. Baxmayaraq ki, dünyada maliyyə-iqtisadi böhran hələ də hökm sürürdü, biz iqtisadi sahədə böyük uğurlara nail ola bildik. Həm yoxsulluğun səviyyəsinin azaldılmasında, həm də iqtisadiyyatın inkişafında Azərbaycan qarşıda duran bütün vəzifələri icra etmişdir.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı da uğurla icra edilir. Əgər 2004-cü ildə biz birinci proqramı qəbul etməsəydik, bu gün regionların inkişafından söhbət gedə bilməzdi. Bu proqramın icrası nəticəsində görülən işlər indi bu reallıqları yaratmışdır. Biz bunu Qazax rayonunun timsalında da görürük. Burada həm sosial obyektlər, sənaye müəssisələri tikilir, həm də şəhər abadlaşır, yollar çəkilir, bir sözlə, rayon inkişaf edir. Əvvəlki illərdə Heydər Əliyev Mərkəzinin açılışında birlikdə iştirak etmişdik, daha sonra Müalicə-Diaqnostika Mərkəzi açılmışdı. İndi İcra hakimiyyətinin başçısı mənə məlumat verir ki, diaqnostika mərkəzinin açılışının çox böyük,

müsbət təsiri olmuşdur. İnsanlar keyfiyyətli, pulsuz tibbi xidmət alırlar. Nəinki Qazax rayonunun sakinləri, Gürcüstanda yaşayan soydaşlarımız da bu imkanlardan istifadə edirlər. Burada indi tikilməkdə olan böyük Konserv zavodu həm Qazax fermerlərinin məhsullarını emal edəcək, həm də Gürcüstanda yaşayan soydaşlarımıza müsbət təsiri olacaqdır.

Azərbaycanda Qazax rayonunun xüsusi əhəmiyyəti var, xüsusi yeri var. Bu rayonun inkişafı çox böyük məna daşıyır. Bütün rayonların inkişafı çox vacibdir. Amma xüsusilə sərhəd bölgələrinin, paytaxtdan uzaqda yerləşən rayonların inkişafına daha da böyük diqqət göstərilir.

Bu gün artıq Bakı–Gürcüstan sərhədi avtomobil yolu, demək olar ki, hazırdır. Bu da qazaxlılar üçün böyük imkanlar yaradır. Çünki yol inkişaf deməkdir, rahatlıq deməkdir. Dəmir-yol nəqliyyatının inkişafı üçün də tədbirlər görülür. Bir sözlə, infrastruktur layihələrinin həyata keçirilməsi, sahibkarlığın inkişafı, sosial obyektlərin tikilməsi – Azərbaycanda bütün bunlar planlı şəkildə aparılır. Bu gün Qazax rayonunda yeni məktəbin, gömrük məntəqəsinin açılışı nəzərdə tutulmuşdur. Bir sözlə, sosial obyektlərin tikilməsi, sənaye müəssisələrinin yaradılması ölkəmizi hərtərəfli inkişaf etdirmək üçün şərait yaradır.

O ki qaldı ölkədəki ümumi vəziyyətə, planlar həyata keçirilir, iqtisadiyyat artır, energetika sektorunda əldə edilmiş uğurlar, neft-qaz sənayesində görülmüş işlər həm bizim maliyyə imkanlarımızı artırır, həm də dünyadakı mövqelərimizi möhkəmləndirir. Böyük valyuta ehtiyatlarımız var və özümüzü çox rahat və əmin hiss edirik. Bütün bu görülmüş işlər onu göstərir ki, planlı şəkildə qurulmuş iş olan yerdə nəticə də olacaqdır. Ancaq biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik, daha da böyük işlər görməliyik, iqtisadiyyatımızı daha da gücləndirməliyik, sosial siyasəti daha da gücləndirməliyik. Keçən il minimum əməkhaqqı və pensiyanın baza hissəsi artırılmışdır. Azərbaycanda orta əməkhaqqını dollarla hesablasaq, 400 dollardan artıqdır. Ancaq yenə də deyirəm, bu bizi qane edə bilməz. Bütün səylərimiz ona yönəlməlidir ki, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar.

Düzdür, son 7 ildə yoxsulluğun səviyyəsinin 4 dəfə aşağı düşməsi böyük nəticədir. Təxminən 44 faizdən 9,1 faizə düşməsi görülmüş işlərin nəticəsidir. Amma bu da çoxdur. Son 7 ildə 900 mindən çox iş yeri açılmışdır ki, onlardan 700 minə qədəri daimi iş yeridir. İşsizliyin böyük hissəsi aradan qaldırılmışdır, amma hələ də işsizlik var. Xüsusilə 2011-ci ildə və ondan sonrakı illərdə biz bu sahələrə xüsusi diqqət göstərəcəyik ki, bütün çatışmayan məsələləri həll edək, çatışmayan cəhətləri aradan qaldıraq.

Sahibkarlığın inkişafına böyük diqqət göstəriləcək. Azərbaycanda sahibkarlar sinfi formalaşır və mən daim sahibkarlarla görüşürəm. Hətta xarici səfərlərə də özümlə aparıram ki, biz onları beynəlxalq bazarlara çıxaraq. Azərbaycanın iş adamlarının beynəlxalq bazarlara çıxması üçün siyasi fəaliyyət də göstəririk. Ölkə daxilində sahibkarlığın inkişafı üçün güzəştli şərtlərlə uzunmüddətli kreditlər, subsidiyalar ayrılır. Bəzi hallarda sahibkarlara qarşı ədalətsiz hərəkətlərin aradan qaldırılması üçün son zamanlar çox ciddi tədbirlər görülür. Hesab edirəm ki, biz bu sahədə səylərimizi daha da gücləndirməliyik. Əsassız müdaxilələrə, lazımsız yoxlamalara son qoyulmalıdır. Azərbaycan öz iqtisadiyyatını tam şəkildə bazar münasibətləri prinsipləri üzərində qurubdur. Bazar iqtisadiyyatının qanunları tələb edir ki, sahibkarlıq sinfi güclənsin. Bizim böyük sənaye müəssisələrimiz var – neft-qaz sənayesi, digər sənaye müəssisələri. Ancaq ölkəmizin inkişafı üçün sahibkarlığın, orta və kiçik sahibkarlığın inkişafı başlıca şərtdir. Bu məqsədlə biz son illər Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə güzəştli şərtlərlə kreditlər ayırmışıq. Bütün bu işləri görmüşük, bununla bərabər, yenə də deyirəm, bütün bu sahələrdə şəffaflıq olmalıdır, ədalət olmalıdır.

Azərbaycanda böyük işlər görülür, hələ çox işlər də görülməlidir. Biz ölkəmizi müasirləşdirməliyik, bütün cəhətlərdən – həm siyasi islahatlar, həm də iqtisadi islahatlar baxımından inkişaf etmiş ölkələrin səviyyəsinə çatdırmalıyıq. Ölkədə ictimai nəzarət daha da güclü olmalıdır, rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə daha da ciddi aparılmalıdır. Bu

məsələlərin həlli ilə bağlı bu ilin əvvəlində Nazirlər Kabinetinin iclasında verdiyim tapşırıqlar yerinə yetirilir. Mən sizdən və Azərbaycanın bütün vətəndaşlarından xahiş edirəm ki, bütün xoşagəlməz hallar haqqında, bütün ədalətsizliklər haqqında, əsassız tələblər haqqında Prezident Administrasiyasına və digər müvafiq qurumlara, yerli icra hakimiyyəti orqanlarına məlumat versinlər ki, biz bu nöqsanları, bu yaraları daha da tezliklə aradan qaldıraq.

Qarşıda çox böyük perspektivlər var. Azərbaycan, sözün əsl mənasında, inkişaf etmiş ölkəyə çevrilməlidir və bu bizim məqsədimizdir. Baxmayaraq ki, dünyada inkişaf etmiş ölkələrin sayı çox deyil, hesab edirəm, bizim imkanımız var ki, biz bütün meyarlar üzrə o sıraya daxil olaq. Bunu etmək üçün təkcə iqtisadi uğurlar kifayət deyil. Ölkədə gərək bütün sahələr ən yüksək meyarlarla ölçülsün. Sosial təminat, infrastruktur layihələri, sosial ədalət prinsiplərinin bərqərar olması, məhkəmə-hüquq sistemində aparılan islahatlar və ədalətli qərarların çıxarılması, icra orqanlarında şəffaflığın təmin olunması, bütün maliyyə sistemimizdə şəffaflığın maksimum dərəcədə təmin olunması, ictimai nəzarət, demokratiyanın inkişafı – yəni inkişaf etmiş ölkələr, bax, bu sahələrdəki uğurlar hesabına inkişaf etmiş hesab olunur.

Biz də bu yolla getməliyik, başqa yolumuz yoxdur. Bunu etmək üçün təkcə rəhbərliyin siyasi iradəsi kifayət etməz. Burada bütün ictimaiyyət, vətəndaşlar bir olmalıdırlar. Biz bir məqsədə qulluq etməliyik ki, ölkəmiz inkişaf etsin, güclənsin, sosial rifah daha da yüksək səviyyədə olsun.

Mənə mütəmadi qaydada məlumatlar verilir, burada görülən işlər və bundan sonra görüləcək işlər rayonun inkişafına çox müsbət təsir göstərəcəkdir. Rayonda ictimai-siyasi və iqtisadi vəziyyət yaxşıdır, sosial məsələlər də həll olunur. Mən də çalışacağam ki, bundan sonra da Qazax rayonunun inkişafı üçün səylərimi göstərim. Gərək bu il də, sonrakı illərdə də həm dövlət investisiya proqramı xətti ilə, həm də kreditlərin

verilməsi istiqamətində əlavə tədbirlər görülsün ki, rayon daha da inkişaf etsin, gözəlləşsin.

**Məmməd Yusifov** (*rayon sakini*): Möhtərəm cənab Prezident, Qazax ictimaiyyəti adından sizi salamlayır və rayonumuza «Xoş gəlmisiniz!» – deyirəm. Biz Molla Pənah Vaqifi, Molla Vəli Vidadini, Səməd Vurğunu, Osman Sarıvəllini, İsmayıl Şıxlını yetişdirmiş Qazaxa və qazaxlılara xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyev tərəfindən yüksək diqqət və qayğı görmüşük və bu gün də Sizin tərəfinizdən görürük. Bu gün Azərbaycanın ciddi düşünülmüş, uzun illərə hesablanmış çoxşaxəli iqtisadi inkişafı təmin olunur. Bu siyasətin nəticəsi olaraq, Azərbaycanın bütün bölgələri kimi, ölkəmizin qərb qapısı hesab olunan Qazax da inkişaf edir, abadlaşır, gözəlləşir.

Qazaxda qısa müddət ərzində təhsil, səhiyyə, mədəniyyət obyektləri tikilmiş, Müalicə-Diaqnostika Mərkəzi, Olimpiya İdman Kompleksi tikilib istifadəyə verilmiş, yeni park və xiyabanlar salınmışdır. Dövlət proqramlarına uyğun olaraq regionların bərabər inkişafı təmin edilmiş, Qazaxda Sement zavodunun, Konserv zavodunun tikilməsi rayonumuzda görülən işlərin tərkib hissəsidir.

Cənab Prezident, inanırıq ki, Sizin qətiyyətinizlə, rəhbərliyinizlə xalqımızın taleyüklü problemləri qısa zamanda öz həllini tapacaq, Azərbaycan torpaqları işğaldan azad olunacaqdır. Azərbaycanın bütün sakinləri kimi, qazaxlılar da Sizin siyasi xəttinizi dəstəkləyir və daim Sizinlədir. Sizə və ailənizə cansağlığı, uzun ömür diləyirik.

**İlham Əliyev:** Mən də öz işimdə sizə arxalanıram, Azərbaycan xalqına arxalanıram. Bu arxanı, dayağı hiss edərək mən bütün bu işləri görürəm. Bu olmasaydı, Azərbaycanda heç bir iş görmək mümkün olmazdı. Elə etməliyik ki, ölkəmizdə bütün problemlər həll edilsin və dünya miqyasında Azərbaycan daha da güclü mövqeyə malik olsun.

## Sınıqkörpü sərhəd gömrük məntəqəsinin

**açılışı mərasimi**

*Azərbaycan prezidenti İlham Əliyev fevralın 9-da Qazax rayonunda Sınıqkörpü sərhəd gömrük məntəqəsinin açılışında iştirak etmişdir.*

*Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev prezident İlham Əliyevə məlumat verərək bildirdi ki, Azərbaycanda bütün sahələrdə olduğu kimi, gömrük sistemində də davamlı inkişaf gedir. Gömrük xidməti daha da müasirləşir, işçilərin sosial və iş şəraitlərinin yaxşılaşdırılması üçün zəruri tədbirlər görülür. Əsaslı şəkildə yenidən qurulmuş Sınıqkörpü sərhəd gömrük məntəqəsi də bu qəbildən olan işlərin davamıdır. Azərbaycandan Gürcüstana əsas keçid məntəqəsi olan və sərhəd qapısı funksiyasını yerinə yetirən, müasir standartlara cavab verən yeni gömrük məntəqəsinin inşası 2010-cu ilin oktyabrında başa çatdırılmışdır. Yenidənqurma işləri zamanı burada geniş abadlıq-quruculuq işləri görülmüş, yaşıllıqlar salınmışdır. Məntəqənin ərazisində yardımçı binalarla yanaşı, üçmərtəbəli inzibati bina da tikilmişdir. Sərhəd gömrük məntəqəsindən gün ərzində yüzlərlə avtomobil və minlərlə insan keçir. Cənubi Qafqaz regionunda bu cür müasir sərhəd gömrük məntəqələri yalnız Azərbaycandadır.*

*Dövlətimizin başçısı gömrük məntəqəsinin əvvəlki və indiki vəziyyətini əks etdirən fotoguşəyə baxdı.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, gələcəkdə ərazidə yeni yük terminalının tikintisinə başlanacaqdır. Region-da ən böyüklərindən biri olacaq bu terminalda məhsulların saxlanması üçün soyuducu anbarlar, sərnişinlərin qalması üçün otel, habelə ofis də tikiləcəkdir.*

*İnzibati binada əməkdaşların nəzəri biliklərinin artırılması üçün təlim otaqları, habelə muzey və akt zalı da vardır. Əməliyyat otağı ən zəruri və müasir texniki avadanlıqla təchiz olunmuşdur. Prezident İlham Əliyev burada gömrük nəzarətinin həyata keçirilməsi prosesini izlədi.*

*Gömrük məntəqəsinin ərazisində quraşdırılmış xüsusi rentgen aparatından dünyanın ən aparıcı dövlətlərində istifadə edilir. Həmin aparat vasitəsilə nəqliyyat vasitələrindəki bütün yükləri aydın görmək mümkündür. Bu isə qaçaqmalçılıq yolu ilə daşınan malların aşkarlanması ilə yanaşı, həm də gömrük xidmətinə öz işini müasir tələblər səviyyəsində qurmağa imkan yaradır.*

*Prezident İlham Əliyevə Sınıqkörpü tarixi-memarlıq abidəsi haqqında da məlumat verildi. Bildirildi ki, XII əsrin yadigarı olan bu abidə uzun illər ərzində ölkəmizi Gürcüstanla əlaqələndirən keçid məntəqəsi rolunu oynamışdır. İndi dövlət əhəmiyyətli abidə kimi qorunan körpüdə gələcəkdə bərpa işlərinin aparılması nəzərdə tutulur.*

*Sərhəd gömrük məntəqəsi ilə tanışlıqdan sonra prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## Qazax–Gürcüstan dövlət sərhədi avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev fevralın 9-da Qazax–Gürcüstan dövlət sərhədi avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı yolun yenidən qurulması sxemi ilə tanış oldu.*

*Nəqliyyat naziri Ziya Məmmədov dövlətimizin başçısına məlumat verərək bildirdi ki, Azərbaycanda yol-nəqliyyat sisteminin təkmilləşdirilməsi, yeni yolötürücülərinin tikilməsi, magistral yolların salınması sosialyönümlü tədbirlər olmaqla yanaşı, həm də ölkəmizin iqtisadi qüdrətinin göstəricisidir. «Qazax–Gürcüstan dövlət sərhədi avtomobil yolunun təkmilləşdirilməsi» layihəsinə uyğun olaraq inşa edilən yolda işlərə ötən ilin avqustunda başlanılmışdır. Prezident İlham Əliyevin ölkənin avtomobil yollarının yenidən qurulması ilə bağlı verdiyi tapşırıqlar çərçivəsində Qazax–Sınıqkörpü avtomobil yolunun tikintisi strateji əhəmiyyət kəsb edir.*

*İkizolaqlı yolun uzunluğu 36 kilometr, eni 15 metrdir. Yolda 3 körpü, 8 avtobus dayanacağı inşa edilmişdir.*

*Bakı–Gürcüstan sərhədi avtomobil magistralının mühüm hissəsi olan bu yol dünya standartları səviyyəsində tikilmişdir. İndi Azərbaycandan Gürcüstana və əksinə hərəkət edən yük və sərnişin avtomobillərinin hərəkətindəki bütün maneələr aradan qaldırılmışdır.*

**İ l h a m  Ə l i y e v**: Biz bu layihəni artıq başa çatdırmışıq. Bu il o qalan hissə də istismara veriləndən sonra artıq Bakı–Gürcüstan sərhədi yolu tam hazır vəziyyətdə olacaqdır. Çox böyük layihədir, çox böyük zəhmət, maliyyə vəsaiti, peşəkarlıq tələb edirdi. Mən çox şadam ki, buna nail ola bilmişik. Bununla bərabər, indi başqa istiqamətlərdə də işlər gedir, cənub, şimal istiqamətlərində yollar çəkilir.

Gələcəkdə bu yolun genişləndirilməsi haqqında gərək fikirləşək. Çünki onun bir hissəsi ikizolaqlı, bir hissəsi dördzolaqlıdır. Gələcəkdə ikizolaqlı hissələri gərək genişləndirək. İndi yükdaşımaları baxımından ən intensiv yol bu yoldur. Ona görə gərək bu yol dördzolaqlı olsun. Rusiya sərhədinə gedən yol dördzolaqlıdır, İran sərhədinə gedən yol dördzolaqlıdır. Bu yol da dördzolaqlı olmalıdır. Düzdür, burada məsafə böyükdür, 503 kilometrdir. Bunun təxminən 300 kilometri, yəni 60 faizi ikizolaqlıdır. Yəqin ki, ya bu il, yaxud da gələn ildən biz bu işlərə başlamalıyıq. Layihələndirmə işləri gedir. Bu yolu rahat genişləndirmək olar.

* * *

*Prezident İlham Əliyev yolun açılışını bildirən lenti kəsdi, inşaatçılarla görüşdü.*

## Birinci Şıxlı kəndində yeni məktəb binasının açılışı mərasimi

*Prezident İlham Əliyev fevralın 9-da Qazax rayonunun Birinci Şıxlı kəndində yeni məktəb binasının açılışında iştirak etmişdir.*

*Azərbaycan prezidentinin «Qəza vəziyyətində olan ümumtəhsil məktəblərinin yenidən qurulması ilə bağlı əlavə tədbirlər haqqında» 2009-cu il 4 dekabr tarixli Sərəncamına əsasən məktəbin tikintisinə 2010-cu ilin yanvarında başlanılmış, cari ilin yanvarında başa çatdırılmışdır.*

*Bildirildi ki, hələ sovet dövründə Birinci Şıxlı kəndində bir neçə məktəb binası tikilsə də, onlar mövcud tələbatı ödəyə bilməmişdi. Torpaq sürüşməsinə meyilli ərazilərdə, üstəlik də keyfiyyətsiz tikilən binalar istismar müddəti bitməmiş uçub dağılırdı. 1987-ci ildə istifadəyə verilən məktəb binası da eyni təhlükə ilə üzləşmişdi.*

*Tikinti işlərinə başlayarkən əvvəllər buraxılan səhvlər dərindən təhlil edilmiş, binanın özülü tam monolit betondan tökülmüşdür. Müasir görünüşü ilə diqqəti cəlb edən 640 şagird yerlik məktəbdə təlim-tədrisin uğurla və keyfiyyətlə aparılması üçün bütün şərait yaradılmışdır.*

*Prezident İlham Əliyev yeni binanın açılışını bildirən lenti kəsdi, sinif otaqlarına, idman zalına baxdı.*

## Yuxarı Salahlı kəndində Səməd Vurğun Poeziya evinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev fevralın 9-da Qazax rayonunun Yuxarı Salahlı kəndində əsaslı təmir və yenidənqurma işləri aparılmış Səməd Vurğun Poeziya evinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Poeziya evinin qarşısında Xalq şairi Səməd Vurğunun heykəlinin önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, Poeziya evinin yerləşdiyi ərazi də genişləndirilmiş, burada yaşıllıq zolağı salınmışdır. Bildirildi ki, ulu öndər Heydər Əliyev həmişə Səməd Vurğunun yaradıcılığına böyük önəm vermiş, şairin əsərlərinin nəşri heç vaxt onun diqqətindən kənarda qalmamışdır. O, Səməd Vurğunun məşhur «Azərbaycan» şeirini çox sevir, yeri gəldikcə, ona müraciət edirdi. 1976-cı ildə şairin anadan olmasının 70 illik yubileyi münasibətilə Qazax*

*rayonunda Səməd Vurğun Poeziya evi də Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış və 1979-cu ilin sentyabrında onun açılışında şəxsən özü iştirak etmişdi.*

*Prezident İlham Əliyev 2004-cü ildə Qazax rayonuna səfəri çərçivəsində Poeziya evində olmuş, burada əsaslı təmir və yenidənqurma işlərinin aparılması barədə tapşırıq vermişdi. 2005-ci ildə isə Azərbaycan prezidenti Səməd Vurğunun 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamışdı. Ötən dövrdə görülən işlər nəticəsində Poeziya evi yeni görkəm almışdır. Eksponatların sayı artmış, yeniləri də əlavə olunmuşdur. Səməd Vurğunun Bakıdakı ev muzeyi buraya şairin köynəyini, ov və yazı ləvazimatlarını hədiyyə etmişdir. Bir sözlə, Poeziya evi həmişə Səməd Vurğunun xatirəsinə bir ehtiram ünvanı olacaq, söz-sənət vurğunlarının daimi görüş yerinə çevriləcəkdir.*

*Dövlətimizin başçısı Xalq şairi Səməd Vurğunun həyat və fəaliyyətinin müxtəlif dövrlərini, ulu öndərin Azərbaycan ədəbiyyatına diqqət və qayğısını əks etdirən şəkillərə baxdı.*

**İlham Əliyev:** Çox şadam ki, Poeziya evi belə gözəl vəziyyətə gətirilmişdir. 7 il bundan əvvəl burada görüşmüşdük. O dövrə uyğun şərait mövcud idi. Ancaq indiki müasir dövrdə Səməd Vurğun Poeziya evi, bax, belə müasir səviyyədə olmalıdır.

Səməd Vurğunun xatirəsi həmişə Azərbaycan xalqının qəlbində yaşayır. O, böyük sənətkar, böyük şair, böyük vətəndaş olmuşdur. Əlbəttə, Poeziya evini belə gözəl vəziyyətə gətirib çatdırmağımız, hesab edirəm ki, hər bir Azərbaycan vətəndaşının qəlbində əks-səda doğuracaqdır.

## TOVUZ RAYONUNDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*9 fevral 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev fevralın 9-da respublikamızın qərb bölgəsinə səfəri çərçivəsində Tovuz rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin rayon mərkəzindəki abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

## Yeni salınmış Mədəniyyət və istirahət parkının açılışı mərasimi

*Fevralın 9-da prezident İlham Əliyev Tovuz şəhərində yeni salınmış Mədəniyyət və istirahət parkının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı açılışı bildirən lenti kəsdi və parkı gəzdi.*

*Məlumat verildi ki, parkın tikintisinə 2009-cu ilin əvvəllərində başlanılmışdı. 10,2 hektar sahəni əhatə edən parkın ərazisində vaxtilə 5600-dən çox palıd, 1100-dən artıq şam ağacı əkilmiş, park salınmağa başlandıqdan sonra isə burada yüzlərlə ağac və bəzək kolu əkilmişdir. Burada 30 min kubmetr həcmində torpaq işləri görülmüş, yerli inşaat materialından istifadə edilməklə, geniş tikinti-abadlıq işləri aparılmışdır. Parkın ətrafına dekorativ hasar çəkilmiş, iki yerdə böyük giriş darvazaları tikilmiş, 14 fəvvarə, süni şəlalə yaradılmışdır.*

*Ərazidə geniş sahədə çəmənlik salınmış, müasir işıqlandırma sistemi quraşdırılmışdır. Gələcəkdə parkın Tovuzçay istiqamətində genişləndirilməsi nəzərdə tutulur.*

*Prezident İlham Əliyev parkda aşıq musiqisini dinlədi, ifaçılarla xatirə şəkli çəkdirdi. Dövlətimizin başçısına saz hədiyyə edildi.*

*Aşıqlar qədim xalq musiqisinə göstərilən diqqət və qayğıya görə prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya təşəkkür etdilər.*

*Prezident İlham Əliyev uşaqların, gənclərin, yeniyetmələrin milli musiqimizə çox böyük maraq göstərmələrinin yaxşı hal olduğunu vurğuladı.*

*Aşıqlar bildirdilər ki, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın səyləri nəticəsində aşıq sənəti YUNESKO-nun «Bəşəriyyətin qeyri-maddi mədəni irsinin reprezentativ siyahısı»na daxil edilmişdir. Parkda gənclərin asudə vaxtının səmərəli təşkili üçün istirahət mərkəzi inşa edilmişdir.*

*Sonra prezident İlham Əliyev rayonda tikilən beşulduzlu mehmanxananın layihəsi ilə tanış oldu. Bildirildi ki, 2008-ci ildə inşasına başlanılan mehmanxana üçün Bozalqanlı kəndi ərazisində 5,2 hektar sahə ayrılmışdır.*

*Prezident İlham Əliyev tikinti ilə bağlı tövsiyə və tapşırıqlarını verdi.*

## Olimpiya İdman Kompleksinin açılışı mərasimi

*Fevralın 9-da Tovuzda Olimpiya İdman Kompleksi istifadəyə verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Kompleksin təməli 2007-ci il mayın 30-da prezident İlham Əliyevin iştirakı ilə qoyulmuşdur.*

*Dövlətimizin başçısı açılışı bildirən lenti kəsdi və kompleks ilə tanış oldu.*

*Foyedə ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin respublikamızda idmanın inkişafına göstərdikləri diqqət və qayğını, idmançılarımızın beynəlxalq yarışlardakı uğurlarını əks etdirən fotoguşə yaradılmışdır.*

*Gənclər və İdman naziri Azad Rəhimov dövlətimizin başçısına məlumat verdi ki, nazirliyin sifarişi əsasında tikilmiş, Tovuz şəhərinin girəcəyində – Tovuzçayın sol sahilində 7 hektar sahədə yerləşən kompleks 3 korpusdan ibarətdir. Kompleksin birinci korpusunda üzgüçülük hovuzu və yeməkxana yerləşir. İkinci*

*korpus 34 ədəd ikiyerlik və bir VIP nömrəsi olan beşmərtəbəli mehmanxanadan ibarətdir.*

*Prezident İlham Əliyev kompleksdə yaradılmış şəraitlə yaxından tanış oldu, müvafiq tövsiyə və tapşırıqlarını verdi.*

## Bozalqanlı kəndində tikilmiş Süd emalı zavodunun açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev fevralın 9-da Tovuz rayonunun Bozalqanlı kəndi ərazisində tikilmiş Süd emalı zavodunun açılışında iştirak etmişdir.*

*Zavodun tikintisi ötən ilin dekabrında başa çatdırılmışdır. «Gilan Holdinq»in sifarişi ilə tikilmiş müəssisənin istehsal sahəsi 3,9 min kvadratmetrdir. Zavodda qatıq, kəsmik, ayran, dovğa, xama və pendir istehsal edilir. Hazırda zavodun emal gücü sutkada 20 tondur. Maksimum güclə işlədikdə isə sutkada 40 ton süd emal etmək mümkündür.*

*Müəssisənin fəaliyyətə başlaması rayonda heyvandarlığın inkişafına müsbət təsir edəcəkdir. Zavodu südlə təmin etmək üçün ətraf kəndlərdə soyuducu kameralarla təchiz olunmuş 6 qəbul məntəqəsi təşkil edilmişdir.*

*Prezident İlham Əliyev zavodun rəmzi işə salınmasını bildirən düyməni basdı.*

*Dövlətimizin başçısı süd qəbulu, qatıq, kəsmik, dovğa, ayran və pendir sexlərində iş prosesini izlədi, zavodun məhsullarının nümayiş etdirildiyi stendlə tanış oldu, hazır pendirin dadına baxdı.*

*Prezident İlham Əliyev müəssisənin fəaliyyəti ilə bağlı tövsiyə və tapşırıqlarını verdi.*

## Tovuz–Böyük Qışlaq–Qaralar avtomobil yolunun açılışı mərasimi

*Fevralın 9-da Azərbaycan prezidenti İlham Əliyev yenidən qurulmuş Tovuz–Böyük Qışlaq–Qaralar avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyevin «Tovuz rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında» 2009-cu il 7 oktyabr tarixli Sərəncamına əsasən, həmin ilin noyabrında strateji əhəmiyyətli bu yolun yenidən qurulmasına başlanılmışdı. Uzunluğu 53 kilometr olan yol 21 min əhalinin yaşadığı 43 yaşayış məntəqəsini, o cümlədən Ermənistan ilə sərhəddə yerləşən 19 dağ kəndini rayon mərkəzi ilə birləşdirir.*

*Prezident İlham Əliyev Tovuz–Böyük Qışlaq–Qaralar avtomobil yolunun yenidən qurulması işlərini və hazırkı vəziyyətini əks etdirən fotostendə baxdı.*

*Tovuz–Böyük Qışlaq–Qaralar avtomobil yolunun yenidən qurulması Gədəbəy rayonunun 25 yaşayış məntəqəsinin 12 min sakininin də ilin bütün fəsillərində nəqliyyat vasitələrindən istifadəsini asanlaşdırmış, onlara yetişdirdikləri kənd təsərrüfatı məhsullarını vaxtında bazarlara çatdırmağa imkan yaratmışdır. Yeni yolun turizmin və bütövlükdə rayonun iqtisadiyyatının inkişafı baxımından müstəsna əhəmiyyəti vardır.*

*Yolun yenidən qurulması layihəsi çərçivəsində yolboyu yaşayış məntəqələrinin girişində və daxili yollarında da xeyli işlər görülmüşdür. Bundan başqa, sərhədboyu ərazidə hərbçilərin gediş-gəlişini asanlaşdırmaq üçün 26 kilometr uzunluğunda yeni avtomobil yolu çəkilmişdir.*

*Dövlətimizin başçısı yolun açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyev yeni yolda avtomobili idarə etdi, görülən işləri yüksək qiymətləndirdi.*

## TOVUZ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*9 fevral 2011-ci il*

*Fevralın 9-da Azərbaycan prezidenti İlham Əliyev Tovuz rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.*

**İ l h a m  Ə l i y e v:** Mən sizi ürəkdən salamlayıram. Bu gün Tovuzda çox yaxşı açılış tədbirlərində iştirak etmişəm. Olimpiya İdman Kompleksinin istifadəyə verilməsini qeyd etdik, Süd emalı zavodu açıldı, böyük istirahət parkının açılışı çox xoş təəssürat doğurdu. İndi isə Tovuz rayonu üçün çox vacib infrastruktur layihəsi olan bu yolun açılışında bərabər iştirak edirik.

Siz yaxşı bilirsiniz ki, bu yolun çox böyük mənası, əhəmiyyəti var. Bu yol 40-dan çox kəndi birləşdirir, bu kəndlərdə 20 mindən artıq vətəndaş yaşayır. İndi kəndlərarası əlaqələr yaranıb, ən ucqar kəndlərlə rayon mərkəzi arasındakı məsafə azalıbdır. Yol rahatlıq deməkdir, inkişaf deməkdir. Bu yol həm insanlara rahatlıq verəcək, həm o bölgələrin inkişafı üçün şərait yaradacaq və həm də yəqin ki, gələcəkdə turizmin inkişafı üçün əlavə tədbirlər görüləcəkdir. Hər halda, yol olan yerdə inkişaf da olur. Azərbaycanda yolların tikintisi sürətlə gedir. Bakı–Gürcüstan sərhədi yolu, demək olar ki, hazırdır. Onun cüzi bir hissəsi qalıbdır, bu ilin yayına qədər o da istifadəyə veriləcəkdir. Beləliklə, 500 kilometrlik yol tam hazır vəziyyətdə olacaqdır.

Bütün başqa istiqamətlərə gedən yollar da abadlaşır, şimal–cənub istiqamətlərinə gedən magistral yollar, şəhərlərarası yollar tikilir. Növbəti illərdə kənd yollarının tikintisi bizim üçün prioritet məsələ olacaqdır, çünki bu sahəyə böyük investisiyalar qoyulmalıdır. Hazırda bütün bölgələrdə kənd yolları tikilir. Qərb zonasında, cənubda, şimalda, mərkəzi rayonlarda – harada buna ehtiyac varsa, biz bunu edəcəyik. İnvestisiya proqramına da bu məsələlər salınıb və əminəm ki, yaxın bir neçə il ərzində biz əsas kənd yollarını yaxşı vəziyyətə gətirib çatdıracağıq.

Bu yolu mən indi özüm yoxlayacağam. Mənə verilən məlumata görə, yol keyfiyyətlidir. Buna şübhə etmirəm, amma hər halda, özüm də gərək yoxlayım.

Bütövlükdə Tovuz rayonunda gedən işlər məni çox sevindirir. Mən dəfələrlə Tovuz rayonunda olmuşam, müxtəlif tədbirlərdə

iştirak etmişəm. Məsələn, Olimpiya İdman Mərkəzinin təməlini biz 3 il bundan əvvəl qoyduq, indi gözəl bir Mərkəz yaranıbdır. Tovuzda sənaye müəssisələrinin yaradılması, kənd təsərrüfatının inkişafı, infrastruktur layihələrinin icrası, abadlıq-quruculuq işləri – siz tovuzlular bunları yaxşı bilirsiniz. Son illər ərzində burada görülən işlər Azərbaycanda gedən işlərin bir hissəsidir. Ölkəmizdə hər bir bölgədə, hər bir rayonda böyük quruculuq işləri aparılır və belə də olmalıdır. Biz 2004-cü ildə regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramını qəbul edəndə məqsədimiz məhz bundan ibarət idi ki, ilk növbədə ölkəmizin rayonları, ölkəmizin kəndləri inkişaf etsin. O vaxt mən bildirmişdim, bu gün bir də demək istəyirəm, əgər hər bir kəndin problemi həll olunarsa, ölkədə bütün problemlər həll ediləcəkdir. Bunu etmək üçün bizdə həm siyasi iradə var, həm maliyyə imkanlarımız, həm də düşünülmüş strategiyamız və planlarımız vardır. Biz öz işimizi planlar əsasında qururuq, hər bir rayonun inkişafı üçün xüsusi proqram tərtib, təsdiq olunubdur. Ancaq müəyyən mərhələlərdə bu proqramlara əlavələr də edilir, çünki həyat yerində durmur, ortaya yeni məsələlər çıxır və biz bu məsələlərə operativ şəkildə münasibətimizi bildirməliyik.

Tovuz rayonunda kənd təsərrüfatının inkişafı üçün çox böyük imkanlar vardır. Mən hesab edirəm ki, görülən işlər təqdirəlayiqdir, amma gələcəkdə daha da böyük işlər görülməlidir. Maldarlıq, üzümçülük, taxılçılıq sahələrində böyük işlər görülə bilər. Beləliklə, Azərbaycan tam şəkildə öz ərzaq təhlükəsizliyini təmin edəcəkdir. Bu istiqamətdə biz böyük addımlar atmışıq. İndi əsas ərzaq məhsulları ilə özümüzü təmin edirik və ixrac da edirik. Amma gələcəkdə başqa ölkələrin bazarlarına hazır, keyfiyyətli məhsullarla çıxmalıyıq. Bu gün hələlik biz qeyri-neft məhsullarımızı qonşu ölkələrə ixrac edirik, yəni bizim üçün əsas bazarlar qonşu ölkələrdir. Amma gələcəkdə Avropa bazarlarına daha da geniş şəkildə çıxmalıyıq. Bunu etmək üçün bizdə istehsal edilən məhsullar Avropa İttifaqının standartlarına uyğun olmalıdır. Bunu da biz artıq görürük, bizdə yaradılan müəssisələrin bir çoxu o standartlara cavab verir.

Beləliklə, Azərbaycanın ixrac potensialı çoxşaxəli, daha da geniş olacaq, daha çox gəlir gətirəcək və insanların həyat səviyyəsi yaxşılaşacaqdır. Bizim əsas məqsədimiz bundan ibarətdir – insanlar yaxşı yaşasınlar, ölkə iqtisadiyyatı inkişaf etsin. Bu iki istiqamətdə görülən işlər, bax, bugünkü reallıqları mümkün edibdir.

Azərbaycan bütün sınaqlardan şərəflə çıxa bilmişdir, dünyada hökm sürən böhrandan şərəflə çıxa bilmişdir. İqtisadi sahədə irəliləyiş var, sosial məsələlərin həllində irəliləyiş var, maaşlar, pensiyalar artırılır, sosial ödəmələr artırılır, manatın məzənnəsi sabitdir, iş yerləri açılır. Bunlar hər bir ölkəni fərqləndirən əlamətlərdir. Mən çox şadam ki, ölkəmizin iqtisadiyyatı artıq dayanıqlı iqtisadiyyatdır.

Bununla bərabər, mövcud olan problemləri də operativ qaydada həll etməliyik. Həm iqtisadi sahədə, həm də sosial sahədə, ictimai sahədə bütün problemlər tezliklə öz həllini tapmalıdır. Azərbaycanda görülən işlər dünyanın ən inkişaf etmiş ölkələri səviyyəsində olmalıdır. Nöqsanlarla çox ciddi mübarizə aparılmalıdır və aparılır. Bu sahədəki fəaliyyətimizi daha da gücləndirməliyik. Bu ilin əvvəlində mən bu məsələlərlə bağlı müvafiq göstərişlər vermişəm: Azərbaycanda rüşvətxorluğa, korrupsiyaya qarşı daha da ciddi mübarizə aparılmalıdır. Bu barədə kifayət qədər qanunvericilik bazası mövcuddur, göstərişlər verilmişdir, sərəncamlar imzalanmışdır. Elə etməliyik ki, Azərbaycanda bu xoşagəlməz halları aradan götürək. Bunu etmək üçün isə biz hamımız – həm iqtidar, həm vətəndaşlar bir hədəfə vurmalıyıq.

Mən istəyirəm ki, Azərbaycan, sözün əsl mənasında, müasir, inkişaf etmiş dövlətə çevrilsin, Azərbaycanda bütün meyarlar yüksək səviyyədə olsun. Bunu etmək üçün bizdə imkanlar var. Bir daha demək istəyirəm ki, siyasi iradə var, iqtisadi müstəqillik var, siyasi müstəqillik var və gözəl, istedadlı xalqımız var. Şübhə etmirəm ki, bütün bu amillərin sayəsində biz yaxın zamanlarda daha da böyük uğurlara nail olacağıq.

Biz bu il müstəqilliyimizin 20 illik yubileyini qeyd edəcəyik. Bu, böyük tarixdir və böyük mərhələnin başa çatması deməkdir. Mən çox şadam ki, bu 20 il ərzində Azərbaycan nəinki öz müstəqilliyini qoruya bilmişdir, həm də bu yolda çox böyük uğurlara nail olmuşdur. Müstəqilliyimiz, dövlətçiliyimiz möhkəmlənir. Bizim siyasi addımlarımız, həm ölkə daxilindəki, həm beynəlxalq müstəvidəki addımlarımız Azərbaycan xalqının maraqlarına xidmət edir. Biz öz sözümüzü müxtəlif tribunalardan deyirik, öz mövqeyimizi bildiririk. Hər bir məsələ ilə bağlı, hər bir beynəlxalq hadisə ilə bağlı bizim öz müstəqil mövqeyimiz var və bu mövqeni müdafiə edirik. Azərbaycanın dövlətçiliyini, ictimai-siyasi quruluşunu müdafiə edirik və müdafiə edəcəyik. Bu bizim yolumuzdur. Bu yolu Azərbaycan xalqı seçibdir. Biz bu yolla gedəcəyik və heç bir qüvvə bizi bu yoldan döndərə bilməz. Bu, inkişaf yoludur, müasirlik yoludur. Eyni zamanda, bizim bütün işlərimiz milli dəyərlər, milli ənənələr üzərində qurulubdur. Bu bizim gücümüzün əsas mənbəyidir. Ancaq biz gələcəyə baxmalıyıq. Müasir ölkə qurmaq üçün dünyada bizim milli mentalitetimizə uyğun olan ən qabaqcıl təcrübəni ölkəmizdə tətbiq etməliyik.

2011-ci il yaxşı tədbirlərlə başlayır. Mən 2011-ci ildə sizə – bütün tovuzlulara yeni uğurlar arzulayıram. Əminəm ki, bizim görüşlərimiz hələ qabaqdadır, çünki Tovuzda açılışlar hələ çox olacaqdır.

## GƏNCƏ ŞƏHƏRİNƏ VƏ SAMUX RAYONUNA SƏFƏR

*Gəncə*

*9 fevral 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev fevralın 9-da respublikamızın qərb bölgəsinə səfəri çərçivəsində Gəncə şəhərinə gəlmişdir.*

*Dövlətimizin başçısı şəhərin Heydər Əliyev meydanında ulu öndərin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Dövlətimizin başçısına məlumat verildi ki, meydanda geniş abadlıq işləri aparılmış, fəvvarə quraşdırılmış, sakinlərin istirahəti üçün maksimum lazımi şərait yaradılmışdır. Burada Heydər Əliyev Muzeyi də fəaliyyət göstərir.*

### «Xan bağı» mədəniyyət və istirahət parkı ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev fevralın 9-da Gəncədə əsaslı yenidənqurma işləri aparılmış «Xan bağı» mədəniyyət və istirahət parkı ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısının tapşırığına əsasən ayrılmış vəsait hesabına görülmüş yenidənqurma işlərindən sonra parkın siması tamamilə dəyişmişdir. Qafqazın ən qədim parklarından biri, yaşı 200-dən çox olan «Xan bağı»nda belə genişmiqyaslı işlər ilk dəfə məhz prezident İlham Əliyevin tapşırığı ilə həyata keçirilmişdir.*

*Dövlətimizin başçısı «Xan bağı»nda yüksək səviyyədə aparılmış əsaslı yenidənqurma işlərindən razılığını bildirdi.*

*Parkla tanışlıqdan sonra prezident İlham Əliyev şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

## GƏNCƏ ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*9 fevral 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev fevralın 9-da Gəncədə əsaslı yenidənqurma işləri aparılmış «Xan bağı» mədəniyyət və istirahət parkı ilə tanışlıqdan sonra şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.*

**İ l h a m Ə l i y e v:** Mən sizi ürəkdən salamlayıram. Yenidən görüşürük, bu görüşümüzün də çox gözəl səbəbi var. Gəncənin tarixi yeri olan «Xan bağı»nın yenidən qurulmasını bir yerdə qeyd edirik. Burada yaradılan gözəllik, abadlıq məni və əminəm ki, bütün gəncəliləri ürəkdən sevindirir. «Xan bağı» nəinki Gəncə üçün, bütün Azərbaycan üçün çox əziz və doğma bir yerdir. Sadəcə olaraq, gəzinti üçün, istirahət üçün bağ deyil, bizim milli tarixi sərvətimizdir. Yüzilliklər, onilliklər ərzində bizim əcdadlarımız bu gözəlliyi yaratmış və qorumuşlar. Bizim də borcumuz ondan ibarətdir ki, bütün tarixi sərvətlərimizi qoruyaq və bərpa edək. Burada abadlıq-quruculuq işləri ən yüksək səviyyədə görülübdür. Dünyanın ən yüksək səviyyəsi, bax, burada da özünü göstərir.

Bilirsiniz ki, son illər Bakıda parklar abadlaşır, gözəlləşir, yeni parklar salınır. Digər bölgələrdə də. Bu gün Tovuz rayonunda olarkən orada yeni salınmış parkda oldum, o da çox gözəldir. «Xan bağı»nın isə öz xüsusiyyəti var, öz tarixi, gözəlliyi var. Mən çox şadam ki, qısa müddət ərzində burada yenidənqurma, abadlıq işləri aparılmışdır və elə bil ki, park yenidən canlanmışdır. Bu çox əlamətdar hadisədir və onu göstərir ki, ölkəmizdə bütün işlər lazımi səviyyədə aparılır. Həm sənaye müəssisələri yaradılır, həm sosial obyektlər tikilir, həm də parklar salınır, abadlıq işləri aparılır. Belə də olmalıdır, çünki ölkəmiz inkişaf edir, müasirləşir, gözəlləşir. Belə olan halda ictimai yerlər, parklar, xiyabanlar ən yüksək səviyyədə olmalıdır.

Gəncənin tarixi çox qədim və zəngindir. Bu qədim və zəngin şəhərin inkişafı üçün böyük işlər görülmüşdür. Burada həm sənaye müəssisələrinin yaradılması, həm də sosial infrastrukturun yeniləşməsi məsələləri öz həllini tapmaqdadır. Gəncədə böyük sənaye müəssisələrinin yaradılması prosesi davam edir. Yaxın

vaxtlarda böyük metallurgiya kompleksi istismara veriləcəkdir. Alüminium zavodu, Poladəritmə zavodu tikilir. Bu zavodlar üçün nəzərdə tutulmuş böyük yardımçı stansiya da tikilmişdir, bu gün mən onun açılışını da edəcəyəm.

Gəncənin inkişafı üçün bundan sonra da bütün lazımi tədbirlər görüləcəkdir. Prezident kimi, mən də çalışıram ki, Gəncənin inkişafı üçün bütün lazımi tədbirlər görülsün. Regionlarda sosial infrastruktur yaradılır, müəssisələr, iş yerləri açılır, yollar çəkilir. Artıq Bakı–Gəncə–Gürcüstan sərhədi magistral avtomobil yolu, demək olar, tam hazırdır. Onun qısa bir hissəsi artıq tikilməkdədir, o da yəqin ki, bir neçə aydan sonra istifadəyə veriləcəkdir. Biz Bakıdan sərhədə qədər rahat yoldan istifadə edəcəyik. Keçən illərdə Gəncə aeroportu yenidən quruldu, xəstəxana tikildi, idman kompleksi, mehmanxanalar, yaşayış binaları – yəni müasir şəhərə xas olan bütün elementlər burada var. Bunu etmək üçün bütün imkanlarımız, iqtisadi resurslarımız və düşünülmüş siyasətimiz var. Çünki bunlar quruculuq işləridir, bu işlər ölkəmizin uzunmüddətli inkişafı üçün bu gün zəmin yaradır. Bu gün yaradılan müəssisələr gələcəkdə Azərbaycanın inkişaf etdirilməsində öz rolunu oynayacaqdır. Hazırda daha çox qeyri-neft sektoruna, sənaye müəssisələrinin yaradılmasına diqqət göstərilir. Burada özəl sektorun çox böyük rolu var. Özəl sahibkarlığın inkişafı üçün lazımi tədbirlər görülür. Dövlət xətti ilə həyata keçirilən infrastruktur layihələri bu imkanları yaradır: elektrik enerjisi, qaz təchizatı, su xətlərinin çəkilməsi – bütün bu işlər ölkənin hər yerində görülür. Bu elə bir vəziyyət yaradır ki, investisiyaların cəlb olunması üçün Azərbaycan öz cazibədarlığını saxlayır.

Son illərdə qəbul edilmiş bütün proqramlar icra olundu, işsizliyin aradan qaldırılması üçün böyük və təsirli addımlar atıldı, yoxsulluğun səviyyəsinin aşağı salınması üçün çox ciddi işlər görüldü və təbii ki, insanların maddi rifahı yüksəldi. Ancaq biz elə etməliyik ki, Azərbaycanda yoxsulluq kimi sosial bəla, işsizlik tamamilə aradan qaldırılsın. Azərbaycanda istehsal olunan məhsullar xarici bazarlara ixrac edilsin, biz artıq buna

başlamışıq və daha da böyük həcmdə etməliyik. Daxili tələbatımızı özümüz təmin etməliyik və elə güclü sənaye potensialı yaratmalıyıq ki, Azərbaycan neft amilindən asılı olmasın.

İqtisadi inkişafla bərabər – nəzərə alaq ki, bunsuz bütün bu işləri görmək mümkün olmayacaq – əlbəttə ki, sosial məsələlərin həllinə həmişə çox böyük diqqət göstərməliyik. Gəncənin timsalında biz bunu görürük, burada bu məsələlər uğurla öz həllini tapır. Mən hər dəfə Gəncədə yenilikləri görərkən sevinirəm, əminəm ki, siz də sevinirsiniz. Gəncənin tarixi abidəsi olan «Xan bağı»nın yenidən qurulması və belə gözəl səviyyəyə çatdırılması, əlbəttə ki, məni çox sevindirir.

Bu gün mən Gəncədə «İmamzadə» tarixi-memarlıq kompleksində bərpa işləri ilə də tanış olacağam. Bilirsiniz ki, «İmamzadə» kompleksinin yenidən qurulması, bərpası üçün mənim tərəfimdən xüsusi tapşırıqlar verilmiş, vəsait ayrılmışdı. İndi orada işlər gedir. Biz milli dəyərlərimizə, dini, milli ənənələrimizə sadiqik. Bu, Azərbaycan xalqının bir xalq kimi qorunmasına imkan verdi. Baxmayaraq ki, biz müxtəlif dövrlərdə başqa ölkələrin, başqa imperiyaların tərkibində yaşamışıq, ancaq öz milli ənənələrimizi, dini ənənələrimizi qorumuşuq və bu gün də qoruyuruq. Azərbaycanda bütün tarixi, dini abidələr bərpa olunur, yenidən qurulur, tikilir və onların içində «İmamzadə» dini kompleksinin xüsusi yeri vardır.

Bir sözlə, bizim işlərimiz bütün sahələri əhatə edir və elə etməliyik ki, hər bir sahədə davamlı inkişaf olsun. Sizi isə mən bir daha ürəkdən salamlayıram. «Xan bağı»nın yenidən qurulması münasibətilə sizi bir daha təbrik edirəm.

**Elman Məmmədov** *(Gəncə sakini)*: Möhtərəm cənab Prezident, Sizi Nizami yurdunda böyük ehtiramla salamlayırıq, qədim Gəncəyə xoş gəlmisiniz! Qürur duyuruq ki, bu, son illərdə Gəncəyə 11-ci səfərinizdir. Sizin hər gəlişiniz Gəncəyə, şəhərimizə böyük yeniliklər gətirir, tarixi hadisəyə çevrilir.

Möhtərəm cənab Prezident, Sizin diqqətiniz və qayğınız sayəsində Gəncə sürətlə inkişaf edir, tarixini qorumaqla yanaşı,

müasirləşir, əhalisi gündən–günə artır, iqtisadiyyatı güclənir. Müasir hava limanı, diaqnostika mərkəzi, beşulduzlu mehmanxana, gözəl yollar, meydanlar, parklar, bağlar – bütün bunlara görə Sizə minnətdarıq. Gəncəlilərin ən gözəl, ən sevdiyi istirahət yerlərindən biri olan bu gözəl «Xan bağı» Sizin göstərişinizlə 200 il ərzində ilk dəfə olaraq yenidən qurulubdur. Əsrlərin yadigarı olan «İmamzadə» kompleksi ilk dəfədir əsaslı təmir olunur, əslində, cənab Prezident, yenidən tikilir.

**İlham Əliyev:** Bizim «Xan bağı» kimi böyük sərvətimiz var. Bu doğrudan da çox nadir və tarixi bir yerdir. Tarix və gözəllik burada cəmləşir. Azərbaycan xalqının istedadı burada özünü göstərir. Çox əhəmiyyətlidir ki, 200 il bundan əvvəl belə bir park salınıb, ağaclar əkilib, qorunub, onlara qulluq ediblər. Çətin dövrlər də, yaxşı dövrlər də olmuşdur. Amma «Xan bağı» həm öz adını, həm də gözəlliyini saxladı. Bizim də borcumuz idi ki, indiki bu işləri görək. Mən Eldar Əzizova deyirəm ki, yəqin bundan sonra ən azı 50 il burada təmir işlərinə ehtiyac olmayacaqdır. Ondan sonra yəqin ki, edəcəklər.

Yeni parklar da salınmalı, yeni istirahət yerləri də yaradılmalıdır. Yenə deyirəm, burada təkcə gəzinti üçün şərait yaradılmayıb, gözəl yay teatrı da bərpa olunub, müxtəlif tədbirlər keçiriləcək, yəni «Xan bağı» yaşayacaqdır. Əminəm ki, gəncəlilərin ürəyincə olacaqdır.

## Fiziki qüsurlu insanlar üçün Regional İnformasiya Mərkəzinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev fevralın 9-da Gəncədə fiziki qüsurlu insanlar üçün Regional İnformasiya Mərkəzinin açılışında iştirak etmişdir.*

*Heydər Əliyev Fondunun fiziki cəhətdən qüsurlu insanların cəmiyyətə inteqrasiyası istiqamətində həyata keçirdiyi layihələrindən olan Gəncə Regional İnformasiya Mərkəzinin yara-*

*dılmasında əsas məqsəd məhdud fiziki imkanlı insanlar üçün informasiya texnologiyalarının tədrisidir.*

*Dövlətimizin başçısı açılışı bildirən lenti kəsdi və Mərkəzlə tanış oldu.*

*Mərkəzin foyesində ümummilli lider Heydər Əliyevin, prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın uşaqlara, gənclərə, fiziki imkanları məhdud olan insanlara diqqət və qayğısını əks etdirən fotoguşə yaradılmışdır.*

*Heydər Əliyev Fondunun Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə birgə yaratdıqları Mərkəzdə oxu zalı, təlim-tədris mərkəzi, audiokitabxana, kitabxana fondunun audioformata çevrilməsi üçün səsyazma studiyası, kompyuter mərkəzi vardır.*

*Mərkəzin imkanlarından Ağstafa, Daşkəsən, Qazax, Gədəbəy, Goranboy, Samux, Tovuz, Göygöl, Şəmkir rayonlarından və Naftalan şəhərindən ümumilikdə 60 mindən çox fiziki qüsurlu insan istifadə edə biləcəkdir.*

*Regional İnformasiya Mərkəzinin internet saytı yaradılmışdır. Burada məhdud fiziki imkanlı insanlar özlərinə lazım olan informasiyanı əldə edə, habelə saytdakı «Tanışlıq» bölməsində bir-biriləri ilə ünsiyyət qura bilərlər.*

## Yevlax–Gəncə avtomobil yolunda tikinti işlərinin gedişi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev Gəncəyə səfəri çərçivəsində fevralın 9-da Bakı–Gürcüstan sərhədi avtomagistralının bir hissəsi olan Yevlax–Gəncə yolunda tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*Nəqliyyat naziri Ziya Məmmədov dövlətimizin başçısına Yevlax–Gəncə və Gəncə dairəvi avtomobil yolu layihələri barədə məlumat verdi. «Yevlax–Gəncə avtomobil yolunun yenidən qurulması layihəsi» mövcud ikinci dərəcəli avtomobil*

*yolunun və körpülərin yenidən qurulmasını və bərpasını, habelə podrat müqaviləsi çərçivəsində əldə olunmuş qənaətlər hesabına Gəncə şəhərinə şərq tərəfdən 7,2 kilometr uzunluqda birinci dərəcəli giriş yolunun yenidən qurulmasını nəzərdə tutur. Yolda 4 körpü, çoxsaylı keçidlər və dayanacaqlar tikilmiş, Kür çayı üzərindəki körpü bərpa edilmişdir.*

*Prezident İlham Əliyev dahi Azərbaycan şairi Nizami Gəncəvinin məqbərəsi istiqamətindəki körpüdə gedən yenidənqurma işləri ilə də tanış oldu, strateji əhəmiyyətli yolda işlərin vaxtında və keyfiyyətlə başa çatdırılması ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## «İmamzadə» dini kompleksində tikinti-bərpa işlərinin gedişi ilə tanışlıq

*Prezident İlham Əliyev fevralın 9-da Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu ərazisində yerləşən «İmamzadə» dini kompleksində tikinti-bərpa işlərinin gedişi ilə tanış olmuşdur.*

**T a h i r  A b b a s o v** *(Qafqaz Müsəlmanları İdarəsi sədrinin Qərb bölgəsi üzrə səlahiyyətli nümayəndəsi):* Cənab Prezident, dinimizə göstərdiyiniz qayğıya, respublikamızın vətəndaşlarına, dövlətimizə, xalqımıza göstərdiyiniz xidmətlərə görə şəhər camaatının, dindarlarının Sizə olan məhəbbətinin ifadəsi olaraq, Sizə Quran hədiyyə edirik. Allah Sizi qorusun!

*Hacı Tahir Abbasov dövlətimizin başçısına müqəddəs «Qurani-Kərim»i təqdim etdi.*

**İ l h a m  Ə l i y e v:** «İmamzadə» tarixi - memarlıq kompleksinin yenidən qurulmasına başlanılmışdır. Mən burada dəfələrlə olmuşam, sizinlə də burada dəfələrlə görüşmüşük. Son müddət ərzində türbədə müəyyən çatlar əmələ gəlmişdi, müəyyən texniki problemlər ortaya çıxmışdı. Ona görə də mənə məruzə olunan kimi, dərhal göstəriş verdim ki, vəsait ayrılsın və hər bir azərbaycanlı üçün müqəddəs olan «İmamzadə» tarixi-dini memarlıq kompleksini biz yenidən quraq, təmir, bərpa edək. Bu

kompleks ən yüksək səviyyədə yenidən qurulmalıdır. Bu məqsədlər üçün vəsait də ayrıldı, indi işlər gedir.

Bu, dövlət – din münasibətlərinin ən bariz təcəssümüdür. Azərbaycanda dövlət – din münasibətləri çox müsbət istiqamətdə inkişaf edir, ən yüksək, deyə bilərəm ki, indi nümunəvi səviyyədədir. Bu münasibətlər ölkəmizin inkişafı üçün də çox böyük məna daşıyır.

Azərbaycanda dini abidələr dövlət tərəfindən qorunur, dövlət tərəfindən təmir edilir, bəzi hallarda dövlət tərəfindən tikilir. Bilirsiniz ki, son illərdə Təzəpir məscidi, Əjdərbəy məscidi dövlət vəsaiti hesabına əsaslı təmir olunub, Bibiheybət məscidi yenidən tikilibdir. İndi «İmamzadə» dini-tarixi abidəmiz təmir olunur. Azərbaycanın ən qədim məscidi olan, 1000 ildən yuxarı tarixi olan Şamaxı məscidində yenidənqurma, bərpa işləri aparılır. Bütün bu işlər dövlət tərəfindən, dövlət vəsaiti hesabına görülür. Bu bizim mənəvi borcumuzdur, biz bunu edirik. Azərbaycanın tarixi, dini ənənələrini qorumalıyıq, saxlamalıyıq və bundan sonra da bu siyasətimizdən dönməyəcəyik.

Son 7 ildə Azərbaycanda yüzdən artıq məscid tikilmişdir. Bu bizim dinimizə olan münasibətimizin bariz nəticəsi, təzahürüdür. Bu, ölkəmizin inkişafı üçün, milli-mənəvi dəyərlərin qorunması üçün çox vacibdir. Bir daha demək istəyirəm, mən çox şadam ki, dövlət – din münasibətləri yüksək səviyyədə qurulur, bu münasibətlərin Azərbaycanın inkişafı üçün çox böyük əhəmiyyəti var.

* * *

*Prezidentin orta əsr Azərbaycan memarlığının qiymətli nümunələrindən olan «İmamzadə» dini kompleksinin təmiri, bərpası və ətrafında abadlaşdırma işlərinin aparılması ilə bağlı sərəncam imzalaması və prezidentin ehtiyat fondundan 3 milyon manat vəsait ayırması dövlətin bu işlərə qayğısını bir daha təsdiq edir.*

*«İmamzadə», yaxud «Göy imam» türbəsi beşinci imam Məhəmməd Bağırın oğlu İbrahimin qəbri üstündə tikilmişdir. Bu faktı məqbərənin günbəzinin daxilindəki yazılar da təsdiqləyir.*

*«İmamzadə» türbəsinin XIV əsrin sonu – XV əsrin əvvəllərində, ətrafındakı məscid, sərdaba və digər türbələrin isə XVII əsrdə tikildiyi ehtimal edilir. Bütün bu tikililər əzəmətli dini-tarixi kompleks kimi indiyədək qorunub saxlanmışdır. Sonuncu dəfə 1878–79-cu illərdə general-mayor İsrafil bəy Yadigarzadənin təşəbbüsü ilə bərpa edilmiş «İmamzadə» türbəsi sovet hakimiyyəti illərində baxımsızlıqdan dağılmışdı.*

*«İmamzadə» əsrlərdən bəri Azərbaycandan, eləcə də başqa ölkələrdən gələn dindarların ziyarətgahına çevrilmişdir. Bu dini kompleks Gəncənin qədimliyini sübut etməklə yanaşı, onun islam aləmindəki yerini və nüfuzunu da göstərir.*

*Prezident İlham Əliyev türbədə İbrahimin məzarını ziyarət etdi, tikinti işləri ilə bağlı müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## SAMUX RAYONUNDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*9 fevral 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev fevralın 9-da respublikamızın qərb bölgəsinə səfəri çərçivəsində Samux rayonunda olmuşdur.*

*Dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

### Meyvə qurudulması və emalı müəssisəsinin açılışı mərasimi

*Prezident İlham Əliyev fevralın 9-da Samuxda «NAA Agrotara» MMC-nin meyvə qurudulması və emalı müəssisəsinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı MDB məkanında ilk dəfə Azərbaycanda yaradılan müəssisəni işə saldı, istehsal prosesini izlədi.*

*Müəssisədə ildə 1500 ton meyvə və tərəvəz, o cümlədən göyərti qurutmaq mümkündür. Burada 150 nəfər daimi, 60 nəfər isə mövsümi işçi çalışacaqdır. Müəssisə yenicə fəaliyyətə başlamasına baxmayaraq, artıq Quba rayonundan 800 ton alma tədarük edilmişdir. Qurudulmuş məhsullar yüksək keyfiyyəti, təbii olması ilə seçilir. Hələlik burada alma qurudulur və standartlara uyğun olaraq paketlərdə qablaşdırılır. Müəssisədə sanitariya qaydaları da tam beynəlxalq standartlara uyğundur.*

*İstehsal olunan məhsullar artıq ölkə mağazalarında MEYVİTA ticarət nişanı ilə satışa çıxarılmışdır.*

*«NAA Agrotara» Azərbaycan bazarında meyvə, tərəvəz və digər məhsulların saxlanması üzrə aparıcı soyuducu-anbar bazası olaraq, fermerlərdən və ticarət şirkətlərindən 5 min tondan artıq*

*məhsul qəbul edərək, anbar xidmətləri göstərir. Adi soyuducu kameralarından başqa, anbar ərazisində alma, üzüm, xurma və narın saxlanması üçün xüsusi təchiz olunmuş kameralar da vardır. Bu kameralarda tətbiq olunan müasir texnologiyalar belə məhsulların 12 ayadək saxlanmasına imkan verir.*

*Azərbaycan İnvestisiya Şirkəti və Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası tərəfindən təsis edilmiş Xəzər Beynəlxalq İnvestisiya Şirkəti müəssisəyə 5,5 milyon manat investisiya qoyaraq, «NAA Agrotara» MMC-nin 36 faiz payçısı olmuşdur.*

*Prezident İlham Əliyev yeni müəssisənin kollektivinə uğurlar arzuladı.*

**Samux Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının açılışı mərasimi**

*Prezident İlham Əliyev fevralın 9-da Samux Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının açılışında iştirak etmişdir.*

*İndiyədək Samux RİH 1937-ci ildə tikilmiş binada yerləşirdi. Prezident İlham Əliyevin tapşırığına əsasən, 2009-cu ildə yeni inzibati binanın inşasına başlanılmış və tikinti 2010-cu ildə başa çatdırılmışdır.*

*İkimərtəbəli binanın foyesində ulu öndər Heydər Əliyevin büstü qoyulmuş, ümummilli liderin və prezident İlham Əliyevin fəaliyyətini əks etdirən fotoguşə yaradılmışdır.*

*Yeni bina ilə tanış olan dövlətimizin başçısı icra hakimiyyətinin əməkdaşlarına uğurlar arzuladı.*

*Prezident İlham Əliyevə yaxınlıqda yaradılmış Dövlət Bayrağı Meydanı haqqında da məlumat verildi. Bildirildi ki, 8,7 min kvadratmetr sahəsi olan meydanın mərkəzində ucaldılmış 36 metr hündürlüyündə metal dirəkdə Azərbaycanın Dövlət bayrağı dalğalanır. Meydanda müasir işıqlandırma sistemi quraşdırılmış, dekorativ ağaclar əkilmiş, yaşıllıq salınmışdır.*

# SAMUX RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*9 fevral 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev fevralın 9-da Samux Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının açılışından sonra rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.*

**İlham Əliyev:** Mən sizi ürəkdən salamlayıram. Samux rayonunda çox əlamətdar hadisədir – İcra hakimiyyətinin yeni inzibati binası istifadəyə verilibdir. Çox əlamətdar hadisədir. Burada işləyənlər üçün yaxşı şərait yaradılıb. İcra hakimiyyətinin ətrafında binalar tikiləcək, yeni mərkəz yaradılacaq və Samux şəhəri inkişaf edəcəkdir.

Samux rayonunda sənaye müəssisələri açılır. Bu gün mən meyvəqurutma müəssisəsinin açılışında iştirak etmişəm. Çox gözəl, keyfiyyətli məhsullar istehsal olunur. Mənə verilən məlumata görə, quşçuluq fabriki tikilibdir. Orada da həm iş yerləri açılır, həm də ki, yerli istehsal yaradılır. Elə etməliyik ki, özümüzü maksimum dərəcədə yerli məhsullarla təmin edək. Xüsusilə quşçuluq sahəsində, çünki biz bu sahədə özümüzü hələ 70–75 faiz səviyyəsində təmin edirik. Ona görə quşçuluğun inkişafı indi prioritet xarakter daşıyır.

Samuxda qazlaşdırma işləri uğurla davam edir. Mənə verilən məlumata görə, əksər kəndlərdə qazlaşdırma başa çatıbdır. Elektrik enerjisi ilə təchizat yaxşı səviyyədədir. Bu gün mən yeni böyük yardımçı stansiyanın açılışında iştirak edəcəyəm. Həm bütün bölgəyə dayanıqlı elektrik enerjisinin verilməsi üçün bu stansiyanın böyük əhəmiyyəti var, həm də Gəncədə tikilməkdə olan böyük metallurgiya kompleksinin fəaliyyəti üçün mütləq belə bir güc yaradılmalı idi.

Bir sözlə, hər bir rayonda olduğu kimi, Samuxda da quruculuq, abadlıq işləri aparılır, yeni müəssisələr yaradılır, sosial məsələlər öz həllini tapır, rayon abadlaşır, gözəlləşir.

Hesab edirəm ki, gələcək illərdə bu müsbət dinamika davam etdiriləcəkdir. Çünki bizim həyata keçirdiyimiz bütün layihələr, bütün proqramlar gələcəyə yönəldilibdir. Həm bugünkü uğurlu dinamik inkişafımızı təmin edirik və ən əsası isə bütün bu işlər uzunmüddətli inkişaf strategiyamız çərçivəsində görülür. İqtisadi inkişaf, sosial məsələlərin həlli, infrastruktur layihələri, abadlıq-quruculuq işləri, yeni müəssisələrin, iş yerlərinin yaradılması – bütün bunlar Azərbaycanda kompleks şəkildə və uğurla icra edilir.

Gələcək illərdə biz ölkəmiz üçün lazım olan bütün layihələri icra edəcəyik. Bir müddət əvvəl Şəmkirçay su anbarının tikintisinə başlamışdıq. Onun istifadəyə verilməsi nəticəsində minlərlə hektar sahə suvarılacaqdır. Təkcə Samux rayonunda 20 min hektardan artıq torpaq istifadəyə veriləcəkdir. Qonşu rayonlarda – Şəmkirdə, digər rayonlarda da suvarılan torpaqların sahəsi artacaq, beləliklə, Azərbaycanda kənd təsərrüfatı daha çox inkişaf edəcəkdir.

Bu yaxınlarda verdiyim tapşırıqlar əsasında indi Azərbaycanda taxılçılığın inkişafı üçün böyük fermer təsərrüfatlarının yaradılmasından ötrü boş torpaq sahələri axtarılır. Yaxın vaxtlarda o torpaqlar müəyyən ediləcək və dövlət tərəfindən bütün infrastruktur təminatı – elektrik enerjisi, su təminatı təşkil ediləcək ki, Azərbaycanda kənd təsərrüfatı, xüsusilə taxılçılıq sahəsində daha da böyük uğurlara nail olaq. Biz elə etməliyik ki, əsas ərzaq məhsulları ilə özümüzü təmin edək. Artıq bu yolda çox böyük uğurlara nail olmuşuq. Hazırda bitkiçilikdə və quşçuluq sənayesində özümüzü təmin etmək imkanlarımız təxminən 70 faiz səviyyəsindədir. Ət, süd məhsulları, bitki yağları, şəkər və digər əsas ərzaq məhsulları ilə, demək olar ki, biz özümüzü 100 faiz, yaxud da 90–95 faiz təmin edirik. Bu bizə nə verəcək? İlk növbədə, yerli istehsalın inkişafı daha da sürətlə gedəcək, digər tərəfdən, ərzaq təhlükəsizliyimizi təmin edəcəyik. İndi dünyada ərzaq təhlükəsizliyi haqqında ciddi söhbətlər gedir, müzakirələr aparılır. Çox böyük narahatlıq var ki, ərzaq təhlükəsizliyi məsələləri dünya miqyasında qabarıq şəkildə birinci plana çıxa

bilər. Belə olan halda, əlbəttə ki, insanlar böyük çətinliklərlə üzləşə bilərlər. Biz elə etməliyik ki, Azərbaycanda istehlak olunan ərzaq məhsullarının 100 faizi ölkəmizdə istehsal olunsun. Bundan əlavə, biz öz məhsullarımızla xarici bazarlara da çıxmalıyıq. Bizim məhsullarımız həm təbiidir, həm keyfiyyətlidir, həm də hazırda yeni texnologiyalar əsasında tikilmiş zavodlar, fabriklər dünya səviyyəli məhsul istehsalına şərait yaradır.

Azərbaycanın hər bir rayonu üzrə konkret proqram var, iş cədvəli var. Yerli icra orqanları bu işləri aparır və aparmalıdırlar. Mərkəzi orqanlar tərəfindən görülən işlər, verilən tövsiyələr, ayrılan vəsait isə, əlbəttə ki, bu işlərin daha da səmərəli aparılmasına xidmət edir.

Samux rayonuna mən birinci dəfə deyil ki, gəlirəm, əvvəllər də gəlmişəm. Hər dəfə gələndə sevinirəm ki, burada hansısa bir yeniliyi görürəm, inkişafı, abadlığı görürəm. Bu gün bu inzibati binanın açılışı, yenə də deyirəm, böyük məna daşıyır. Bu, sadəcə iş yeri deyil, Samux şəhərinin inkişafı üçün, inkişaf etmiş rayona çevrilməsi üçün atılmış vacib addımdır. Sizə yeni uğurlar, cansağlığı arzulayıram. Arzu edirəm ki, Samux rayonunda hər şey yaxşı olsun.

## 500 kilovoltluq «Samux» yardımçı stansiyasının açılışı mərasimi

*Prezident İlham Əliyev fevralın 9-da Samux rayonunda 500 kilovoltluq «Samux» yardımçı stansiyasının açılışında iştirak etmişdir.*

*«Azərenerji» ASC-nin prezidenti Etibar Pirverdiyev dövlətimizin başçısına məlumat verərək bildirdi ki, rayonun Lək kəndi ərazisində ayrılmış 30 hektar sahədə 2008-ci ilin iyulunda başlanılmış inşaat işləri 2010-cu ilin sonunda yekunlaşdırılmışdır.*

*Böyüklüyünə görə respublikamızda ikinci olan «Samux» yardımçı stansiyası Gəncə şəhərindəki poladəritmə və alüminium zavodlarını elektrik enerjisi ilə təchiz edəcəkdir. Layihə*

*çərçivəsində Gəncə Alüminium zavodunda 330/110/10 kilovoltluq və 110/35 kilovoltluq yardımçı stansiyalar tikilmiş, enerjinin ötürülməsi üçün 26 kilometr uzunluğunda 500 kilovoltluq və 64 kilometr uzunluğunda 330 kilovoltluq elektrik xətləri çəkilmişdir.*

*«Samux» yardımçı stansiyasında 100-dək yeni iş yerinin yaradılması nəzərdə tutulmuşdur.*

*Prezident İlham Əliyev yardımçı stansiyanın inzibati binası ilə tanış oldu. Burada yaradılmış fotoguşədə ulu öndər Heydər Əliyevin Azərbaycanın energetika sisteminin inkişafı sahəsində gördüyü işləri əks etdirən şəkillər toplanmışdır.*

*Dövlətimizin başçısı idarəetmə mərkəzində yardımçı stansiyanı işə saldı, inşaatçılara və energetiklərə uğurlar arzuladı.*

# GORANBOY RAYONUNA VƏ NAFTALAN ŞƏHƏRİNƏ SƏFƏR

*Goranboy*

*10 fevral 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev respublikamızın qərb bölgəsinə səfəri çərçivəsində fevralın 10-da Goranboy rayonunda olmuşdur.*

*Dövlətimizin başçısı xalqımızın ulu öndəri Heydər Əliyevin Goranboy şəhərinin mərkəzindəki Heydər parkında ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyevə Goranboy rayonunda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verildi.*

## Məcburi köçkünlər üçün salınmış yeni yaşayış məhəlləsinin istifadəyə verilməsi mərasimi

*Prezident İlham Əliyev fevralın 10-da Goranboy rayonuna səfəri çərçivəsində 688 məcburi köçkün ailəsi üçün nəzərdə tutulan və birinci mərhələdə 165 ailənin məskunlaşacağı yeni yaşayış məhəlləsinin istifadəyə verilməsi münasibətilə keçirilən mərasimdə iştirak etmişdir.*

*Prezident İlham Əliyev Xocalı rayonundan məcburi köçkün, şəhid ailəsi Sədaqət Ağayarovanın evində oldu. Mənzildə yaradılan şəraitlə yaxından tanış olan dövlətimizin başçısı çay süfrəsi arxasında ailənin üzvləri ilə söhbət etdi.*

**İ l h a m Ə l i y e v:** Bu evə köçməyiniz münasibətilə sizi təbrik edirəm. Burada bütün şərait yaradılıb, hər şey var, bütün imkanlar var, gözəl binalardır. Burada rahat yaşamaq mümkündür. Siz buna layiqsiniz, uzun illərdir erməni təcavüzkarlarının işğalçı

siyasətindən əziyyət çəkmisiniz, uzun illər yararsız binalarda yaşamısınız. İndi isə bizim soydaşlarımız bu gözəl binalarda, gözəl mənzillərdə yaşayacaqlar.

Bilirsiniz ki, Azərbaycan dövləti məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün böyük işlər görür. Hər il binalar, fərdi evlər tikilir. Bu siyasət davam etdiriləcəkdir. Elə etməliyik ki, hazırda hələ də çətin vəziyyətdə yaşayan soydaşlarımız da yaxşı evlərə köçürülsünlər. Əlbəttə, bu, böyük vəsait, böyük peşəkarlıq tələb edir. Bilirsiniz ki, Dövlət Proqramı icra olunur. Azərbaycan dövləti bundan sonra da əlindən gələni edəcək ki, sizin vəziyyətinizi yaxşılaşdırsın. Çünki bir daha demək istəyirəm ki, siz buna layiqsiniz, siz yaxınlarınızı itirmisiniz.

Xocalı soyqırımı XX əsrin ən böyük cinayətlərindən biridir. Əfsuslar olsun ki, bu cinayəti törədənlər hələ ki, ədalət qarşısında cavab verməyiblər, amma o gün gələcəkdir. Əminəm ki, siz də Xocalıya qayıdacaqsınız. Bu, müvəqqəti məskunlaşma yeridir, amma buna baxmayaraq, biz istəyirik ki, müvəqqəti də olsa, şəraiti yaxşı olsun.

**S ə d a q ə t  A ğ a y a r o v a** *(Xocalıdan məcburi köçkün):* Cənab Prezident, biz şəhid ailəsiyik – mən, üç övladım, bir də bacım, onun üç övladı. Biz beş gecə meşədə qarın içində qalmışıq, çox əziyyətlər çəkmişik. Bu gün biz qaçqın-köçkünlər Sizə arxalanırıq, güvənirik. Mehriban xanımla fəxr edirik. Çünki Mehriban Əliyeva da, övladınız Leyla xanım da Xocalı faciəsini dünyaya qəbul etdirmək üçün çox çalışırlar.

**İ l h a m  Ə l i y e v:** Elə də olmalıdır, ermənilər xaricdəki imkanlarından istifadə edərək, dünya birliyinə Xocalı faciəsi haqqında təhrif edilmiş məlumatlar çatdırmağa cəhd etmişlər. Əfsuslar olsun ki, uzun illər ərzində buna müvəffəq olmuşlar. Dünya birliyi Xocalı haqqında məlumatsız idi. Ermənilər Azərbaycandan olan bəzi adamların çox çirkin bəyanatlarından istifadə edib, Xocalı faciəsi haqqında müəyyən dərəcədə tam yalan təsəvvür yarada bilmişdilər. Ona görə bizim siyasətimiz, xüsusilə xaricdəki fəaliyyətimiz, Xocalı haqqında həqiqətləri dünya birliyinə çatdırmağımız bu vəziyyəti, demək olar ki,

tamamilə dəyişdirdi. İndi Xocalı haqqında dünyada bilirlər, Xocalı faciəsi haqqında kifayət qədər məlumatlar var. Biz bütün ölkələrdə kampaniyalar keçiririk, həm səfirliklər, həm də Heydər Əliyev Fondu vasitəsilə. Bildiyiniz kimi, fond bu məsələ ilə çox fəal məşğul olur. Bizim təşəbbüsümüzlə yaradılmış İslam Konfransı Təşkilatının Gənclər Forumu da bu məsələ ilə bağlı çox fəal işləyir. Bununla bağlı nəinki islam ölkələrində kitablar nəşr edir, müxtəlif tədbirlər keçirir, həm də Avropa ölkələrində, bütün qitələrdə başqa təşkilatlarla birlikdə Xocalı haqqında həqiqətləri dünya birliyinə çatdırır. Xocalı soyqırımı ermənilərin vəhşiliyini göstərmişdir. Amma yenə də deyirəm, hələ ki, dünyada ikili standartlar siyasəti mövcuddur, erməni lobbisi, dünya erməniliyi və onların havadarları çalışırlar ki, erməniləri bu vəziyyətdən çıxarsınlar. Biz isə bundan sonra da çalışacağıq ki, bütün dünya Xocalı haqqında bilsin. Bizim indi imkanlarımız da artır, o cümlədən təbliğat imkanlarımız genişlənir. Biz istənilən ölkədə diaspor təşkilatlarımızın xətti ilə, dövlət xətti ilə istənilən tədbiri, konfransı keçirə bilərik. Bunu edirik və bu həqiqətləri bütün dünyaya çatdırırıq. Mən əminəm ki, gün gələcək Xocalı faciəsini törədən, dinc əhalini məhv edən erməni cinayətkarları məhkəmə qarşısında cavab verəcəklər.

## Xocalı şəhər 1 saylı orta məktəbi ilə tanışlıq

*Fevralın 10-da Azərbaycan prezidenti İlham Əliyev Xocalı şəhər 1 saylı orta məktəbdə yaradılmış şəraitlə tanış oldu. İkimərtəbəli məktəb binasının foyesində ümummilli lider Heydər Əliyevin 2002-ci ilin sentyabr ayında Goranboyun Aşağı Ağcakənd qəsəbəsinin açılışında iştirakı ilə bağlı fotoguşə yaradılmışdır. Məktəbin sinif otaqlarından əlavə, informatika, fizika və riyaziyyat kabinetləri, kimya laboratoriyası, kitabxana, emalatxana və yeməkxanası da var. İdman zalında isə basketbol, güləş və voleybolla məşğul olmaq mümkündür. Dövlətimizin başçısı burada gənc idmançıların çıxışını izlədi.*

*Məktəbin ikinci mərtəbəsində ulu öndər Heydər Əliyev və prezident İlham Əliyevin, Heydər Əliyev Fondunun ölkəmizdə təhsilin inkişafına diqqət və qayğısını əks etdirən, habelə Xocalı faciəsinə dair fotoguşələr yaradılmışdır.*

*Məktəb binasının qızdırılması üçün ayrıca qazanxana da inşa olunmuşdur.*

*Sonra dövlətimizin başçısı yeni məhəllədə inşa olunmuş Xocalı şəhər 1 saylı orta məktəbin həyətində pəhləvan Məzahir Qəhrəmanovun nümunəvi çıxışına baxdı və aşıq musiqisini, gənc ifaçıları dinlədi.*

# GÖRANBOY RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*10 fevral 2011-ci il*

*Fevralın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev məcburi köçkünlər üçün salınmış yeni yaşayış məhəlləsinin istifadəyə verilməsi mərasimindən sonra qəsəbə sakinləri ilə görüşmüşdür.*

**İ l h a m Ə l i y e v**: Əziz dostlar, əziz bacılar və qardaşlar. Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu evlərin istifadəyə verilməsi münasibətilə sizi təbrik edirəm. Burada çox gözəl şərait yaradılıbdır. Beşmərtəbəli 3 bina tikilib, hələ 9 bina da tikiləcəkdir. Böyük bir qəsəbə salınacaq ki, bizim soydaşlarımız, işğaldan əziyyət çəkən, uzun illər yararsız binalarda məskunlaşan soydaşlarımız yaxşı şəraitdə yaşasınlar. Bilirsiniz ki, bu bizim siyasətimizdir və uzun illərdir aparılır. Bildiyiniz kimi, Dövlət Neft Fondundan ilk vəsaitlər ulu öndər Heydər Əliyevin tapşırığı ilə məhz məcburi köçkünlərin yaşayış səviyyəsinin yaxşılaşdırılmasına yönəldilmişdir. O vaxtdan bu günə qədər on minlərlə soydaşımız yeni mənzillərə, fərdi evlərə köçürülmüşdür. Son 7 il ərzində qaçqınların və məcburi köçkünlərin sosial məsələlərinin həlli üçün 1 milyard 800 milyon manat vəsait xərclənmişdir. 90 min nəfər yeni evlərə köçürülmüşdür. Bütün çadır şəhərcikləri ləğv edilmişdir və yeni yaradılmış şərait, bax, bu səviyyədədir. Siz buna layiqsiniz və Azərbaycan dövləti bundan sonra da əlindən gələni edəcək ki, erməni işğalından əziyyət çəkən insanlara yaxşı şərait yaradılsın. Torpaqlarımız azad olunandan sonra biz həmin torpaqlarda bundan da gözəl binalar tikəcəyik. Bütün şəhərləri bərpa edəcəyik və öz vətəndaşlarımızı doğma torpaqlara qaytaracağıq. O gün gələcək, mən buna inanıram, şübhə

etmirəm. Əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir.

Uzun illərdir ki, işğaldan əziyyət çəkirik. Erməni işğalçı qüvvələri torpaqlarımızı zəbt edib və bu işğala son qoymaq istəmirlər. Baxmayaraq ki, danışıqlar gedir, amma hələ ki, danışıqların nəticəsi yoxdur. Biz isə öz tərəfimizdən çalışırıq ki, məsələni sülh yolu ilə həll edək. Ancaq bununla bərabər, bütün başqa variantları da istisna etmirik. Azərbaycan güclənib, son illər ərzində həm iqtisadi inkişaf, həm də hərbi potensial baxımından çox böyük və şərəfli yol keçmişdir. İndi bizim güclü ordumuz var, istənilən anda hərbi yolla doğma torpaqlarımızı işğalçılardan azad edə bilərik. Bu amil danışıqlar prosesində də öz müsbət rolunu oynayır. Ancaq Ermənistanın qeyri-konstruktiv siyasəti, qeyri-konstruktiv mövqeyi və müxtəlif yollarla danışıqları uzatmaq taktikası hələlik imkan vermir ki, məsələ öz həllini tapsın. Beynəlxalq təşkilatlarda bizim mövqeyimiz üstünlük təşkil edir, beynəlxalq hüquq normaları bizim tərəfimizdədir. Biz bundan sonra da bütün imkanlardan istifadə edərək, ərazi bütövlüyümüzün tezliklə bərpası üçün səylərimizi davam etdirəcəyik.

Xocalı soyqırımı XX əsrin ən dəhşətli, ən böyük cinayətlərindən biri idi, erməni faşizminin vəhşi və eybəcər sifətini göstərmişdir. Əfsuslar olsun ki, uzun illər ərzində dünya erməniliyi, onun xaricdəki havadarları və erməni lobbisi Xocalı haqqında həqiqətləri gizlədiblər.

Dünya birliyinə bu məsələ ilə bağlı kifayət qədər məlumat verilmirdi. Bizim də imkanlarımız məhdud idi, xüsusilə müstəqilliyimizin ilk illərində imkanımız yox idi ki, bu həqiqətləri dünya birliyinə çatdıraq. İndi Azərbaycanın imkanları var, geniş diaspor şəbəkəsi var. Azərbaycanın ictimai təşkilatları, dövlət qurumları Xocalı soyqırımı ilə bağlı kifayət qədər materiallar dərc edir, kitablar nəşr olunur, bütün dünyada konfranslar, digər tədbirlər keçirilir. Xocalı soyqırımı haqqında dünya birliyi artıq tam məlumatlıdır. Ancaq o da həqiqətdir ki, dünyada ikili standartların mövcud olması bizim işimizi çətinləşdirir. İkili standartlar

özünü, demək olar ki, hər bir sahədə göstərir. Bəzi hallarda biz Azərbaycana qarşı ədalətsiz münasibət, beynəlxalq təşkilatlarda Ermənistanda baş verən hadisələrə fikir verməmək hallarını görürük. Azərbaycandakı kiçik bir hadisəni şişirdib onu dünya ictimaiyyətinə çatdırmaq istəyirlər. İkili standartlar bu məsələlərdə özünü büruzə verir. Beynəlxalq hərbi tribunallarda başqa ölkələrin rəhbərləri törədilmiş cinayətlərə görə məsuliyyətə cəlb olunublar. Nə üçün Ermənistanın indiki rəhbərlərinə qarşı – hansılar ki, bilavasitə Xocalı soyqırımında iştirak etmişlər, əlləri Azərbaycan xalqının qanına batmışdır – beynəlxalq tribunal təşkil olunmur, nə üçün onlar qınaq obyektinə çevrilmirlər? Yəni bütün bunların təməlində ikili standartlar dayanır. Dünya erməniliyinin fəaliyyəti, onların havadarlarının, xarici dairələrin ədalətsiz mövqeyi dayanır. Ancaq ədalət bizim tərəfimizdədir. 600-dən çox dinc əhali ermənilər tərəfindən qətlə yetirildi, onların 100-dən çoxu uşaqlar idi. Bir daha demək istəyirəm ki, bu, XX əsrin ən qəddar cinayətlərindən idi. Xocalı soyqırımı, Xocalı genosidi – bunun adı belədir. Bu gün artıq Azərbaycanın artan imkanları bizə şərait yaradır ki, bu həqiqətləri dünya birliyinə çatdıraq. Biz bunu etməliyik və edəcəyik. Baxmayaraq ki, artıq beynəlxalq təşkilatlarda, bəzi ölkələrin qanunvericilik orqanlarında, hökumətlərində bu məsələ müzakirə olunur, Xocalı soyqırımı dünya birliyi tərəfindən tanınır, ancaq biz yenə də bu istiqamətdə səylərimizi davam etdirəcəyik.

O ki qaldı qaçqınların və məcburi köçkünlərin problemlərinin həllinə, Azərbaycan dövləti bundan sonra da bu istiqamətdə öz səylərini göstərəcəkdir. Biz bu il investisiya proqramı və Dövlət Neft Fondunun proqramı çərçivəsində daha da böyük işlər görəcəyik. Prezidentin ehtiyat fondundan vaxtaşırı vəsait ayrılır. Bu binalar məhz prezidentin ehtiyat fondundan ayrılmış vəsait hesabına tikilmişdir. Bizim soydaşlarımız narahat olmasınlar, köçkünlər üçün tikilmiş bütün binalar – istər mənzillər, istərsə də fərdi evlər bu səviyyədə olacaqdır.

Biz bu siyasəti davam etdirəcəyik, köçkünlərin sosial problemlərinin maksimum dərəcədə həlli üçün çalışacağıq.

Köçkünlərin məşğulluq məsələləri ilə ciddi məşğuluq ki, bu sahədə də vəziyyət yüksək səviyyədə olsun.

Əziz dostlar, bu gün mən sizi bir daha ürəkdən salamlayıram və ümid edirəm ki, bu binalarda rahat yaşayacaqsınız.

**T a m i l l a  B i l a l o v a** *(məcburi köçkün):* Cənab Prezident, icazə verin, göstərdiyiniz qayğı və diqqətə, bizim üçün yaratmış olduğunuz bu gözəl şəraitə görə Xocalı rayonundan olan məcburi köçkünlər adından minnətdarlığımızı bildirək və sizə «Xoş gəlmisiniz!» – deyək. Son illərdə respublikamızda qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, məşğulluğunun artırılması istiqamətində böyük işlər görülmüşdür. Müasir tələblərə cavab verən 67 qəsəbə istifadəyə verilmişdir. 100 mindən çox qaçqın və məcburi köçkün hər bir şəraiti olan fərdi yaşayış evləri və mənzillərlə təmin edilmişdir. Bütün qaçqın və məcburi köçkünlər kimi, xocalılılar da Sizin qayğı və diqqətinizi daim hiss edirlər. Xocalı köçkünləri üçün Goranboy rayonunun Aşağı Ağcakənd ərazisində 4 yeni qəsəbə salınmışdır. Həmin qəsəbələrə yeni qaz xətləri çəkilir və yaxın vaxtlarda təbii qaz veriləcəkdir.

Bu gün isə Naftalan şəhəri ərazisindəki sanatoriya binalarında müvəqqəti məskunlaşmış xocalılıların bir hissəsi bu gözəl məhəlləyə köçürülür. Belə gözəl şəraitə görə yeni mənzillərin sakinləri adından Sizə öz minnətdarlığımızı bildiririk.

Cənab Prezident, ümummilli liderimiz, dünya miqyaslı siyasətçi Heydər Əliyevin bu xalqın gələcəyini Sizə etibar edərkən yanılmadığı bir daha sübut olundu.

Cənab Prezident! Sizin tapşırığınızla Xocalı faciəsinin ildönümü dünya ölkələrində də qeyd edilir. Siz Xocalı faciəsini, Xocalı soyqırımını dünya dövlətlərinə tanıtmaq və qəbul etdirmək baxımından böyük işlər görmüsünüz. Xocalı həqiqətlərini dünyaya yaymaqda Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın və fondun vitse-prezidenti Leyla xanım Əliyevanın da xüsusi xidmətləri vardır.

Cənab Prezident! Yeni inşa edilmiş qəsəbəni və qoyulmuş abidəni Xocalı faciəsinin ildönümü ərəfəsində ziyarət etdiyiniz

üçün bütün xocalılılar adından Sizə öz minnətdarlığımızı bildiririk. Bizə göstərdiyiniz qayğı və diqqətə görə bir daha minnətdarlıq edirik. Sizə çətin işlərinizdə uğurlar, cansağlığı arzulayırıq. Diqqətinizə görə minnətdarıq!

**İ l h a m Ə l i y e v:** Sağ olun, çox sağ olun! Siz tamamilə haqlısınız ki, həyat bizi ermənilərlə yanbayan yaşamağa məcbur etmişdir.

Tarixdən də yaxşı bilirik ki, ermənilər bizim torpaqlarımıza, Qarabağ ərazisinə XIX əsrdə köçürülmüşlər, qonaq kimi gəlmişlər. Amma ondan sonra bizə qarşı torpaq iddiası ilə çıxış etmişlər. Biz də çalışırıq ki, dünya birliyinə bu həqiqətləri çatdıraq. Son illər ərzində kifayət qədər kitablar yazılmış, məqalələr dərc edilmişdir. Digər vasitələrlə də bu həqiqətləri dünya birliyinə çatdırırıq ki, bu bizim torpağımızdır. Erməni dilində Qarabağ sözü yoxdur, onun mənası yoxdur. Qarabağın baş şəhəri Xankəndidir, Stepanakert deyil. Stepanakert bolşevik-erməni quldur dəstəsinin rəhbəri Stepan Şaumyanın adını daşıyır. Əgər o, şəhərin tarixi adı olsaydı, şübhəsiz ki, ermənilər onu bərpa edərdilər.

Başqa toponimlər də Azərbaycan xalqının tarixini əks etdirir. Bu heç kimə sirr deyil, sadəcə olaraq, dünya birliyi bundan xəbərsiz idi. Belə təəssürat yaranmışdı ki, guya Qarabağ tarixi erməni torpağıdır, kiminsə göstərişi ilə 1920-ci illərdə Azərbaycanın tərkibinə verilmişdir. Halbuki biz hamımız yaxşı bilirik ki, bu belə deyil. Ermənilər çar Rusiyasının o vaxtkı rəhbərləri tərəfindən Türkiyənin, İranın müəyyən bölgələrindən oraya köçürülmüşlər. Bu, tarixi həqiqətdir.

Tarixdə artıq bir dəfə Azərbaycanın əzəli torpaqlarında erməni dövləti yaradılmışdır, o da bugünkü Ermənistandır. İrəvan xanlığı, Zəngəzur mahalı – hamısı Azərbaycan toponimləridir. Hətta indi ermənilər özləri də etiraf edirlər ki, XX əsrin əvvəllərində İrəvan şəhərinin əhalisinin əksəriyyəti azərbaycanlılar idi. Bunu təsdiq edən sənədlər var, şəkillər var, rəsm əsərləri var. Artıq bir dəfə Azərbaycan torpağında erməni dövləti yaradıldı, özü də Azərbaycanın o vaxtkı rəhbərliyinin

icazəsi ilə. Bilirsiniz ki, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyi İrəvanı Ermənistanın paytaxtı kimi ermənilərə bəxş etdi.

Hesab edirəm ki, bu çox yanlış və dözülməz bir addım idi və bugünkü tarix onu göstərir. Əgər o vaxt bu addım atılmasaydı, indi heç Qarabağ məsələsi də olmazdı. Amma o vaxt oldu və bunu da tarixi sənədlər sübut edir. Əsrin əvvəlində belə bir hadisə oldu. Ermənilər indi əsrin sonunda Azərbaycan torpaqlarında ikinci erməni dövləti yaratmaq istəyirlər? Biz heç vaxt buna imkan verə bilmərik. Biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Bunu deyəndə mən nəinki Dağlıq Qarabağın keçmiş inzibati hüdudlarından kənarda yerləşən rayonları nəzərdə tuturam. Yox! Dağlıq Qarabağ Azərbaycan torpağıdır. Azərbaycanın suverenliyi orada tətbiq olunmalıdır.

Azərbaycan bayrağı Şuşada, Xankəndidə dalğalanmalıdır. Bizim məqsədimiz budur. Məhz buna görə danışıqlar bu qədər vaxt aparır. Biz hansısa yarımçıq, yaxud da bizi tam qane etməyən varianta razı ola bilmərik ki, bizə bir neçə rayon qaytarılsın, qalan rayonların müqəddəratı qeyri-müəyyən olsun. Biz buna heç vaxt gedə bilmərik. Necə ola bilər? Burada alverdən söhbət gedə bilməz! Bu bizim torpağımızdır, tarixi torpağımızdır, əzəli torpağımızdır. Bir daha deyirəm ki, bunu tarixi sənədlər sübut edir. Beynəlxalq hüquq baxımından bu bizim torpağımızdır.

Azərbaycan 1991-ci ildə müstəqilliyə qovuşanda onun ərazi bütövlüyü bütün dünya birliyi tərəfindən tanındı. Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanındı. Azərbaycan Birləşmiş Millətlər Təşkilatına Dağlıq Qarabağ daxil olmaqla, üzv oldu və bu sərhədlər bütün ölkələr tərəfindən tanınır. Hətta bu gün ermənilərə, Ermənistana siyasi, hərbi, iqtisadi dəstək verən ölkələr də bunu tanıyır. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyildir.

Bu gün artıq Ermənistanla Azərbaycan arasında yerlə göy qədər fərq var. Bu fərq özünü hər bir yerdə göstərir. Xüsusilə keçən il və 2009-cu ildə böhran zamanı Ermənistanın

iqtisadiyyatı 15 faiz tənəzzülə uğramışdı. Azərbaycanın iqtisadiyyatı isə 2 il ərzində 15 faiz artmışdır. İndi baxın, Azərbaycanın sənaye imkanları, iqtisadi imkanları, hərbi potensialı müqayisəedilməz dərəcədədir. Biz ancaq hərbi xərclərə Ermənistanın bütün ölkəyə sərf etdiyi qədər, ondan da 50 faiz, 30 faiz çox vəsait sərf edirik və gələcəkdə bu fərq artacaqdır. Bəzi xarici müşahidəçilər, xarici dairələr isə çalışırlar bizi inandırsınlar ki, vaxt bizə işləmir, tezliklə bu məsələ həll olunsun. Bu məsələnin tezliklə həll olunmasını ən çox siz istəyirsiniz və mən istəyirəm. Bizdən çox bunu istəyən ola bilməz.

Mən əminəm ki, vaxt gələcək, biz öz suverenliyimizi tam bərpa edəcəyik. Dağlıq Qarabağda Azərbaycan bayrağı dalğalanacaqdır. Xocalıya biz qayıdacağıq və orada, siz dediyiniz kimi, bundan da gözəl binalar tikəcəyik. Biz bu vaxtı hər an öz səylərimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq.

## NAFTALANDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*10 fevral 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev fevralın 10-da respublikamızın qərb bölgəsinə səfəri çərçivəsində Goranboydan Naftalan şəhərinə gəlmişdir..*

*Dövlətimizin başçısı xalqımızın ulu öndəri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyevə abidənin yerləşdiyi Heydər Əliyev parkında, eləcə də Naftalanda aparılmış abadlıq-quruculuq işləri, habelə inşası davam edən və layihəsi planlaşdırılan tikinti kompleksləri barədə məlumat verildi.*

### «Chinar Hotel & SPA Naftalan» kompleksinin yenidənqurmadan sonra açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev fevralın 10-da Naftalanda «Chinar Hotel & SPA Naftalan» kompleksinin yenidənqurmadan sonra açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı açılışı bildirən lenti kəsdikdən sonra kompleksLə tanış oldu.*

*Naftalanda kurort zonasının inkişaf etdirilməsi məqsədi ilə şəhərin inzibati ərazisinin genişləndirilməsi barədə prezident İlham Əliyevin sərəncamı burada turizmin inkişafına da təkan verəcəkdir.*

*«Chinar Hotel & SPA Naftalan» kompleksinin istifadəyə verilməsi son illərdə Azərbaycanda yeni səhiyyə ocaqlarının, sanatoriyaların, mehmanxanaların inşasının, kurort zonalarının inkişaf etdirilməsinin dövlət siyasətinin prioritet istiqa-*

*mətlərindən biri olduğunun göstəricisidir. 18,8 hektar ərazidə yerləşən 312 yerlik «Chinar Hotel & SPA Naftalan» kompleksinin əsaslı təmirinə 2007-ci ilin mayında başlanılmış, 2010-cu ilin noyabrında sona çatdırılmışdır.*

*Dövlətimizin başçısı kompleksin foyesinin divarlarında çəkilmiş və Naftalan neftinin tarixinə həsr olunmuş kompozisiyalara baxdı.*

*Prezident İlham Əliyev SPA terapiya, fizioterapiya və reabilitasiya, fitnes mərkəzləri ilə tanış oldu. Naftalan Terapiya Mərkəzi ilə tanışlıq zamanı məlumat verildi ki, burada 24 vanna otağı var və əsas müalicə vasitəsi Naftalan neftidir. Təkcə Azərbaycanda mövcud olan Naftalan nefti bir çox xəstəliklərin dərmanıdır. Bu baxımdan Naftalan terapiyası tibbin bir çox sahələrində əvəzsiz müalicə metodu kimi qəbul edilmişdir.*

**İlham Əliyev:** Mən sizi salamlayıram və «Çinar» otelinin istifadəyə verilməsi münasibətilə ürəkdən təbrik edirəm. Çox böyük hadisədir, deyə bilərəm ki, tarixi bir hadisədir. Siz yaxşı bilirsiniz ki, sovet dövründə bu binada sanatoriya yerləşirdi və Sovet İttifaqının müxtəlif yerlərindən buraya qonaqlar gəlirdi. Sonrakı dövrdə bu bina yararsız vəziyyətə düşmüşdü, demək olar ki, fəaliyyət göstərmirdi. Ancaq ölkəmizdə aparılan islahatlar nəticəsində, Azərbaycanda hökm sürən sabitlik, iqtisadi inkişaf nəticəsində investorlar bu binaya vəsait qoymuşlar və gözəl, ən yüksək standartlara cavab verən mehmanxana, müalicə kompleksi və istirahət mərkəzi yaradılmışdır.

«Çinar»ın bərpası böyük məna daşıyır. Çünki «Çinar»ın bərpasından Naftalan şəhərinin yeni inkişaf dövrü başlayır. Mən keçən dəfəki gəlişimdə vəziyyətlə tanış olarkən bir az məyus oldum. Gördüm ki, buradakı vəziyyət o qədər də ürəkaçan deyil. Ona görə də müvafiq tədbirlər görüldü, göstərişlər verildi. Qısa müddətdə həm şəhərin abadlaşması üçün tədbirlər görüldü, həm də Naftalanın əsas inkişaf sahəsi olan sanatoriya-kurort komplekslərinin yaradılması və bərpası işində konkret addımlar atıldı. «Çinar» mehmanxanası dünyanın ən yüksək

standartlarına cavab verir. Həm mehmanxana kimi, həm müalicə mərkəzi, həm də istirahət mərkəzi kimi, burada bütün şərait var. Ən önəmlisi də odur ki, burada insanlar nadir müalicəvi Naftalan neftindən istifadə edəcəklər və özü də belə gözəl səviyyədə. Heç vaxt, heç bir dövrdə bu səviyyə olmamışdır. Hazırda bu reallıqdır və bu reallığı yaradan Azərbaycan dövlətidir, Azərbaycanda aparılan işlərdir və investorların Azərbaycanın gələcəyinə olan inamıdır. Çünki buraya qoyulan vəsaitin geri qayıtması prosesi çox vaxt aparacaqdır.

Bu il Azərbaycanda «Turizm ili» elan olunub və təkcə Bakı şəhərində beşulduzlu 5 mehmanxana istifadəyə veriləcəkdir. Bu mehmanxanaların hamısı dünya brendləri səviyyəsindədir və onların istifadəyə verilməsi Bakının turizm imkanlarını bir neçə dəfə artıracaqdır.

Mən çox şadam ki, Bakı ilə bərabər, bölgələrdə də belə gözəl şərait yaradılır. Naftalanda «Çinar» mehmanxanası və müalicə kompleksi açılır, «Qaşaltı» mehmanxanası açılır, yəni bir gündə şəhərdə iki gözəl mehmanxana və müalicə mərkəzi açılır. Digər bölgələrdə də buna oxşar proseslər gedir. «Şahdağ» kurort mərkəzi yaradılır və bu il birinci mehmanxananın açılışı olacaqdır. Bu proses Azərbaycanda sürətlə gedir. Turizmin inkişafı çox böyük məna daşıyır və o, ölkəmizin gələcək inkişafını müəyyən edəcəkdir.

Elə etməliyik ki, Azərbaycanda yaradılan turizm infrastrukturu bu cür olsun: gözəl səviyyə, gözəl xidmət, yüksək keyfiyyət. Naftalan şəhəri üçün belə gözəl obyektlərin yaradılması böyük əhəmiyyət daşıyır. Buraya gələn qonaqların sayı artacaq, nəinki MDB məkanından, mən tam əminəm ki, uzaq xaricdən də buraya gələcəklər. Mən dünyanın müxtəlif yerlərində olmuşam, mehmanxanalarda qalmışam, əminliklə deyə bilərəm ki, burada olan şərait ən yüksək səviyyədədir. Mən çox şadam ki, Azərbaycanda nəinki paytaxtda, paytaxtdan uzaqda yerləşən bölgələrdə də belə gözəl şərait yaradılır.

Bununla bərabər, mən göstəriş vermişəm – indi şəhərlə tanış olacağam – nəinki mehmanxanalar, bütün şəhər abadlaşmalıdır. Şəhərdəki bütün binalar təmir olunmalıdır, parklar, yeni xiyabanlar salınmalıdır və Naftalan nəinki Azərbaycanda, bütün bölgədə nadir bir gözəllik məkanına çevrilməlidir. Mən əminəm ki, bir neçə ildən sonra bu bölgədə Naftalan kimi gözəl, yaraşıqlı, rahat şəhər olmayacaqdır. Yəni mən bunu istəyirəm, baxmayaraq ki, Azərbaycanın çox gözəl bölgələri var, o bölgələrdə də yeni mehmanxanalar tikilir, yeni infrastruktur layihələri həyata keçirilir. Ancaq Naftalanın öz xüsusi yeri var və buraya gələcək qonaqların sayı artacaqdır. Təkcə Naftalan neftinə görə deyil, həm də burada olan turizm imkanlarına görə.

Bir də demək istəyirəm ki, bax, bu gözəl kompleksin yaradılması Azərbaycanda aparılan işlərin nəticəsidir. İnvestisiya qoyuluşu, iqtisadi inkişaf, sənaye imkanlarının genişləndirilməsi, ölkənin inkişafının güclənməsi bizə imkan verir ki, belə gözəl işlərlə Azərbaycan xalqına xidmət edək.

Mən bütün naftalanlıları bu gözəl hadisə münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Əminəm ki, bu gözəl mehmanxana kompleksi uğurla fəaliyyət göstərəcək və bundan sonrakı dövrdə investorlar başqa sahələrə də vəsait qoyacaqlar. Bir daha sizi təbrik edirəm.

**Hətəm Qocayev** (*Naftalan Sanatoriya-Kurort Birliyinin Baş həkimi*): Cənab Prezident, icazə verin, Sizi şəhər ictimaiyyəti adından salamlayım, şəhərimizə «Xoş gəlmisiniz!» – deyim.

Naftalanda ilk kurort 1935-ci ildə fəaliyyətə başlasa da, uzun müddət Naftalan kurortu elə bir inkişaf mərhələsi keçməmişdi. Naftalan kurortunun inkişaf mərhələsi əsasən 1970–80-ci illərdə ulu öndərimizin respublikaya rəhbərlik etdiyi dövrdə başlamışdır. O vaxt Naftalanda yeni infrastruktur layihələri həyata keçirilmiş, sanatoriyalar açılmış, sosial obyektlər tikilmiş və Naftalana müalicəyə gələn xəstələrin sayı 70 min nəfəri keçmişdi.

Ancaq bilirsiniz ki, sonrakı dövrlərdə məlum hadisələrlə əlaqədar vəziyyət dəyişmişdir. Nəhayət, Naftalanın ikinci inkişaf dövrü Sizin 2008-ci ilin mart ayında şəhərimizə gəlişinizdən sonra başladı.

Cənab Prezident, o vaxt Siz bizimlə görüşəndə belə bir fikir vurğuladınız ki, Naftalan dünyanın şöhrətli kurort şəhərinə çevriləcəkdir. Artıq bu reallıqdır. Bu reallığı biz görürük. Yaxın gələcəkdə həqiqətən, bu reallıq daha böyük olacaqdır. Naftalan şəhərində bir ildə elə işlər görülüb ki, bunu deməklə, saymaqla qurtarmaq olmaz. Şəhərin kanalizasiya sistemi, işıq, su, qaz sistemi tamamilə yenilənib, mərkəzləşmiş istilik sistemi yaradılıbdır, Naftalanda illərlə yığılıb qalmış problemlər bir ildə həll olunubdur.

Cənab Prezident, hazırda şəhərimizə dünyanın çox ölkələrindən – Almaniyadan, Polşadan, Macarıstandan, İrandan, Türkiyədən insanlar müalicəyə gəlirlər. Onlar bizim ölkəyə gələndə, bu inkişafı görəndə, Naftalan şəhərində – ölkənin balaca bir bölgəsində belə bir inkişafı görəndə, inanın, elə ağızdolusu danışırlar ki, biz heyran qalırıq və şübhəsiz, çox sevinirik. Cənab Prezident, bu sevinci bizə Siz bəxş etmisiniz. Ona görə də Sizə bir daha «Çox sağ olun!» – deyirik.

Biz inanırıq ki, gələcəkdə Naftalan daha da gözəlləşəcək, bundan da yaxşı olacaqdır. Bu bizim də üzərimizə böyük məsuliyyət qoyur. Çünki Sizin etimadınızı doğrultmalıyıq, elə işləməliyik, işlərimizi elə qurmalıyıq ki, buraya gələn insanlar razılıqla getsinlər. Naftalan şəhərinə, sakinlərinə göstərdiyiniz bu diqqət və qayğıya görə Sizə dərin minnətdarlığımızı bildiririk. Cənab Prezident, Sizə uzun ömür, cansağlığı arzulayıram. Allah Sizi qorusun.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun. Sözlərinizə görə çox minnətdaram. Mən ilk dəfə Naftalana 3 il bundan əvvəl gəlmişəm. Sovet dövründə də olmamışam. Bir də demək istəyirəm ki, əlbəttə, Naftalan haqqında çox eşitmişdim və burada mənim iki şey diqqətimi çəkdi. Birincisi, buranın gözəl təbiəti və şəhərin planlı şəkildə qurulması. Yəni buranın xiyabanları, yolları, küçə-

ləri, ağacları, parkları mənə çox böyük təsir etdi. Mən burada şəhərin elə bil ki, keçmiş gözəlliyini gördüm.

İkinci təəssürat isə o qədər də müsbət deyildi. Yəni şəhərin vəziyyəti. Uçmuş binalar, dağılmış yollar, əyilmiş işıq dirəkləri. Vəziyyət çox ağır idi, siz bunu yaxşı bilirsiniz. Bax, bu iki təəssürat məndə belə bir fikir yaratdı ki, axı necə ola bilər ki, belə gözəl təbiəti, belə iqlimi olan şəhər bu vəziyyətdədir. Nə üçün? Axı belə olmamalıdır.

Tədbirlər görülməyə başlandı və o vaxt mən sizə demişdim ki, Naftalan dünya səviyyəli kurort mərkəzinə çevriləcəkdir. 3 il keçdi, bəlkə də bir qədər az, artıq biz bunun əlamətlərini görürük. Təkcə bu mehmanxananın tikilməsində yox. Mən sizi inandırıram, dünya miqyasında həm müalicə, həm istirahət, həm şərait səviyyəsinə görə buna bənzər kompleks yoxdur. Əgər biz təkcə bunu yaratsaydıq, binalar, infrastruktur bərbad vəziyyətdə qalsaydı, bu ən əvvəl ədalətsizlik olardı. Çünki insanlar da yaxşı yaşamalıdırlar. Digər tərəfdən, ola bilməz ki, bir gözəl bina, yaxud da obyekt tikilsin, ətrafı isə bərbad olsun. Ona görə biz bu məsələyə kompleks şəkildə yanaşdıq. Naftalanın bütün binaları təmir olunmalıdır və olunur. Köhnə binalar bərpa edilir, infrastruktur yaradılır – qaz, su, elektrik xətləri. İndi magistral yoldan Naftalana gözəl yol çəkilir. Bir müddət əvvəl biz Gəncə aeroportunu yenidən bərpa etdik. İndi xarici qonaqlar təyyarə ilə Gəncəyə gələ bilirlər, Gəncədən başqa şəhərlərə də uçuşlar var. Bakıya da gələ bilərlər. Bakıdan buraya gəlmək üçün gözəl, rahat magistral yol da çəkilibdir. Naftalanın qonaqları bu bölgədə yerləşən digər şəhərlərə də gedə bilərlər.

Artıq Naftalanda dünya səviyyəli iki mehmanxana var. Mən əminəm ki, bundan sonra da mehmanxanalar tikiləcəkdir. Siz qeyd etdiniz ki, ildə 70 min adam gəlirdi. İndi bilmirəm, 70 minə biz çata bilərik, yoxsa yox, amma tam əminliklə deyə bilərəm ki, gələn ildən buraya bir neçə min adam gələcəkdir. Əlbəttə ki, bu imkanların gərək reklam tərəfi də həll olunsun. Buranı işlədənlərə bu məlumdur, gərək dünyada da bilsinlər ki, Naftalan kimi bir yer

var və burada nəinki müalicə almaq olar, həm də sadəcə, gözəl vaxt da keçirmək mümkündür.

Bugünkü Azərbaycan, bax, bu reallıqları əldə edibdir. Bugünkü Azərbaycan dinamik inkişaf edən müasir ölkədir və müasir ölkədə hər şey yüksək səviyyədə olmalıdır. Bizdə tətbiq olunan standartlar dünyanın ən yüksək standartlarından geri qalmamalıdır. Bütün sahələrdə – istər turizm, istər xidmət, istər infrastruktur baxımından, istərsə də digər məsələlər baxımından.

Bir də demək istəyirəm ki, bugünkü gün Naftalanın yeni tarixinin başlanğıcıdır. Əminəm ki, bir neçə ildən sonra biz istədiyimizə nail olacağıq və Naftalan dünyanın ən gözəl yerlərindən birinə çevriləcəkdir.

Sizi bir daha təbrik edirəm!

## «Qaşaltı» sanatoriyasının açılışı mərasimi

*Prezident İlham Əliyev fevralın 10-da Naftalanda «Qaşaltı» sanatoriyasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı açılışı bildirən lenti kəsdi və sanatoriya ilə tanış oldu.*

*Dünyada kurort şəhəri kimi tanınan Naftalanın inkişafı ulu öndər Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. Hələ 1982-ci il fevralın 19-da Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi «Naftalan kurort şəhərinin daha da inkişaf etdirilməsi haqqında» xüsusi qərar qəbul etmiş, sonrakı illərdə Naftalanda müalicə olunanların sayı 35 mindən 70 minə yüksəlmişdir.*

*«Qaşaltı» sanatoriya kompleksi «Azərbaycan Respublikasında kurortların 2009–2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı» çərçivəsində inşa olunmuşdur. Prezident İlham Əliyev 200 nəfər işçinin çalışacağı beşmərtəbəli sanatoriyanın poliklinika şöbəsi, su prosedurları və yataq korpusları ilə tanış oldu. Su prosedurları korpusunda üzgüçülük hovuzu, yod-brom vannası, sualtı idman hərəkətləri üçün hovuz, sauna, türk və fin hamamları var. Kompleksdə istiliklə müalicə kabineti də fəaliyyət göstərəcəkdir.*

*Fizioterapevtik bölmədə ən mütərəqqi müalicə üsulları tətbiq olunacaqdır.*

*Sanatoriyanın 92 otaqlı yataq korpusunun 83-ü standart, 9-u lüks palatalardır. Fitnes və gimnastika zallarında hərəkət-dayaq sistemlərində olan problemlərin aradan qaldırılması üçün müasir avadanlıq, o cümlədən ölkəmizdə ilk dəfə tibbi trenajorlar quraşdırılmışdır.*

*Daha sonra prezident İlham Əliyev naftalan vannası otaqları ilə tanış oldu. Bildirildi ki, Naftalan neftinin əsas təsiredici maddəsi geniş spektrli müalicə xüsusiyyətlərinə malik naften karbohidratıdır.*

*Sanatoriyanın geniş əyləncə mərkəzində 3D kinoteatrı, boulinq, bilyard və digər oyun zalları yerləşir.*

* * *

*Prezident İlham Əliyev Naftalan şəhərində inşası davam etdirilən və layihəsi planlaşdırılan tikinti komplekslərinin sxemlərinə baxdı. Bildirildi ki, Naftalan şəhərində Heydər Əliyev park kompleksinin yeni Baş planı hazırlanmışdır. Onun ərazisində Naftalan Şəhər İcra Hakimiyyətinin üçmərtəbəli inzibati binası tikilir, cari ilin iyul–avqust aylarında onun başa çatdırılması nəzərdə tutulmuşdur.*

*Dövlətimizin başçısına tikintisi planlaşdırılan Heydər Əliyev Mərkəzinin texniki göstəriciləri barədə də məlumat verildi. Bu Mərkəz də Heydər Əliyev park kompleksində tikiləcəkdir.*

*Prezident İlham Əliyev görülmüş işlərdən razılığını bildirdi, müvafiq tapşırıq və tövsiyələrini verdi.*

# KÜRDƏMİR–UCAR MAGİSTRAL AVTOMOBİL YOLUNUN YENİDƏN QURULMUŞ 42 KİLOMETRLİK HİSSƏSİNİN AÇILIŞI MƏRASİMİ

*10 fevral 2011-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev fevralın 10-da Kürdəmir–Ucar magistral avtomobil yolunun yenidənqurmadan sonra istifadəyə verilmiş 42 kilometrlik hissəsinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı yolun yenidən qurulması layihəsini, magistral avtomobil yolunun təmirdən əvvəlki və sonrakı vəziyyətini əks etdirən fotostendə baxdı.*

*Nəqliyyat naziri Ziya Məmmədov bildirdi ki, «Kürdəmir–Ucar magistral avtomobil yolunun yenidən qurulması» layihəsi Azərbaycan hökuməti ilə Dünya Bankı arasında imzalanmış saziş çərçivəsində maliyyələşdirilmişdir.*

*Yolun layihəsi və müsabiqə sənədləri Finlandiyanın «Finnroad Ltd» və «RRİ» firmaları tərəfindən hazırlanmış, müsabiqənin qalibi olan İtaliyanın «Todini Costruzioni Generali S.p.A» şirkəti ilə 2008-ci il oktyabrın 15-də podrat müqaviləsi imzalanmışdı. Tikintiyə texniki nəzarət işlərini isə Böyük Britaniyanın «Scott Wilson» firması yerinə yetirmişdir.*

*İkinci texniki dərəcəli yolun uzunluğu 42 kilometr, eni 15 metrdir. Magistral yolda yağış sularını ötürmək üçün 88 dairəvi və 16 düzbucaqlı boru qoyulmuş, 2 piyada keçidi və 3 körpü inşa edilmişdir.*

*Görülən işlərlə yaxından tanış olan prezident İlham Əliyev inşaatçılarla görüşdü.*

*Sonra dövlətimizin başçısı açılışı bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyev yenidənqurma işlərindən razılığını bildirdi, tövsiyə və tapşırıqlarını verdi.*

## FRANSANIN NƏQLİYYAT MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT KATİBİ TYERİ MARİANİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 fevral 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 11-də Fransanın Nəqliyyat məsələləri üzrə Dövlət katibi Tyeri Marianini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Fransa arasında əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq ölkələrimizin münasibətlərinin tərəfdaşlıq xarakteri daşıdığını bildirdi. Fransa şirkətlərinin artıq ölkəmizlə bir sıra sahələrdə uğurlu əməkdaşlıq etdiyini qeyd edən dövlət başçısı nəqliyyat sektorunda da geniş əməkdaşlıq üçün yaxşı imkanların olduğunu dedi.*

*Fransanın Nəqliyyat məsələləri üzrə Dövlət katibi Tyeri Mariani ölkəmizə növbəti dəfə səfər etməsindən məmnunluğunu bildirdi. Ölkələrimiz arasında münasibətlərin son illər daha da genişləndiyini vurğulayan qonaq Fransanın xüsusilə Azərbaycanın nəqliyyat sektoruna böyük maraq göstərdiyini dedi. Ölkəmizi yaxından tanıdığını qeyd edən Tyeri Mariani əlaqələrimizin bundan sonra da uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Dövlətimizin başçısı Azərbaycanda avtomobil yollarının, dəmiryol nəqliyyatının və eləcə də Bakıda metropoliten şəbəkəsinin təkmilləşdirilməsində Fransa şirkətlərinin iştirakına və Fransa texnologiyasının tətbiqinə ölkəmizin böyük önəm verdiyini dedi. Prezident İlham Əliyev Fransanın Nəqliyyat məsələləri üzrə Dövlət katibi Tyeri Marianinin Azərbaycan–Fransa əlaqələrinin bu sahədə inkişaf etdirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini bildirdi.*

## BEYNƏLXALQ KONKİSÜRMƏ İTTİFAQININ PREZİDENTİ OTTAVİO ÇİNQVANTA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 fevral 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 11-də Beynəlxalq Konkisürmə İttifaqının prezidenti Ottavio Çinqvantanı qəbul etmişdir.*

*Beynəlxalq Konkisürmə İttifaqının prezidenti Ottavio Çinqvanta Azərbaycana səfərindən məmnunluğunu bildirdi. O, Bakının müasirliyinin və paytaxtımızdakı inkişaf proseslərinin şahidi olduğunu dedi.*

*Ölkəmizdə idmana dövlət səviyyəsində xüsusi diqqət göstərildiyini bildirən prezident İlham Əliyev son illər Azərbaycanın idman sahəsində böyük uğurlar və nailiyyətlər əldə etməsinin önəmini vurğuladı. Dövlətimizin başçısı Beynəlxalq Konkisürmə İttifaqının prezidenti Ottavio Çinqvantanın ölkəmizə bu səfərinin idman sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*11 fevral 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 11-də ATƏT-in Minsk qrupunun həmsədrləri Bernar Fasyeni (Fransa), İqor Popovu (Rusiya), Robert Bradtkeni (ABŞ) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.*

## «BİRLİK» KUBOKUNU QAZANMIŞ BAKININ «İNTER» KLUBUNUN FUTBOLÇULARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 fevral 2011-ci il*

*Fevralın 14-də prezident İlham Əliyev «Birlik» kubokunu qazanmış Bakının «İnter» klubunun futbolçularını və məşqçilərini qəbul etmişdir.*

**İ l h a m   Ə l i y e v**: «İnter» komandasının bütün nümayəndələrini, bütün üzvlərini MDB-nin «Birlik» kuboku yarışlarında qazanılmış inamlı qələbə münasibətilə təbrik edirəm. Bu qələbə xalqımızı sevindirdi. Bu, artıq gözəl ənənədir. Bizim komandalarımız «Birlik» kuboku yarışlarında üçüncü dəfədir ki, birinciliyi əldə edirlər. 2006-cı ildə «Neftçi», 2008-ci ildə «Xəzər–Lənkəran», indi isə «İnter» komandası bu mötəbər yarışda qalib gəlmişdir. Bu çox böyük qələbədir, çox böyük hadisədir. Bir daha sizi – futbolçuları, məşqçiləri, bütün idman mütəxəssislərini bu qələbə münasibətilə təbrik edirəm.

Yarışlar çox gərgin keçmişdir. Bizim komandamız altı oyunda qələbə qazanmışdır. Mənə verilən məlumata görə, 16 top vurmuş, öz qapısından isə bir top da buraxmamışdır. Bu özlüyündə böyük bir göstəricidir.

Hər bir oyun çox vacib idi, amma Azərbaycan azarkeşlərinin ən çox marağını cəlb edən Ermənistan komandası ilə olan oyun idi. Siz bu inamlı qələbə ilə bütün Azərbaycan xalqını sevindirmisiniz. Böyük üstünlüklə qalib gəlmiş, rəqib komandanı darmadağın etmisiniz.

Bu qələbə onu göstərir ki, Azərbaycanda artıq futbolda böyük və inamlı addımlar atılır. Futbol inkişaf edir, həm milli

komandamız rəsmi oyunlarda artıq qələbələrə qədəm qoyubdur, həm də klublarımız.

Azərbaycan çempionatı da maraqlı keçir və ildən-ilə oyunlara maraq artır, komandalar güclənir. Ümid edirəm ki, yaxın gələcəkdə bizim komandalarımız daha böyük nailiyyətlər qazanacaqlar.

Azərbaycan azarkeşləri, əslində idmançılarımızın qələbələrinə bir növ öyrəşmişlər. Müxtəlif idman növlərində bizim böyük nəticələrimiz var. Olimpiya, dünya, Avropa çempionlarımız var. Əlbəttə ki, futbolda əldə edilmiş qələbə xüsusi məna daşıyır.

Mən bu böyük qələbə münasibətilə sizin hamınızı bir daha təbrik edirəm. Komandaya yeni uğurlar arzulayıram. Əminəm ki, siz növbəti illərdə də Azərbaycan azarkeşlərini sevindirəcəksiniz.

*Daha sonra prezident İlham Əliyev Azərbaycan futbolunu dünya standartlarına çatdırmaq üçün hələ çox işlər görməyin vacibliyini vurğuladı, hazırda federasiyanın fəaliyyətinin gücləndiyini, klub və uşaq futboluna, futbol infrastrukturunun yaradılmasına diqqətin artırıldığını bildirdi.*

*«İnter» komandasının böyük gələcəyinin olduğunu deyən prezident İlham Əliyev bir daha bildirdi ki, Azərbaycan dövləti gələcəkdə də futbolun inkişafına böyük diqqət yetirəcəkdir.*

*Dövlətimizin başçısı bu sahədə infrastrukturun inkişafı, stadionların tikintisi ilə bağlı böyük planların olduğunu, bu il Azərbaycanda yeni futbol stadionunun inşasına başlanılacağını xatırlatdı.*

*«İnter» klubunun Baş məşqçisi Kaxaber Tsxadadze prezident İlham Əliyevi komandamızın «Birlik» kuboku yarışlarında qazanılmış qələbə münasibətilə təbrik edərək, idmana, o cümlədən futbola göstərdiyi qayğıya görə minnətdarlığını bildirdi. O dedi ki, belə mötəbər yarışdakı qələbə «İnter»i daha da ruhlandırmışdır.*

*K.Tsxadadze son illərdə futbolun inkişafında Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının və Peşəkar Futbol Liqasının rolunu vurğuladı və futbolçularımızın bundan sonra da mötəbər beynəlxalq turnirlərdə daha böyük uğurlar qazanmağa səy göstərəcəklərini bildirdi.*

*Komandanın oyunçusu Rövşən Əmiraslanov Azərbaycanda futbolun inkişafına hərtərəfli qayğı və dəstəyinə görə prezident*

*İlham Əliyevə futbolçular, «İnter» klubu və futbol ictimaiyyəti adından minnətdarlığını bildirdi.*

*«İnter» klubunun prezidenti Georgi Nikolov «Birlik» kubokunu və medalını, üzərində «İnter» futbolçularının imzası olan topu, habelə komandanın futbol geyimini dövlətimizin başçısına hədiyyə etdi.*

*Hədiyyələrə görə təşəkkür edən prezident İlham Əliyev futbolçuların fiziki hazırlıq səviyyəsini saxlamalarının vacibliyini, onların gələcəkdə də uğurlar qazanacağına əminliyini söylədi, «İnter» komandasını bir daha təbrik etdi.*

*Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının prezidenti Rövnəq Abdullayev idmançılar və futbol ictimaiyyəti adından prezident İlham Əliyevə minnətdarlığını bildirdi.*

## «MİR» DÖVLƏTLƏRARASI TELERADİO ŞİRKƏTİNƏ MÜSAHİBƏ

*Bakı*

*17 fevral 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 15-də «Mir» Dövlətlərarası Teleradio Şirkətinə müsahibə vermişdir.*

**S u a l: Hörmətli cənab Prezident, keçən ilin axırlarında, noyabrın 29-da Milli Məclisin – yeni seçilmiş heyətinin birinci iclası olmuşdur. Dövlət başçısı kimi, Siz yeni deputatların qarşısında hansı əsas vəzifələri qoymusunuz?**

**İ l h a m  Ə l i y e v:** Ölkəmizin qarşısında duran başlıca vəzifə iqtisadiyyatın bundan sonra da sürətlə inkişaf etdirilməsi, siyasi islahatların keçirilməsi, ölkənin modernləşdirilməsidir. Son illərdə bu istiqamətdə çox iş görülmüşdür, o cümlədən parlamentin fəaliyyəti də kömək etmişdir ki, biz məsələləri çox operativ şəkildə həll etməyə, zəruri qanunvericilik bazası yaratmağa nail olmuşuq. Beləliklə, Azərbaycanda parlamentin rolu güclənmişdir. Ən başlıcası isə qəbul edilmiş qərarlar və qanunlar bizim nəzərdə tutduğumuz strategiya məcrasında olmuşdur: iqtisadiyyatın şaxələndirilməsi, siyasi islahatlar, modernləşmə, enerji sektorundan asılılığın azaldılması, təhsil, güclü sosial siyasət. Ona görə də parlamentin yeni tərkibinin qarşısında prinsip etibarilə ənənəvi məsələlər durur, sadəcə olaraq, inkişafın yeni mərhələsi, təbii ki, əlavə tədbirlərin  də görülməsini tələb edir. Yəni mən əminəm  ki, yaxın 5 ildə parlament yenə uğurla işləyəcək və bu fəaliyyətin nəticəsində ölkəmiz daha da möhkəmlənəcəkdir.

**S u a l: Siz parlamentin yeni tərkibi qarşısında çıxış edərkən demisiniz ki, Dağlıq Qarabağ münaqişəsi**

**dondurulmuş münaqişə deyil, real təhlükədir. Sizin fikrinizcə, hər halda, münaqişənin dinc yolla həlli şansı nə dərəcədə böyükdür?**

**İ l h a m  Ə l i y e v:** Azərbaycan sülh prosesinin tərəfdarıdır və mənim sözlərimə başlıca sübut odur ki, təqribən 20 il müddətində biz danışıqlar prosesindəyik. 1992-ci ildə ATƏT-in Minsk qrupu yaradılmış, 1994-cü ildə atəşkəs haqqında qərar qəbul olunmuşdur və o vaxtdan danışıqlar aparılır, ancaq təəssüf ki, heç bir nəticəsi yoxdur. Buna görə də biz ilk növbədə sülh danışıqlarının tənzimləməyə gətirib çıxaracağına ümid bəsləyir və danışıqlar prosesində fəal iştirak edirik. Təbii ki, tənzimləmə beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanmalıdır, bunun başqa əsası ola bilməz. Qarşıdurma vəziyyətində olan tərəflərin gözləntiləri, ümidləri, arzuları müxtəlif ola bilər, lakin hər şey hüquqi formata uyğun olmalıdır. Dağlıq Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyü bütün dünya, bütün ölkələr tərəfindən tanınmışdır. Biz BMT-yə üzv qəbul ediləndə sərhədlərimiz məhz mövcud çərçivədə tanınmışdır. Dağlıq Qarabağ praktiki olaraq bizim ölkənin ortasında yerləşir və təbii ki, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi də bu tezisi təsdiq edir. Eləcə də digər beynəlxalq təşkilatların qətnamə və qərarları. Ona görə də erməni tərəfi məsələyə konstruktiv yanaşarsa və Dağlıq Qarabağın müstəqilliyinin mümkünsüzlüyü barədə tezisi tamamilə başa düşər və qəbul edərsə, biz irəliləyişə nail olacağıq. Lakin əgər bizim qarşımıza məqbul olmayan şərtlər–separatizm haqqında, Dağlıq Qarabağın müstəqilliyinin hüquqi cəhətdən rəsmiləşdirilməsinə Azərbaycanın razılaşması haqqında məsələlər qoyularsa, onda, təbii ki, danışıqların perspektivləri olmayacaqdır.

Danışıqlar prosesinin indiki raundu və ya indiki mərhələsi Madrid prinsipləri deyilən prinsiplər, onların yeniləşmiş variantı əsasında aparılır. Bu varianta görə, hazırda Dağlıq Qarabağda yaşayan və oraya qayıdacaq insanların özünüidarə hüquqları təmin edilir, Azərbaycanın işğal altındakı bütün ərazilərinin azad olunması, azərbaycanlı məcburi köçkünlərin bu ərazilərə, o cümlədən Dağlıq Qarabağa qayıtması, Ermənistan ilə Azərbaycan

arasında münasibətlərin qaydaya salınması, eləcə də təhlükəsizliyə zəmanət təmin edilir. İndi danışıqlar masası üzərindəki format bundan ibarətdir. Burada müəyyən məqamlar vardır, lakin qlobal mənada söhbət bu prinsiplərdən gedir. Əgər bunlar təmin edilərsə, lap yaxın vaxtlarda biz irəliləyiş barədə danışa bilərik. Əks halda, regionda vəziyyətin sonrakı inkişafı müxtəlif ssenarilər üzrə gedə bilər.

**S u a l: Siz münaqişənin sülh yolu ilə həllində vasitəçilərin rolunu necə qiymətləndirirsiniz?**

**İ l h a m Ə l i y e v:** Bizim bu məsələyə münasibətimiz birmənalı deyildir. Bir tərəfdən, son 7 ildə bu prosesdə iştirak edən bir insan kimi, mən vasitəçi ölkələrin yaranmış gərgin vəziyyətdən çıxış yolu tapmaq arzusunda olduqlarını görürəm və biz bunu alqışlayırıq. Digər tərəfdən, son 19 ildə vasitəçilərin fəaliyyəti heç bir nəticə verməmişdir. Danışıqların müxtəlif formatları olmuşdur, müəyyən mərhələlərdə müəyyən irəliləyiş olmuşdur, lakin hər dəfə ya Ermənistanda baş verən müəyyən faciəli hadisələrlə, yaxud da əvvəllər artıq razılaşdırılmış məsələlər barədə Ermənistanın mövqeyinin dəyişməsi ilə əlaqədar bu danışıqlar ya düyünə düşmüş, ya da pozulmuşdur. Ona görə də nəticə olmadığı halda, vasitəçilərin rolunu müsbət qiymətləndirmək, təbii ki, düzgün olmazdı. Digər tərəfdən, mən onların mümkün olan hər şeyi etmədiklərini də deyə bilmərəm. Buna görə də biz ümid edirik ki, həmsədr ölkələr – onlar isə dünyanın aparıcı ölkələri, BMT Təhlükəsizlik Şurasının üç daimi üzvüdür – hər halda, işğalçı ölkəni zəbt olunmuş əraziləri azad etməyin zəruriliyinə inandırmaq üçün özlərinin nüfuzundan və siyasi resurslardan daha çox istifadə edəcəklər.

**S u a l: Cənab Prezident, Azərbaycan artıq neçə illərdir ki, inamlı iqtisadi artım nümayiş etdirir. MDB ölkələri arasında şəksiz liderdir. Dünya iqtisadi böhranına baxmayaraq, Azərbaycan artım nümayiş etdirməkdə davam etmişdir. Ola bilsin ki, bu artım əvvəlki illərdə olduğu qədər sanballı deyildir, lakin hər halda, 9,3 faizlik artım yəqin ki, asanlıqla başa gəlməmişdir, hətta neftin ucuzlaşmasına baxmayaraq.**

**Mən bilirəm ki, Azərbaycanda orta əməkhaqqı təqribən 400 dollardır. Bunun özü də ən bariz nümunədir. Sizcə, bu uğurların sirri nədədir?**

**İ l h a m Ə l i y e v:** Bu barədə çox danışmaq olar. Əgər qısaca desək, bu, əsrlərin qovuşuğunda Azərbaycanda yaranmış vəziyyətin düzgün qiymətləndirilməsinin nəticəsidir – sabitləşdirmə və iqtisadi inkişaf sahəsindəki ciddi nailiyyətlərlə yanaşı, çox sahələr vardı ki, səylərimizi ikiqat, üçqat artırmaq, strategiyanı düzgün seçməyimiz və konkret proqramlar lazım idi və bunlar bizə iqtisadiyyatı əhəmiyyətli dərəcədə şaxələndirməyə imkan vermişdir. Dediyiniz 2009-cu ildəki 9,3 faizlik iqtisadi artım mənim üçün əvvəlki illərdəki 25–30 faizdən qat-qat əhəmiyyətlidir, çünki bu artım böhranın ən şiddətli ilində, neftin qiymətinin 4 dəfə aşağı düşdüyü vaxt olmuşdur, bizim iqtisadiyyatımız isə, hər halda, daha çox məhz enerji sektoruna istiqamətlənmişdir. Bu nəticə onu göstərirdi ki, bizim apardığımız islahatlar sayəsində iqtisadiyyatın digər sektorlarında inkişaf başlamışdır. Son 7 ildə biz 900 mindən çox yeni iş yeri yaratmışıq, yoxsulluğun səviyyəsi, demək olar, 50 faizdən 9 faizə endirilmişdir. Bütün sosial proqramlar yerinə yetirilmişdir. Azərbaycanın yarım milyondan çox vətəndaşı hər ay dövlətdən sosial yardım alır, orta əməkhaqqı 400 dollardan çoxdur və bu, əlbəttə, son hədd deyildir.

Biz regionlarda çox iş görə bilmişik. Biz 2004-cü ildən regional inkişaf proqramlarını həyata keçiririk – infrastruktur, sosial infrastruktur yaradır, yollar, elektrik stansiyaları tikirik ki, insanlar regionlarda qalıb yaşasınlar və nə Bakıya, nə də başqa ölkələrə miqrasiya etməsinlər. Deməliyəm ki, daxili miqrasiya prosesi praktiki olaraq aradan qalxmaqdadır. Ölkənin modernləşdirilməsi, iqtisadiyyatın gələcəkdə bizə böyük artım verəcək sektorlarına, ilk növbədə, informasiya-kommunikasiya texnologiyaları sahəsinə sərmayələr qoyulması baxımından da çox iş görülmüşdür. Biz kosmik sənaye yaradırıq. Gələn il Azərbaycanın ilk süni peyki orbitə çıxarılacaqdır. Bizim külli miqdarda neft və qaz ehtiyatlarımızın olmasına, çoxlu gəlirimizin olmasına baxmayaraq, istəyirik ki, Azərbaycanın

davamlı inkişafı neftin qiymətindən və yaxud hasilatımızın həcmindən asılı olmasın. «Qara qızıl»ın insan kapitalına çevrilməsi bizim təcrübəmizdə şüar deyil, real vəziyyətdir. Ona görə də mən vəziyyəti qısaca bu cür xarakterizə edərdim.

Onu da deməliyəm ki, peşəkar komanda da böyük rol oynamışdır. İcraçılardan çox şey asılıdır və bizim yaratdığımız hökumətdə dövlət strukturlarının, dövlət şirkətlərinin rəhbərləri həm müasir iqtisadiyyata bələd olan, həm də regiondakı vəziyyəti dərindən başa düşən yüksək səviyyəli peşəkarlar, müasir menecerlərdir. Ona görə də hesab edirəm ki, bu amillərin hamısı birlikdə müsbət rol oynamışdır və ən başlıcası, biz yolun yarısında dayanmamışıq. Neftdən əldə edilən böyük gəlirlər bizi arxayınlaşdırmamışdır. Mən dəfələrlə demişəm, biz elə işləməliyik ki, sanki bizim neftimiz və qazımız yoxdur, çünki məhz bu cür resursların olmadığı ölkələr daha böyük uğurlar qazanmışlar. Onlar başqa sahələr axtarmağa, insan resurslarını, texnoloji tərəqqinin nailiyyətlərini səfərbər etməyə məcbur olmuşlar. Yəni bu ölkələrin inkişafını xalqın istedadı təmin edir. İnkişaf etmiş sayılan ölkələr arasında praktiki olaraq öz enerji daşıyıcıları ilə təmin edilmiş ölkələr yoxdur. Ona görə də bizim bu yolu fikirləşib tapmağımıza ehtiyac yox idi, işləri uğurla gedən ölkələrin təcrübəsindən ən müsbət cəhətləri götürərək onu bizim şəraitə, təbii ki, bizim spesifikamıza, reallıqlarımıza uyğun, geosiyasət nəzərə alınmaqla tətbiq etməli və ölkənin modernləşdirilməsi strategiyasını və illik fəaliyyət planını müəyyən etməli idik. Keçmiş sovet dövründəki kimi, bizim beşillik planımız vardır. Bundan əlavə, bizim hər il üçün fəaliyyət planımız da vardır, orada kimin nə iş görəcəyi, kimin nəyə cavabdeh olması, maliyyə resursları və digər məqamlar göstərilir.

**S u a l: Siz xatırlatdınız ki, iqtisadiyyatın müxtəlif sahələrinə çoxlu sayda adam cəlb etmək mümkün olmuşdur. Bilmək istərdik ki, hansı sahələrə daha çox adam gəlmişdir, harada daha çox iş yeri açılmışdır?**

**İ l h a m  Ə l i y e v:** Daha çox iş yeri bölgələrdə açılmışdır. Bizdə açılmış 900 min iş yerinin 700 mindən çoxu daimi iş yeridir. Biz ölkəmizin iqlim şəraitinə uyğun olaraq kənd təsərrüfatını fəal inkişaf etdiririk. Kənd təsərrüfatının əsas məhsulları ilə özümüzü təmin etməyə başlayırıq. Biz idxaldan asılı idik, meyvə, tərəvəz, üzüm, şərab satır, qalan məhsulları isə alırdıq. İndi biz özümüzü, demək olar ki, tamamilə təmin edirik və artıq ixracı da nizama salmışıq. Diqqətimizi daha çox təbii ehtiyatlarımız və xammal bazamız olan sahələrdə cəmləşdirmişik.

Biz gənclərimizin xaricdə təhsil alması proqramını həyata keçiririk. Artıq bir neçə ildir ki, dövlət bu proqramı tam maliyyələşdirir, minlərlə gəncimiz xaricdə təhsil almışdır və ölkəsinə qayıdıb, burada işləyir, təcrübəsini tətbiq edir. Hazırda Bakıda və digər yerlərdə inkişaf etmiş Avropa ölkələrində olan hər şey, üstəgəl yaxşı iqlim və isti hava vardır. Hesab edirəm ki, Azərbaycandan xaricə oxumağa gedənlərin hamısı qayıdacaq və öz ölkəsinin rifahı naminə işləyəcəkdir.

**S u a l: MDB-nin hansı ölkələri ilə prioritet iqtisadi münasibətlər qurmaq istərdiniz və ya artıq qurmusunuz və nə üçün?**

**İ l h a m  Ə l i y e v:** Görünür, burada həm tarixi, həm də coğrafi amil özünü göstərir. MDB ölkələri arasında qonşularımızla daha sıx iqtisadi münasibətlərimiz vardır. Bu, ilk növbədə, Rusiyadır, əmtəə dövriyyəmiz artır və onun strukturu yaxşılaşır. Biz məhsullarımızın çox hissəsini Rusiyaya göndəririk, həmçinin oradan idxal edirik. Başqa sözlə, bu bizim ixrac üzrə ən böyük tərəfdaşımızdır. İxracımızın böyük hissəsini enerji ehtiyatları təşkil etdiyindən, ixrac üzrə əsas tərəfdaşımız Avropa ölkələridir. MDB-də ənənəvi olaraq Ukrayna ilə də çox ciddi, çox geniş iqtisadi əlaqələrimiz vardır. Qonşu Gürcüstanda Azərbaycan şirkətləri, Azərbaycan sərmayələri fəal işləyir və bu ölkə ilə də əmtəə dövriyyəsi artır. Digər ölkələrlə – Mərkəzi Asiya ölkələri ilə, MDB-yə daxil olmasalar da, Baltikyanı ölkələrlə çox yaxşı əlaqələrimiz var, ora da keçmiş SSRİ-dir. Keçmiş Sovet İttifaqı

respublikalarının hamısında artıq çoxdan səfirliklərimiz var və əlbəttə, bu ölkələr bizim üçün xüsusi əhəmiyyət kəsb edir. Biz MDB-nin bütün proqramlarında – ilk növbədə, humanitar əməkdaşlıq sahəsində – fəal iştirak edirik. Ötən il I Rusiya–Azərbaycan humanitar əməkdaşlıq forumunu keçirdik və o, artıq beynəlxalq tədbirə çevrilmişdir. Təbii ki, bu, onilliklər boyu bir yerdə yaşamış ölkələrimizi daha çox birləşdirəcəkdir. Əlbəttə, burada tarixi amil, praqmatizm və təbii ki, siyasi münasibətlərin səviyyəsi – bütün bunlar birlikdə rol oynayır.

**S u a l: Siz MDB-nin rolunu prinsipcə necə qiymətləndirirsiniz? Sizin fikrinizcə, keçən əsrin 90-cı illəri ilə müqayisədə 2000-ci illərdə Birlikdə hansı irəliləyişə nail olunmuşdur?**

**İ l h a m Ə l i y e v:** Hesab edirəm ki, indi MDB keyfiyyətcə yeni səviyyəyə çıxır. Əlbəttə, keçən əsrin 90-cı illəri barədə mühakimə yürütmək mənə çətindir, çünki mən həmin proseslərdə bugünkü səviyyədə iştirak etməmişəm. Son 7-8 ilə gəldikdə isə, mənim fikrim belədir ki, MDB daha dinamik olmuşdur. Hesab edirəm ki, MDB-nin üzvü olan bütün ölkələrdə insanlar bizim bu təşkilatdan nə istədiyimizi daha aydın başa düşməyə başlamışlar, illüziyalar və iddialar azalmışdır. Zənnimcə, biz MDB-ni ciddi problemlərin həlli üçün çox mühüm mexanizm kimi başa düşməyə başlamışıq. Təkcə inteqrasiya məsələlərinin deyil – inteqrasiya məsələlərinə hər bir ölkə öz prioritetləri əsasında yanaşır, kimsə ondan çox şey, kimsə az şey gözləyir, kiməsə bu çox, kiməsə az lazımdır – çox vacib, ümdə məsələlərin, təhlükəsizliyin təmin edilməsi, terrorizmə qarşı mübarizə məsələlərinin həlli baxımından. Öz qonşularından və ya müttəfiqlərindən, tərəfdaşlarından təcrid olunmuş halda terrorizmlə mübarizə aparmaq mümkün deyildir. Yəni, hamı tamamilə başa düşür ki, bu bəlaya yalnız birgə səylər hesabına qalib gəlmək olar və terrorçular arasında heç bir fərq qoyulmamalıdır, bütün terrorçulara vahid mövqelərdən yanaşmaq lazımdır.

MDB çərçivəsində miqrasiya məsələlərinin də öz kəskinliyi vardır. İqtisadi əlaqələr, nəqliyyatda təhlükəsizlik məsələləri,

hesab edirəm ki, təşkilatımızın əsasını təşkil edən humanitar əlaqələr çox fəal şəkildə müzakirə olunur. Ona görə ki, başqa beynəlxalq təşkilatlardan fərqli olaraq, MDB birləşmək barədə hər hansı təşəbbüs sayəsində deyil, Sovet İttifaqının dağılması nəticəsində yaranmışdır. 90-cı illərdə bu ölkələrdə gərgin, o cümlədən siyasi böhrana davam gətirməyin, dinc yolla ayrılmağın mümkün olması bu işdə iştirak edənlərin hamısının çox böyük xidmətidir. Bəlkə də bunu bir növ unudurlar və ya lazımınca qiymətləndirmirlər, lakin bu həqiqətən, çox böyük xidmətdir. Belə bir böyük ölkənin dağılması, bizim qeyd etdiyimiz silahlı münaqişələr istisna olmaqla, əslində ciddi sarsıntılarsız baş vermişdir. Ona görə də hesab edirəm ki, indi – hər halda, Azərbaycanda – vəziyyəti daha ağılla qiymətləndirirlər, daha çox şeyə ümid bəsləmək əvvəlkindən azdır, adamlar daha çox başa düşürlər ki, hər bir ölkə özünə cavabdehdir. Hesab edirəm, biz hamımız bu məsələyə məhz bu baxımdan yanaşmağı öyrənməliyik: heç kimin heç kəsə borcu yoxdur – bu bizim başlıca tezisimizdir. Biz münasibətlərimizi dostluq, mehriban qonşuluq, bazar iqtisadiyyatı, bütün mallara və xidmətlərə bazar qiymətlərinin qoyulması əsasında qurmalıyıq. Onda bir-birimizi daha çox başa düşərik, vəziyyət daha çox proqnozlaşdırıla bilər, illüziyalar və iddialar daha az olar. Biz bu məsələyə belə yanaşırıq. Hesab edirəm ki, bu, konstruktiv yanaşmadır, Azərbaycana gəldikdə isə, biz MDB-nin bütün təşəbbüslərində bundan sonra da fəal iştirak edəcəyik.

**S u a l: Birlik ölkələrindən kənarda Azərbaycanın prioritetləri nədən ibarətdir?**

**İ l h a m Ə l i y e v:** Bilirsinizmi, bu məsələləri bir-birindən ayırmaq çətindir. Xarici siyasətdə bizim prioritetlərimiz kifayət qədər dəqiq ifadə edilmişdir. Biz istəyirik, çalışırıq ki, bütün ölkələrlə çox səmimi, rəvan, proqnozlaşdırıla bilən münasibətlərimiz olsun və hesab edirəm ki, buna nail olmuşuq. Biz etibarlı tərəfdaşıq. Özümüzü təmin edən ölkəyik və buna görə də hansısa beynəlxalq maliyyə mərkəzlərindən, yaxud siyasi mərkəzlərdən asılı deyilik. Bizim üçün əsas vəzifələrdən biri məhz iqtisadi

müstəqilliyə nail olmaq idi. Biz buna enerji müstəqilliyi vasitəsilə nail olmuşuq. Sonra nəqliyyat müstəqilliyi gəlir. Bu gün Şimal–Cənub və Şərq–Qərb nəqliyyat dəhlizləri artıq reallıqdır, coğrafi baxımdan Azərbaycandan sadəcə, yan keçmək mümkün deyildir. Haqqında söhbət açdığım ərzaq müstəqilliyi də bizə imkan verir ki, qiymətlərin dəyişməsindən və ya məhsulun az yığılmasından asılı olmayaq. Ona görə də özümüzü təmin edən və sözün yaxşı mənasında, özümüzə güvənən ölkə olmağımız bizim xarici siyasi fəaliyyətimizi irəlicədən müəyyənləşdirir. İstər yaxın ətrafımızdakı ölkələrlə, istərsə də uzaq xarici ölkələrlə praqmatizmə, realizmə, mənafelərin üst-üstə düşməsinə, qarşılıqlı hörmətə, bir-birinin daxili işlərinə qarışmamağa əsaslanan münasibətlər qurmuşuq. Bu münasibətlər Azərbaycana öyüd-nəsihət vermək tonundan uzaqdır, biz bunu qəbul etmirik, bunlar da artıq reallıqdır və yaxşıdır ki, tərəfdaşlarımızın hamısı bunu başa düşür.

**S u a l: İlham Heydər oğlu, bilirəm ki, Siz Moskvada oxumusunuz, sonra bir müddət orada işləmisiniz və indi də bəzən orada olursunuz. Əlbəttə, başa düşürəm ki, Siz maşınla gedəndə az şey görə bilirsiniz, amma hər halda, Sizin fikrinizcə, Rusiyanın paytaxtı çoxmu dəyişmişdir?**

**İ l h a m  Ə l i y e v:** Əlbəttə, çox böyük dəyişikliklər olmuşdur. Mən Moskvanı çox yaxşı tanıyıram, adətən, hökumət nümayəndə heyətlərinin getdiyi marşrutlardan qat-qat artıq marşrutları tanıyıram. Mən uzun müddət, 15 il orada yaşamışam – həm oxumuşam, həm də işləmişəm. O illər barədə mənim ən xoş təəssüratlarım vardır. Təkcə ona görə yox ki, o illər həyatımızın ən yaxşı dövrü olan gənclik illəri idi, həm də ona görə ki, həqiqətən, yaxşı illər idi. Mən orada özümü çox rahat, öz evimdə olduğu kimi hiss edirdim. Əslində, mən elə öz evimdə idim, çünki bu, vahid ölkə idi. Moskva çox dəyişmişdir. İndi Moskvada baş verən dəyişiklikləri, aparılan islahatları biz çox alqışlayırıq. Deməliyəm ki, bir dövr vardı, bizim Bakıda da əsaslı dəyişikliklər, islahatlar, bəzən ağrılı islahatlar aparılması zəruri idi, lakin bunsuz olmur. Moskva mənə çox əziz şəhərdir. Moskvada olmağı sevirəm və tez-tez orada oluram.

**S u a l: Mən də deyə bilərəm ki, çoxdandır Bakıda olmamışdım, burada hər şey – meydanlar, küçələr, təzə yollar, təzə evlər, saraylar adamı heyran edir. Hər şey çox gözəldir. Sizin xanımınız Milli Məclisin deputatı seçilmişdir. Siz indi ailədə daha çox siyasət barədə danışırsınız?**

**İ l h a m Ə l i y e v:** Bilirsinizmi, onun deputat olması birinci dəfə deyil. Bu, artıq ikinci dəfədir. Birinci dəfə 2005-ci ildə olmuşdur. Buna görə də o bu statusa artıq alışmışdır. Siyasət barədə çox, yaxud az danışmaq məsələsinə gəldikdə, konkret desək, çox az danışırıq. Ona görə ki, ev şəraitində, evdə biz siyasət barədə praktiki olaraq danışmırıq, çünki buna ehtiyac yoxdur. Azərbaycan cəmiyyətində, o cümlədən siyasi müstəvidə mövcud olan bütün mövzular kifayət qədər bəllidir. Bizim hökumətin mövqeyi birmənalıdır. Ona görə də biz evdə daha çox başqa mövzularda – həyatımız, münasibətlərimiz, uşaqlarımız, artıq nəvələrimiz barədə danışırıq. Hər bir ailədə olduğu kimi, bizdə də adi mövzular haqqında söhbət gedir.

**S u a l: Bir halda ki, nəvələrinizi xatırlatdınız, onda bir şeyi soruşmaya bilmərəm: nəvələrinizlə tez-tez görüşə bilirsinizmi?**

**İ l h a m Ə l i y e v:** Çalışıram ki, tez-tez görüşüm. Balaca olduqlarına baxmayaraq, onlar da tez-tez valideynləri ilə səfərlərdə olurlar. Onların Bakıya hər gəlişi bizim üçün böyük sevinc, böyük xoşbəxtlikdir.

**S u a l: Bilirəm ki, Siz idmanı çox sevirsiniz, respublikada idmanın inkişafını hər vasitə ilə dəstəkləyirsiniz. Azərbaycan idmançıları son illərdə həqiqətən, sanballı uğurlar qazanmışlar. Sonuncu Birlik kuboku yarışında «İnter» komandasının qələbəsini xatırlatmaya bilmərəm. Bu münasibətlə bizim təbriklərimizi qəbul edin. Bu həqiqətən, əla, gözəl oyun idi. Bizim kanal onu yayımlayırdı. Əslində, biz həmin yarışın əsas yayımçısı idik.**

**Bundan sonra hansı istiqamətdə, hansı uğurlara doğru irəliləyəcəksiniz, şəxsən Siz idmanın hansı növünü daha çox sevirsiniz?**

**İ l h a m Ə l i y e v:** Mən futbola baxmağı daha çox xoşlayıram. İdmanla məşğul olmağa gəldikdə isə, idmanın fərdi növlərini – gimnastikanı, atletikanı, üzgüçülüyü daha çox xoşlayıram. O ki qaldı gələcək planlara, biz qələbələrin sayını yalnız artırmağı planlaşdırırıq.

Son illərdə biz artıq beynəlxalq miqyasda öz sözü olan ölkəyə çevrilmişik. Çox istedadlı gənc idmançılar yetişdiririk. Gənclərin Sinqapurda keçirilmiş I Olimpiya oyunlarında yığma komandamız 11-ci yeri tutmuşdur. Aparıcı idman ölkələrinin çoxunu geridə qoymuşuq. Bizim idman siyasətimiz, idmanın inkişafı üçün şərait yaratmağımız, baza yaratmağımız, habelə veteran idmançılara münasibətimiz öz rolunu oynamışdır. Uşaqlar, yeniyetmələr ona görə idmançı olmaq istəyirlər ki, bizim idmançılar, məşhur çempionlar rəmzə çevrilirlər. Yəni cəmiyyətdə onlara çox böyük hörmət göstərilir, əhali tərəfindən, həm də dövlət tərəfindən onlara böyük dəstək var. Onların hamısı şəxsi həyatda da təqlid üçün nümunə hesab edilir. Çox təvazökar, çox vətənpərvərdirlər. Bizdə olimpiya çempionları, dünya və Avropa çempionları çoxdur. Növbəti Olimpiadada da medallar qazanmaq barədə geniş planlarımız vardır. Elə şərait yaranmışdır ki, Azərbaycanda idmançı yenidən hörmətli insana çevrilmişdir. XX əsrin 90-cı illərinin əvvəllərində bəlkə də belə deyildi, çünki o vaxt idmançıların hərəsi bir tərəfə dağılmışdı, idmana diqqət verilmirdi. Ölkədə o qədər problem var idi ki, idman yada düşmürdü. Mənə belə gəlir ki, bu fakt öz rolunu oynamışdır. Son 10 ildə biz, Bakı nəzərə alınmamaqla, Azərbaycanın bütün regionlarında 29 olimpiya mərkəzi tikmişik, onların, demək olar ki, hər birində hovuz, hər cür şərait, örtülü idman meydançaları vardır. Mən idmana daim diqqət yetirirəm, 1997-ci ildən həm də Azərbaycan Milli Olimpiya Komitəsinin prezidentiyəm. Bu cür gərgin iş qrafikinə baxmayaraq, mən bu vəzifəni özümdə saxlayıram. Hesab edirəm ki, bu lazımdır, bəlkə də mənə yox, amma idmana lazımdır. İdman xalqın iradəsinin ifadəsidir. Yarışlar, olimpiadalar, çempionatlar elə məkandır ki, orada ölkələr bir-biri ilə bəhsləşir. Ölkələr kimin birinci, kimin ikinci yerdə olmasını

daha harada göstərə bilər?! Heç yerdə. Bu, cəmiyyətin həyatında da çox mühüm amildir, gənclər arasında vətənpərvərlik ruhunu, vətənə sevgi ruhunu gücləndirir – xüsusən də idmançı qalib gələndə, ölkənin bayrağı qaldırılanda, onun himni səslənəndə. Bunlar çox təsirləndirici anlardır.

**S u a l: Sonuncu sualım çox qısadır. Soçi–2014 Olimpiadasında medal qazanmaq barədə planlarınız varmı?**

**İ l h a m Ə l i y e v:** Soçi Olimpiadasında biz kiçik heyətlə iştirak edəcəyik. Əvvəla, biz cənub ölkəsiyik. Hərçənd qış dağ xizəkçilik kompleksi yaradılması istiqamətində artıq xeyli iş görmüşük, bu ilin sonuna onun açılışını planlaşdırırıq. Lakin əsas planlarımız Londonda keçiriləcək yay Olimpiadası ilə bağlıdır. İrəlicədən nəsə demək istəmirəm, lakin Azərbaycanın idman proseslərinə təsirini gücləndirməyi və əvvəlkindən daha çox medal qazanmağı planlaşdırırıq.

**S u a l: İlham Heydər oğlu, müsahibəyə görə sağ olun. Sizi dinləmək, Sizinlə ünsiyyətdə olmaq çox xoş idi. Çox sağ olun.**

**İ l h a m Ə l i y e v:** Siz sağ olun. Mən sizin kanalın verilişlərinə maraqla baxıram, onu nadir, maraqlı və öyrədici kanal hesab edirəm. MDB ölkələrinə aid olmayan verilişlər də çox maraqlıdır. Siz həqiqətən, çox cəlbedici kanalsınız və bizim üçün qonşu ölkələrdə nələr baş verdiyini bilmək imkanı yaratmısınız. Bu, Birlik ölkələrini daha çox yaxınlaşdıracaq, onların arasında anlaşma daha çox olacaqdır. Hesab edirəm ki, sizin kanalın siyasəti də çox düzgün, çox müsbətdir.

**M ü x b i r: Sağ olun, çalışırıq.**

## KUBANIN XARİCİ İŞLƏR NAZİRİ BRUNO EDUARDO RODRİQES PARRİLYANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 fevral 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də Kubanın Xarici İşlər naziri Bruno Eduardo Rodriqes Parrilyanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Ölkələrimiz arasında münasibətlərin inkişafından məmnunluğunu bildirən prezident İlham Əliyev əlaqələrimizin bundan sonra da dinamik şəkildə inkişaf etdirilməsi üçün yaxşı perspektivlərin olduğunu vurğuladı. Azərbaycan–Kuba hökumətlərarası birgə iqtisadi Komissiyasının fəaliyyətə başlamasının önəmini vurğulayan dövlətimizin başçısı iqtisadi sahədə əməkdaşlıq üçün geniş imkanların olduğunu dedi. Azərbaycanda Kubanın səfirliyinin açılmasından məmnunluğunu bildirən prezident İlham Əliyev ölkələrimizin beynəlxalq arenada daha fəal əməkdaşlıq etmələrinin zəruriliyini vurğuladı. Dövlətimizin başçısı ölkələrimizin bir-birindən uzaqda yerləşməsinə baxmayaraq, bunun münasibətlərimizin inkişafına mane olmayacağına ümidvar olduğunu dedi. Prezident İlham Əliyev Kubanın Xarici İşlər naziri Bruno Eduardo Rodriqes Parrilyanın ölkəmizə səfərinin uğurlu olacağına əminliyini bildirdi.*

*Kubanın Xarici İşlər naziri Bruno Eduardo Rodriqes Parrilya Azərbaycana səfərindən məmnunluğunu bildirdi. O, ölkəmizə ilk dəfə səfər etdiyini və Azərbaycan ilə tanışlığın onda çox böyük təəssürat yaratdığını dedi. Xarici İşlər naziri ölkələrimizin xalqları və hökumətləri arasında tarixi və mədəni əlaqələrin mövcud olduğunu vurğulayaraq Kubada Azərbaycana xüsusi münasibət bəslənildiyini qeyd etdi.*

## İRANIN İNFORMASİYA TEXNOLOGİYALARI VƏ KOMMUNİKASİYA NAZİRİ REZA TAĞIPUR ƏNVƏRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 fevral 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də İran İslam Respublikasının İnformasiya Texnologiyaları və Kommunikasiya naziri Reza Tağıpur Ənvərinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Nazir Reza Tağıpur Ənvəri İran prezidenti Mahmud Əhmədinejadın salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. O, İranın dövlət başçısının ölkəmizə son səfəri zamanı göstərilən yüksək diqqətə və qonaqpərvərliyə görə Azərbaycan prezidentinə minnətdarlıq etməyi prezident Mahmud Əhmədinejadın ona şəxsən tapşırdığını dedi. Nazir bildirdi ki, İran prezidenti əmindir ki, belə yüksək səviyyəli qarşılıqlı səfərlər ölkələrimiz arasında münasibətlərin daha da genişlənməsi işinə xidmət edəcəkdir. Reza Tağıpur Ənvəri İran prezidenti Mahmud Əhmədinejadın məktubunu dövlətimizin başçısına təqdim etdi.*

*Prezident İlham Əliyev İran İslam Respublikasının prezidenti Mahmud Əhmədinejadın ölkəmizə səfərinin uğurlu olduğunu və yaxşı nəticələr verdiyini dedi.*

*Dövlətimizin başçısı prezident Mahmud Əhmədinejadın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TOOMAS HENDRİK İLVESƏ

Hörmətli cənab Prezident!

Xaapsalu şəhərindəki uşaq evində baş vermiş yanğın nəticəsində insan tələfatı xəbəri məni olduqca sarsıtdı.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Estoniya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 fevral 2011-ci il*

**BOLQARISTAN RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB GEORGİ PIRVANOVA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan–Bolqarıstan əlaqələrinin bugünkü inkişaf səviyyəsi məmnunluq doğurur. Xalqlarımız arasında zəngin dostluq və əməkdaşlıq ənənələrinə əsaslanan bu əlaqələr daim öz əhatə dairəsini genişləndirməkdədir.

Əminəm ki, dövlətlərarası münasibətlərimizin inkişafı, beynəlxalq qurumlar və regional layihələr çərçivəsində qarşılıqlı işimizin səmərəli şəkildə davam etdirilməsi üçün bundan sonra da ardıcıl səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Bolqarıstan xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 fevral 2011-ci il*

## ABŞERON RAYONU ƏRAZİSİNDƏ İNŞA OLUNMUŞ AZMDF ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*21 fevral 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 21-də Bakı–Şamaxı yolunun 15-ci kilometrliyində, Abşeron rayonu ərazisində inşa olunmuş AZMDF zavodunun açılışında iştirak etmişdir.*

*Müəssisənin kollektivi dövlətimizin başçısını hərarətlə qarşıladı.*

*Zavodun ərazisi ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, mebel hazırlanmasında geniş istifadə edilən MDF materiallarının istehsalı üçün xammal – ağac materialları Rusiyadan vaqonlarla gətirilərək 50 min kvadratmetr sahəsi olan ağac deposuna boşaldılır və növlərinə görə çeşidlənir. Hazırda 3 növ ağacdan istifadə olunur. İstehsalın ilkin mərhələsi xammalın hazırlanmasıdır. Bu məqsədlə əvvəlcə ağac gövdələri qabıqdan təmizlənərək növbəti istehsal prosesinə ötürülür.*

*Qeyd edildi ki, indiyədək dünyanın müxtəlif ölkələrindən idxal edilən MDF materialları artıq Azərbaycanda ən yüksək keyfiyyətlə istehsal olunacaqdır.*

*Prezident İlham Əliyev müəssisənin işə düşməsini bildirən düyməni basdı, istehsal prosesini izlədi, zavodun fəaliyyətindən bəhs edən filmə baxdı.*

*Bildirildi ki, 2006-cı ildə özəl investisiyalar əsasında təsis olunmuş AZMDF şirkətinin inşa etdirdiyi zavodun ərazisində ağac deposu, daşınma və qəbuletmə, əsas istehsal qurğuları, nümayiş zalı və inzibati ofis yerləşir. İstehsal prosesi doğrama, lifləmə, presləmə, cilalama, üzləmə sexləri və anbardan ibarət-*

*dir. Zavodda Almaniyanın «Siemens» və Yaponiyanın «Mitsubishi» şirkətlərinin idarəetmə proqramları ilə təmin olunmuş müasir texniki avadanlıq quraşdırılmışdır. Keyfiyyətli məhsulun əldə olunması üçün müəssisədə ən son mikrobioloji, fiziki-kimyəvi avadanlıqlarla təchiz olunmuş laboratoriya fəaliyyət göstərir.*

*Bildirildi ki, texnoloji standarta uyğun gələn xırda hissələr lifin hazırlanması üçün yuyulma aparatına göndərilir. Yuyulma mərhələsində taxta qırıntıları tozdan təmizlənir və lifin hazırlanması üçün tam hazır vəziyyətə gətirilir. Texnologiyaya görə lifləmə prosesi ən önəmli mərhələlərdən biridir. Bu, ağac lifinin hazırlanması prosesidir. Yuyulmuş taxta hissələri rifaynerin şaquli çənlərinə göndərilir və burada buxara verilir. Rifaynerin çıxışında lifə sintetik yapışqan və parafin əlavə olunur. Yapışqanla qarışdırılmış ağac lifləri boruların içində isti hava ilə qurudulur. Ağac lifləri hələ çox yumşaq olduğu üçün ilkin presləmə üsulu ilə sıxılır, xalça formasına salınır və müvafiq ölçüdə kəsilir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, MDF istehsalı xətti tam kompyuterləşdirilmiş və avtomatlaşdırılmışdır. Operatorlar yalnız texnoloji parametrləri tənzimləyərək prosesə nəzarət edirlər.*

*Hazır məhsullara baxan dövlətimizin başçısına məlumat verildi ki, MDF digər materiallardan bir sıra keyfiyyətlərinə görə fərqlənir. Beləliklə, yeni zavodun fəaliyyəti keyfiyyətcə xarici analoqlarından geri qalmayan yerli MDF materialları istehsal etməyə və bununla hazırlanan məhsulların indiyədək mövcud olan qiymətlərinin aşağı düşməsinə müsbət təsir göstərəcəkdir.*

*Prezident İlham Əliyev görülmüş işlərdən razılığını bildirdi, müvafiq tövsiyə və tapşırıqlarını verdi.*

## ABŞERON RAYONUNUN HÖKMƏLİ QƏSƏBƏSİNDƏ «M-LİNE» MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİN MEBEL FABRİKİNİN AÇILIŞI MƏRASİMİ

*21 fevral 2011-ci il*

*Fevralın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Abşeron rayonunun Hökməli qəsəbəsində «M-Line» Məhdud Məsuliyyətli Cəmiyyətin (MMC) mebel fabrikinin açılışında iştirak etmişdir.*

*Fabrikin kollektivi dövlətimizin başçısını hərarətlə qarşıladı.*

*Prezident İlham Əliyev fabrikin rəmzi açılışını bildirən lenti kəsdi və müəssisə ilə yaxından tanış oldu.*

*Fabrikin foyesində xalqımızın ümummilli lideri Heydər Əliyevin büstü qoyulmuşdur. Burada ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin iqtisadiyyatımızın dinamik inkişafı istiqamətində gördüyü işləri əks etdirən fotolardan ibarət güşələr yaradılmış və videomaterialların göstərildiyi iki böyük ekran quraşdırılmışdır. Foyenin tavanında xüsusi zövqlə hazırlanmış Azərbaycanın xəritəsi quraşdırılmışdır.*

*Bildirildi ki, dövlətin güzəştli krediti və şirkətin vəsaiti hesabına inşa olunmuş fabrikin tikintisi 2010-cu ilin yanvarında, avadanlığın quraşdırılması isə bu ilin yanvarında başa çatdırılmışdır. Fabrikin ümumi dəyəri 7,8 milyon manatdır ki, bunun 55 faizini güzəştli dövlət krediti təşkil edir.*

*Fabrikdə hamısı yerli olmaqla, 102 nəfər işləyir ki, yaxın gələcəkdə onların sayının 150-yə çatdırılması nəzərdə tutulmuşdur. İşçilərin fabrikə rahat gedib-gəlmələri üçün xüsusi nəqliyyat vasitəsi də ayrılmışdır.*

*Dövlətimizin başçısı müəssisənin əsas istehsal sahəsi olan mebel yığımı sexi ilə tanış oldu və hazır mebel dəstlərinə baxdı.*

*Sonra prezident İlham Əliyev fabrikin işə salınmasını bildirən düyməni basdı və istehsal prosesi ilə tanış oldu.*

*Vurğulandı ki, fabrikdə təbii ağacdan, MDF-dən, laminə edilmiş MDF-dən, təbii və süni şpondan boyalı və laklı mebellərin istehsalı nəzərdə tutulmuşdur. Xammal Braziliya, Almaniya, Avstraliya, Kanada və digər ölkələrdən gətiriləcəkdir. Fabrikdə quraşdırılan Almaniya və İtaliya istehsalı olan avadanlıq mebel istehsalında ən son texnologiyalara əsaslanır. İstehsal sahəsində iki anbar yaradılmışdır. Böyük anbar ümumi xammal üçün nəzərdə tutulmuşdur. Aksessuar anbarı isə avtomatlaşdırılmışdır. Bütün aksessuarlar kompyuter vasitəsilə kodlaşdırılmışdır. Mebellərin aksessuarları xaricdən gətirilir.*

*Taxta emalı sahəsi ilə tanışlıq zamanı prezident İlham Əliyevə məlumat verildi ki, fabrikdə sifarişlərə uyğun olaraq əllə işlənmiş mebellər də hazırlanacaqdır. Burada, həmçinin keyfiyyət nəzarət masası da yaradılmışdır. Mebellər bazara həm xarici, həm də yerli adlarla çıxarılacaqdır. Fabrikdə boyama işləri xüsusi sahədə həm avtomatik, həm də əl ilə aparılacaqdır. İlk dəfə olaraq, fabrikdə aylıq istehsal gücü 18-20 min kvadratmetr olan poliuretan üzlük materiallarının istehsal xətti quraşdırılmışdır.*

*Prezident İlham Əliyev poliuretan sexində istehsal olunmuş məhsullara baxdı.*

*Dövlətimizin başçısı fabrikdə yaradılmış şəraitdən və istehsal prosesindən razılığını bildirdi, tövsiyə və tapşırıqlarını verdi.*

**YENİ ZELANDİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB CON KİYƏ**

Hörmətli cənab Baş nazir!

Ölkənizdə baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 fevral 2011-ci il*

## FÖVQƏLADƏ HALLAR NAZİRLİYİNİN MÜLKİ MÜDAFİƏ QOŞUNLARINA DÖYÜŞ BAYRAĞININ TƏQDİM OLUNMASI MƏRASİMİ

*23 fevral 2011-ci il*

*Fevralın 23-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Qoşunlarına döyüş bayrağının təqdim olunması mərasimində iştirak etmişdir.*

*Prezident İlham Əliyev Mülki Müdafiə Qoşunlarının «N» saylı hərbi hissəsinə gəldi.*

*Fövqəladə Hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov dövlətimizin başçısına raport verdi.*

*Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin abidəsinin önünə gül dəstəsi qoydu.*

*Mülki Müdafiə Qoşunlarının Komandanı, general-mayor İlham Abdullayev Ali Baş Komandana raport verdi.*

*Dövlətimizin başçısı əsgərləri salamladı.*

*Sonra Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev döyüş bayrağını hərbi hissəyə təqdim etdi, şəxsi heyəti bu münasibətlə təbrik etdi.*

*Mərasimdə Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

*Silahlı Qüvvələrin Ali Baş Komandanı şəxsi heyət qarşısında çıxış etdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, SİLAHLI QÜVVƏLƏRİN ALİ BAŞ KOMANDANI İLHAM ƏLİYEVİN ÇIXIŞI

*23 fevral 2011-ci il*

Əziz əsgərlər, zabitlər, generallar!

Sizi döyüş bayrağı almağınız münasibətilə ürəkdən təbrik edirəm, fəaliyyətinizdə uğurlar arzulayıram.

Fövqəladə Hallar Nazirliyinin yaranmasından 5 il keçir. Bu müddət ərzində nazirliyin bütün strukturları formalaşdı və bu gün müasir tələblərə cavab verir. Fövqəladə Hallar Nazirliyinin yaranması ölkəmizin həyatında çox əlamətdar bir hadisə idi. Nazirliyin yaranmasına böyük zərurət var idi.

Son 5 ildə nazirliyin maddi-texniki bazası yaradıldı, müasir texniki vasitələr, avadanlıqlar alındı. Nazirliyin bütün strukturlarında formalaşma prosesi, demək olar ki, başa çatmışdır və nazirliyin fəaliyyəti hazırda ən yüksək standartlara cavab verir. Bu müddət ərzində nazirliyin əməkdaşları nəinki ölkə daxilində, xaricdə peşəkarlıqlarını nümayiş etdirmişlər. Başqa ölkələrdə baş vermiş təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması işində nazirliyin əməkdaşları Azərbaycanı ləyaqətlə təmsil etmişlər, bizim üçün dost olan ölkələrdə təbii fəlakətlərlə mübarizədə böyük uğurlar əldə etmişlər. Nazirliyin əməkdaşlarının fəaliyyəti digər ölkələrdə də qiymətləndirilir.

Bu müddət ərzində alınmış texniki vasitələr nəticəsində ölkə daxilindəki istənilən hadisənin qarşısının alınması və təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması üçün nazirliyin əməkdaşları öz peşəkarlıqlarını nümayiş etdirmişlər. Keçən il Azərbaycanda tarixdə misli görünməmiş sel və daşqınlar baş vermişdi, ölkə ərazisinin müəyyən hissəsi, daha doğrusu, on

minlərlə hektar sahə su altında qalmışdı, bir neçə min ev dağılmışdı. Fövqəladə Hallar Nazirliyinin əməkdaşları bütün başqa dövlət qurumları ilə birlikdə çox operativ fəaliyyət göstərərək insanların təhlükəsiz yerlərə köçürülməsi ilə məşğul olmuşlar. Bu fəaliyyət nəticəsində təbii fəlakət Azərbaycanda itkisiz keçmişdir. Bu, böyük uğurdur, böyük nailiyyətdir. İnsanların sağlamlığı, təhlükəsizliyinin qorunması bizim üçün həmişə olduğu kimi, başlıca vəzifədir. Ondan sonra sel və daşqınlara məruz qalmış bölgələrdə tikinti-quruculuq işləri aparılmışdır. Bir neçə ay ərzində minlərlə yeni ev tikilmişdir və soydaşlarımız, fəlakətdən əziyyət çəkmiş insanlar o evlərə köçürülmüşdür. Bu bir tərəfdən, onu göstərir ki, nazirliyin strukturları artıq tam formalaşmışdır və istənilən vəzifəni icra edə bilərlər. Digər tərəfdən, onu göstərir ki, Azərbaycan güclü dövlətdir. Biz bu böyük təbii fəlakətin nəticələrini aradan qaldırdıq və insanlar üçün yaxşı şərait yaratdıq. Əgər vaxtilə Fövqəladə Hallar Nazirliyi yaranmasa idi, yəqin ki, bu təbii fəlakətlər bizim üçün ağır keçə bilərdi.

Azərbaycanda bütün strukturlar, bütün dövlət qurumları müasir tələblərə cavab verməlidir. Ölkəmiz inkişaf edir, müasirləşir. Azərbaycan bu gün dünya miqyasında özünə layiq yerini tuta bilmişdir. Ölkə daxilindəki proseslər müsbət istiqamətdə gedir. Ölkəmiz son illər ərzində böyük və şərəfli yol keçmişdir.

Əlbəttə, peşəkar kadrların hazırlanması sahəsində görülmüş işlər bu gün bu reallıqları mümkün edir. Azərbaycanda düşünülmüş iqtisadi və sosial siyasət aparılır, bütün ixtisaslar üzrə peşəkar kadrlar hazırlanır. Biz elə etməliyik ki, Azərbaycanda bütün dövlət qurumları, bütün nazirliklər müasir tələblərə cavab versin. Ən qabaqcıl texnologiyalar Azərbaycana gətirilir və gətiriləcəkdir. Biz bunu Fövqəladə Hallar Nazirliyinin timsalında görürük. Ən müasir texniki vasitələr, yanğınsöndürən təyyarələr, helikopterlər, ən müasir maşınlar alınır ki, maddi-texniki bazanın möhkəmləndirilməsi işində biz bütün lazım olan səviyyəyə qalxa bilək. Bununla bərabər,

peşəkarlığın artırılması mühüm məna daşıyır və bu sahədə böyük uğurlar vardır. Belə olan halda, müasir tələblərə cavab vermək arzumuz sadəcə olaraq, hansısa bir məqsədə çatmaq üçün deyildir. Bunun əsas mənası ondan ibarətdir ki, Azərbaycanın bütün qurumları operativlik, çeviklik və peşəkarlıq nümayiş etdirərək fəaliyyət göstərsin, müasir standartlara cavab versin və ölkəmiz öz uğurlu inkişafını davam etdirsin.

Qarşımızda çox gözəl perspektivlər açılır. Azərbaycanda ictimai-siyasi sabitlik möhkəmdir və möhkəm qorunur. Ölkədə iqtisadi və siyasi islahatlar aparılır. Azərbaycanda bütün sahələrdə müasirləşmə prosesi gedir. Biz ən qabaqcıl və inkişaf etmiş ölkələrin sırasına düşməliyik və qarşıya bu məqsəd qoyulubdur. Bunu etmək üçün iqtisadi, siyasi islahatlar, struktur islahatları aparılır və aparılacaq.

Fövqəladə Hallar Nazirliyinin funksiyalarının biri də ondan ibarətdir ki, tikintilərdə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi işlərinə daha da böyük diqqət göstərilsin. Aparılan tikintilər keyfiyyətli olsun və insanların təhlükəsizliyi tam şəkildə təmin edilsin. Bunu etmək üçün də xüsusi avadanlıqlar alınmışdır və nazirliyin bu sahədəki fəaliyyəti daha da gücləndirilməlidir. Azərbaycan bu gün böyük bir tikinti meydançasına çevrilibdir, hər yerdə quruculuq, abadlıq, tikinti işləri aparılır, nazirliyin bu sahədəki funksiyaları daha da böyük məna daşıyır.

Baxmayaraq ki, keçən il və 2009-cu ildə dünyada iqtisadi və maliyyə böhranı hökm sürmüşdür, Azərbaycan bu çətin sınaqdan şərəflə keçmişdir, sosial müdafiə məsələləri maksimum dərəcədə həllini tapmışdır. Bütün iqtisadi layihələr və sənaye layihələri icra edilmişdir, investisiyaların qoyuluşu davam etdirilmişdir. Bir sözlə, Azərbaycan bir daha göstərdi ki, müstəqil ölkə kimi, özünü təmin edən ölkə kimi, istənilən çağırışa hazırdır. Baxmayaraq ki, dünyadakı iqtisadi və maliyyə böhranı hələ başa çatmayıb və onun nəticələri Azərbaycanda da özünü büruzə verir, uğurlu fəaliyyətimiz nəticəsində bu

böhranın fəsadları Azərbaycanda minimum səviyyəsinə endirilmişdir.

Bir sözlə, qeyd etmək istəyirəm ki, Fövqəladə Hallar Nazirliyinin yaranması, formalaşması və bugünkü uğurlu fəaliyyəti Azərbaycanın inkişafı üçün çox müsbət rol oynamışdır. İstər mülki məsələlərdə, istər təbii fəlakətlərin nəticələrinin aradan qaldırılmasında Fövqəladə Hallar Nazirliyinin fəaliyyətini biz görürük, Azərbaycan ictimaiyyəti də görür və bunu yüksək qiymətləndirir.

Mən sizi bir daha döyüş bayrağının verilməsi münasibətilə ürəkdən təbrik edirəm. Əminəm ki, bundan sonrakı illərdə də Fövqəladə Hallar Nazirliyi öz üzərinə düşən vəzifələrini şərəflə yerinə yetirəcək, nazirliyin bütün şəxsi heyəti Vətənə sədaqətlə xidmət edəcəkdir. Sağ olun.

* * *

*Mülki Müdafiə Qoşunlarının şəxsi heyəti təntənəli hərbi marşın sədaları altında Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin qarşısından keçdi.*

*Prezident İlham Əliyev hərbi hissədə yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış oldu.*

*Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov dövlətimizin başçısına məlumat verdi ki, qurum ölkədə mülki müdafiə sisteminin yaradılmasına böyük diqqət göstərir. Bu məqsədlə Mülki Müdafiə Qoşunlarının balansında olan binalarda, bu sahədə ixtisaslaşan hərbi hissələrdə dünya standartları səviyyəsində əsaslı təmir və yenidənqurma işləri aparılır. Məhz bunun nəticəsində nazirliyin fövqəladə hallarda cavab tədbirlərinin görülməsində, təbii və texnogen fəlakətlərin nəticələrinin aradan qaldırılmasında, hadisələrə çevik və operativ reaksiya verilməsində göstərdiyi səylər xarici tərəfdaşlar tərəfindən də yüksək qiymətləndirilir.*

*Dövlətimizin başçısına yaxın gələcəkdə Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Qoşunları üçün Bakıda tikiləcək hospitalın layihəsi barədə məlumat verildi. Bildirildi ki, orijinal*

*memarlıq üslubunda inşa olunacaq binada tibbin ən son yenilikləri tətbiq ediləcək və hospital müasir avadanlıqlarla təchiz olunacaqdır.*

*Prezident İlham Əliyev hərbi hissənin tibb məntəqəsində yaradılmış şəraitlə tanış oldu. Bildirildi ki, məntəqə müasir tibbi avadanlıq və bütün zəruri dərman preparatları ilə təmin edilmişdir.*

*Mülki Müdafiə Qoşunlarının üçmərtəbəli tədris korpusunda yaradılan şəraitlə tanış olan Ali Baş Komandana məlumat verildi ki, buradakı müasir sinif otaqları əyani vəsaitlər və təşviqat materialları ilə təmin edilmişdir. Məşğələlərdə zabit və əsgərlərin vətənpərvərlik ruhunun yüksəldilməsinə xüsusi diqqət yetirilir. Korpusda ixtisaslaşmış sinif otaqları ilə yanaşı, dövlət rəmzləri, hərb tariximizə dair xeyli əyani vəsait yerləşdirilmişdir. Bundan əlavə, şəxsi heyətə nazirliyin Mülki Müdafiə Qoşunlarına aid hissələrin beynəlxalq, o cümlədən ölkədə keçirilən təlimlərdə iştirakı barədə də məlumatlar verilir.*

*Siniflərdə fərdi mühafizə vasitələri və zərərsizləşdirmə qaydaları, bioloji vasitələrin yaratdığı xəstəliklər, güclü təsir-edici zəhərləyici maddələrin xassələri haqqında əyani vəsaitlər yerləşdirilmişdir. Bununla bərabər, şəxsi heyət artilleriya mərmiləri və döyüş başlıqları, təhlükəsizlik qaydaları, fuqaslı və qəlpəli piyada və tank əleyhinə minalar barədə də təlimatlandırılır.*

*Ali Baş Komandan tədris korpusunda yaradılmış Heydər Əliyev Muzeyi ilə tanış oldu. Bildirildi ki, muzeydə nümayiş olunan fotolarda ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin müxtəlif dövrlərində həyata keçirdiyi çoxşaxəli fəaliyyətinin ayrı-ayrı anları əksini tapmışdır. Dahi rəhbərin Azərbaycan tarixindəki mühüm fəaliyyəti ilə bağlı fotolar xüsusi maraq doğurur. Bu fotolarda ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə fövqəladə halların nəticələrinin aradan qaldırılması ilə bağlı həyata keçirilən fəaliyyət proqramlarının müxtəlif anları əks olunur.*

*Binanın 300 yerlik akt zalında Mülki Müdafiə Qoşunları Komandanlığının və hərbi hissənin tədbirlərinin keçirilməsi üçün hər cür şərait yaradılmışdır.*

*Mülki Müdafiə Qoşunları Komandanlığının mərkəzi aparatının yerləşdiyi bina ilə tanışlıq zamanı prezident İlham Əliyevə məlumat verildi ki, burada da əsaslı yenidənqurma işləri aparılmışdır. Binada komandanlığın və zabitlərin səmərəli fəaliyyəti üçün hər cür şərait vardır.*

*Dövlətimizin başçısı hərbi hissənin yataqxanasına baxdı. Diqqətə çatdırıldı ki, binada şəxsi heyətin istirahəti və əsgərlərin məişət şəraiti yüksək səviyyədə təşkil edilmişdir.*

*Hərbi hissənin idman kompleksi ilə tanış olan prezident İlham Əliyevə məlumat verildi ki, burada müasir məşq qurğuları quraşdırılmışdır və müxtəlif yarışlar keçirmək mümkündür. Örtülü idman zalında ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə idmanın inkişafına göstərdiyi diqqət və qayğını əks etdirən fotolardan ibarət guşə yaradılmışdır. Nazirliyin və Mülki Müdafiə Qoşunlarının idmançılarının müxtəlif yarışlarda qazandığı uğurları əks etdirən kuboklar burada nümayiş olunur. Kompleksdə trenajor, boks zalları, stolüstü tennis və bilyard bölmələri, basketbol və voleybol meydançaları vardır.*

*Sonra prezident İlham Əliyev Mülki Müdafiə Qoşunları Komandanlığının tabeliyinə verilən texniki vasitələrlə tanış oldu, xilasetmə əməliyyatlarında istifadə edilən avtomobillərə və mobil diaqnostika maşınına baxdı. Bildirildi ki, stasionar avtomobil parkı dünyanın ən qabaqcıl ölkələrinin istehsalı olan müxtəlif təyinatlı maşın və mexanizmlərlə təmin edilmişdir.*

*Prezident İlham Əliyev daha sonra yeməkxana ilə tanış oldu. Bildirildi ki, 600 nəfərlik yeməkxanada əsgər və zabitlərin keyfiyyətli qidalanması üçün hər cür şərait yaradılmışdır.*

*Dövlətimizin başçısı, Ali Baş Komandan hərbi hissədə yaradılmış şəraitdən razılığını bildirdi.*

# BEYNƏLXALQ HƏRBİ İDMAN ŞURASININ PREZİDENTİ HAMAD KALKABA MALBOUM İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 fevral 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də Beynəlxalq Hərbi İdman Şurasının prezidenti Hamad Kalkaba Malboumu qəbul etmişdir.*

*Dövlətimizin başçısı Hamad Kalkaba Malboumu Beynəlxalq Hərbi İdman Şurasının prezidenti vəzifəsinə seçilməsi münasibətilə təbrik etdi və ona fəaliyyətində uğurlar arzuladı.*

*Görüşdə Beynəlxalq Hərbi İdman Şurası ilə ölkəmizin müvafiq qurumları arasında əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## ABŞ-ın DÖVLƏT KATİBİNİN BİRİNCİ MÜAVİNİ CEYMS STAYNBERQİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 fevral 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 24-də ABŞ-ın Dövlət katibinin Birinci müavini Ceyms Staynberqin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Əvvəlcə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə ABŞ Dövlət katibinin Birinci müavini Ceyms Staynberq arasında təkbətək görüş oldu. Sonra görüş geniş tərkibdə davam etdirildi.*

*Ceyms Staynberq ABŞ-ın Dövlət katibi xanım Hillari Klintonun salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətləri, enerji sahəsində əməkdaşlıq, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması və regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı ABŞ-ın Dövlət katibi xanım Hillari Klintonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Birləşmiş Ştatların Dövlət katibinə çatdırmağı xahiş etdi.*

## GÜRCÜSTAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRİ VANO MERABİŞVİLİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 fevral 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də Gürcüstanın Daxili İşlər naziri Vano Merabişvilini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən daxili işlər orqanları arasında əməkdaşlığın uğurla inkişaf etdiyi bildirildi və əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ PİTER SEMNEBİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 fevral 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebini səlahiyyət müddətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.*

*Dövlətimizin başçısı* Piter Semnebinin *fəaliyyəti müddətində Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin inkişafına verdiyi töhfəni yüksək qiymətləndirdi və ona gələcək işlərində uğurlar arzuladı.*

*Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin hazırkı vəziyyəti, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli və bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## XOCALI FACİƏSİ QURBANLARININ XATİRƏSİNİ ANMA MƏRASİMİ

*26 fevral 2011-ci il*

*19 il əvvəl – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşəriyyət tarixində ən qanlı faciələrlə bir sırada duran Xocalı soyqırımını törətmişlər.*

*Azərbaycan paytaxtının minlərlə sakini Xocalı soyqırımının 19-cu ildönümü ilə əlaqədar anma mərasimində iştirak etmək üçün fevralın 26-da səhər tezdən Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə toplaşmışdı.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev anma mərasimində iştirak etmişdir.*

*Abidənin yanında Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsinə ehtiramını bildirdi.*

*Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva abidənin önünə gül dəstələri qoydular.*

*Mərasimdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkət rəhbərləri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri iştirak edirdilər.*

*Anma mərasiminin iştirakçıları abidənin önünə tər qızılgüllər, qərənfillər düzdülər.*

*Sonra dövlətimizin başçısı abidənin yerləşdiyi parkda görülmüş abadlıq və yenidənqurma işləri ilə tanış oldu.*

* * *

*Xocalı soyqırımının 19-cu ildönümünün qeyd olunması bir daha sübut edir ki, həmin qanlı gecədə erməni təcavüzkarlarının törətdikləri vəhşilik və cinayətin dəhşətləri yaddaşlardan heç zaman silinməyəcəkdir. Çünki Xocalıda baş verənlər təkcə Azərbaycan xalqına qarşı soyqırımı deyil, bəşəriyyət, insanlıq əleyhinə törədilmiş qanlı cinayət idi. «Böyük Ermənistan» dövləti yaratmaq kimi xəstə xülyanın əsiri olmuş erməni millətçilərinin xalqımıza qarşı törətdikləri bu növbəti kütləvi qırğın 613 nəfərin, o cümlədən 106 qadının, 63 uşağın, 70 qocanın həyatına son qoymuşdur. Bir gecədə 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini itirmişdir. Faciə zamanı 487 nəfər yaralanmış, 1275 nəfər dinc sakin əsir götürülmüşdür, 155 itkinin taleyi hələ də məlum deyildir. Soyqırımı zamanı 56 nəfər xüsusi qəddarlıqla öldürülmüş, 3 nəfər diri-diri yandırılmış, başlarının dərisi soyulmuş, bədən əzaları və başları kəsilmiş, gözləri çıxarılmış, hamilə qadınların qarnı süngü ilə deşik-deşik edilmişdi. Bu əməllərin qabaqcadan düşünülmüş qaydada, milli əlamətinə görə insanların tamamilə və ya qismən məhv edilməsi niyyəti ilə törədilməsi Xocalı faciəsinin beynəlxalq hüquqa əsasən məhz soyqırımı olduğunu təsdiq edir.*

*Hər il bu müdhiş faciənin ildönümü ölkəmizdə, dünyanın müxtəlif dövlətlərində yaşayan soydaşlarımız və digər dost xalqların nümayəndələri tərəfindən ürəkağrısı ilə qeyd olunur. Bu il dünyanın 60-dək ölkəsində Xocalı faciəsi qurbanlarının əziz xatirəsi anılır, mitinqlər, piketlər keçirilir, ermənilərin vəhşiliklərini əks etdirən fotoşəkillər, filmlər nümayiş olunur. Faciə ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun da xüsusi xidmətləri vardır. Fond Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması və erməni vəhşiliklərini əks etdirən materialların beynəlxalq təşkilatlar qarşısında nümayiş etdirilməsi məqsədi ilə xarici*

*ölkələrdə bir sıra tədbirlər həyata keçirir. Heydər Əliyev Fondu soyqırımı ilə bağlı 100-dək materialın xaricdə sərgisini təşkil etmişdir. Fondun həyata keçirdiyi «Qarabağ həqiqətləri» silsiləsi və işğal olunan ərazilərdə mədəni-tarixi abidələrin dağıdılması ilə bağlı ingilis dilində nəşr olunan kitab və bukletlər də xaricdə yayımlanmışdır. Fondun soyqırımı haqqında ingilis dilində hazırladığı film disk şəklində xarici ölkələrdə nümayiş etdirilir.*

*Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə fəaliyyətə başlamış «Xocalıya ədalət!» beynəlxalq kampaniyası uğurla davam etmiş, bu aksiyaya dünyanın əksər ölkələrində könüllülər qoşulmuşlar. Kampaniyanın əsas məqsədi Xocalı qətliamının insanlığa qarşı törədilmiş ən böyük cinayət kimi, beynəlxalq ictimaiyyət tərəfindən tanınmasıdır. Kampaniyanın eyniadlı saytının birinci səhifəsində dünya liderlərinə, beynəlxalq təşkilatlara ünvanlanan petisiyanı 150 mindən çox insan imzalamışdır.*

*BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 saylı Qətnaməsi ilə qəbul edilən və 1961-ci ildən qüvvəyə minən konvensiyada soyqırımı cinayətinin hüquqi əsası təsvir edilmişdir. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin konvensiyada təsbit edilən soyqırımı cinayətini təşkil edən bütün əməllər tətbiq olunmuşdur. Bu işğalçı ölkənin terrorçuluq siyasəti uzun illərdir dünya ictimaiyyətinin gözü qarşısında baş verir. Halbuki beynəlxalq hüquq normalarına, BMT və ATƏT-in prinsiplərinə görə dövlətlərin sərhədlərinin toxunulmazlığına hörmət edilməlidir. Ərazi bütövlüyünün və suverenliyin pozulması yolverilməzdir. BMT Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunan torpaqlarının qeyd-şərtsiz azad olunması haqqında 4 qətnamə qəbul etsə də, işğalçı Ermənistan bunları hələ ki, yerinə yetirmir.*

## QUSAR RAYONUNDA ŞAHDAĞ QIŞ-YAY TURİZM KOMPLEKSİNİN 2 NÖMRƏLİ KANAT VƏ XİZƏK ENİŞİNİN AÇILIŞI MƏRASİMİ

*27 fevral 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 27-də Qusar rayonunda Şahdağ Qış-Yay Turizm Kompleksinin 2 nömrəli kanat və xizək enişinin açılışında iştirak etmişlər.*

*Şahdağ Qış-Yay Turizm Kompleksinin inşasına 2009-cu ilin sentyabrında başlanılmışdır. Dövlətimizin başçısının Qusar rayonuna səfəri çərçivəsində bu möhtəşəm kompleksin təməlqoyma mərasimi keçirilmişdir. Prezident İlham Əliyevin birbaşa tapşırığı ilə Qusar şəhərindən 30 kilometr şimalda, rayonun Dağlıq Alayan kəndi ərazisində yerləşən Şahdağ Qış-Yay Turizm Kompleksində inşaat işləri yüksək standartlara uyğun olaraq həyata keçirilir. Tikinti işlərinin gedişinə Mədəniyyət və Turizm Nazirliyi nəzarət edir.*

*Kompleksin inşa olunduğu əraziyə gələn prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı yerli və xarici şirkətlərin rəhbərləri və nümayəndələri qarşıladılar.*

*Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev görülən işlər barədə prezident İlham Əliyevə ətraflı məlumat verdi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva kompleksin lift bazasının anbarı ilə tanış oldular.*

*Daha sonra dövlətimizin başçısı 2 nömrəli kanat yolunu sınaq məqsədi ilə işə saldı.*

*Bildirildi ki, kompleksin Baş layihəsi dünyada xüsusilə dağ-xizək mərkəzləri üzrə böyük layihələr həyata keçirən İsveçrə–Avstriya şirkəti tərəfindən hazırlanmışdır.*

*Azərbaycan prezidenti kompleksin yeni texnikaları ilə tanış oldu.*

*Qeyd edildi ki, kanat yollarının çəkilişi qış turizm kompleksinin əsas infrastrukturlarından sayılır. Kompleksin ərazisində birinci mərhələdə 9 kanat yolu çəkiləcəkdir. Bu işi də Avstriya şirkəti həyata keçirir.*

*Məlumat verildi ki, Mərkəzdə süni qardüzəltmə komplekslərinin layihələndirilməsi və süni qardüzəltmə qurğularının quraşdırılması işlərini İtaliyanın bu sahədə dünya şöhrətli «TeknoAlpen EC» şirkəti həyata keçirmişdir. Şahdağ Qış-Yay Turizm Kompleksində lazım olan qar örtüyünü təmin etmək üçün isə «T-60» markalı 69 ədəd süni qarlandırma generatorları quraşdırılmışdır. Buz generatorları xizək zolaqlarında keçirilən ilk sınaq zamanı öz səmərəliliyini göstərdi. Yaradılan şəraitlə yaxından tanış olan dövlətimizin başçısı idmanın və turizmin inkişafı istiqamətində həyata keçirilən geniş infrastruktur layihələrindən biri olan Şahdağ Qış-Yay Turizm Kompleksinin tikintisinin ölkəmiz üçün mühüm əhəmiyyət daşıdığını qeyd etdi.*

**İ l h a m Ə l i y e v:** Bu gün ölkəmizin həyatında çox gözəl və əlamətdar bir gündür. İlk dəfə olaraq Azərbaycanda dağ xizəyi kurortu fəaliyyətə başlayır. Birinci xizək trassası hazırdır və bu gün biz bu trassanın açılışını qeyd etdik. Bu doğrudan da böyük və tarixi hadisədir. Azərbaycan tarixində heç vaxt dağ-xizək kurortları olmamışdır. Biz ölkəmizi inkişaf etdiririk, müasirləşdiririk. Müstəqil Azərbaycanın bütün bölgələri inkişaf etməlidir.

Bu dağ-xizək kurortunun fəaliyyətə başlaması nəticəsində burada minlərlə yeni iş yerləri açılacaq, insanlar işlə təmin olunacaq, yaxşı maaş alacaqlar. Şimal zonasının inkişafı üçün bu kurortun çox böyük əhəmiyyəti vardır. Qusar, Quba və ətraf rayonlarda yaşayan vətəndaşlar işlə təmin olunacaqlar, burada ən yüksək xidmət təşkil ediləcəkdir. Müasir otellər, əyləncə yerləri tikilir. Bu qaldırıcılar artıq fəaliyyətə başlayır. Bir sözlə, əminəm ki, ölkə sakinləri və respublikamıza gələn qonaqlar

üçün burada ən yüksək şərait yaradılacaqdır. Biz bu turizm mərkəzini yaratmaq fikrində olarkən bir məqsədi güdürdük ki, burada tikiləcək və yaradılacaq bütün infrastruktur ən yüksək səviyyəyə cavab versin. Dünyanın ən qabaqcıl təcrübəsi öyrənildi, ən inkişaf etmiş ölkələrin dağ-xizək imkanları araşdırıldı və burada ən qabaqcıl texnologiyalar, ən gözəl təcrübə tətbiq olunur. Ümid edirəm ki, burada birinci mərhələni əhatə edən bütün işlər yaxın zamanlarda başa çatacaq və beləliklə, bu ilin sonuna qədər artıq bu gözəl kurort qapılarını insanlara, Azərbaycan sakinlərinə açacaqdır.

Mən ümid edirəm ki, gələcək illərdə buraya əlavə investisiyalar qoyulacaqdır. Birinci mərhələdə bütün investisiyalar dövlət tərəfindən qoyulur. Yollar, elektrik, qaz, su xətləri dövlət tərəfindən çəkilir. Bütün infrastruktur, birinci mehmanxana dövlət hesabına tikilir. Mən çox ümid edirəm ki, bundan sonra isə özəl sektor, investorlar və yerli iş adamları bu gözəl bölgəyə sərmayə qoyacaqlar. Burada çox müasir və böyük turizm mərkəzi yaradılacaqdır.

Bu il Azərbaycanda «Turizm ili» elan olunub və bu il Bakıda və başqa şəhər və rayonlarımızda bir neçə müasir mehmanxana istifadəyə veriləcəkdir. Onlardan biri də, bax, burada – Qusar rayonunda Şahdağ Qış-Yay Turizm Mərkəzində açılacaqdır. Gələcək illərdə isə qoyulacaq sərmayə buranı dünyanın bir nömrəli turizm mərkəzinə çevirəcəkdir. Bu reallığı biz yaratdıq.

Mən birinci dəfə burada olarkən ərazidə heç nə yox idi. Boş dağlar idi, qar idi. Bu ətrafda heç yaşayış məntəqəsi də yoxdur. Bu yeri seçməklə və xarici mütəxəssisləri bu işə cəlb etməklə biz əfsanəni reallığa çevirdik. Bu kurortun yaradılması turizmin inkişafı ilə bərabər, bir də ona görə əhəmiyyətlidir ki, müstəqil Azərbaycan böyük işlərə qadirdir. Biz qarşıya vəzifə qoyuruq və ən yüksək keyfiyyətlə, ən yüksək səviyyədə onu icra edirik.

Fürsətdən istifadə edərək, bütün Azərbaycan xalqını bu gözəl hadisə münasibətilə təbrik etmək istəyirəm. Bu gözəl Mərkəzdə fəaliyyət göstərən şirkətlərə, Azərbaycan mütəxəs-

sislərinə, inşaatçılara minnətdarlığımı bildirmək istəyirəm ki, burada işlər yüksək səviyyədə görülür. Ümidvaram ki, ilin sonuna qədər Azərbaycan vətəndaşları bu gözəl imkanlardan istifadə etməyə başlayacaqlar. Bir daha sizi təbrik edirəm.

*Dövlətimizin başçısı və xanımı istifadəyə verilən ilk kanat yolunu sınaqdan keçirdilər.*

*Sonra prezident İlham Əliyev inşaat işlərini həyata keçirən yerli və xarici şirkətlərin rəhbərləri ilə müşavirə keçirdi. Onlar layihənin icrası istiqamətində görülən və gələcəkdə həyata keçiriləcək işlər barədə dövlətimizin başçısına məlumat verdilər.*

*Şahdağ Qış-Yay Turizm Kompleksinin 2 nömrəli kanat və xizək enişinin açılışının mühüm hadisə olduğunu deyən prezident İlham Əliyev ilk dəfə ölkəmizdə dağ-xizək kompleksinin inşa edilməsini böyük uğur kimi dəyərləndirdi. Dövlətimizin başçısı bu sahəni inkişaf etdirmək və dünya səviyyəli beynəlxalq turizm mərkəzinə çevirmək üçün qarşıya qoyulan əsas işlərə artıq başlanıldığını bildirdi. Prezident İlham Əliyev kompleksin ərazisində lazımi sosial infrastrukturun və təcrübə bazalarının yaradılmasının, o cümlədən yolların genişləndirilməsinin zəruriliyini vurğuladı.*

*Azərbaycan prezidenti layihənin ikinci fazasının həyata keçirilməsi ilə bağlı inşaatçılara müvafiq tapşırıqlarını verdi.*

*Sonra dövlətimizin başçısı və xanımı layihənin növbəti mərhələlərində inşa olunacaq tikililərin maketi ilə tanış oldular.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ABDULLAH GÜLƏ**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Görkəmli ictimai-siyasi xadim Nəcməddin Ərbakanın vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Azərbaycan–Turkiyə dostluğu və qardaşlığının möhkəmlənməsi və inkişafına dəyərli töhfələr vermiş Nəcməddin Ərbakan ölkəmizdə böyük hörmət və nüfuza malik idi.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və yaxın adamlarına, bütün Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 fevral 2011-ci il*

## RUMINİYANIN «NİRO İNVESTMENT GROUP» ŞİRKƏTİNİN RƏHBƏRİ NİKOLAE DUMİTRUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 fevral 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Rumıniyanın «NİRO İnvestment Group» şirkətinin rəhbəri Nikolae Dumitrunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*«NİRO İnvestment Group» şirkətinin rəhbəri Nikolae Dumitru «Balkanlar və Avropa» jurnalı nümayəndə heyətinin üzvü olaraq «İlin adamı–2010» mükafatını dövlətimizin başçısına təqdim etmək imkanı əldə etmələrindən məmnunluğunu bildirdi. O, dövlətimizin başçısını bu mükafata dünyadakı maliyyə böhranına baxmayaraq, ölkəmizdə əldə olunan və yüksək qiymətləndirilən böyük uğurlara görə jurnalın akademiklərdən, alimlər, jurnalistlər və hüquqşünaslardan ibarət nüfuzlu münsiflər heyəti tərəfindən yekdilliklə layiq görüldüyünü qeyd etdi. Nikolae Dumitru «İlin adamı–2010» mükafatını dövlətimizin başçısına təqdim etdi.*

*Dövlətimizin başçısı «İlin adamı–2010» mükafatına görə minnətdarlığını bildirdi və «Balkanlar və Avropa» jurnalının bu qərarını ölkələrimiz arasında əlaqələrin göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev Azərbaycan ilə Rumıniya arasında əlaqələrin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyini vurğuladı. Rumıniyanın Azərbaycana ən yaxın dost dövlətlərdən biri olduğunu deyən prezident İlham Əliyev ölkələrimiz arasında imzalanan müxtəlif sənədlərin, xüsusilə strateji tərəfdaşlıq haqqında Sazişin əhəmiyyətini vurğuladı.*

## XORVATİYA ALİ MƏHKƏMƏSİNİN SƏDRİ BRANKO HRVATİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 fevral 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Xorvatiya Ali Məhkəməsinin sədri Branko Hrvatinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini bildirdi. Özünün Xorvatiyaya, Xorvatiyanın keçmiş prezidenti Stepan Mesiçin ölkəmizə səfərini xatırladan dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi. Prezident İlham Əliyev Azərbaycanın Xorvatiya ilə müxtəlif sahələrdə əlaqələri inkişaf etdirməkdə maraqlı olduğunu dedi. Dövlətimizin başçısı İlham Əliyev Xorvatiya Ali Məhkəməsinin sədri Branko Hrvatinin ölkəmizə səfərinin əlaqələrimizin inkişafı baxımından önəmli olacağına əminliyini bildirdi.*

*Ölkəmizə səfərindən məmnunluğunu bildirən qonaq hakimiyyətin mühüm qolu olan məhkəmə hakimiyyətləri arasında əlaqələr yaratmağın əhəmiyyətli olduğunu dedi. Xorvatiya Ali Məhkəməsinin sədri azərbaycanlı həmkarları ilə yaxşı əməkdaşlıq əlaqələri yarada biləcəklərinə və bunu davam etdirəcəklərinə əminliyini ifadə etdi.*

# «AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARININ 2009–2013-cü İLLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMI»NIN İCRASININ İKİNCİ İLİNİN YEKUNLARINA HƏSR OLUNMUŞ KONFRANSDA NİTQ*

*1 mart 2011-ci il*

Əziz dostlar! Bugünkü iclas dövlət inkişaf proqramının icrası ilə bağlıdır. Belə toplantılar mütəmadi qaydada keçirilir. Bildiyiniz kimi, regionların sosial-iqtisadi inkişafına dair birinci Dövlət Proqramı 2004-cü ildə qəbul edilmişdir, 2004–2008-ci illəri əhatə edirdi. Ondan sonra ikinci proqram qəbul edildi və bu gün proqramın icrası ilə əlaqədar müzakirələr aparacağıq.

Birinci proqramın qəbul edilməsi ölkəmizin inkişafında çox mühüm rol oynamışdır. Proqramın icrası nəticəsində bölgələrdə böyük quruculuq işləri aparılmışdır. Yüz minlərlə yeni iş yeri açılmış, yeni sənaye müəssisələri yaradılmışdır. Bir sözlə, regionların inkişafı və canlanması məhz proqramın qəbul edilməsi ilə bilavasitə bağlı olmuşdur. Onu da qeyd etmək istəyirəm ki, 2004–2008-ci illərdə proqrama əlavələr də,

* Азярбайъан Республикасы реэионларынын «2009–2013-ъц иллярдя сосиал-игтисади инкишафы Дювлят Програмы»нын иърасынын икинъи илинин йекунларына щяср олунмуш конфрансда Игтисади Инкишаф назири Шащин Мустафайев, Астара Район ИЩ-нин башчысы Мащир Гулийев, Балакян Район ИЩ-нин башчысы Асиф Мяммядов, Сумгайыт Технолоэийалар паркы Идаря Щейятинин цзвц Заур Мяммядов, Товуз Район ИЩ-нин башчысы Тофиг Зейналов, «Елба» Мящдуд Мясулиййятли Ъямиййятин рящбяри Елчин Рцстямов вя Саатлы Район ИЩ-нин башчысы Сирагяддин Ъаббаров чыхыш етдиляр.

düzəlişlər də edildi. Çünki sürətli inkişafımız çox böyük templərlə ölçülürdü. O illərdə orta hesabla ümumi daxili məhsul 20 faizdən çox səviyyəsində idi. Belə olan halda, büdcəyə gələn əlavə gəlirlər proqrama edilmiş düzəlişlərə öz təsirini göstərmişdir. 2004–2008-ci illəri əhatə edən proqram artıqlaması ilə icra edildi və iqtisadiyyatımızın şaxələndirilməsi işində böyük və uğurlu addımlar atıldı.

2009–2013-cü illəri əhatə edən proqram da uğurla icra edilir. Deyə bilərəm ki, qarşıda duran bütün məsələlər, bütün vəzifələr öz həllini tapır. 2009–2010-cu illər dünya tarixində maliyyə və iqtisadi böhran illəri kimi qalacaqdır. Azərbaycan iqtisadiyyatının isə bu illərdə artması xüsusi məna daşıyır. Son 2 ildə Azərbaycan iqtisadiyyatı 15 faiz artmışdır. Bu artım qəbul edilmiş regionların sosial-iqtisadi inkişaf proqramlarının icrası nəticəsində mümkün olmuşdur. Əgər biz vaxtilə regionların inkişafına böyük diqqət göstərməsəydik, çox güman ki, iqtisadiyyatımız bu gün birtərəfli iqtisadiyyat kimi özünü göstərə bilərdi. Məqsədimiz ondan ibarətdir ki, iqtisadiyyatımız çoxşaxəli olsun. Xüsusilə qeyri-neft sektorunun inkişafına böyük diqqət göstərilir. 2009–2010-cu illərdə – dünya üçün ən ağır illər ərzində iqtisadiyyatımız artmışsa, bundan sonrakı dövrdə də şübhəsiz ki, inkişafımız daha da sürətlə gedəcəkdir.

Ümumi daxili məhsulun artması çox sevindirici haldır. Amma o da vacibdir ki, iqtisadiyyatımızın hər bir sahəsi inkişaf etsin, ölkədə sənayeləşmə prosesi sürətlə getsin. Kiçik və orta sahibkarlıq inkişaf etsin. Bu məqsədlə dövlət tərəfindən atılan addımlar bəhrəsini verməkdədir. Dövlət büdcəmiz artır. 2004-cü illə müqayisədə builki dövlət büdcəmiz 12 dəfə böyükdür. Bu gün dövlət büdcəmiz 16 milyard dollar səviyyəsindədir və çox güman ki, il ərzində büdcə xərcləri daha da arta bilər. Çünki büdcədə neftin qiyməti 60 dollardan hesablanıbdır. Hazırda neftin qiyməti, demək olar ki, o rəqəmdən iki dəfə çoxdur.

Beləliklə, ölkə qarşısında duran təxirəsalınmaz məsələlər öz həllini tapır və tapacaqdır. Əminəm ki, 2013-cü ilə qədər ikinci proqramın icrası hesabına ölkə qarşısında duran əsas iqtisadi,

sosial və infrastruktur məsələləri öz həllini tapmalıdır. Hər halda, Dövlət Proqramında bütün bu məsələlər öz əksini tapıb. Əslində bu proqram ölkə iqtisadiyyatının və bütövlükdə ölkəmizin inkişafı üçün əsas sənəd kimi qəbul edilibdir. Proqramda bütün vəzifələr, icra mexanizmləri, maliyyə resursları göstərilib. İcra müddəti də vardır. Yerlərdə və dövlət qurumlarının bilavasitə iştirakı ilə proqramın tam şəkildə icrasına nail olmalıyıq. Bu məqsədlə bu gün biz proqramın keçənilki nəticələrini müzakirə edəcəyik.

2004–2008-ci illərdə Azərbaycana böyük həcmdə investisiyalar qoyulmuşdur. Çox sevindirici haldır ki, son ildə qoyulan investisiyaların böyük əksəriyyəti daxili investisiyalardır. Artıq daxili sərmayələr xarici sərmayələri üstələyir. Bu onu göstərir ki, bir tərəfdən, Azərbaycan dövlətinin gücü artıb, digər tərəfdən, investisiyaların müəyyən hissəsi özəl sektor tərəfindən qoyulur. Özəl sektor da Azərbaycanda gedən uğurlu proseslərdən bəhrələnir. Dövlət tərəfindən verilmiş sifarişləri icra edərkən özəl şirkətlər güclənir, əlavə maliyyə vəsaiti əldə edir. O vəsaiti yenidən ölkə iqtisadiyyatına investisiya şəklində qoyur və beləliklə, həm şirkətlər güclənir, həm ölkə iqtisadiyyatı üçün əlavə investisiya mənbəyi yaradılır.

Bundan sonra da dövlət xətti ilə investisiya proqramlarını icra edəcəyik. Hər il dövlət büdcəsindən böyük məbləğdə vəsait ayrılır. Amma mən çox istərdim ki, özəl sektor daha da böyük həcmdə investisiyalar qoysun, həm öz imkanlarını genişləndirsin, həm də ölkənin inkişafı üçün bunun böyük əhəmiyyəti vardır.

İnvestisiya qoyuluşu prosesi davam etdiriləcəkdir. Baxmayaraq ki, 2013-cü ilə qədər Azərbaycanda əsas infrastruktur layihələri başa çatmalıdır. Yollar, su xətləri, qazlaşdırma, elektriklə təchizat və digər infrastruktur layihələrinin hamısı Dövlət Proqramında əksini tapıb və 2013-cü ilə qədər bütün bu məsələlər tam şəkildə öz həllini tapmalıdır. Müvafiq göstərişlər verilmişdir. Ondan sonrakı illərdə yaqin, yeni sahələr də müəyyən ediləcək ki, dövlət öz tərəfindən oraya investisiya

qoyacaqdır. Biz dövlət investisiyaları üçün yeni imkanları da axtarmalıyıq, araşdırmalıyıq, həm ölkə daxilində, həm xaricdə. Bu sahədə dövlət qurumları və özəl sektor birgə fəaliyyət göstərə bilər. Necə ki, biz vaxtilə Azərbaycanda Dövlət İnvestisiya Şirkətini yaratdıq və o şirkətin vasitəsilə xaricdən və daxildən ölkə iqtisadiyyatına investtisiyaları gətirdik, eyni qaydada biz dövlət və özəl sektorların iştirakı ilə xarici ölkələrə də investisiyalar qoya bilərik. Bu həm bizim biznes maraqlarımızı təmin edəcək, həm də ki, Azərbaycanın beynəlxalq imkanlarını genişləndirəcək.

Hazırda dövlət şirkətləri və xüsusilə Dövlət Neft Şirkəti xarici ölkələrə böyük investisiyalar qoyur, artıq biz bu qapını da açdıq. Bu bizim üçün yeni bir sahə idi, heç vaxt Azərbaycan şirkətləri başqa ölkələrə böyük həcmdə investisiyalar qoymamışdılar. Biz həmişə maraqlı idik ki, xaricdən Azərbaycana investisiyalar gətirilsin. Bu gün də biz bunda maraqlıyıq. Artıq ölkəmizin inkişafı bizə diktə edir ki, yeni bazarlara çıxaq. Həm sərmayə qoyuluşu, həm müxtəlif kontraktlarda şirkətlərimizin iştirakının təmin edilməsi üçün dövlət qurumları da fəal işləməlidirlər.

Azərbaycan iqtisadiyyatına sərmayə qoyuluşu prosesi uğurla gedir. Təkcə keçən il ölkə iqtisadiyyatına 15,5 milyard dollar sərmayə qoyulmuşdur və bu çox böyük rəqəmdir. Bu il də sərmayə qoyulacaqdır. Azərbaycan xarici sərmayələrin qorunması işində böyük və uğurlu yol keçmişdir. Bu sərmayələr Azərbaycanda qorunur. Biz elə etməliyik ki, ölkəmizdə biznes mühitini daha da sağlamlaşdıraq.

Bütün bu işlərlə bərabər, biz ölkə iqtisadiyyatının uzunmüddətli və dayanıqlı inkişafını güclü sosial siyasət aparmadan təmin edə bilməzdik. Bu məqsədlə Azərbaycanda çox güclü sosial siyasət aparılır. Bu siyasət özünü müxtəlif istiqamətlərdə büruzə verir. Təkcə maaş və pensiyaların artımı ilə biz öz fəaliyyətimizi məhdudlaşdırmırıq, eyni zamanda, sosial infrastrukturun yaradılması işində böyük sərmayələr qoyulur.

Son 6-7 ildə ölkəmizdə 2 mindən artıq məktəb, 400-ə yaxın tibb müəssisəsi, 29 Olimpiya İdman Kompleksi tikilib və bu proses davam etdirilir. Bölgələrdə sosial infrastrukturun, xüsusilə səhiyyə sahəsində sosial infrastrukturun yaradılması böyük məna daşıyır və biz növbəti illərdə həm dövlət büdcəsindən, həm başqa mənbələrdən bu sahədəki fəaliyyətimizi daha da gücləndirəcəyik.

Ölkəmizin inkişafı üçün özəl sektorun möhkəmlənməsi xüsusi əhəmiyyət daşıyır. Bu sadəcə olaraq, sözlər, şüarlar deyildir. Biz gündəlik fəaliyyətdə özəl sektorun, sahibkarlığın inkişafı üçün əlimizdən gələni edirik. Mən sahibkarlarla həm Bakıda, həm bölgələrdə mütəmadi qaydada görüşürəm. Dövlət tərəfindən sahibkarlığın inkişafına çox güclü dəstək vardır. Bütün dövlət qurumları – həm mərkəzi dövlət orqanları, həm yerli icra orqanları bu sahədə sahibkarlara kömək göstərməlidirlər. Sahibkarların normal biznes mühitində fəaliyyəti ölkəmizin gələcək inkişafını təmin edəcəkdir. Biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq. Bu gün iqtisadiyyatımızın 80 faizdən çoxu özəl sektorda formalaşır.

Nəzərə alsaq ki, dövlətimizin əsas strateji resursları dövlətin inhisarındadır – neft, qaz, əsas nəqliyyat infrastrukturu, elektrik təsərrüfatı, özəl sektorun ölkə iqtisadiyyatında böyük payı doğrudan da onu göstərir ki, Azərbaycanda tam liberal iqtisadiyyat hökm sürür, bazar iqtisadiyyatı prinsipləri bərqərar olub və bu, artıq, əlbəttə, ölkənin inkişafında öz müsbət rolunu oynayır. Beləliklə, gələcəkdə sahibkarlığın inkişafı, xüsusilə orta və kiçik sahibkarlığın inkişafı üçün əlavə tədbirlər görüləcəkdir.

Azərbaycan dövləti, bir daha demək istəyirəm ki, öz tərəfindən bütün lazımi tədbirləri görür, siyasi dəstək verilir, iqtisadi vasitələrlə kömək göstərilir. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə 2004–2010-cu illərdə təxminən 700 milyon manat həcmində güzəştli kreditlər verilmişdir. O kreditlərin verilməsi, demək olar ki, özəl sektorun inkişafına çox böyük təkan verdi. Kreditlərin 80 faizi regionlara verilir. Bu da bizim siyasətimizi və niyyətimizi göstərir.

Sevindirici haldır ki, kreditlər qayıdır. Özəl sektor burada böyük məsuliyyət göstərir. Kreditlər veriləndə onlar təhlil edilir, özəl qurumların imkanları araşdırılır və o şirkətlər seçilir ki, onlar bu işə məsuliyyətlə yanaşırlar. Ancaq ola da bilərdi ki, hansısa kreditlər qayıtmasın və burada problemlər yarana bilərdi. Ancaq kreditlər qayıdıb və artıq qayıtmış kreditlərin hesabına o vəsait yenə kreditləşməyə yönəldilir. Bu il Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə özəl sektora 125 milyon manat güzəştli kredit veriləcəkdir. Beləliklə, bir neçə ildən sonra qayıdacaq kreditlərin məbləği daha da böyük olacaq və nə qədər qayıtsa, yenə də bütün o məbləğ kreditləşməyə yönəldiləcəkdir. Biz kreditləri verməklə həm özəl sektora dəstək oluruq, həm də ölkə iqtisadiyyatının inkişafına təkan veririk.

Biz dünya praktikasını yaxşı bilirik. Dünyada gedən prosesləri də izləyirik. Görürük ki, özəl sahibkarlığın inkişafı ölkələrin ümumi inkişafını təmin edir. Düzdür, Azərbaycanın zəngin neft-qaz ehtiyatları var və düşünülmüş neft strategiyamız vardır. Bu strategiya artıq öz bəhrəsini verir. İqtisadiyyatımızın şaxələndirilməsi işində bu amil, deyə bilərəm ki, çox vacib rol oynayıb. Əgər maliyyə resurslarımız olmasaydı, biz xarici maliyyə qurumlarının kreditlərinə daha çox bel bağlamış olardıq. Bəzi hallarda o kreditlərin alınmasında problemlər də yaranır. Yəni ki, enerji sektoru, neft-qaz sənayesi bizim üçün çox böyük dəstəkdir. Ancaq təkcə bu sahə inkişaf etməklə ölkə hərtərəfli inkişaf edə bilməz. Bu bizim üçün böyük maliyyə mənbəyidir, Azərbaycanın beynəlxalq mövqelərini gücləndirən amillərdən biridir.

Bu gün dünyada enerji təhlükəsizliyi məsələləri gündəliyin ön planına çıxıbdır. Bizim zəngin neft yataqlarımız, qaz yataqlarımız aşkarlanıb. Çoxşaxəli boru kəməri infrastrukturumuz vardır ki, resurslarımızı istənilən istiqamətə nəql edə bilər və əslində nəql edir. Biz artıq tam hazırlıqlı vəziyyətdəyik. Biz bütün lazımi işləri görmüşük və böyük sərmayələrin qoyuluşuna da hazırıq.

Hesab edirəm ki, bu il və ondan sonrakı illərdə Azərbaycanın energetika, neft-qaz, xüsusilə qaz sektoruna milyardlarla dollar vəsait qoyulacaqdır. Həm ölkə iqtisadiyyatı, həm də özəl sektor buna hazır olmalıdır. Sirr deyil ki, neft strategiyamızın icrası

hesabına yüzlərlə Azərbaycan şirkəti kontraktlar alıb və o imkanlardan bəhrələnibdir. O şirkətlər neft sənayesində görülmüş işlər hesabına maliyyə imkanlarını genişləndiribdir. İndi biz ikinci böyük investisiya qoyuluşunun astanasındayıq. Mən özəl sektora bildirmək istəyirəm ki, onlar da qoyulacaq bu böyük investisiyaların icrasında fəal iştirak etsinlər, xaricdən Azərbaycanın qaz sektoruna qoyulacaq pulların böyük hissəsi Azərbaycan şirkətləri tərəfindən öz həllini tapsın və Azərbaycan şirkətləri bundan bəhrələnsin.

Bununla bərabər, orta və kiçik sahibkarlığın, ölkəmizin gələcəyini müəyyən edəcək sahibkarlığın inkişafı sadəcə, biznes mühitini yaxşılaşdırmaq, yeni iş yerləri yaratmaq üçün deyildir. Sahibkarlığın inkişafı çox böyük islahat deməkdir və bu islahat Azərbaycanda uğurla aparılır. Yəni qısa müddətdə – müstəqillik dövründə biz buna nail ola bilmişik. Ancaq iqtisadi sahədə islahatlar mütləq bütün başqa sahələrdə islahatlarla tamamlanır. Biz işimizi təkcə iqtisadi islahatlarla məhdudlaşdıra bilmərik. Bu mümkün də deyildir.

Bizim niyyətimiz ölkəmizi müasirləşdirməkdir, müasir dövlət yaratmaqdır. Ona görə aparılan və aparılacaq islahatlar çoxşaxəli olmalıdır. İqtisadi islahatlar ölkə iqtisadiyyatının liberallaşmasına, güclü özəl sektorun yaranmasına gətirib çıxaracaq, insanlar daha da yaxşı yaşayacaqlar. Sosial rifah artacaq, iş yerləri, yerli sənaye yaranacaqdır. Mən yaranacaq deyirəm, əslində bu yaranıb və yaranmaqdadır. Azərbaycanda bütün azadlıqlar tam şəkildə bərqərar olunacaqdır. Sahibkarlığın inkişafı əslində ölkəmizin hərtərəfli inkişafına, müasirləşməsinə böyük təkan verir.

Bu gün Azərbaycanda sahibkarlar sinfi yaranıb. Növbəti illərdə də özəl sektorda aparılan işlərin keyfiyyətinin artırılması məsələlərinə daha da böyük diqqət göstərilməlidir. Yenə də mən qayıdıram əvvəlki sözlərimə. Azərbaycanın gələcək iqtisadi inkişafı – əgər biz uzunmüddətli gələcəyə baxırıqsa – daha çox xarici bazarlara qoyulacaq vəsaitin hesabına həll olunacaqdır. Azərbaycan bazarı müəyyən dərəcədə məhduddur. Qonşu ölkələrlə müqayisədə daha kiçikdir. Ancaq ölkə iqtisadiyyatı və ölkədə

yaranan maliyyə resursları tələb edir ki, biz xarici bazarlara çıxaq. Xarici bazarlara isə ancaq rəqabət qabiliyyətli məhsullarla çıxa bilərik. Biz çalışmalıyıq ki, nəinki xarici bazarlara çıxarmaq üçün, ölkə daxilində istehlak olunan mallar da yüksək standartlara cavab verməlidir.

Mən çox şadam ki, son illərdə bölgələrə səfərlərim çərçivəsində gördüyüm yeni müəssisələrin, açılışında iştirak etdiyim yeni fabriklərin, zavodların hamısı, demək olar ki, dünya səviyyəsinə, standartlarına uyğundur. Onlar Avropa İttifaqına daxil olmaq üçün beynəlxalq sertifikatlar alırlar. Yəni, biz bu yolla getməliyik. Bununla bərabər, hesab edirəm ki, növbəti 2 il ərzində istehlak olunan əsas məhsullar ölkədə istehsal olunmalıdır. Biz bir il bundan əvvəl bu barədə danışmışıq. Bu gün görəcəyik hansı işlər görülüb. Hələ ki, daxili bazarı 100 faiz təmin edə bilmirik, ancaq biz buna çalışmalıyıq.

Bütün ölkələr bir-biri ilə bağlıdır. Azərbaycan dünya iqtisadiyyatının bir parçasıdır. Ancaq biz onu da görürük ki, baş verən proseslər, hadisələr, istər siyasi müstəvidə, istər iqtisadi sahədə, kənd təsərrüfatı sahəsində dünyanın müxtəlif yerlərində, müxtəlif qitələrdə baş verən təbii fəlakətlər də reallıqdır. 2-3 il bundan əvvəl biz bunların bəlkə də 10 faizini görürdük. Nadir hallarda baş verirdi. İndi isə, demək olar ki, hər ay haradasa ya daşqın, ya sel, ya yanğın baş verir. Özü də mövsümdən, coğrafi yerləşmədən asılı olmayaraq. Bu istər-istəməz kənd təsərrüfatı istehsalına təsir göstərir. Biz müəyyən dərəcədə – mən ərzaq məhsullarını nəzərdə tuturam – xarici idxaldan asılıyıq. Əgər belə narahatedici məqamlar olmasaydı, biz bu barədə bəlkə də söhbət açmazdıq. Nəyi istehsal ediriksə edirik, nəyi istehsal edə bilmiriksə, xaricdən alırıq.

İndi xarici bazarlarda neftin qiyməti 110 dolları ötübdür. Bəziləri Azərbaycanda buna sevinə bilərlər. Amma burada sevinmək üçün heç bir əsas yoxdur. Neftin 100 dollardan çox olan qiyməti böyük problemlər yaradacaqdır. O cümlədən bizim üçün də problemlər yarada bilər. Hələ ki, biz müəyyən dərəcədə idxaldan asılıyıq. Neftin bahalaşması istehsal olunan bütün başqa məhsulların

bahalaşmasına gətirib çıxaracaq və o məhsullar Azərbaycana idxal ediləndə artıq onun qiyməti daha da yüksək olacaqdır. İndi siyasi proseslər belə cərəyan edir ki, gələcək inkişafı, dünyada gedən prosesləri proqnozlaşdırmaq bir qədər çətindir. Ona görə biz öz ərzaq təhlükəsizliyimizi tam şəkildə təmin etməliyik. Necə ki, enerji təhlükəsizliyimizi artıqlaması ilə təmin etmişik. Bu gün Azərbaycan başqa ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır və bu rol daha da artacaqdır. Nəqliyyat təhlükəsizliyini təmin edirik. Bu gün bütün yollar Azərbaycandan keçir. Bizim coğrafi vəziyyətimiz belədir. Biz güclü nəqliyyat infrastrukturu yaradırıq. Bizə həm əlavə iqtisadi, həm də siyasi dividendlər gətirir. Azərbaycanda ərzaq təhlükəsizliyi də mütləq təmin edilməlidir. Bu barədə biz bu gün danışacağıq.

Biz sadəcə olaraq, hansısa qısamüddətli inkişaf planının icrası ilə deyil, ölkəmizin uzunmüddətli strategiyasının hazırlanması ilə məşğuluq. Bu gün, 10 ildən, 20 ildən sonra nələr baş verəcək? Azərbaycan hər bir çağırışa, hər bir vəziyyətə hazır olmalıdır. Biz dünyada gedən prosesləri izləyirik. Azərbaycan bu gün regionun sabitliyi, iqtisadi və siyasi sabitliyin möhkəmləndirilməsi üçün çox mühüm ölkəyə çevrilibdir. Bu gün Azərbaycan regional faktor kimi, dünya tərəfindən qəbul edilir, təsir imkanları artır. Ölkədə hökm sürən ictimai-siyasi sabitlik bu reallıqlara çatmaq üçün mühüm rol oynamışdır. Eyni zamanda, islahatlar, ölkəmizin liberallaşması, xoşagəlməz hallara qarşı ciddi mübarizə bizim strateji xəttimizdir.

## YEKUN NİTQİ

Bu gün İqtisadi İnkişaf naziri görülmüş işlər haqqında geniş məlumat verdi. Dörd rayonun icra hakimiyyətinin başçıları, iş adamları çıxış etdilər. Şübhə yox ki, əgər bütün icra hakimiyyəti başçılarına bu gün söz verilsəydi, onlar da görülmüş işlər haqqında

danışardılar. Çünki ölkəmizin bütün bölgələrində sürətli inkişaf gedir. Vaxt məhdudluğundan belə imkan yoxdur. Azərbaycanda görülən işlər haqqında mən təkcə bu məlumatlardan istifadə etmirəm. Mütəmadi qaydada bölgələrdə oluram. Elə rayon yoxdur ki, oraya mənim səfərim olmasın və hər dəfə də görülmüş işlərlə tanış oluram, əlavə göstərişlər verirəm. Sonrakı dəfə həmin rayona gələrkən yenə görülmüş işlərlə tanış oluram, verilmiş tapşırıqların necə yerinə yetirilməsi ilə maraqlanıram. Yəni daim bu proses getməlidir, gedir və dövlət nəzarəti yüksək səviyyədə təşkil olunur.

Ölkəmizin bütün bölgələrində inkişaf var. Bu, artıq dönməz prosesə çevrilibdir. Bizim proqramımız bütün rayonların inkişafını əhatə edir, bu gün hələ ki, həllini gözləyən məsələlər növbəti illərdə öz həllini tapacaqdır. Elə etməliyik ki, 2013-cü ilə qədər, ikinci Dövlət Proqramı başa çatanda qarşıda duran bütün vəzifələr icra edilsin. Əgər ikinci Dövlət Proqramı tam şəkildə icra olunarsa, ölkənin qarşısında duran əsas iqtisadi, infrastruktur və sosial məsələlər öz həllini tapmış olar.

2011-ci ilin sonuna qədər proqramda nəzərdə tutulmuş bütün vəzifələr icra edilməlidir. İnvestisiya qoyuluşu davam etdiriləcəkdir, sosial infrastrukturun yaradılması prosesi davam etdiriləcək, məktəblər, tibb müəssisələri, idman kompleksləri tikiləcəkdir. Yol tikintisinə diqqət göstəriləcəkdir. Demək olar ki, əsas magistral yollarımız – artıq orada gedən tikinti işləri ya başa çatıb, ya başa çatmaq üzrədir – Azərbaycanı bütün qonşu ölkələrlə birləşdirən yollar yaxın zamanlarda tam şəkildə hazır olacaq və beləliklə, ölkəmizin inkişafı üçün çox vacib olan məsələ öz həllini tapacaqdır.

Bu gün Astara və Tovuz rayonlarının icra hakimiyyətinin başçıları kənd yollarının tikintisi haqqında məlumat verdilər. Bu yolların tikintisi xüsusi tapşırıq əsasında yerinə yetirilir, prezidentin ehtiyat fondundan vəsait verilib və orada yollar çəkilir. Bu yolların çox böyük əhəmiyyəti var, on minlərlə Azərbaycan vətəndaşının yaşadığı onlarca kəndi birləşdirir və bu proses daha da sürətlə getməlidir. Nəinki Tovuzda və Astarada, başqa rayonlarda da buna oxşar layihələr icra edilir. Bir müddət əvvəl

Qusar rayonunda bir neçə kəndi birləşdirən yol istismara verilmişdir. İndi o yolun davam etdirilməsi layihəsi icra olunur. Sabirabadda seldən əziyyət çəkmiş kəndləri birləşdirən yollar çəkilir. Başqa rayonlarda da. Bu il və gələn il kənd yollarının tikintisi üçün dövlət büdcəsində əlavə vəsait nəzərdə tutulmalıdır. Onun bir hissəsi yəqin ki, prezidentin ehtiyat fondundan ayrılacaq, əsas hissəsi isə dövlət büdcəsində nəzərdə tutulmalıdır. Elə etməliyik ki, növbəti 2 ildə Azərbaycanda əsas kənd yolları normal səviyyəyə cavab versin. Xüsusilə o yollar ki, bir neçə kəndi və böyük sayda əhalini birləşdirir. 2004–2010-cu illərdə ölkəmizdə 5 min 200 kilometr yol çəkilibdir və bu proses, yenə də deyirəm, davam etdirilməlidir. Hələ görüləsi işlər çoxdur.

Əlbəttə ki, bölgələrin hərtərəfli inkişafını təmin etmək üçün digər infrastruktur layihələri də icra olunmalıdır və olunur. Son illərdə ölkəmizdə 10 elektrik stansiyası tikilmişdir. Bu gün biz nəinki özümüzü elektrik enerjisi ilə təmin edirik, böyük həcmdə ixrac da edirik. Azərbaycan bütün qonşu ölkələrə – Rusiyaya, İrana, Türkiyəyə, Gürcüstana elektrik enerjisi ixrac edir. Belə imkanlar var və bu onu göstərir ki, görülmüş işlər öz bəhrəsini verir. Azərbaycan neft-qaz və indi də elektrik enerjisinin ixracı ilə məşğuldur. Vaxt var idi bölgələrimizə elektrik enerjisi fasilələrlə verilirdi. Artıq o dövr tarixdə qaldı. Biz yeni gücləri yaratdıq. Hazırda biz alternativ enerji mənbələrinin tikintisi ilə məşğuluq. Azərbaycanda bərpa olunan enerji mənbələrindən istifadə xüsusi diqqət altındadır və artıq ilkin işlər başlanılmışdır. Ümid edirəm ki, 2011-ci ildə su elektrik stansiyalarının tikintisi davam etdiriləcək və günəş batareyalarının quraşdırılması prosesi daha da sürətlə gedəcəkdir.

Bütün ölkədə qazlaşdırma prosesi gedir. Vəzifə qoyulubdur ki, bu il və gələn ilin sonuna qədər qazlaşdırma ilə bağlı bütün məsələlər öz həllini tapsın və ölkə əhalisinin 90–95 faizi təbii qazla təmin edilsin. Nəzərə alsaq ki, Azərbaycanda qazın qiyməti, elektrik enerjisinin qiyməti dövlət tərəfindən tənzimlənir – qazın qiyməti qonşu ölkələrlə müqayisədə bir neçə dəfə aşağıdır və sabit olaraq qalacaqdır – qazlaşdırma prosesi eyni zamanda, böyük

sosial məna daşıyır. Qazlaşdırmaya qoyulan vəsait qazın istehlakından əldə olunan vəsaitə bərabər deyil, yəni qazlaşdırma prosesi biznes, ya da kommersiya xarakteri daşımır. Bu, sırf sosialyönümlü təşəbbüsdür. Biz bunu etməliyik. Çünki hər bir bölgəmiz, kəndimiz qaz almalıdır. Azərbaycan bu gün qazı dünya bazarlarına ixrac edir, əlbəttə ki, ölkə daxilində maksimum dərəcədə təbii qazla təminat təşkil olunmalıdır.

İçməli su və kanalizasiya layihələri bu gün gündəliyimizdə duran məsələlərdən biridir. Çox vacib məsələdir. Nəzərə alsaq ki, qazlaşdırma sahəsində və elektrik enerjisi ilə təchizat sahəsində böyük uğurlar əldə olunub, mən ümid edirəm ki, bu sahədə də bu il biz ciddi dönüşü görəcəyik. Hazırda beynəlxalq maliyyə qurumları ilə aparılmış danışıqlar öz nəticələrini verməkdədir. Bəzi bölgələrdə içməli su, kanalizasiya layihələrinin icrası başlanılmışdır, bəzi bölgələrdə hələ hazırlıq işləri gedir. Mən rayonlarda olarkən birinci növbədə maraqlanıram ki, içməli su, kanalizasiya layihəsi necədir, başlanıbdır, yoxsa yox. Harada ki, ləngimələr var, oraya xüsusi diqqət göstərilməlidir ki, ən uzağı 2012-ci ilin sonuna qədər hər bir rayon mərkəzində bu layihələr başa çatsın. Yaxşı olar ki, daha da tez başa çatsın. Çünki maliyyə məsələlərinin əksər hissəsi öz həllini tapıbdır, gərək yerlərdə işlər daha çevik təşkil olunsun.

Meliorasiya ilə bağlı məsələlər öz həllini tapır. Xüsusilə taxılçılığın inkişafı üçün yeni əkin sahələrini müəyyən etməliyik, suvarma məsələlərinin vacibliyi daha da artır. Son illərdə bu sahədə müəyyən işlər görülmüşdür. Hazırda tikilməkdə olan Şəmkirçay su anbarı başa çatandan sonra on minlərlə hektar torpaq sahəsi suvarılacaq və beləliklə, kənd təsərrüfatının inkişafı üçün əlavə imkanlar yaradılacaqdır. Digər layihələr də icra edilir və biz elə etməliyik ki, əkin sahələrinin ərazilərini genişləndirək.

Kənd təsərrüfatının intensiv şəkildə inkişafı ən vacib məsələdir. Gərək reallıqlara da diqqətlə yanaşaq. İntensiv metodları nə qədər tətbiq etsək belə, yenə də yeni əkin sahələrinin dövriyyəyə çıxarılması məsələləri öz aktuallığını itirməyəcəkdir. Bir müddət əvvəl mənim tərəfimdən verilmiş göstərişlər indi icra edilir.

Taxılçılıq üzrə böyük fermer təsərrüfatlarının yaradılmasına başlamalıyıq. Hazırda müvafiq dövlət qurumları yeni sahələri müəyyən edirlər. Hesab edirəm ki, məsələyə kompleks şəkildə yanaşmalıyıq. Təkcə o yerləri müəyyən etməklə kifayətlənməməliyik. Bütün infrastruktur yaradılmalıdır, ilk növbədə suvarma, digər infrastruktur layihələri, texnika, gübrələr, toxumlar və sair. Saatlı Rayon İcra Hakimiyyətinin başçısı məlumat verdi ki, rayonda 9 min hektar yeni sahə müəyyən edilibdir. Çox yaxşı göstəricidir. Hesab edirəm ki, bütövlükdə ən azı 100 min, bəlkə də 200 min hektar yeni torpaq sahəsini əkin üçün dövriyyəyə çıxarmalıyıq.

Beləliklə, ərzaq təhlükəsizliyimizin əsas sahəsi olan taxılçılığı inkişaf etdirəcəyik və özümüzü təmin etmək üçün bunun çox böyük rolu olacaqdır. Bildiyiniz kimi, kənd təsərrüfatının inkişafı üçün kompleks tədbirlər görülür. Texnikalar alınır, lizinqə verilir, aqroservislər yaradılır, subsidiyalar verilir, güzəştli şərtlərlə gübrələr, yanacaq verilir və sair. Maldarlığın inkişafı üçün də tədbirlər görülür. Cins mal-qara gətirilir. Bu yaxınlarda yenə də əlavə vəsait ayrıldı ki, xaricdən cins mal-qara alınsın və kənd təsərrüfatı hərtərəfli inkişaf etsin.

Hesab edirəm ki, taxılçılıqla bərabər, üzümçülüyün inkişafına da xüsusi diqqət göstərməliyik. Vaxtilə Azərbaycanda ulu öndər Heydər Əliyevin səyləri və təşəbbüsü nəticəsində üzümçülük çox sürətlə inkişaf etmişdi. O, 1969-cu ildə Azərbaycana rəhbərliyə gələndə üzüm istehsalı 300 min ton idi. Onun dövründə bu rəqəm 2 milyon tona qalxmışdı. Bu həm Azərbaycanın inkişafına xidmət edirdi, həm də insanların rifah halının yaxşılaşdırılmasına çox müsbət təsir göstərmişdi.

Kənddə yaşayan insanlar üzümçülüyün inkişafı sayəsində özlərinin həyat səviyyəsini xeyli yüksəldə bilmişdilər.

Hazırda Azərbaycanda üzüm istehsalı 120 min ton səviyyəsindədir. Əlbəttə ki, bunun da səbəbləri vardır. Ötən əsrin 80-ci illərinin sonlarında Sovet İttifaqının rəhbərləri antialkoqol kampaniyasına başlamışdılar və bu kampaniyanın ən böyük ziyanı və zərbəsi Azərbaycana dəymişdi. Azərbaycanda bütün üzüm

bağlarını məhv etdilər, insanları pis vəziyyətə qoydular, onlar gəlir mənbələrindən məhrum oldular. Azərbaycanda böyük zəhmət hesabına yaradılmış üzümçülük, demək olar ki, tamamilə məhv edildi. Biz yaxşı bilirik ki, burada da Azərbaycana və azərbaycanlılara qarşı ayrı-seçkilik tətbiq olundu. Üzüm istehsalı təkcə Azərbaycanda inkişaf etmirdi. Digər respublikalarda üzümçülüyün inkişafına o qədər də böyük ziyan vurulmadı. Ukrayna, Gürcüstan, Ermənistan, Moldova – bu respublikalarda da üzümçülük inkişaf edirdi. Yəni oralarda bu, Azərbaycandan daha da əvvəl ənənəvi xarakter daşıyırdı. Ancaq o respublikalarda üzüm bağları məhv edilmədi. Azərbaycana qarşı qərəzli münasibət ona gətirib çıxardı ki, burada üzümçülüyün kökü kəsildi.

Bu münasibəti 1988-ci ildə də gördük. Sovet İttifaqının rəhbəri və rəhbərliyi erməni millətçilərinin başladığı oyunlara qoşulmuşdur və Dağlıq Qarabağ münaqişəsinin başlanmasında faktiki olaraq Sovet İttifaqının rəhbərlərinin fəaliyyəti həlledici rol oynamışdır. Azərbaycana və azərbaycanlılara qarşı tarix boyu ədalətsizliklər, qərəzli münasibət olmuşdur. Biz həmişə ikili standartlarla üzləşmişik, bu gün də üzləşirik. Bu siyasəti Sovet İttifaqı rəhbərliyindən – xüsusilə 80-ci illərin sonlarında görürdük. Bu, bir şeyi göstərir ki, biz daha da güclü olmalıyıq, öz siyasətimizi inamla aparmalıyıq, Azərbaycan xalqının gözəl gələcəyini təmin etməliyik, öz gücümüzə güvənməliyik, arxalanmalıyıq və ölkəmizi Azərbaycan xalqının iradəsi ilə idarə etməliyik. Azərbaycanın bugünkü reallıqları onu göstərir ki, bu işdə biz böyük və tarixi nailiyyətlərə çata bilmişik. Azərbaycan müstəqil dövlət kimi güclənir, möhkəmlənir. Azərbaycan müstəqil dövlət kimi, öz müstəqil siyasətini aparır. Bizim müstəqil siyasət aparmağımızdan kiminsə xoşu gəlmir, kimisə qıcıqlandırır və istər-istəməz, müxtəlif yollarla, bəzi hallarda təxribat xarakterli yollarla Azərbaycana təzyiq etmək cəhdləri də olur. Səbəbi də məhz ondadır ki, biz müstəqil siyasət aparırıq və Azərbaycan xalqının maraqları bizim üçün hər şeydən üstündür.

Bu, tarixi bir məqamdır. Biz bunu yadda saxlamalıyıq.

Ola bilər ki, üzümçülüyün inkişafı üçün xüsusi bir proqram da qəbul edək. Maliyyə resurslarını da cəlb edək, xüsusi proqram çərçivəsində üzümçülüyün inkişafına lazım olan bütün tədbirləri görək. Hamı yaxşı bilir ki, üzümçülüyün inkişafı uzun bir prosesdir. Bir ilə, 2-3 ilə verilən kreditlər hesabına üzümçülüyün inkişafını irəliyə apara bilmərik. Burada uzunmüddətli kreditlər haqqında fikirləşməliyik. Bəlkə əlavə bir vəsait də ayrılsın, yaxud üzümçülüyün inkişafı üçün xüsusi bir fond da yaradıla bilər ki, orada uzunmüddətli, misal üçün, 10 ilə veriləcək kreditlər təşkil olunsun, sahələr müəyyən edilsin. Böyük fermer təsərrüfatlarının yaradılması, inkişafı üçün səylər göstərilsin. Hər halda, İqtisadi İnkişaf Nazirliyi bu məsələlərlə bağlı hazırlıq işlərini görsün və yaxın zamanlarda məruzə etsin.

Toxumçuluğun inkişafına da böyük diqqət göstərməliyik. Hazırda bu istiqamətdə işlər başlanıbdır. Mən bu yaxınlarda böyük toxumçuluq zavodunun fəaliyyəti ilə tanış olmuşdum və bu sahədə böyük perspektivlər var. Həm gəlirli sahədir, həm də bizim üçün lazım olan sahədir. Biz özümüzü toxumla təxminən 30 faiz təmin edə bilərik. Elə etməliyik ki, 100 faiz səviyyəsində təmin edək. Bu məqsədlə ya mövcud olan zavodların fəaliyyəti genişləndirilməlidir, ya yeni zavodlar tikilməlidir, yaxud da hər iki iş bərabər, paralel şəkildə aparılmalıdır. Bu, kənd təsərrüfatının inkişafı üçün çox vacib sahədir.

Sahibkarlığın inkişafı üçün yaradılmış fondun xətti ilə son vaxtlar soyuducu anbarların tikintisinə müəyyən vəsait ayrılmışdır və biz bu təşəbbüsün gözəl nəticələrini dərhal görürük. Bütün bölgələrdə soyuducu anbarlar tikilibdir. Yəqin ki, növbəti illərdə yeni anbarlar da tikilməlidir. Ancaq hazırda biz bu gözəl təşəbbüsün nəticələrini görürük. Yığılan məhsullar orada saxlanılır, xarab olmur. Bundan həm fermerlər bəhrələnirlər, həm də ölkə vətəndaşları. Çünki istehlak qiymətlərinin normal səviyyədə saxlanılmasına imkan yaradır. Növbəti illərdə bu sahəyə yenə də diqqət göstərilməlidir. Azərbaycanda 1-2 il ərzində heç vaxt bu səviyyədə müasir soyuducu kombinatlar, soyuducu anbarlar tikilməmişdir. Taxıl anbarları da tikilibdir. Ehtiyac olarsa,

Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə əlavə kreditlər də verilə bilər. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə 125 milyon manat vəsait veriləcəkdir. Bu vəsait yeni iş yerlərinin yaradılmasına kömək göstərəcək və biz yenə də yerli istehsalın stimullaşdırılmasına öz dəstəyimizi verəcəyik.

2004-cü ildən başlayaraq, ölkəmizdə 900 mindən artıq yeni iş yeri açılmışdır və deyə bilərəm ki, yoxsulluğun səviyyəsinin kəskin şəkildə aşağı düşməsində bu proqramın böyük rolu olmuşdur. 2010-cu ilin yekunlarına görə, Azərbaycanda yoxsulluğun səviyyəsi 9,1 faiz təşkil edir. Əgər əvvəlki illərdəki 39–44 faizlə müqayisə etsək, bu, böyük nailiyyətdir. Ancaq 9,1 faiz də çoxdur. İnkişaf etmiş ölkələrdə yoxsulluğun səviyyəsi bundan da artıq olur. Onu da qeyd etməliyik ki, burada biz statistika ilə gərək ədalətli rəftar edək, orada meyarlar, əlbəttə ki, daha da yüksəkdir. Orada yoxsul hesab olunan, burada yoxsul hesab edilmir, bu da var. Ona görə bir halda ki, biz ölkəmizi müasirləşdiririk və strateji xəttimiz güclü dövlət yaratmaqdır, gərək bütün meyarları bilək. İnkişaf etmiş ölkələrin meyarlarını bilirik. Hədəfimiz ondan ibarətdir ki, biz də inkişaf etmiş ölkəyə çevrilək. Hesab edirəm ki, Avropa İttifaqına üzv olan ölkələrin təcrübəsi daha da dərindən öyrənilməlidir. Məncə Avropa İttifaqının təcrübəsi dünyada ən qabaqcıl təcrübədir və orada istər iqtisadi sahədə, istər sosial müdafiə sahəsində, siyasi islahatlar sahəsində mövcud olan meyarlar ən yaxşı səviyyədədir. Biz o təcrübəni öyrənirik və öyrənməliyik ki, Azərbaycanda da bütün meyarlar inkişaf etmiş ölkələrdəki səviyyədə olsun.

Azərbaycanda Gübrə zavodunun tikintisinə başlamalıyıq, bəlkə də buna çoxdan başlamalıydıq. Müəyyən araşdırmalar aparılırdı, müəyyən variantlar təhlil edilirdi. Bu il bizə lazım olan və tələbatımıza hesablanmış müasir gübrə zavodu tikilməlidir. Bu məsələ ilə bağlı müvafiq göstərişlər verilibdir və hesab edirəm ki, bu zavodun kənd təsərrüfatının inkişafına böyük təsiri olacaqdır. Ölkədə istehsal edilən məhsullar yüksək keyfiyyətə malik olmalıdır. Kənd təsərrüfatı sahəsində emal müəssisələri yaradılır. Onların böyük əksəriyyəti, hazırda yaradılan müəssisələr dünya

səviyyəsinə cavab verir. Elə etməliyik ki, ən qabaqcıl texnologiyalar tətbiq olunsun ki, sonra xarici bazarlara çıxmaq üçün problemlər yaranmasın. Hazırda bizim üçün əsas bazarlar qonşu ölkələrin bazarlarıdır. Bu bazarlar böyükdür və bizim üçün çox məqbuldur, əlverişlidir – həm məsafə baxımından, həm də o bazarlara daxil olmaq üçün bizim qarşımızda heç bir problem yoxdur. Biz bütün qonşularla yaxşı, işgüzar münasibətlər qurmuşuq və bu, biznes sahəsində də öz müsbət təsirini göstərir. Elə məhsul istehsal etməliyik ki, dünyanın istənilən nöqtəsində satıla bilsin. Azərbaycanda kənd təsərrüfatı məhsullarının keyfiyyəti çox yüksəkdir və başqa ölkələrlə müqayisədə onlar təbiidir. İndi buna dünyada «orqanik», yəni bizim dilimizdə desək, «təbii» deyirlər. Gübrəsiz, kimyəvi maddələrdən təmiz və dadlı məhsullardır. Xaricdən gələnlər Bakıda bizim tərəvəzi, meyvələri yeyərkən başa düşürlər ki, əsl meyvə-tərəvəz necə olmalıdır. Bu bizim böyük üstünlüyümüzdür və ekoloji cəhətdən təmiz məhsullarla dünya bazarlarına çıxa bilərik. Emal müəssisələri, paketləmə – bu gün Şahin Mustafayev bu barədə dedi – və müasir yanaşma olmalıdır. Bu bizim böyük sərvətimizdir, bundan səmərəli şəkildə istifadə etməliyik.

Xarici bazarlara çıxmaq üçün, əlbəttə, dövlət öz dəstəyini verməlidir və verir. Mən xarici səfərlərə gedərkən bir çox hallarda özümlə iş adamlarından ibarət böyük qrup da aparıram. Orada biznes-forumlar da keçiririk ki, bizim üçün tərəfdaş olan ölkələrdə Azərbaycan biznesini təbliğ edək, onlar üçün şərait yaradaq. Onlar da bu ölkələrdə, başqa ölkələrdə aparılan tenderlərdə iştirak etməlidirlər və indi iştirak edirlər. Bəzi ölkələrdə bizim şirkətlərimiz işləyir. Mənim həmkarlarım, digər ölkələrin dövlət başçıları onların fəaliyyəti haqqında mənə məlumat verirlər. Çox şadam ki, bizim şirkətlərin fəaliyyəti müsbətdir və o ölkələrdə ictimai rəy də bunu müsbət qarşılayır.

Xarici ölkələrdə Azərbaycan evlərinin, Azərbaycan Ticarət evlərinin yaradılması məsələləri də müzakirə olunur. Mən hesab edirəm ki, inkişaf etmiş ölkələrin əsas şəhərlərində Azərbaycan Evləri yaradılmalıdır. Bunu etmək üçün indi xüsusi plan hazırlanır.

Bu işlərdə Azərbaycan Dövlət Neft Fondunun vəsaiti də öz rolunu oynamalıdır. Xüsusilə nəzərə alsaq ki, Neft Fondunun vəsaitinin xərclənməsinin şaxələndirilməsi üçün müəyyən təkliflər vardır. Bu vəsaitin bir hissəsi daşınmaz əmlaka da qoyula bilər ki, orada həm gəlir daha çox olacaq, həm də ki, biz bütün aktivlərimizi bir maliyyə alətində saxlaya bilmərik. Yəni vəsait Neft fondundan gələ bilər və inkişaf etmiş ölkələrin aparıcı şəhərlərində mərkəzi yerlərdə Azərbaycan Ticarət, Mədəniyyət evlərinin yaradılması prosesi başlanmalıdır. Bu il işə başlamalıyıq. Müəyyən yerlər seçilsin, bu həm ticarət nöqteyi-nəzərindən səmərəli təşəbbüs olacaqdır, Azərbaycan öz imkanlarını daha da açıq şəkildə nümayiş etdirəcəkdir. Xarici ölkə vətəndaşlarına Azərbaycan haqqında dolğun və dəqiq məlumat çatdırılacaq və həm də bizim təbliğat mexanizmlərimizdən biri olacaqdır. Dövlət Neft Fondunun vəsaitinin bir hissəsini bu işlərə yönəltməklə biz fondun vəsaitini daşınmaz əmlaka da qoymuş olacağıq. Bu təşəbbüsü reallaşdırmaqla biz bir neçə məqsədi təmin edəcəyik.

Kənd təsərrüfatında yararlı torpaqlardan təyinatı üzrə istifadə olunmalıdır. Mərkəzi və yerli icra hakimiyyəti orqanları, bələdiyyələr bu torpaqlardan səmərəli istifadəni təmin etməlidir. Bu sahədə qanun pozuntularına yol verənlər ciddi şəkildə cəzalandırılacaqlar. Kənd təsərrüfatı istehsalını stimullaşdırmaq üçün subsidiyalar verilir və bu prosedur sadələşdirilməlidir. Buna böyük ehtiyac var. Ərzaq təhlükəsizliyini təmin etməliyik və inhisarçılığa qarşı daha da ciddi mübarizə aparılmalıdır. Hazırda bu mübarizə lazımi səviyyədə deyil. Ərzaq təhlükəsizliyi ilə bağlı biz elə etməliyik ki, ölkəmizdə lazımi səviyyədə istehsal olunmayan ərzaq məhsullarının inkişafı üçün və yeni müəssisələrin yaradılması üçün əlavə tədbirlər görülsün. Mənə verilən bəzi rəqəmlər onu göstərir ki, məhsullarla özümüzü təmin edirik, amma bəzi hallarda daha çox idxaldan asılıyıq. Misal üçün, Azərbaycanda 93 faiz ət istehsal olunur, demək olar ki, burada vəziyyət yaxşıdır. Quş əti istehsalı artıbdır, hazırda özümüzü 80 faiz səviyyəsində təmin edirik. Süd və süd məhsullarının 85 faizi Azərbaycanda istehsal olunur. Amma bitki yağına, kərə yağına

gəldikdə, daha çox idxaldan asılıyıq. Şəkərlə özümüzü 150 faiz təmin edirik, ixrac da edirik. Ona görə o sahələrdə ki, biz idxaldan asılı deyilik, orada qiymətin süni artımına yol vermək olmaz.

Mən giriş sözümdə qeyd etdim ki, neftin bahalaşması istər-istəməz idxal olunan ərzaq mallarının bahalaşmasına gətirib çıxaracaqdır. Bununla mübarizə aparmaq çətindir. Amma Azərbaycanda istehsal olunan kənd təsərrüfatı, ərzaq məhsullarının süni şəkildə bahalaşması yolverilməzdir. Bunu edənlər məsuliyyətə cəlb olunmalıdır və İqtisadi İnkişaf Nazirliyi, digər qurumlar istehlak mallarının qiymətlərinə ciddi nəzarət etməlidir. Həm inzibati tədbirlər görməliyik, həm də inhisarçılıqla mübarizə aparmalıyıq. Bu sahədə işlər daha da sürətlə getməlidir. Bostan məhsulları, meyvə-tərəvəzlə özümüzü 100 faiz, ondan da artıq təmin edirik.

Ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması üçün əlavə tədbirlər görülməlidir. Hazırda bütövlükdə vəziyyət müsbətdir, ancaq çatışmayan cəhətlər də var. Azərbaycanda biznes mühiti inkişaf etmiş ölkələrin səviyyəsində olmalıdır. Orada necədirsə, burada da elə olmalıdır. Biz onların təcrübəsini bilirik və burada da eyni təcrübəni tətbiq etməliyik. Biznes mühitinin yaxşılaşdırılması üçün bütün dövlət qurumları daha da fəal işləməlidir, bütün nöqsanlar aradan qaldırılmalıdır.

Ölkəmizdə biznesin inkişafı, yeni müəssisələrin yaradılması prosesi sürətlə gedir və əlbəttə ki, yeni müəssisələrdə peşəkar kadrlar işləməlidir. Bu barədə bu gün Sumqayıt Texnoparkının nümayəndəsi öz çıxışında qeyd etdi. Tamamilə düzgün fikirdir. Azərbaycanda peşəkar kadrların hazırlanması prosesi daha da sürətlə getməlidir. Bu barədə müvafiq göstərişlər verilib, Təhsil Nazirliyi bu işlə məşğuldur. Texniki peşə məktəblərinin tikintisi və onların müasir səviyyəyə çatdırılması prosesi daha da sürətlə getməlidir. Bununla bərabər, müxtəlif qurumlar tərəfindən kurslar da təşkil olunmalıdır. Bizə həm texniki mütəxəssislər lazımdır, həm də menecerlər lazımdır. İndi xarici şirkətlərdə hər şeyi idarəçilik təmin edir. Bu gün bir adam bir sahədə işləyir, ondan sonra başqa sahədə işləyir. Əgər o, yaxşı menecerdirsə, hər bir yerdə işləyə bilər. Bizdə keçmişdə və bu günə qədər bu prinsip

hələ ki, o qədər də geniş vüsət almayıbdır. Bizdə hesab olunur ki, əgər sən neftçisənsə, gərək elə ömür boyu neftlə məşğul olasan, energetiksənsə, gərək energetikada işləyəsən. Belə yanaşma nə vaxtsa özünü doğruldurdu, bu gün isə yox.

Dünya təcrübəsi onu göstərir ki, aparıcı transmilli şirkətlərdə bu gün bir adam hansısa neft şirkətinin başındadırsa, sabah telekommunikasiya şirkətinin başındadır, ondan sonra böyük bir qida məhsulu istehsalı şirkətinin başındadır. Bizdə də belə olmalıdır. Ona görə biz peşəkar menecerlərin hazırlanması işinə çox böyük diqqət göstərməliyik. Menecerlərə olan tələbatımız getdikcə daha da artacaqdır. Çünki ölkə iqtisadiyyatı o qədər sürətlə inkişaf edir, yeni müəssisələr, müasir istehsallar yaradılır ki, bəzi hallarda yeni müəssisələrə xaricdən menecerlər gətirilir. Mən buna etiraz etmirəm, təbiidir. Burada işləmək üçün gələnlər ancaq qonaqpərvərlik görürlər və görəcəklər. Amma elə etməliyik ki, öz kadrlarımızı da sürətlə hazırlayaq.

Ölkəmiz üçün, o cümlədən sahibkarlığın inkişafı üçün vacib olan məsələlərdən biri də korrupsiya və rüşvətxorluğa qarşı mübarizəni gücləndirməkdir. Bu barədə mən öz sözümü ilin əvvəlində Nazirlər Kabinetinin iclasında demişəm, müvafiq göstərişlər verilibdir. İndi ölkəmizin bütün yerlərində bu məsələ ilə bağlı ciddi proseslər gedir. Biz ilkin müsbət nəticələri görürük və elə etməliyik ki, bu nəticələr daha da gözəgörünən, daha da təsirli olsun. Bu proses kampaniya deyil, bizim şüurlu seçimimizdir. Azərbaycanı müasir ölkə kimi görmək və bütün sahələrdə inkişafı görmək istəyiriksə, xoşagəlməz hallara qarşı mütləq ciddi mübarizə aparmalıyıq. Korrupsiya və rüşvətxorluq böyük bəladır, böyük yaradır və bizim üçün böyük ləkədir. Elə etməliyik ki, bütün sahələrdə şəffaflıq təmin edilsin. Əlbəttə, inzibati tədbirlər görülür və görüləcəkdir. Cəza tədbirləri görülür və görüləcəkdir. Biz struktur islahatlarını elə aparmalıyıq ki, korrupsiya, rüşvətxorluq tamamilə aradan götürülsün. Son müddət ərzində mənim tərəfimdən imzalanmış sərəncamlar bu məqsədi güdür. Yəni biz struktur islahatlarından, institusional metodlardan korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizəni gücləndirmək üçün istifadə

etməliyik. Təkcə struktur islahatları aparmaqla istədiyimiz nəticəyə nail ola bilməyəcəyik, bütün dövlət qurumları, dövlət şirkətləri, yerli və mərkəzi icra orqanları elə işləməlidirlər ki, həmişə üzüağ olsunlar.

Təkrar edirəm, biz bu xoşagəlməz hallara qarşı ciddi mübarizənin birinci nəticələrini artıq görürük və ümid edirəm ki, yaxın zamanlarda daha da böyük nəticələri görəcəyik. Mən bir daha Azərbaycan ictimaiyyətinə müraciət etmək istəyirəm. Bir dəfə artıq müraciət etmişəm və bu müraciətin çox yaxşı nəticəsi olmuşdur. Mənə, Prezident Administrasiyasına bütün bölgələrdən məktublar gəlir – həm təşəkkür məktubları, həm də şikayət məktubları. Bu canlı bağlantı həmişə olub və olacaqdır. Biz hamımız çalışmalıyıq ki, Azərbaycan müasir dövlətə çevrilsin, ölkəmizə yaraşmayan, ölkəmizi geriyə aparan, onun inkişafını əngəlləyən xoşagəlməz hallar Azərbaycanda olmasın. Bizim gözəl imkanlarımız, gözəl perspektivlərimiz var – güclü dövlət, güclü iqtisadiyyat, güclü sosial siyasət, infrastruktur layihələri. Azərbaycanın iqtisadi inkişafı bu günə qədər dünyada heç bir başqa ölkədə təkrarlanmayıbdır. Qısa müddətdə, 7 ildə iqtisadiyyat 2,8 dəfə artmışdır. Yoxsulluğun səviyyəsi 4,5 dəfə azalmış, 900 min iş yeri açılmışdır. Hər yerdə quruculuq, abadlıq, tikinti işləri gedir, vətəndaşlar sabitlik, təhlükəsizlik şəraitində yaşayırlar. Ən yaxşı kriminogen vəziyyət bizdədir. Azərbaycanda, 9 milyon əhalisi olan ölkədə gündə 30–35 cinayət baş verir. Bu, başqa ölkələrlə müqayisədə bir neçə dəfə azdır. Lakin cəmiyyətimizi içəridən sarsıdan rüşvətxorluq, əsassız tələblər var, bəzi hallarda insanları incidirlər, onlara qarşı reketlik edirlər, əsassız tələblər irəli sürürlər. Biz çalışırıq ki, insanlar yaxşı yaşasınlar. Biz Azərbaycanda 500 mindən artıq insana dövlət tərəfindən sosial yardım edirik. 100 mindən artıq ailə hər ay dövlətdən 106 manat pul alır. Kimin imkanı yoxdursa, bu pulu ona veririk. Hamı yaxşı yaşamalıdır. Düzdür, bu, insandan asılıdır. Azərbaycanda bütün imkanlar var. Kimin bacarığı var, biliyi var, imkanı var, daha da yaxşı yaşayır. Bu hər yerdə belədir. Artıq bu məsələlərlə bağlı çox

ciddi işlər gedir və gedəcəkdir. Hamı bunu bilməli və özü üçün nəticə çıxarmalıdır.

Bu il Azərbaycanda «Turizm ili» elan olunmuşdur. Təkcə Bakıda 5 beşulduzlu mehmanxana açılacaqdır. Yaxın günlərdə mən Naftalanda iki gözəl müasir mehmanxananın açılışında iştirak etdim. Qusar rayonunda Şahdağ Qış-Yay Turizm Mərkəzinin tikintisi ilə tanış oldum. Orada da gözəl mehmanxanalar tikilir. Turizmin inkişafı üçün bizdə çox gözəl imkanlar var. Hər bir bölgədə müasir otellər, turizm kompleksləri tikilməlidir və tikilir. 2011-ci ildə bu işlər çox sürətlə gedəcəkdir.

Ölkəmizdə sənayeləşmə siyasəti aparılır və sənaye istehsalının inkişafı üçün əlavə tədbirlər görülməlidir. Ənənəvi olaraq Azərbaycanın bir neçə sənaye mərkəzi olmuşdur. Hazırda o mərkəzlərdə yeni sənaye müəssisələri yaradılır və biz Azərbaycanda bir neçə şəhəri məhz güclü sənaye mərkəzinə çevirməliyik. İlk növbədə Sumqayıtı nəzərdə tuturam. Sumqayıt vaxtilə neft kimyası sənayesi mərkəzi kimi yaradılmışdır. İndi neft kimyası sənayesi canlanır və orada islahatlar aparılır. Texnologiya parkı, digər müəssisələr tikilir. Orada böyük torpaq sahələri var. Vaxtilə tikilmiş və indi işləməyən zavodlar var, peşəkar işçi qüvvəsi, dəmir yolu var, Bakıya da yaxındır. Gəncə şəhəri və Bakının Qaradağ rayonu da müasir sənaye mərkəzi kimi yaradılmalıdır. Şübhəsiz, digər şəhərlərdə də sənaye istehsalı yaradılmalıdır və yaradılır. Amma əsas bu üç mərkəzdə yaradılmalıdır və biz bu məsələyə planlı və kompleks şəkildə yanaşmalıyıq.

Bu il «Turizm ili» elan edilib, amma bu o demək deyil ki, «Ekologiya ili» başa çatıbdır. «Ekologiya ili» hər il olmalıdır. Keçən il böyük işlər görülüb – ağaclar əkilib, neftlə çirklənmiş gölməçələr təmizlənib, içməli su layihələri icra edilmişdir. Bu il «Turizm ili»dir, ancaq «Ekologiya ili» bu il də davam etdirilməli və bütün yerli icra orqanları keçən il işlədikləri kimi, bu il də işləməlidirlər.

Bir sözlə, görüləsi işlər çoxdur, proqramlar icra edilir. Ən əsası ondan ibarətdir ki, biz öz işimizi proqramlar əsasında qururuq. Hər

bir sahə üçün, hər bir bölgə üçün, hər bir rayon üçün konkret proqramlar var və icra olunur. Biz vaxtaşırı belə geniş tərkibdə görüşürük, yaxud da ki, mən bölgələrdə olarkən görüşürük, məsələləri müzakirə edirik. Bu, daimi və canlı prosesdir və bizə imkan verir ki, məsələləri həll edək.

Mən şübhə etmirəm ki, bu gözəl meyillər növbəti illərdə Azərbaycanda daha da güclənəcək, ölkəmiz möhkəmlənəcək, Azərbaycan xalqı isə ildən-ilə daha da yaxşı yaşayacaqdır.

Sağ olun.

## RUSİYA FEDERASİYASI TATARISTAN RESPUBLİKASININ PREZİDENTİ RUSTAM MİNNİXANOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 mart 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 2-də Rusiya Federasiyası Tatarıstan Respublikasının Prezidenti Rustam Minnixanovu qəbul etmişdir.*

*Dövlətimizin başçısı Tatarıstan prezidentinin respublika rəhbəri kimi yüksək vəzifəyə seçildikdən sonra özünün ilk səfərlərindən birini ölkəmizə etməsini yüksək qiymətləndirdi. Azərbaycan və Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı Tatarıstan Respublikasının Prezidenti Rustam Minnixanovun ölkəmizə səfəri zamanı əməkdaşlığın yeni istiqamətlərinin müəyyənləşdiriləcəyinə ümidvar olduğunu*

*bildirdi və səfərin qarşılıqlı fəaliyyət və əlaqələrimizin müxtəlif istiqamətlərdə genişlənməsinə xidmət edəcəyinə əminliyini ifadə etdi.*

*Ölkəmizə səfərindən və prezident İlham Əliyev ilə görüşmək imkanı əldə etməsindən məmnunluğunu bildirən Rustam Minnixanov Tatarıstan Respublikasının keçmiş prezidenti Mintimer Şaymiyevlə xalqımızın ümummilli lideri Heydər Əliyev arasında daim mövcud olan sıx münasibətlərin əməkdaşlığımızın inkişafı üçün möhkəm zəmin yaratdığını bildirdi.*

## SLOVENİYANIN MÜDAFİƏ NAZİRİ XANIM LYUBİTSA YELUŞİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 mart 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 2-də Sloveniyanın Müdafiə naziri xanım Lyubitsa Yeluşiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev qonağın ölkəmizə səfərinin qısamüddətli olmasına baxmayaraq, onun azərbaycanlı həmkarı ilə hərbi sahədə əməkdaşlığı müzakirə etmək üçün bu səfərin yaxşı imkan yaratdığını dedi. Sloveniyaya səfərini məmnunluqla xatırladan prezident İlham Əliyev dövlət başçıları arasında yaxşı əlaqələrin olduğunu vurğuladı. Dövlətimizin başçısı Sloveniyanın Müdafiə naziri xanım Lyubitsa Yeluşiçin Azərbaycana səfərinin məhsuldar və ölkələrimizin müvafiq qurumları arasında əməkdaşlıq imkanlarını araşdırmaq baxımından səmərəli olacağına əminliyini bildirdi.*

*Sloveniyanın Müdafiə naziri xanım Lyubitsa Yeluşiç başçılıq etdiyi nümayəndə heyətinin bütün üzvlərinin Azərbaycana səfərdən və əməkdaşlığımızın inkişafı imkanlarını müzakirə etməkdən böyük məmnunluq hissi keçirdiklərini bildirdi. Qonaq ölkələrimizin müvafiq qurumlarının əlaqələrinin əsasında dövlət başçılarının yaxşı əməkdaşlığının və xalqlarımız arasında ümumi dəyərlərin durduğunu qeyd etdi. Xanım Lyubitsa Yeluşiç nümayəndə heyətinin Mehdi Hüseynzadənin abidəsini ziyarət etdiyini xatırlatdı.*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Pakistan günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, dövlətlərarası münasibətlərimizin inkişafı, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımızın möhkəmləndirilməsi istiqamətində bundan sonra da qarşılıqlı səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Pakistan xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 mart 2011-ci il*

**YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KAROLOS PAPULYASA**

Hörmətli cənab Prezident!

Yunanıstan Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan–Yunanıstan dövlətlərarası münasibətlərin inkişafı, beynəlxalq qurumlar və layihələr çərçivəsində əməkdaşlığımızın dərinləşdirilməsi yolunda bundan sonra da səylərimizi davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Yunanıstan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 mart 2011-ci il*

## İRLANDİYANIN PREZİDENTİ
## XANIM MERİ MAKALİSƏ

Hörmətli xanım Prezident!

Ölkənizin milli bayramı – Müqəddəs Patrik günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə İrlandiya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İrlandiya xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 mart 2011-ci il*

**BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ZİLLUR RƏHMANA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Banqladeş arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və möhkəmlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Banqladeş xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 mart 2011-ci il*

# MÜDAFİƏ SƏNAYESİ NAZİRLİYİ «ŞƏRQ» İSTEHSALAT BİRLİYİNİN YENİ «AZAD SYSTEMS CO.» MÜƏSSİSƏSİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*3 mart 2011-ci il*

*Martın 3-də Müdafiə Sənayesi Nazirliyi «Şərq» İstehsalat Birliyinin yeni «AZAD Systems Co.» müəssisəsi istifadəyə verilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak etmişdir.*

*Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin abidəsinin önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyev rəmzi açılışı bildirən lenti kəsdi.*

*Müəssisə ilə tanış olan dövlətimizin başçısı burada xaricdən gələn mütəxəssislərlə görüşdü. Prezident İlham Əliyev onlarla birlikdə müəssisədə istehsal edilən məhsulların nümayiş olunduğu filmə baxdı.*

*Azərbaycan prezidentinə pilotsuz təyyarənin maketi hədiyyə olundu.*

*Müdafiə Sənayesi naziri Yavər Camalov dövlətimizin başçısına məlumat verdi ki, müəssisədə işçilərin fəaliyyəti üçün hər cür şərait yaradılmışdır. «AZAD Systems Co.» müəssisəsinin də daxil olduğu «Şərq» İstehsalat Birliyində son bir neçə ildə geniş tikinti və yenidənqurma işləri aparılmışdır. Son 3 ildə müəssisədə 5 istehsal sahəsi yaradılmış, müasir texnoloji avadanlıqlar quraşdırılmışdır.*

*Müəssisə ilə tanışlıq zamanı prezident İlham Əliyevə bildirildi ki, burada məsafədən idarə edilən müasir tipli pilotsuz uçuş aparatları istehsal olunur. Pilotsuz uçuş aparatları bir çox texniki-iqtisadi üstünlüklərə malikdir.*

*Kompozit materialları sahəsində iş prosesi ilə tanış olan prezident İlham Əliyevə məlumat verildi ki, «Orbitr-2M» və «Aerostar» pilotsuz təyyarələrinin hissələri burada hazırlanır. Bunun üçün xüsusi qəliblərdən istifadə olunur və istehsal prosesi xüsusi dəqiqliklə yerinə yetirilir. Kəsmə-biçmə sexində də hər cür şərait yaradılmışdır. Təyyarələrin hazırlanmasında istifadə olunan materiallar bu sexdə kəsilir, biçilir və aidiyyəti üzrə müvafiq istehsal sahələrinə yönəldilir.*

*Prezident İlham Əliyev Müdafiə Sənayesi Nazirliyinin Muzeyində saxlanmaq üçün hazırlanmış pilotsuz təyyarənin qanadını imzaladı.*

*Mühərrikyığma sexində dövlətimizin başçısına müəssisədə hazırlanan pilotsuz təyyarələrin digər texniki göstəriciləri barədə məlumat verildi. Bildirildi ki, «Orbitr-2M» təyyarəsi 4-6 kilometr hündürlükdə 4-5 saat uça bilir. «Aerostar» təyyarəsi isə 10 kilometr yüksəklikdə 12 saat fasiləsiz uçur.*

*Prezident İlham Əliyevə pilotsuz təyyarələrin hissələri və «Orbitr-2M» təyyarəsinin yerüstü idarəetmə mərkəzi barədə məlumat verildi.*

*İdarəetmə mərkəzinin fəaliyyəti ilə tanış olan Azərbaycan prezidentinə məlumat verildi ki, bu qurğu hazır məhsulun keyfiyyətini yoxlamaq, bir növ onun sınağını keçirməklə yanaşı, pilotsuz təyyarələrin idarə olunmasının texniki xüsusiyyətlərini də özündə əks etdirir. Kəşfiyyat tapşırıqlarını və yerdən verilən komandaları yerinə yetirmək imkanına malik olan bu aparatlar uçuş məsafəsinə və enməsinə görə aerodrom tipli platformalardan start götürmək, aerodroma və yaxud paraşüt vasitəsilə enmə qabiliyyətinə malikdir. İnformasiyanın ötürülməsi xüsusi avadanlığın köməyi ilə yerinə yetirilir.*

*Sonra gələcəkdə Azərbaycanda istehsalı nəzərdə tutulan «Diamond DA-42» dörd yerlik sərnişin təyyarəsinin təqdimatı oldu.*

*Müəssisə ilə tanış olan prezident İlham Əliyev burada yaradılan şəraitdən razılığını bildirdi və kollektivə uğurlar arzuladı.*

## MÜDAFİƏ SƏNAYESİ NAZİRLİYİNİN «CİHAZ» İSTEHSALAT BİRLİYİ BAKI CİHAZQAYIRMA ZAVODUNUN YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*3 mart 2011-ci il*

*Martın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Müdafiə Sənayesi Nazirliyinin «Cihaz» İstehsalat Birliyi Bakı Cihazqayırma zavodunun yenidənqurmadan sonra açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı zavodun həyatində ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstəsi qoydu.*

*Məlumat verildi ki, 1942-ci ildə Bakı Alət zavodu adı ilə «Azneftmaş» Trestinin tərkibində fəaliyyətə başlamış müəssisə 1949-cu ildə SSRİ Neft Sənayesi Nazirliyinin balansına keçirilmiş və Bakı Cihazqayırma zavodu adlandırılmışdır. 1993-cü ildən zavod Azərbaycan Respublikası Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsinin tabeliyinə verilmişdir.*

*Azərbaycan prezidenti zavodun rəmzi açılışını bildirən lenti kəsdi.*

*İnzibati bina ilə tanışlıq zamanı dövlətimizin başçısı müəssisənin yenidənqurmadan əvvəlki vəziyyətini əks etdirən videosüjetə baxdı. Qeyd olundu ki, 2006-cı ildən zavod Müdafiə Sənayesi Nazirliyi «Cihaz» İstehsalat Birliyinin tərkibində fəaliyyətini davam etdirir. Son illər müəssisədə əsaslı yenidənqurma və bərpa işləri aparılmışdır. İkimərtəbəli inzibati bina ən yüksək standartlar səviyyəsində təmir olunmuşdur. Zavodun ərazisində təhlükəsizlik kameraları quraşdırılmış, buradakı bütün inzibati otaqlar müasir avadanlıqla təchiz edilmişdir.*

*Prezident İlham Əliyev ikinci mərtəbədə yaradılmış Heydər Əliyev Muzeyi ilə tanış oldu. Bildirildi ki, muzeydə nümayiş olunan fotolarda ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin müxtəlif dövrlərində həyata keçirdiyi çoxşaxəli fəaliyyətinin ayrı-ayrı anları əksini tapmışdır.*

*Prezident İlham Əliyev istehsal sahələrini gəzdi. Mexaniki yığma sexi ilə tanışlıq zamanı bildirildi ki, son illər müəssisədə silsilə yenidənqurma tədbirləri həyata keçirilmiş, burada dünyanın ən inkişaf etmiş ölkələrində istehsal olunan dəzgah və avadanlıqlar quraşdırılmışdır. Nəticədə qısa müddətdə zavodda dövlət sifarişlərini yerinə yetirməklə yanaşı, xüsusilə neftçıxarma sahəsində istifadə olunan cihazların və ehtiyat hissələrinin istehsalına başlanılmışdır.*

*Dövlətimizin başçısı istehsal prosesini izlədi. Qeyd olundu ki, dəmirçi sexində də əsaslı təmir işləri aparılmışdır. Bu işlərdən sonra sex indi tam gücü ilə işləyir. Qalvanikləşdirmə sexi də müasir avadanlıqla təchiz olunmuşdur. Bu sexdə bütün cihazların və hissələrin üzəri müxtəlif növ kimyəvi maddələrlə örtüləcəkdir. Burada sinkləmə, xromlama, nikelləmə, anodlaşma, oksidləşmə və qalaylama prosesləri aparılacaqdır.*

*Prezident İlham Əliyevə istehsal olunan müdafiə təyinatlı məmulat və ehtiyat hissələri haqqında geniş məlumat verildi. Qeyd edildi ki, zavodda həm də Dövlət Neft Şirkətinin müəssisələri üçün 18 adda yeni növ məhsulların istehsalı qaydaya salınmış və nəticədə mülki məhsulların çeşidi 29-dan 47-yə çatdırılmışdır.*

*Prezident İlham Əliyev mexaniki emal sexini gəzdi. Bildirildi ki, sexin avadanlıq parkı əsaslı şəkildə təzələnmişdir. Yaradılan yeni istehsal sahəsində iki texnoloji axın xətti işə salınmış, ən müasir proqram təminatlı 57 dəzgah və avadanlıq quraşdırılmışdır. Buradakı universal torna, bir neçə koordinatlı və şaquli frez, pardaqlama dəzgahları, şaquli emal mərkəzi, təbəqəəyən maşın, kompressorlar və digər dəzgahlar sifarişlərin vaxtında və keyfiyyətlə hazırlanmasına imkan verəcəkdir. Bütün bunların nəticəsində Dövlət Müdafiə Sifarişi*

*Proqramında nəzərdə tutulan 7 adda müdafiə təyinatlı məmulatın istehsalı mənimsənilmişdir. Yaxın gələcəkdə bu qəbildən məhsulların çeşidi 12-yə çatdırılacaqdır.*

*Dövlətimizin başçısı xüsusi təyinatlı təmir, bərpa və mexaniki yığma sexləri ilə də yaxından tanış oldu.*

*Prezident İlham Əliyevə «Şimşək» qabaqcıl texnologiyası və asan idarəetmə layihəsi barədə məlumat verildi. Bakı cihazqayırma zavodu və Cənubi Afrika Respublikasının «EWT» şirkəti ilə birgə hazırlanan layihənin üstün cəhəti gecə və gündüz görmə kamerasının olmasıdır. Bundan başqa, «Şimşək» texnologiyası lazer hədəf nişanlayıcısı, ballistik kompyuter və silah sistemlərinin idarə edilməsinə malikdir.*

*Dövlətimizin başçısı mina təsirinə dayanıqlı «Matador» və «Marauder» tipli zirehli nəqliyyat vasitəsilə də yaxından tanış oldu.*

*Prezident İlham Əliyev zavodda hazırlanıb istismara verilən zirehli texnikaların sınaqdan keçirilməsi prosesini izlədi. Bildirildi ki, burada texnikaların 25 dərəcə maili bucaq altında sol və sağ tərəfi üstdə dayanıqlılığı yoxlanılır. Sonra zirehli texnikanın 30 dərəcə mailillikdə eniş və yoxuş zamanı gücünün və əyləc sisteminin davamlılığına və möhkəmliliyinə diqqət yetirilir. Maşınlar dərinliyi 1,5 metr olan su maneələrindən də keçirilir. Bu zaman maşınların hermetikliyi və idarəetmənin möhkəmliyi yoxlanılır. Sonda isə zirehli texnikalar yüksək amplitudalı maneələrdən keçirilir. Bu proses zamanı maşınların yırğalanması müşahidə edilir.*

*Dövlətimizin başçısı kollektivə uğurlar arzuladı, tapşırıq və tövsiyələrini verdi.*

## MÜDAFİƏ SƏNAYESİ NAZİRLİYİ «CİHAZ» İSTEHSALAT BİRLİYİNİN «SƏNAYECİHAZ» ELM-İSTEHSALAT MƏRKƏZİNİN YENİDƏNQURMADAN SONRA İŞƏ SALINMASI MƏRASİMİ

*3 mart 2011-ci il*

*Martın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Müdafiə Sənayesi Nazirliyinin «Cihaz» İstehsalat Birliyi «Sənayecihaz» Elm-İstehsalat Mərkəzini yenidənqurmadan sonra işə salınması mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin abidəsinin önünə gül dəstəsi qoydu.*

*Müdafiə Sənayesi naziri Yavər Camalov müəssisədə aparılan yenidənqurma işləri barədə dövlətimizin başçısına məlumat verdi. Qeyd edildi ki, son 2 ildə müəssisədə 6,5 min kvadratmetrlik istehsalat sahəsi, inzibati binalar yenidən qurulmuş, infrastruktur müasirləşdirilmiş, əsaslı abadlıq və yaşıllaşdırma işləri həyata keçirilmişdir.*

*Sonra nazir səhra şəraitində xidməti heyət üçün zəruri olan avadanlığı dövlətimizin başçısına təqdim etdi. Bildirildi ki, yedəyə qoşulan sutəmizləyici qurğu səhra şəraitində 1 saatda 600 litr adi suyu və ya 500 litr duzlu suyu tam təmizləyərək içməli vəziyyətə gətirir. Səhra şəraitində olduqca mühüm əhəmiyyət kəsb edən yedəyə qoşulan mini çörək sexində 1 saat ərzində 100 qramlıq 1000, 200 qramlıq 500 çörək bişirmək mümkündür.*

*Məlumat verildi ki, «Sənayecihaz» Elm-İstehsalat Mərkəzi 1956-cı ildə yaradılmışdır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra 1993-cü ildə müəssisə Dövlət Xüsusi Maşınqayırma və Konversiya Komitəsinin tabeliyinə verilmişdir.*

*Müdafiə Sənayesi Nazirliyi yaradılandan sonra «Sənayecihaz» Elm-İstehsalat Mərkəzinin istehsal sahələrinin bərpa olunması və yenidən qurulması üçün kompleks tədbirlər həyata keçirilmişdir.*

*Azərbaycan prezidenti müəssisədə istehsal olunan məhsulların sərgisi ilə tanış oldu. Qeyd edildi ki, bu məmulatlar ən müasir standartlara cavab verir və rəqabətədavamlıdır. 2008–2010-cu illərdə «Sənayecihaz» Elm-İstehsalat Mərkəzində 56 müasir avadanlıq quraşdırılmışdır. Bu avadanlığın bir qismi ən son elmi-texniki yeniliklərə əsaslanan proqram təminatlı dəzgahlardır. Bunlar universal torna, frez, lazerlə kəsmə və pardaqlama dəzgahları, həmçinin şaquli emal mərkəzi, hidravlik preslər, kompressorlar və digər avadanlıqlardır. Yeni yaradılan istehsal sahələrində seysmik prinsipli mina partladıcısının istehsalı nəzərdə tutulmuşdur. Həyata keçirilən kompleks tədbirlər nəticəsində son 2 ildə əvvəlki illərlə müqayisədə Mərkəzdə müdafiə təyinatlı məmulatın istehsalı bir neçə dəfə artmışdır. 2010-cu ildə müəssisədə seysmik prinsipli mina partladıcısının və bir neçə adda yaxın məsafəli döyüş vasitələrinin ehtiyat hissələrinin istehsalı həyata keçirilmişdir. Güc strukturlarının sifarişləri vaxtında və keyfiyyətlə yerinə yetirilmişdir.*

*Prezident İlham Əliyevə yaxın müddətdə reallaşdırılması nəzərdə tutulan tədbirlər barədə məlumat verilərkən qeyd olundu ki, 2011-ci ildə müəssisədə 5 adda yeni növ müdafiə təyinatlı məmulatın istehsalı qaydaya salınacaqdır. Bundan başqa, müəssisədə neft sənayesi üçün maye sayğacı, adi və smartkartla işləyən qaz və su sayğacları, sərfiyyatölçən və digər mülki təyinatlı məhsulların istehsalının genişləndirilməsi qarşıya məqsəd qoyulmuşdur.*

*Yenidənqurma işləri ilə tanış olan prezident İlham Əliyev kollektivə uğurlar arzuladı, ölkəmizin müdafiə sənayesinin potensialının daha da möhkəmləndirilməsi ilə bağlı tapşırıqlarını verdi.*

## RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*5 mart 2011-ci il*

*Martın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Soçi şəhərinə işgüzar səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Soçi şəhərinə işgüzar səfərə gəlmişdir.*

*Dövlətimizin başçısını Soçinin «Adler» Beynəlxalq Aeroportunda şəhərin meri Anatoli Paxomov və digər rəsmi şəxslər qarşıladılar.*

## AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN BİRGƏ GÖRÜŞÜ

*Soçi*

*5 mart 2011-ci il*

*Martın 5-də Soçidə «Grand Polyana» mehmanxanasının «Qəbullar evi»ndə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın birgə görüşü olmuşdur.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər müzakirə edilmişdir.*

*Görüşün yekunlarına dair birgə bəyanat qəbul edildi.*

## AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN BİRGƏ BƏYANATI

*Soçi*

*5 mart 2011-ci il*

*Martın 5-də Soçidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedev və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair danışıqların yekununa əsasən birgə bəyanat qəbul etmişlər.*

*Sənəddə qeyd edilir ki, liderlər onların bundan əvvəl, 2010-cu il oktyabrın 27-də Həştərxanda keçirilmiş görüşü zamanı qəbul edilmiş üçtərəfli bəyanatın praktiki reallaşdırılması məsələlərini müzakirə etmiş və həmin bəyanatda nəzərdə tutulan tədbirlərə əlavə olaraq, növbəti addımlar barədə razılığa gəlmişlər. Bəyanatda qeyd edilir ki, dövlət başçıları, o cümlədən «hərbi əsirlərin dəyişdirilməsini ən qısa müddətdə başa çatdırmaq» barədə razılığa gəlmişlər. Bundan əlavə, sənəddə «bütün mübahisəli məsələləri dinc vasitələrlə həll etmək və atəşkəs xətti boyunca yarana biləcək insidentləri tərəflərin iştirakı ilə ATƏT-in Minsk qrupunun həmsədrlərinin himayəsi altında, təşkilatın fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsinin köməyi ilə təhqiq etmək» istəyi vurğulanır.*

*Bəyanatda deyilir: «Prezidentlər Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələlərinə dair özlərinin müntəzəm əlaqələrinin böyük əhəmiyyət kəsb etməsini qeyd etmiş və ATƏT-in Minsk qrupunun həmsədrlərinin işinə əlavə olaraq bu formatda əlaqələri davam etdirmək barədə razılığa gəlmişlər».*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*Soçi*

*5 mart 2011-ci il*

*Martın 5-də Soçinin «Adler» Beynəlxalq Aeroportunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ATƏT-in Minsk qrupunun həmsədrləri Robert Bradtke (ABŞ), Bernar Fasye (Fransa), İqor Popov (Rusiya), habelə təşkilatın fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kasprşik ilə görüşü olmuşdur.*

### Səfər başa çatdı

*Martın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri başa çatmışdır.*

*Azərbaycan dövlətinin başçısını Soçinin «Adler» Beynəlxalq Aeroportunda şəhərin meri Anatoli Paxomov və digər rəsmi şəxslər yola saldılar.*

* * *

*Dövlətimizin başçısı həmin gün axşam Bakıya qayıtmışdır.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## 8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

Hörmətli xanımlar!

Sizi, bütün Azərbaycan qadınlarını 8 mart – Beynəlxalq qadınlar günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm, hər birinizə cansağlığı, ailə səadəti və işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Builki qadınlar bayramı ölkəmizin dövlət müstəqilliyinin bərpasının iyirmiillik yubileyinə hazırlaşdığımız günlərə təsadüf edir. Azərbaycan qadınları Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə seçib-seçilmək hüququ qazanaraq ölkəmizin ictimai-siyasi həyatında yaxından iştirak etməyə başlamışlar. Sürətlə maariflənən qadınlarımız yüz illərdən bəri formalaşmış milli dəyərlərə sadiq qalmaqla, ana dilimizin, mədəniyyətimizin və mənəviyyatımızın ən etibarlı dayağı olmuşlar. Azərbaycan xanımları öz dərin zəkaları və tükənməz daxili potensialları ilə bu gün də cəmiyyətə fədakarcasına xidmət edirlər.

Dövlət müstəqilliyimizin bərpasından sonra ötən 20 il ərzində Azərbaycan qadını milli dövlət quruculuğu prosesinin fəal iştirakçısına çevrilmiş, elm, təhsil, səhiyyə və mədəniyyət, eləcə də digər sahələrdə qazandığı uğurları ilə öz nüfuzunu ilbəil artırmağa müvəffəq olmuşdur.

Əziz Azərbaycan qadınları, əminəm ki, gənc nəslin milli adət-ənənələrə, azərbaycançılıq məfkurəsinə bağlılıq ruhunda tərbiyəsi işinə bundan sonra da xüsusi diqqət yetirəcək, dinamik inkişaf edən ölkəmizin gələcəyi naminə qüvvənizi, bilik və bacarığınızı əsirgəməyəcəksiniz.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 mart 2011-ci il*

# BEYNƏLXALQ KANOE FEDERASİYASININ PREZİDENTİ JOZE PERURENA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*9 mart 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da Beynəlxalq Kanoe Federasiyasının Prezidenti Joze Perurenanı qəbul etmişdir.*

*Ölkəmizə səfəri çərçivəsində Mingəçevirə gedəcəyini və buradakı avarçəkmə mərkəzində olacağını deyən Beynəlxalq Kanoe Federasiyasının Prezidenti Joze Perurena bu cür mərkəzlərin beynəlxalq idman yarışlarının keçirilməsi üçün əhəmiyyətini qeyd etdi.*

*Sovetlər İttifaqı dağıldıqdan sonra Mingəçevir Avarçəkmə Mərkəzinin yararsız vəziyyətə düşdüyünü bildirən dövlətimizin başçısı son illər bu Mərkəzdə ən müasir standartlara uyğun şəkildə əsaslı bərpa və yenidənqurma işlərinin aparıldığını dedi.*

*Görüşdə Mingəçevir Avarçəkmə Mərkəzinin ölkəmizdə idmanın inkişafına və bu sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminlik ifadə olundu.*

# BAKI ŞƏHƏRİNİN VƏ PAYTAXTƏTRAFI QƏSƏBƏLƏRİN SOSİAL-İQTİSADİ İNKİŞAFINA DAİR MÜŞAVİRƏDƏ NİTQ*

*12 mart 2011-ci il*

Ölkəmizdə aparılan geniş quruculuq işləri hamımızı sevindirir. Ölkəmiz inkişaf edir, güclənir. Bu özünü statistik göstəricilərdə göstərir, eyni zamanda, biz bu müsbət də-yişiklikləri gündəlik həyatda da görürük. Həm Bakı şəhərində, həm də bütün şəhər və rayonlarımızda çox böyük quruculuq və abadlıq işləri aparılır.

Son illər iqtisadiyyatımız dünyanın ən yüksək templəri ilə inkişaf etmişdir. Bu sahədəki nailiyyətlər dünya birliyi tərəfindən də qiymətləndirilir. Nüfuzlu beynəlxalq maliyyə qurumları Azərbaycanda aparılan islahatları yüksək qiymətləndirirlər.

Bir sözlə, sürətli inkişaf bizə imkan verdi ki, ölkəmizin hərtərəfli yüksəlişi üçün əlavə imkanlar yaradılsın. Şübhəsiz ki, bu inkişafın təməlində uğurlu iqtisadi və siyasi islahatlar, Azərbaycanda aparılan uğurlu neft siyasəti dayanır. Bu siyasət bizə imkan verdi ki, böyük maliyyə resursları yaradaq və onları çox böyük səmərə ilə iqtisadiyyata yönəldək ki, həm insanların rifah halı yaxşılaşsın, həm də ölkəmizin inkişafı uğurlu və uzunmüddətli olsun.

---

* Бакы шящяринин вя пайтахтятрафы гясябялярин сосиал-игтисади инкишафына даир кечирилян мцшавирядя Бакы Шящяр ИЩ-нин башчысы Щаъыбала Абуталыбов, Сабунчу Район ИЩ-нин Маштаьа гясябяси цзря нцмайяндяси Расим Аьайев, Гарадаь району Люкбатан бялядиййясинин сядри Низами Намазялийев, Сураханы Район ИЩ-нин Бцлбцля гясябяси цзря нцмайяндяси Елчин Сейфуллайев, Бинягяди бялядиййясинин сядри Фязаил Бабайев вя Хязяр район Шаьан гясябя сакини Тявяккцл Сялимов чыхыш етдиляр.

Azərbaycanda son 7 il ərzində iqtisadiyyat təxminən 3 dəfə, büdcə xərcləri 12 dəfə artmışdır, yoxsulluq 4,5 dəfə, işsizlik kəskin şəkildə azalmışdır. Yəni, hər bir ölkənin iqtisadi və sosial göstəricilərini nümayiş etdirən əsas rəqəmlər bizim inkişafımızı əyani şəkildə sübut edir.

Əminəm ki, bundan sonrakı illərdə də Azərbaycanın uğurlu inkişafı təmin olunacaqdır. Çünki hazırda qəbul edilmiş və icra olunan proqramlar, layihələr bu məqsədə çatmaq üçün bizə şərait yaradacaqdır. Bu yaxınlarda regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının növbəti ilinin yekunlarını geniş müzakirə etdik. Yeni, inkişaf strategiyamızın həyata keçirilməsi üçün əlavə tədbirlərin görülməsi haqqında fikir mübadiləsi apardıq. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının uğurla icra edilməsi imkan verdi ki, bütün regionlarda sürətli inkişaf getsin, bütün regionlar güclənsin və beləliklə, ölkə iqtisadiyyatı çoxşaxəli şəkildə inkişaf etsin.

Biz Bakı şəhərinin inkişafına da çox böyük diqqət göstəririk. Bakı bizim paytaxtımızdır, dünyanın ən gözəl şəhərlərindən biridir və əlbəttə, Bakıya göstərilən diqqət və qoyulan vəsait şəhərimizin inkişafı üçün müsbət rol oynamışdır. Ancaq məqsədimiz ondan ibarət idi ki, rayonlarla Bakı arasındakı fərqi azaldaq və biz buna müəyyən dərəcədə nail ola bilmişik. Əgər bu gün də hələ ki, bu fərq kifayət qədər böyükdürsə, bunun səbəbi onda deyil ki, regionlar inkişaf etmir. Bunun səbəbi ondadır ki, Bakı şəhəri son bir neçə il ərzində çox sürətlə inkişaf etmişdir.

Ancaq biz bu siyasəti davam etdirəcəyik. Regionlarda hazırda icrada olan layihələr əminəm ki, bütün bölgələrdə həm sosial, həm sənaye infrastrukturunun gücləndirilməsinə xidmət göstərəcəkdir. Elə etməliyik ki, hər bir bölgədə, hər bir rayonda, hər bir kənddə normal yaşamaq, işləmək üçün bütün şərait yaradılsın. Bir daha demək istəyirəm ki, bu məqsədlə çox genişmiqyaslı işlər görülür.

Bugünkü iclasda biz daha çox Bakı qəsəbələrinin inkişaf istiqamətlərini müzakirə edəcəyik və yeni proqramları müəyyənləşdirəcəyik.

Bakının müasir meqapolisə, böyük şəhərə çevrilməsi yolunda səylərimiz öz nəticəsini verməkdədir. Şəhərimizdə həm abadlıq-quruculuq işləri uğurla aparılır, həm infrastruktur layihələri icra edilir.

Şəhər böyüyür, Azərbaycan əhalisi artır. Vaxtilə Bakıda infrastruktur layihələrinin həyata keçirilməsi daha az əhaliyə hesablanmışdır. Bu gün əhali artıb və biz elə etməliyik ki, bütün infrastruktur, bütün kommunal xidmətlər, bütün nəqliyyat imkanlarımız böyüyən şəhərə uyğun olsun. Son illər ərzində şəhərimizdə bu məqsədlə genişmiqyaslı işlər aparılmışdır. Xüsusilə, yol-nəqliyyat sektorunda çox ciddi tədbirlər görülmüşdür. O tədbirlər vaxtlı-vaxtında görülmüşdür. Çünki tədbirlər görülməsəydi, bu gün Bakıda şəhər nəqliyyatı iflic vəziyyətinə düşə bilərdi. Biz bəzi böyük şəhərlərin problemləri ilə tanışıq. O şəhərlərdə bəzi hallarda yol hərəkəti dayanır, bir neçə saat iflic vəziyyətinə düşür. Bunun qarşısının alınması üçün bir neçə il əvvəl şəhərdə geniş yol-tikinti layihələri icra edilməyə başlanmışdır.

Son bir neçə ildə şəhərimizdə 23 yolötürücüsü, körpülər, tunellər istifadəyə verilmişdir, yolların genişləndirilməsi layihələri icra edilmişdir. Harada ki, yollar yox idi, bir çox hallarda orada yeni yollar salınmışdır. Eyni zamanda, şəhərdə 32 piyada keçidi tikilmişdir. Əvvəlki illərdə tikilmiş bütün keçidlər bərpa olunmuşdur və bu keçidlər bu gün memarlıq əsərləridir. Bəzilərində eskalatorlar quraşdırılıb ki, insanların rahatlığı üçün şərait yaransın. Bütün piyada keçidlərimiz ən yüksək standartlara cavab verir. Piyada keçidlərinin inşası davam etdirilir. Həm şəhərin mərkəzində, həm də yeni yolların salınması ilə əlaqədar bu piyada keçidlərinin tikintisinə daha da böyük ehtiyac yarandı. Çünki yollar genişləndikcə, insanların o yollardan rahat keçməsi üçün əlavə şərait yaradılmalı idi.

Bakıda bu il Nəqliyyatın İntellektual İdarə Edilməsi Mərkəzi istifadəyə veriləcəkdir. Bu Mərkəz də dünya standartları səviyyəsində qurulur və bizə imkan verəcək ki, yol hərəkətini tənzimləmək üçün ən qabaqcıl texnologiyalardan istifadə edək. Beləliklə, şəhərdə tıxac problemlərinin həlli üçün əlavə imkanlar yaranacaqdır.

Şəhərə çoxsaylı yeni, müasir avtobuslar gətirilmişdir, yaxın zamanlarda yeni taksi maşınları gətiriləcəkdir. Biz nəqliyyat infrastrukturunun inkişafına kompleks şəkildə yanaşırıq. Hələ ki, Bakıda görüləsi işlər çoxdur. Yeni layihələr icra edilir və bütün bu layihələr bir məqsədi güdür ki, şəhərimizdə müasir tələblərə uyğun şəkildə nəqliyyat infrastrukturu yaradılsın. Şəhərimizdə infrastruktur layihələrinin icrası böyük səmərə verir. Xüsusilə elektrik enerjisi ilə təchizatda son illərdə böyük və əsaslı dönüş yaranmışdır, yarımstansiyalar tikilmişdir, transformatorlar təzələnmişdir və bu proses davam etdirilir. Şəhərimizi etibarlı və dayanıqlı elektrik enerjisi ilə təmin etmək üçün bu il və gələn illərdə hələ çox işlər görülməlidir.

Şəhərimizdə qəsəbələr daxil olmaqla, qazlaşdırma prosesi uğurla gedir. Hazırda Bakı şəhərinin 97 faizi qazlaşdırılıbdır. Elə etməliyik ki, yaxın illərdə 100 faiz qazlaşdırmaya nail olaq, xüsusilə qəsəbələrdə qazın təzyiqi bəzi hallarda lazımi səviyyədə deyildir. Onu da yaxşılaşdıraq ki, bu məsələ tam şəkildə öz həllini tapsın.

Oğuz–Qəbələ–Bakı su kəmərinin istifadəyə verilməsi nəticəsində əminəm ki, yaxın zamanlarda Bakının su ilə təminatı kəskin şəkildə yaxşılaşacaqdır. Yaxın zamanlarda bu kəmər tam gücü ilə işləyəcək və şəhərimizin əhalisinin 70 faizi keyfiyyətli içməli su ilə təmin ediləcək, suyun davamlı verilməsi təmin olunacaqdır. Şəhərimizin qalan hissəsinin içməli su ilə təmin edilməsi üçün əlavə tədbirlər görülməlidir. Bu gün biz bu barədə danışacağıq.

İstiliklə təmin etmə üçün bir neçə il bundan əvvəl «Azəristilik» Birliyi yaradılmışdır və hər il o qurum tərəfindən müəyyən işlər aparılır, yeni evlərə, məktəblərə, digər obyektlərə

istiliyin verilməsi prosesi gedir. Yaxın zamanlarda şəhərimizin və qəsəbələrin inkişafına dair qəbul ediləcək yeni proqram çərçivəsində bu məsələlər də öz həllini tapmalıdır. Burada əsas problem ondan ibarətdir ki, – Bakı sakinləri bunu yaxşı bilirlər – vaxtilə istilik kəsildiyi dövrdə bəzi evlərdə, mənzillərdə istilik batareyaları kəsilib atılmışdır və indi onları bərpa etmək üçün müəyyən problemlər yaranır. Bu məsələyə də diqqətlə yanaşmalıyıq ki, problem öz həllini tapsın.

Şəhərimizin abadlaşdırılması üçün son illərdə çox böyük işlər görülmüşdür. Şəhərimizin mərkəzində, demək olar ki, bütün tarixi binalar ən yüksək keyfiyyətlə, böyük zövqlə bərpa edildi. Hər bir binanın bərpası xüsusi diqqət altında olmuşdur. Bu işlərə mütəxəssislər, bu işi bilən adamlar cəlb edilmişdir. Bakının tarixi binaları bizim milli sərvətimizdir. O binaların bərpası prosesi çox uğurla başa çatdı və bu gün sanki bu binalar yenidən canlandı, onlara yeni həyat verildi. Bərpa işləri təkcə xarici görüntü ilə məhdudlaşmadı, binaların təməli də daxil olmaqla, bərpa işləri aparıldı. Binaların içində olan kommunikasiyalar, liftlər təzələndi, damları yenidən quruldu. Bu məqsədə çatmaq üçün böyük vəsait ayrılır və biz bunu etməliyik. Birinci, binaların tarixi görünüşünü onlara qaytarmalıyıq. Digər tərəfdən, vaxtilə tikilmiş və müddəti keçmiş binaların bərpası prosesi çox böyük əhəmiyyət daşıyır.

Şəhərimizin, demək olar ki, əsas parkları yenidən quruldu. Yeni parklar da salınıbdır. O yerlərdə ki, vaxtilə yararsız vəziyyətə düşmüş binalar, yaxud da hansısa obyektlər yerləşirdi, onlar şəhərin görüntüsünü pozurdu, korlayırdı. Onlar oradan köçürüldü və yerlərində yeni parklar salındı. Xüsusilə Bakının sənaye zonalarında yeni parklar salınmış və insanların xidmətinə verilmişdir. Vaxtilə şəhərin mərkəzində tikilmiş sənaye müəssisələrinin böyük əksəriyyəti işləmir, yaxud işləyirsə də, səmərəsi çox aşağı səviyyədədir. Biz onları tədricən köçürürük və köçürəcəyik. Şəhərin mərkəzində sənaye müəssisələri olmamalıdır. Onların yerində yeni parklar, yaşayış

binaları, istirahət üçün yerlər, ictimai məna daşıyan yerlər yaradılır və bu proses uğurla gedir.

Şəhərimizdə abadlıq-quruculuq işləri çox geniş vüsət almışdır. Şəhərdə, demək olar ki, teatrlar, muzeylər əsaslı təmir edildi. Yeni muzeylər, nadir memarlıq abidəsinə çevriləcək Xalça Muzeyi tikilir və mədəni həyatımızı zənginləşdirən digər tarixi binalar ya təmir olunur, ya da təmir olunubdur. Növbəti illərdə təmirə ehtiyacı olan bütün şəhər mədəniyyət ocaqları əsaslı təmir olunacaqdır. Şəhərimizdə möhtəşəm Heydər Əliyev Mərkəzi tikilir. Bu Mərkəz dünya memarlıq xəzinəsinə daxil edilibdir. Hələ ki, tikinti gedir, ancaq bu Mərkəzin görüntüləri artıq ən mötəbər kataloqlarda öz əksini tapıb. Mərkəzin böyük funksional mənası vardır. İndi bəziləri heç xatırlamır ki, o yerdə vaxtilə böyük zavod yerləşmişdi. O zavodun əvvəlki adı «Şmidt», sonra «Səttarxan» idi. Yararsız vəziyyətə düşmüş zavodun ərazisində on hektarlarla torpaq sahəsi var idi. Zavod oradan köçürüldü və yerində böyük bir park salınır. Şəhərin girişində müasir Azərbaycanın memarlıq simvoluna çevrilmiş Heydər Əliyev Mərkəzinin ətrafında doqquz hektar sahədə gözəl park salınır. Biz bütövlükdə şəhərimizdə yeni parkların salınması ilə nəinki estetik məqsədə çatırıq, həm də bu, şəhərimizin «ağciyərləridir». Biz indi müəyyən layihələr üzərində işləyirik ki, şəhərin mərkəzində yeni meşə zolaqları salaq. O yerlərdə ki, vaxtilə tikilmiş və yararsız vəziyyətə düşmüş ya sənaye müəssisələri, ya yaşayış binaları yerləşirdi, oradan köçürülmə işləri aparılacaqdır. Əgər yaşayış binalarıdırsa, bazar qiyməti ilə kompensasiya ödəniləcəkdir. Necə ki, bu vaxta qədər bütün kompensasiyalar bazar qiyməti ilə ödənilib və onların yerində yeni parklar, meşə zolaqları yaradılacaqdır ki, şəhərimizin ekologiyasına müsbət təsir göstərsin.

Ekoloji məsələlərin həlli üçün kompleks tədbirlər görülür. Biz artıq «Avro-2» standartına keçmişik. Ancaq bu, birinci addımdır. «Avro-3», «Avro-4» standartlarına da keçməliyik və beləliklə, şəhərimizin ekoloji vəziyyəti daha da yaxşılaşdırılacaqdır. Balaxanı poliqonundan şəhəri bürüyən tüstülər

daha qalxmır. Həmin zibilxananı təmizlədik, indi onun yerində böyük park salınır. Məişət tullantıları zavodu tikilir. Bu, böyük vəsait tələb edir. Bu layihə dövlət büdcəsi tərəfindən maliyyələşdirilir və yəqin ki, 1-2 ilə bu zavod da istifadəyə veriləcəkdir. Bu da dünya səviyyəsində bir zavod olacaqdır. Şəhərimizdə təkcə keçən il 3 milyon ağac əkilmişdir. İndi biz gərək o ağaclara yaxşı qulluq edək. Çünki bəzi hallarda ağaclar təbii olaraq quruyur. Ona görə suvarma işləri, ağaclara qulluq etmək üçün xüsusi tapşırıqlar verilib ki, bu proses daim nəzarətdə olsun. Şəhərimizdə ağacəkmə prosesi sürətlə gedəcəkdir. Mən xüsusi göstəriş vermişəm ki, boş yerlərdə, görkəmli yerlərdə yeni ağaclar əkilsin. Bayıl yamacında böyük bir meşə zolağı yaradılacaqdır. Bakını əhatə edən dağlar meşə ilə örtüləcəkdir və həm ekoloji vəziyyət yaxşılaşdırılacaq, həm də gözoxşayan bir mənzərə yaradılacaqdır.

Bakının simvollarından biri olan Dənizkənarı Bulvar da əsaslı təmir edilmişdir. Bulvarın 100 il tarixi vardır. Hesab edirəm ki, bu 100 il ərzində bu cür əsaslı yenidənqurma və təmir işləri ilk dəfə aparılmışdır. Bulvar genişləndi – biz bulvarı dənizə qədər genişləndirdik. İndi insanlar lap dənizin kənarına çıxa bilərlər. Orada da gəzinti üçün gözəl yerlər vardır. Xüsusilə yaz-yay aylarında on minlərlə Bakı sakini bulvara gəlir və biz bulvarı şəhərimizin sakinlərinə qaytardıq. Çünki hamımız yaxşı xatırlayırıq ki, bir neçə il bundan əvvəl bulvarda çox az adam tapılardı. Çünki infrastruktur bərbad, xidmət çox aşağı səviyyədə idi, zülmət, qaranlıq, bir dənə də işıq yanmırdı, dirəklər köhnəlmişdi, paslanmışdı. Adam bulvara çıxanda xəcalət çəkirdi və beləliklə, biz onu itirirdik. Şəhər sakinləri daha çox Fəvvarələr bağına, başqa yerlərə üz tuturdular. Ancaq bu gün biz bulvarı şəhərə elə şəkildə qaytardıq ki, dünyada bir nömrəli oldu. Dəniz kənarında yerləşən başqa şəhərlərdə də bulvar var. Amma heç bir yerdə bu gözəllikdə, bu genişlikdə bulvar yoxdur. Bax, bu gün bulvarın uzadılması layihəsini icra edirik – bulvar həm sağ, həm sol tərəfə uzadılacaqdır. Dəniz Ticarət Limanının köçürülməsi prosesi başlanılmışdır. Biz indi

Ələtdə yeni ticarət limanı yaradırıq. İndiki ticarət limanının ərazisində artıq parklar salınır və salınacaqdır, bulvar Bayraq Meydanına qədər uzadılacaqdır. Orada Gəmi təmiri zavodu və köhnədən qalan digər zavodlar yerləşibdir. İndi onların köçürülməsi ilə məşğuluq və hazırda Əl Oyunları Sarayından Bayraq meydanına qədər möhtəşəm, gözəl, yeni bulvar tikiləcəkdir. Hazırda bulvarın uzunluğu haradasa 4 kilometrə yaxındır – bulvarın uzunluğu 10 kilometr, ondan da çox olacaqdır.

Bayraq meydanı isə nadir memarlıq abidəsidir, müstəqilliyimizin rəmzidir. Dünyanın ən hündür və ən böyük bayrağıdır. Bu layihəyə xüsusilə böyük diqqət göstərilmişdir. Keçən ilin sentyabrında Azərbaycanda Dövlət Bayraq Meydanı böyük təntənə ilə açıldı. Orada həm də muzey fəaliyyət göstərir. İndi meydanın ətrafında böyük quruculuq, abadlıq işləri aparılır. Bayraq meydanı özü haradasa 6 hektar ərazini, onun ətrafında olan yerlərsə 60 hektar ərazini əhatə edir və burada böyük quruculuq işləri aparılır – parklar, bulvar, istirahət, gəzinti üçün yerlər salınır. Bu layihə, ümid edirəm ki, bu ilin sonuna qədər başa çatacaqdır. Bayraq Meydanına gedən yeni yollar çəkiləcək və gəzinti üçün böyük və möhtəşəm bir meydan, belə demək mümkünsə, dünyanın ən böyük meydanı yaradılacaqdır.

İçərişəhərdə gedən abadlıq-quruculuq işləri də hər bir Bakı sakinini sevindirir. Vaxtilə işlərin düzgün şəkildə qurulmaması ucbatından milli sərvətimiz olan İçərişəhər YUNESKO-nun dünya mədəni irsi siyahısından silinirdi. Orada böyük işlər gördük, yeni qurum yaradıldı, İçərişəhərdə təmir-bərpa işləri aparıldı. Biz nail olduq ki, İçərişəhər dünya mədəniyyət incisi kimi, YUNESKO-nun siyahısına yenidən daxil edilsin. Bu gün həm Bakı sakinləri, həm şəhərimizə gələn qonaqlar İçərişəhərlə tanış olarkən Azərbaycanın qədim mədəniyyətini, tarixini öz gözləri ilə görürlər. İndi orada görülən işlər ən yüksək səviyyədədir. Özü də mən sizə deyim ki, dünyada köhnə şəhərlər, tarixi abidələr o qədər də çox deyildir. Onlar daha çox Avropa şəhərlərində vardır. Onların arasında mən deyə bilərəm ki, İçərişəhər öz gözəlliyi, səliqə-sahmanı və göstərilən xidmətləri ilə fərqlənir. Bu bizim tariximizə,

qədim mədəniyyətimizə olan münasibətimizdir. Müasir strukturun yaradılması və şəhərdə quruculuq-abadlıq işlərinin aparılması gələcəyə atılan addımlardır. Bakı bu iki anlayışı özündə birləşdirir: həm qədim tarix, həm də ki, müasirlik. Eyni qaydada ölkəmiz – Azərbaycan öz müstəqil həyatını yaşayır. Dövlətimiz çox möhkəm milli mənəvi dəyərlər üzərində qurulubdur. Ancaq gələcəyə – müasirliyə, inkişafa, tərəqqiyə yönəldilibdir.

Bugünkü iclasın əsas məqsədi Bakı qəsəbələrinin inkişafını müzakirə etmək və yaxın zamanlarda qəsəbələrin inkişafına dair böyük və geniş proqram qəbul etməkdir. Bu binada – şəhər meriyasında 2005-ci ilin sonunda biz buna bənzər iclas keçirmişik. Ondan sonra 2006-cı ildə Bakının kənd və qəsəbələrinin inkişafına dair xüsusi proqram qəbul edilmişdir. O proqram artıqlaması ilə icra edilmişdir. Mən o görüşü yaxşı xatırlayıram. O vaxt Bakı qəsəbələrini təmsil edən nümayəndələr, ağsaqqallar öz fikirlərini, təkliflərini vermişdilər. Bu gün də onlar – nümayəndələr bu salondadırlar. O təkliflər və tövsiyələr əsasında proqram qəbul edildi və qəsəbələrin inkişafı üçün çox işlər görülübdür.

Bakı şəhəri, bütün bölgələr inkişaf edir. Bölgələrin inkişafı üçün 2004–2008-ci və 2009–2013-cü illəri əhatə edən konkret proqramlar vardır. Konkret icra mexanizmləri var, maliyyə təminatı və layihələr artıq mövcuddur. Bakı qəsəbələrində də buna oxşar proseslər getməlidir. Orada aparılan işlər ölkəmizin bugünkü səviyyəsinə bəzi hallarda uyğun gəlmir. Ona görə bu gün Bakı qəsəbələrinin inkişafına dair xüsusi proqram müzakirə olunacaqdır. Artıq mən tapşırıq vermişəm ki, həm yerlərdən gələn təkliflər, tövsiyələr, həm də müvafiq dövlət qurumları tərəfindən irəli sürüləcək təkliflər əsasında bu proqram yaxın zamanlarda qəbul edilsin.

Proqramın icrası üçün bu ilin dövlət büdcəsində əlavə vəsait nəzərdə tutulmalıdır. Düzdür, büdcəmiz formalaşıb, ancaq yəqin ki, büdcəyə düzəlişlər ediləcək və beləliklə, bu proqram da orada öz həllini tapmalıdır. Qəsəbələrin inkişafı, sosial infrastrukturun yaradılması, məktəblər, tibb ocaqları, yollar, qəsəbədaxili, qəsəbələrarası yollar, kommunikasiyalar,

qazlaşdırma, içməli su layihələri, iş yerlərinin açılması məsələləri proqramımızda əsasən həllini tapmalıdır.

Son bir neçə il ərzində 34 məktəb, 18 tibb müəssisəsi tikilib və təmir edilibdir. Sürətli qazlaşdırma prosesi gedir və biz bu prosesi başa çatdırmalıyıq. Qəsəbələrin inkişafı üçün nə lazımdırsa onu edəcəyik. Çünki Bakının ətrafında yerləşən qəsəbələrdə 800 mindən artıq əhali yaşayır. Bu özlüyündə böyük bir şəhərdir və bu qəsəbələr şəhər səviyyəsinə gətirilməlidir. Bunu etmək üçün, yenə də deyirəm, maliyyə vəsaiti lazımdır – o da bizdə vardır. Siyasi iradə lazımdır – o da bizdə vardır. Artıq bizdə peşəkar kadrlar da vardır. Texnikamız, şirkətlərimiz vardır ki, bütün bu işləri onlar görə bilərlər. Bu, böyük zəhmət tələb edən iş olacaqdır. Bütün dövlət qurumları, yerli icra orqanları, bələdiyyələr, kəndlərdə, qəsəbələrdə yaşayan sakinlər – hamımız burada bir məqsədə xidmət etməliyik ki, istədiyimizə qısa müddət ərzində nail ola bilək.

Hesab edirəm ki, biz bu proqramı 2, maksimum 3 il ərzində icra etməliyik. Mənim tərəfimdən ilkin tapşırıq veriləndə alınan məlumatlar göstərdi ki, əslində biz bu qəsəbələri yenidən quracağıq. Orada bəzi yerlərdə infrastruktur bərbad vəziyyətdədir, iş yerləri məsələsi vardır, orta və kiçik sahibkarlığın inkişafına dəstək verilməlidir. 800 min əhalini əhatə edən qəsəbələrin inkişafı proqramının icrası çox böyük işdir. Biz son bir neçə ildə dünya miqyasında ən sürətli inkişafa nail ola bilmişik. Ən sürətli inkişaf Azərbaycandadır. Bizi istəməyənlər də məcburdurlar ki, bunu etiraf etsinlər. Bakıya və bölgələrə gələn hər bir vətəndaş, hər bir xarici qonaq bu gözəlliyə, bu abadlığa, bu təmizliyə heyran qalır. Bunu biz yaratmışıq. Ona görə qəsəbələrin problemlərini də özümüz həll edəcəyik. Bugünkü müşavirə, ilk növbədə bu məsələlərlə bağlıdır və bu gün biz müzakirələr aparacağıq.

## YEKUN NİTQİ

Bugünkü iclasın əminəm ki, çox böyük əhəmiyyəti olacaqdır. Çünki bu iclasda nəinki şəhərdə və qəsəbələrdə görülmüş işlər müzakirə edildi, gələcək addımlarımız bu yaxınlarda müəyyən olunacaqdır.

Biz yaxşı bilirik ki, ölkədəki vəziyyət necədir, həm bölgələrdə, həm Bakıda, həm Bakının qəsəbələrində hansı problemlər öz həllini gözləyir. Hesab edirəm ki, indiki mərhələdə bütün bu problemləri həll etmək üçün, bir də demək istəyirəm, xüsusi proqram tərtib olunmalı, yaxın zamanlarda qəbul edilməlidir. Burada qaldırılan məsələlər – yollar, içməli su, kanalizasiya, suvarma, evlərin qeydiyyata alınması ilə bağlı qaldırılan məsələlər də bu proqramda öz həllini tapacaqdır.

Hər bir qəsəbə üzrə proqramda xüsusi bəndlər olacaqdır. Hər qəsəbə üzrə kompleks yanaşma təmin edilməlidir, icra mexanizmləri, icra müddəti, şübhəsiz, müəyyən edilməlidir. Proqramın qəbul olunmasından sonra dövlət büdcəmizdə əlavələr edilməlidir ki, ilin sonuna qədər biz artıq proqramın icrasına başlayaq. Vaxt itirməməliyik. Bu proqramı biz 2-3 il ərzində icra etməliyik, bunu uzatmamalıyıq. Baxmayaraq ki, burada görüləcək işlər çoxdur və xüsusilə infrastruktur layihələri həm böyük vəsait tələb edəcək, həm də icrası üçün müəyyən qədər vaxt tələb olunacaqdır. Ancaq hesab edirəm ki, biz 3 il ərzində bu proqramın icrasına nail olacağıq.

Burada infrastruktur layihələri arasında elektrik enerjisi ilə təchizat məsələləri öz həllini tapır. Demək olar ki, ölkə üzrə bütövlükdə bu məsələ öz həllini tapmışdır. Son illər 10 yeni elektrik stansiyası tikilmişdir. Hər bir bölgədə dayanıqlı elektrik enerjisi ilə təchizat məsələləri öz həllini tapır. Xüsusilə Bakı şəhərində bu məsələyə xüsusi diqqət göstərilmişdir. Bakı Elektrik Şəbəkə Şirkəti qurulandan sonra bu sahədə müsbətə doğru çox ciddi dönüş yaranmışdır. Proses davam edir. Dövlət büdcəsindən vəsait ayrılır və növbəti illərdə yeni yarımstansiyaların tikintisi, xətlərin dəyişdirilməsi, transformatorların quraşdırılması nəzərdə tutulur. Proqramda da hər bir qəsəbə üzrə bu məsələ öz həllini tapmalıdır. Hazırda vəziyyət qənaətbəxşdir. Amma nəzərə alsaq ki,

ölkəmiz inkişaf edir, əhali artır, ölkəmizdə böyük sənayeləşmə prosesi gedir, hazırda Bakıda yeni tikilmiş və tikiləcək binalar, mehmanxanalar, sənaye obyektləri əlavə enerji tələb edəcəkdir.

Elə etməliyik ki, daim enerji ilə təminat tələbatımızı qabaqlasın. Bu məqsədlə növbəti illərdə tədbirlər görüləcəkdir. Qazlaşdırma ilə bağlı ən böyük problemlərdən biri ondan ibarət idi ki, bu məsələ uzun illər ərzində ölkəmizdə lazımi səviyyədə öz həllini tapmamışdır. Səbəb təkcə qazın az olmasında deyildir. Hazırda qazın istehsalını böyük dərəcədə artırmışıq, yeraltı qaz anbarları tikilmişdir və o anbarlara 3 milyard kubmetr qaz doldurulub. Bir neçə il əvvəl o anbarların gücü cəmi 500 milyon kubmetr idi və qış aylarında müəyyən problemlər yaranırdı. Ancaq problemlər təkcə qazın həcmi ilə deyil, qaz şəbəkəsinin infrastrukturunun lazımi səviyyədə olmaması ilə bağlıdır. Hazırda Dövlət Neft Şirkəti və onun tərkib hissəsi olan «Azəriqaz» qurumu bu məsələ ilə bağlı çox ciddi məşğuldur. Bütün bölgələrdə qazlaşdırma prosesi gedir, ən ucqar bölgələrdə, xüsusilə sərhəd bölgələrində böyük proqramlar icra edilir. Bakı şəhərində və Bakı qəsəbələrində bu proqram tam şəkildə icra olunmalıdır.

Mən giriş sözümdə qeyd etdim ki, hazırda Bakıda qazlaşdırma 97 faiz təşkil edir və qalan 3 faiz də öz həllini tapmalıdır. Yenə də deyirəm, biz xətlərin çəkilişi ilə də məşğul olmalıyıq. Hər yerdə təzyiqin qaldırılması və lazımi səviyyəyə çatdırılması üçün əlavə tədbirlər görüləcəkdir.

Burada qaldırılan məsələlərdən biri kanalizasiya və içməli su məsələləridir ki, əfsuslar olsun, şəhərimizə bütün dövrlərdə xas olan problemlərdir. Bakını içməli su ilə təmin etmək üçün çox böyük layihələr icra edilir. Oğuz–Qəbələ–Bakı su kəmərinin tikintisi məhz bu məqsədi daşıyırdı. Bakıda su anbarları tikilir və tikilməlidir, su xətləri yeniləşdirilməlidir. Burada itkilər çox böyük səviyyədədir. Əgər biz o itkiləri aradan götürsək, hətta hazırkı su təchizatı Bakını su ilə təmin etmək üçün artıqlaması ilə kifayətdir.

Mən ümid edirəm ki, bu sahədə aparılan islahatlar tezliklə öz bəhrəsini verəcəkdir. Bakının və qəsəbələrin təmiz içməli su ilə

dayanıqlı təminatı üçün qəbul ediləcək bu proqramda çox ciddi məsələlər və müddət qoyulmalıdır, şübhəsiz ki, maliyyə resursları da təmin edilməlidir.

Qəsəbələrarası yollar problemi vardır. Bu problem tədricən həll olunur. Ancaq mən deyə bilərəm ki, bu məsələnin həlli magistral yolların hesabına baş verir. Bakı–aeroport avtomobil yolunun genişləndirilməsi və yenidən qurulması müəyyən dərəcədə qəsəbələrarası yolların da inkişafına xidmət göstərir. Ancaq biz bununla bərabər, xüsusilə qəsəbələri birləşdirən yollara fikir verməliyik, əlavə vəsait də nəzərdə tutulacaqdır.

Bakı–aeroport və aeroport–Zığ istiqamətində tikilmiş yollar, əlbəttə ki, qəsəbələrarası yolları da birləşdirir. Bu yolun indi tikintisi davam edir və Sumqayıta qədər uzadılacaqdır. Bir neçə qəsəbə bir-biri ilə bağlanacaqdır. Hazırda görülmüş işlər Bülbülə, Binə, Mərdəkan, Buzovna, Bilgəh qəsəbələrini birləşdirir. O yol Bilgəhdən Sumqayıta – Nardaran, Kürdəxanı, Pirşağı, Fatmayi, Novxanı, Masazır və Corata qədər uzadılacaqdır. Biz bütün qəsəbədaxili və qəsəbələrarası yolları da proqrama salmalıyıq. Bu məsələ ilə bağlı xüsusi tapşırıqlar veriləcəkdir.

Evlərin qeydiyyata alınması problemi vardır. Biz bu problemi bilirik və həll etməliyik. Elə etməliyik ki, bu problem həll olunarkən xoşagəlməz halların qarşısını tam şəkildə ala bilək. Şəxsən məni bu məsələnin həlli ilə bağlı ən çox narahat edən məhz bu mənfi hallar və onların mümkünlüyüdür. Çünki o evlər qeydiyyata alınmalıdır. Qeydiyyataalma zamanı əsassız tələblər də irəli sürülə bilər, rüşvət, əsassız maraqlar da ola bilər. Bu da reallıqdır. Ona görə də Hacıbala Abutalıbova göstəriş vermişəm, bu məsələnin həlli üçün şəffaf mexanizm işlənilməlidir ki, biz burada korrupsiyanı, rüşvətxorluğu tamamilə aradan götürək. Yoxsa, xoşniyyətli bir təşəbbüs yenə də bəzi adamların tamahkarlığı ucbatından bizə ancaq problemlər gətirə bilər. Çox ciddi təftiş aparılmalıdır ki, hansı evlər qeydiyyata alınmalıdır, o evlər necə tikilib. Gələcəkdə bu qanunsuz evlərin tikintisinə yol verilməməlidir. Yoxsa indi sənədsiz, qanunsuz tikilmiş bu

evləri qeydiyyata alacağıq, sonra yenə qanunsuz yollarla torpaq sahələri veriləcək və evlər tikiləcəkdir. Əfsuslar olsun ki, keçmişdə də bu praktika olub. Bir neçə gün ərzində daşları tökürlər, binanı qaldırırlar, sonra da deyirlər ki, mən burada yaşayıram, sənəd verin.

Qəsəbədaxili yolların tikintisi məsələləri tezliklə öz həllini tapmalıdır. Bu sahədə vəziyyət məni qane etmir. Bu məsələni siz yerlərdə həll etməlisiniz. Bu nə prezidentin, nə də Şəhər İcra Hakimiyyəti başçısının məsələsi deyildir. Baxmayaraq ki, biz bu məsələlərlə də məşğuluq. İndi bələdiyyələr vardır, onlar bu işləri görməlidirlər. Əslində bu onların işidir. Qəsəbədaxili yollar bərbad vəziyyətdədir, bir çox hallarda torpaq yollarıdır, heç asfalt da yoxdur. Yağış, qar yağanda oradan keçmək mümkün deyildir. Dözülməz haldır. Bu, Bakı şəhərinin içidir, niyə elə olmalıdır?! Biz bütün yolları yüksək keyfiyyətlə tikirik. Əgər biz bir neçə il əvvəl bu layihələrə başlamasaydıq, bu gün şəhərdə nəqliyyat dayanardı və iflic vəziyyətinə düşərdi. Mən görürəm ki, bəzi hallarda magistrala çıxan yollar palçıq, torpaq yollarıdır. Mən Nəqliyyat Nazirliyinə bu barədə dəfələrlə göstəriş vermişəm. Hələ ki, bu məsələ məni qane etmir. Ona görə də burada məsuliyyət bölgüsü aparılmalıdır ki, hansı yolları kim tiksin. Bu pulların böyük hissəsi dövlət büdcəsindən verilir. Bələdiyyənin yığdığı pulla müəyyən işləri görmək olar, amma dövlət dəstəyi də olmalıdır.

Bu vəsait Şəhər İcra Hakimiyyətinə, Nəqliyyat Nazirliyinə verilir. Şəhərin mərkəzində yollar indi şəhər meriyası tərəfindən tikilir və hətta ən xırda nüanslara qədər belə, çox keyfiyyətlə tikilir. Təzə alınmış lüklər artıq yol hərəkətinə problem yaratmır. Onlar elə qoyulur ki, o lükün üstündən maşın keçəndə heç adam hiss etmir. Qəsəbədaxili yollar da bu səviyyədə olmalıdır. Gərək məsuliyyət və işə normal münasibət olsun. Biz hamımız burada yaşayırıq. Bakıda istər mərkəzdə, istər qəsəbədə, ən ucqar yerdə yaşayan vətəndaş normal yollardan istifadə etməlidir.

Keçən dəfə bu salonda keçirilən görüşdə qəsəbələrin nümayəndələri məktəb tikintisi ilə bağlı məsələlər qaldırmışdılar. O vaxt o məsələlərə operativ reaksiya verildi, məktəblər tikildi. Bu gün bu məsələ qaldırılmadı, çünki əsas məsələlər öz həllini tapmışdır. Ancaq yenə də məktəb tikintisinə ehtiyac vardır. Bakıda və Bakının qəsəbələrində qəzalı vəziyyətdə məktəblər vardır. Bu məsələ ilə bağlı göstəriş vermişəm ki, ciddi təftiş aparılsın. Bu il biz qəzalı vəziyyətdə olan məktəbləri bərpa etməliyik. Son illər qəsəbələrdə 34 məktəb tikilib, yenə də tikintiyə ehtiyac vardır. O cümlədən tibb müəssisələrinin yaradılması, təmiri, bərpası prosesi də getməlidir.

Son illərdə Bakı qəsəbələrində 11 idman və sağlamlıq ocağı tikilmişdir. İki Olimpiya İdman Kompleksi – biri Şağanda, biri Hövsanda istifadəyə verilmişdir. Bütün qəsəbələrdə idmanla məşğul olmaq üçün şərait – ya idman meydançaları, ya kiçik futbol meydançaları, ya məşq zalları olmalıdır. Bu məsələlərə də diqqət verilməlidir.

Ölkəmizdə və xüsusilə Bakıda bütün mədəniyyət ocaqlarının təmiri prosesi gedir. Şəhərin mərkəzində, İçərişəhərdə, digər yerlərdə tarixi-memarlıq abidələri, məscidlərimiz bərpa olunur, yenidən tikilir. «Qala» tarixi-etnoqrafiya qoruğu yaradılıbdır, açıq səma altında nadir muzey mərkəzidir. Bu nəinki Bakıda, regionda nadir bir mərkəzdir. Qobustan qoruğu – artıq orada da yeni muzeyin tikintisi layihəsi icra edilir, o da dünya miqyasında nadir mədəniyyət ocağımızdır. O qayaüstü rəsmlər göstərir ki, burada 10 minlərlə il bundan əvvəl insanlar yaşamışlar. «Atəşgah» tarixi muzey mərkəzinin bərpası və yenidən qurulması layihəsi vardır, bu məsələlərə daha da ciddi diqqət göstərilməlidir. Bütün dini abidələrimiz bərpa olunmalıdır.

Şəhər nəqliyyatının vacib hissəsi olan metro tikintisi davam edir, 2008–2009-cu illərdə iki stansiya – «Nəsimi» və «Azadlıq prospekti» stansiyaları istifadəyə verilmişdir. Bu proses gedir, bir müddət əvvəl mənim sədrliyimlə şəhərimizin metro

təsərrüfatının inkişafına dair geniş müşavirə keçirildi, proqram hazırlanır və qəbul olunmalıdır. Xarici məsləhətçilər cəlb edilmişdir və 2015-ci ilə qədər Bakıda ən azı altı yeni stansiya istismara verilməlidir. Hazırda stansiyaların sayı 22-dir. Böyük inkişaf planına əsasən stansiyaların sayı 70-ə çata bilər. Ancaq bu 2030-cu ilə qədər çəkəcəkdir. Hər halda, 2015-ci ilə qədər 6 stansiya istismara verilməlidir.

Ekoloji məsələlərin həlli sahəsində çox yaxşı işlər gedir, xüsusilə magistral yolların kənarında böyük meşə zolaqları salınır. Keçən il «Ekologiya ili» olduğuna görə, qeyd etdiyim kimi, Bakıda üç milyondan artıq ağac əkilmişdir. Bu proses davam etdirilməlidir. İndi yaz başlayır. Yaz-payız mövsümlərində bu işə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin xətti ilə daha da böyük təkan verilməlidir. Vaxtilə aeroportun yanında fəaliyyət göstərən yarmarkanı oradan köçürdük, o da çox böyük məsələ idi. Heç kim inanmırdı ki, biz oranı köçürə bilərik, ancaq köçürdük, onlara yerlər də verildi, orada iş adamları da müasir səviyyədə ticarət obyektlərini tikdilər. Dairəvi yol da ora birləşdi və bu gün xaricdən və bölgələrdən Bakıya alış-veriş üçün gələnlər şəhərin mərkəzinə girmədən şimal istiqamətindən, yaxud da ki, cənub–qərb istiqamətindən birbaşa o ticarət mərkəzinə rahat çata bilirlər. Keçmiş yarmarkanın yerində isə meşə zolağı salındı və əminəm ki, bir neçə ildən sonra orada böyük meşə yaranacaqdır. Planlarımızda şəhərin müxtəlif yerlərində yeni parkların, meşə zolaqlarının salınması da vardır. Bakı Şəhər İcra Hakimiyyətinə bu məsələlərlə bağlı müvafiq tapşırıqlar verilib.

Qəsəbələrin problemlərinin həlli üçün ilk növbədə qaz, işıq, su, kanalizasiya, suvarma, sosial infrastruktur layihələri öz həllini tapmalı, məktəblər, tibb ocaqları tikilməli, abadlıq işləri aparılmalıdır. Bəzi qəsəbələrdə abadlıq işləri lazımi səviyyədə aparılır, bəzilərində, ümumiyyətlə, aparılmır. Proqramda bu məsələ ilə bağlı xüsusi maddələr olmalıdır ki, qəsəbələrin xarici görkəmi də gözəl və müasir olsun. Bununla bərabər, Bakıətrafı

qəsəbələrdə yaşayan vətəndaşların məşğulluq məsələləri də həll olunmalıdır.

Mən artıq müvafiq göstərişləri verdim, o cümlədən İqtisadi İnkişaf Nazirliyinə. Çünki biz əsas vəsaiti Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə bölgələrə yönəldirik. Mən təklif etdim və indi tapşırıq verdim ki, o vəsaitdən Bakı qəsəbələrinə də kredit şəklində verilməlidir. Yaxud Bakı qəsəbələrinin inkişafı üçün xüsusi bir kredit fondu yaradıla bilər. Biz bu kredit fondundan yalnız kiçik və orta sahibkarlığın inkişafı üçün istifadə etməliyik. Hər halda, indi İqtisadi İnkişaf Nazirliyi bu məsələlərlə bağlı işləyir və hesab edirəm ki, yaxın zamanlarda öz təkliflərini verəcəkdir. Elə etməliyik ki, Novruz bayramından sonra bu proqramı təsdiq edək. O vaxt – güman edirəm ki, aprel ayında dövlət büdcəsinə əlavələr ediləcəkdir. Çünki indi maliyyə imkanlarımız genişlənir və biz bu il görülə biləcək işləri gələn ilə saxlamamalıyıq. Ona görə bu proqram da ən uzağı aprel ayında tərtib olunmalıdır ki, dövlət büdcəsində öz əksini tapsın. Mən iş yerlərinin açılması ilə bağlı yerli və xarici investorları da dəvət edirəm ki, Bakı qəsəbələrində investisiya qoysunlar, buna ehtiyac vardır. Vaxtilə Azərbaycan Dövlət İnvestisiya Şirkətini o məqsədlə yaratdıq ki, xarici investorları cəlb etsin, bizə lazım olan istiqamətlərdə vəsait qoysun. İnvestisiya Şirkəti də bu işlərə qoşulmalıdır. Əlbəttə ki, ən böyük yükü Azərbaycan dövləti öz üzərinə götürəcək və biz güzəştli kreditlərin verilməsi ilə və infrastruktur layihələrinin yaradılması sayəsində buna nail olacağıq. Görüləcək işlərin bəzi istiqamətlərini qeyd etmək istəyirəm. Zeytunçuluq inkişaf etməlidir. Bunun gözəl ənənələri vardır və təbii iqlim də buna müsaidə edir. Zeytunçuluq təsərrüfatlarının, müasir emal müəssisələrinin yaradılması prosesi sürətlə getməlidir. İndi Azərbaycanda zeytun istehsalı sürətlənir. Bakı qəsəbələrində bunu etmək üçün çox yaxşı imkanlar vardır.

Quşçuluq fabriklərinin yaradılmasına artıq başlanılmışdır. Bəzi qəsəbələrdə quşçuluq fabrikləri işə salınır. Bütövlükdə biz hələ ki, quş əti ilə özümüzü təmin etmirik, haradasa 80 faiz

səviyyəsində təmin edirik. Mən göstəriş vermişəm ki, quşçuluğun inkişafı üçün əlavə vəsait ayrılsın, o cümlədən Bakı qəsəbələrində biz bu məsələyə baxmalıyıq. Yerli istehsal qiymətlərin sabit vəziyyətdə saxlanmasına da şərait yaradacaq. Bu məsələ ilə bağlı bir məqamı da vurğulamaq istəyirəm. Bəzi hallarda biz inhisarçılıqla bağlı mübarizəmizi ancaq idxal olunan malların gətirilməsində görürük. Burada həqiqət və ədalət vardır.

Biz indi özümüzü bir neçə əsas ərzaq məhsulları ilə tam şəkildə təmin edirik. Ölkə daxilində istehsal olunan məhsulların qiyməti bəzi hallarda əsassız və süni şəkildə artırılır. Bu yaxınlarda yumurtanın qiyməti kəskin şəkildə artmışdır. Mən göstəriş verdim ki, araşdırsınlar. Yumurta Azərbaycanda istehsal edilir, demək olar ki, idxal olunmur. Nə üçün onda qısa müddət ərzində yumurtanın qiyməti bir neçə dəfə qalxdı? İndi iyirmi qəpikdən artıqdır. Kim bunu edir? Araşdırırıq bu məsələni. Burada sırf inhisarçılıq, istehsal sahəsində inhisarçılıq vardır. Buna dünyada «Kartel sövdələşməsi» deyirlər. Bu, sırf «Kartel sövdələşməsi»nin təzahürüdür. Mən dərhal göstəriş verdim ki, yumurtanın qiymətini süni şəkildə şişirdənlər cinayət məsuliyyətinə cəlb olunsunlar. Cinayət işi açılıbdır və bunu edənlər öz cəzalarını alacaqlar.

Biz sahibkarlığı dəstəkləyirik. Nə qədər kreditlər verilib. Dövlət kreditlər verməsəydi, onlar fermaları necə tikə bilərdilər? Dövlət onlara dəstək olmasaydı, infrastruktur yaratmasaydı, elektrik xətləri çəkməsəydi, haradan bu sahibkarlıq inkişaf edə bilərdi? Mən həmişə deyirəm ki, sahibkarlıq inkişaf etməlidir. Burada oturan icra başçılarına deyirəm ki, icazə verin işləsinlər, kömək göstərin və bir çox hallarda biz bunu görürük. Yerli icra orqanları sahibkarlığın inkişafına dəstək verirlər. Amma sahibkarlar da məsuliyyətli olmalıdırlar. Bu nə deməkdir, niyə qiymətin süni şəkildə qaldırılması ilə məşğul olurlar?! Kim burada qiymətin süni şəkildə artımı ilə məşğul olmaq istəyirsə, özü üçün nəticə çıxarsın və fikirləşsin ki, onu hansı aqibət gözləyir. Qiymət Azərbaycanda bazar iqtisadiyyatı

prinsipləri əsasında tənzimlənir, ancaq biz də bilirik dünya qiymətləri nədir, Azərbaycanda qiymətlər necədir?!

İndi dünyada neftin qiyməti bahalaşıb, şübhəsiz, idxal olunan məhsullara öz təsirini göstərəcəkdir. Bəlkə dərhal olmayacaq, bu proses bir müddətdən sonra hiss ediləcəkdir. Bunu biz bir neçə il əvvəl də görmüşük, neftin qiyməti qalxandan bir neçə ay sonra burada idxal olunan məhsulların qiyməti qalxdı. Ancaq yerli məhsulların qiyməti niyə qalxmalıdır? Biz özümüzü ətlə, meyvə-tərəvəzlə, başqa məhsullarla demək olar ki, təmin edirik, ixrac da edirik. Nə üçün o qiymət qalxmalıdır? Kim bundan istifadə edir? Bax, kim istifadə edir, hələ ki gec deyil, düz yola dönsün, yoxsa cəza tədbirlərimiz çox güclü və təsirli olacaqdır.

Hesab edirəm ki, Bakı qəsəbələrində sahibkarlığın inkişafı üçün yeni çörəkbişirmə sexləri yaradılmalıdır. Ölkəmizdə indi müasir emal fabrikləri, konserv zavodları, süd kombinatları, ət kəsim fabrikləri, ət kombinatları tikilib, hamısı müasir səviyyədə. Ancaq son illərdə çörək istehsalına o qədər də fikir verilməmişdir, bu proses hələ də köhnə, elə dədə-baba üsulu ilə gedir. Mən İqtisadi İnkişaf Nazirliyinə göstəriş vermişəm ki, çörəkbişirmə sexlərinin yaradılmasını kreditlərlə stimullaşdırsınlar və xüsusilə Bakıda və Bakının qəsəbələrində bu proses daha da sürətlə getməlidir.

Biz müasir texnologiyalar əsasında fəaliyyət göstərən istixanalar yaratmalıyıq. Bu istixanalarda həm faraş tərəvəz yetişdirilə, həm gülçülük inkişaf etdirilə bilər. Bu, Bakı qəsəbələri üçün, demək olar ki, ənənəvi bir sahədir. Bunu biz daha da gücləndirməliyik.

Burada qaldırılan məsələlər öz həllini gözləyir. Amma bu, məsələlərin bir hissəsidir. Biz Bakı qəsəbələrinin inkişafına tam şəkildə nail olmalıyıq. Biz burada həm infrastruktur, həm sənayeləşmə, iş yerləri, yollar, kommunal sahə – bütün bu məsələlərə kompleks şəkildə yanaşmalıyıq. Bu çox böyük proqramdır. Yeni şəhərin infrastrukturunun yaradılmasına bərabər bir proqramdır. Bu proqramın icrası nəticəsində

əminəm ki, Bakıda və Bakı qəsəbələrində bütün işlər ən yüksək səviyyədə görüləcəkdir.

Bakımızın inkişafı davam edir, şəhərimiz gözəlləşir, abadlaşır. Hazırda yeni böyük layihə icra edilməyə başlamışdır – «Ağşəhər» layihəsi. Bu layihənin də çox böyük rəmzi mənası vardır. Çünki tarixi «qaraşəhər» adlandırılan ərazidə yeni inkişaf layihəsi təqdim edilibdir. Beynəlxalq sərgilərdə «Ağşəhər» layihəsi təqdim olunur. Böyük bir yaşayış mərkəzi olacaqdır. Kiçik bir şəhərə bərabər inkişaf layihəsi olacaqdır. Bakıda ekoloji cəhətdən ən yararsız yerlərdə, neftlə, neft tullantıları ilə çirklənmiş torpaqlarda müasir, ekoloji təmiz, yeni bir tikinti layihəsi icra ediləcəkdir. Çox böyük vəsait tələb edən layihədir və bu layihəni biz həm dövlət tərəfindən maliyyələşdirəcəyik, həm də əsas yükü özəl sektor öz üzərinə götürəcəkdir. Azərbaycanda özəl sektorun inkişafı, xarici sərmayələrin qorunması üçün bütün lazımi tədbirlər görülüb. Bu gün verilən tapşırıqlar növbəti illərdə icra olunmalıdır. Şəhərimizdə bütün işlər yüksək səviyyədə görülməlidir, sakinlərin rahatlığı üçün bütün şərait yaradılır, yaradılacaqdır. Bakı şəhərinin qəsəbələrinin Yeni İnkişaf Proqramının qəbul olunmasından sonra qəsəbələrə yeni həyat gələcək, güclü təkan veriləcəkdir. Bütün dövlət qurumları, yerlərdəki nümayəndələr bu proqramın icrasında fəal iştirak etməlidirlər. Bakı bizim paytaxtımızdır, doğma, əziz şəhərimizdir. Elə etməliyik ki, Bakı şəhərində bütün işlər yüksək səviyyədə görülsün.

Sağ olun.

## ALBANİYA BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR NAZİRİ EDMOND HACİNASTONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 mart 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da Albaniya Baş nazirinin müavini, Xarici İşlər naziri Edmond Hacinastonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Edmond Hacinasto Albaniyanın Baş naziri Sali Berişanın salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkəmizdə həyata keçirilən böyük quruculuq işlərinin onda dərin təəssürat yaratdığını vurğulayaraq Azərbaycanda gedən sürətli inkişaf proseslərini respublikamızın düzgün istiqamətdə irəliləməsinin göstəricisi kimi dəyərləndirdi. Qonaq bildirdi ki, Azərbaycan ilə Albaniya arasında mövcud olan siyasi münasibətlər əlaqələrimizi həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində daha da genişləndirə bilər. Ölkələrimiz arasında qarşılıqlı iqtisadi münasibətlərin inkişafı üçün də böyük imkanların olduğunu dedi.*

*Ölkələrimiz arasında yaxşı əlaqələrin olduğunu vurğulayan dövlətimizin başçısı Azərbaycanın Albaniya ilə ikitərəfli münasibətlərin inkişafında maraqlı olduğunu dedi. Prezident İlham Əliyev Albaniyanın yüksək səviyyəli rəsmiləri ilə keçirdiyi görüşləri məmnunluqla xatırladaraq, Albaniya prezidenti ilə dostluq münasibətində olduğunu bildirdi. Prezident İlham Əliyev Albaniyanın Baş naziri Sali Berişanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Baş nazirə çatdırmağı xahiş etdi.*

## YAPONİYANIN İMPERATORU ƏLAHƏZRƏT AKİHİTOYA

Əlahəzrət!

Ölkənizdə baş vermiş dəhşətli zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Yaponiya xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 mart 2011-ci il*

# BAKININ SƏBAİL RAYONUNDAKI 6 NÖMRƏLİ MƏKTƏBİN YENİ BİNASINDA TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*11 mart 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də paytaxtın Səbail rayonundakı 6 nömrəli məktəbin yeni binasında tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısı 6 nömrəli məktəbin yeni binasının tikildiyi əraziyə gəldi, inşaat işlərinin gedişi ilə tanış oldu. Prezident İlham Əliyev məktəbin yeni binasının inşası ilə bağlı tapşırıqlarını verdi.*

*Bildirildi ki, qısa vaxt ərzində binanın beş mərtəbəsi inşa edilmiş, idman zalı üçün nəzərdə tutulan korpusun tikintisi başa çatdırılmışdır. Hazırda binada tamamlama işləri aparılır. Burada şagirdlərin təhsil almaları üçün yüksək şərait yaradılacaqdır.*

*Görülən işlərlə yaxından tanış olan prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.*

## İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ XANIM MİŞELİN KALMİ-RENİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*14 mart 2011-ci il*

*Martın 14-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlmiş İsveçrə Konfederasiyasının Prezidenti xanım Mişelin Kalmi-Renin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycan prezidenti İlham Əliyev İsveçrə prezidenti xanım Mişelin Kalmi-Reni qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi İsveçrə prezidentinə raport verdi.*

*İsveçrənin və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Prezidentlər Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*İsveçrə prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Mişelin Kalmi-Reyə, İsveçrə nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında prezidentlərin qarşısından keçdi.*

*Prezidentlər rəsmi foto çəkdirdilər.*

## İSVEÇRƏ PREZİDENTİ MİŞELİN KALMİ-RE İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı*

*14 mart 2011-ci il*

*Martın 14-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsveçrə Konfederasiyasının Prezidenti Mişelin Kalmi-Renin təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə İsveçrə arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı. Ölkələrimiz arasında iqtisadi, o cümlədən enerji sahəsində əməkdaşlığın inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğu bildirildi.*

*Görüşdə Azərbaycan ilə İsveçrə arasında ikitərəfli münasibətlərin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə* olundu.

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 mart 2011-ci il*

*Martın 14-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsveçrə Konfederasiyasının Prezidenti Mişelin Kalmi-Renin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Xanım Prezident! Bir daha Azərbaycana xoş gəlmisiniz! Sizi görməyimə çox şadam. Bizim indicə ikitərəfli əlaqələrimizin müxtəlif sahələri ilə bağlı, o cümlədən regional müstəvidə maraqlı müzakirələrimiz oldu. Biz dəfələrlə görüşmüşük. Xatirimdədir, sonuncu görüşümüz Davosda olmuşdu. Hesab edirəm ki, bu səfər çox vacib səfərdir. Çünki İsveçrə prezidentinin ölkəmizə rəsmi səfəridir. Bu da ikitərəfli əlaqələrimizin inkişafına nə qədər böyük diqqət yetirdiyimizi nümayiş etdirir. Deyə bilərəm ki, əlaqələrimiz uğurla inkişaf edir. Siyasi dialoq və məsləhətləşmələrimiz yüksək səviyyədədir. İkitərəfli iqtisadi sahədə yaxşı perspektivlərimiz vardır. Enerji təhlükəsizliyi məsələləri daim müzakirələrimizin bir hissəsidir. Biz İsveçrəni Azərbaycan üçün vacib tərəfdaş, dost ölkə hesab edirik. Əlaqələrimizi daha sürətlə inkişaf etdirmək, ikitərəfli gündəliyimizi genişləndirmək üçün əlimizdən gələni edirik.

*Bu əlaqələrin həyatımızın digər sahələrinə də təsir göstərdiyini deyən dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, yaxın illərdə iqtisadi, qarşılıqlı investisiyaların yatırılması, mədəniyyət mübadiləsi və təbii ki, dünya gündəliyi, xüsusilə də*

*regionumuzda və Avropada, o cümlədən regional inkişaf üçün əsas məsələlərdən hesab edilən enerji sahəsində daha böyük inkişafın şahidi olacağıq.*

**Mişelin Kalmi-Re:** Təşəkkür edirəm, cənab Prezident! Mənə göstərdiyiniz səmimi qəbula görə Sizə minnətdarlığımı bildirirəm. Mən ikitərəfli əlaqələrimizin səviyyəsindən məmnunam. Ötən illər ərzində biz bu əlaqələrimizi inkişaf etdirmişik. Müxtəlif sahələrdə, o cümlədən mədəniyyət, iqtisadiyyat və enerji sahələrində ikitərəfli əlaqələrimizi indiki səviyyədən daha yaxşı inkişaf etdirməliyik. Düşünürəm ki, ölkələrimiz arasında xüsusi tərəfdaşlıq mövcuddur. Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq edirik.

*İsveçrə dövlətinin başçısı ölkələrimizin «Bretton Woods» təsisatlarının eyni regional qrupunda təmsil olunduğunu da dedi və oradakı yaxşı tərəfdaşlığa görə Azərbaycan prezidentinə minnətdarlığını bildirdi.*

## AZƏRBAYCAN VƏ İSVEÇRƏ PREZİDENTLƏRİNİN MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLARI

*14 mart 2011-ci il*

*Martın 14-də geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyev və İsveçrə prezidenti Mişelin Kalmi-Re mətbuat üçün bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli xanım Prezident!
Hörmətli qonaqlar!
Xanımlar və cənablar!

Xanım Prezident, sizi Azərbaycanda bir daha salamlamaq istəyirəm. Sizi ölkəmizdə görməyimə çox şadam. Biz sizin səfərinizə böyük önəm veririk. Bu, əlaqələrimizin çox sürətlə və uğurla inkişaf etdiyini nümayiş etdirir. Biz artıq vacib ikitərəfli səfərləri həyata keçirmişik. Mən ölkənizə rəsmi səfərimi və apardığımız danışıqları xatırlayıram. Biz bu ilin əvvəlində Davosda da görüşdük və çox səmərəli danışıqlar apardıq. Biz bu gün bu dialoqu davam etdirdik və ikitərəfli əlaqələrlə, o cümlədən regional inkişafla bağlı bir sıra əhəmiyyətli məsələləri müzakirə etdik.

İkitərəfli əlaqələrimiz çox uğurla inkişaf edir və qeyd etdiyim kimi, aramızda çox faydalı və vacib siyasi dialoq mövcuddur. Biz bu gün beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımızı müzakirə etdik. İqtisadi əlaqələrimizi inkişaf etdirmək üçün bu sahədə qarşılıqlı güclü maraqlarımız vardır. Bunun artıq yaxşı nəticələri mövcuddur. Biz İsveçrədən Azərbaycan iqtisadiyyatına, xüsusilə də qeyri-enerji sektoruna

sərmayə qoyuluşlarını alqışlayırıq. Ümid edirəm ki, biz yaxın illərdə buna bənzər bir çox halları görəcəyik. Bu gün mən xanım Prezidentlə apardığım danışıqlar zamanı İsveçrə şirkətlərini ölkəmizdə müxtəlif infrastruktur layihələrində iştirak etmək üçün podratçı qismində Azərbaycana dəvət etdim ki, bu şirkətlər ölkəmizdə daha çox fəaliyyət göstərsinlər. Azərbaycan şirkətləri İsveçrədə sərmayə layihələrində iştirak etməyi arzulayır. Bizim Dövlət Neft Şirkəti artıq İsveçrədə ticarət əməliyyatları və neft təchizatı sahəsində fəal surətdə işləyir. Əlbəttə ki, ikitərəfli gündəliyimizin əsas hissəsini Cənub enerji dəhlizinə aid müzakirələrin, o cümlədən Azərbaycan qazının Avropa bazarlarına çıxarılmasının təşkil etdiyini nəzərə alsaq, gələcəkdə enerji sahəsində daha geniş və əhatəli əməkdaşlığımızın olacağına əminəm. Azərbaycan «Cənub Dəhlizi»ni dəstəkləyir və biz həmin dəhlizə aid olan bütün layihələrə, o cümlədən İsveçrənin iştirak etdiyi Transadriatik layihəsinə dəstək veririk. Hesab edirəm ki, bu layihənin çox yaxşı gələcəyi vardır. Həmin xüsusi məsələ ilə bağlı şirkətlər arasında danışıqlar gedir.

Bilirsiniz ki, bu ilin əvvəlində Azərbaycan Avropa Komissiyasının sədri cənab Barrozunun ölkəmizə səfəri zamanı enerji əməkdaşlığı haqqında bəyannaməni imzaladı. Hesab edirəm ki, bu, «Cənub Dəhlizi»nin inkişafında olduqca mühüm və praktiki addım ola bilər. Bizim nəhəng neft və qaz ehtiyatlarımız vardır. Onlar bizə onilliklər boyu kifayətdir. Bizim artıq şaxələndirilmiş təchizat infrastrukturumuz da mövcuddur. Bu infrastruktur genişləndirilə, imkanları artırıla və yaxud da yeni qaz kəmərləri çəkilə bilər. Bu sahədə çox ciddi və mühüm əməkdaşlığa başlamaq üçün istehlakçılar və hasilatçılar arasında qarşılıqlı maraq mövcuddur. Ölkələrimizin xalqları arasındakı təmaslara da çox böyük əhəmiyyət veririk. Fikrimcə, insanlarımız bir-birini nə qədər çox tanısa, bir-birini görmək üçün nə qədər çox səfər etsə, bizim üçün bir o qədər yaxşıdır.

Bu gün biz regional inkişafa və vəziyyətə, o cümlədən regional əməkdaşlığa və təhlükəsizliyə aid məsələləri də təfərrüatı ilə müzakirə etdik. İsveçrə Cənubi Qafqaz regionunda

olduqca fəaldır. Biz İsveçrənin münaqişələrin sülh yolu ilə həllinə yönələn səylərini yüksək qiymətləndiririk. Mən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair Azərbaycan ilə Ermənistan arasında aparılan danışıqların ən son durumu haqqında xanım Prezidentə məlumat verdim. Ümidvar olduğumu bildirdim ki, Ermənistan danışıqlar zamanı özünü konstruktiv aparacaq və işğal olunan torpaqlardan işğalçı qüvvələrin çıxarılmasını tələb edən beynəlxalq təşkilatların qətnamələrini yerinə yetirməyə başlayacaqdır. Beynəlxalq təşkilatlar bu məsələnin həlli ilə bağlı siyasi mövqelərini bildiriblər. BMT-nin Təhlükəsizlik Şurasının işğal olunan ərazilərdən Ermənistan silahlı qüvvələrinin qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsi vardır. ATƏT-in qərarları, Avropa Şurası və Avropa parlamentinin qətnamələri, İslam Konfransı Təşkilatının qərarlarında Azərbaycanın işğal edilmiş ərazilərindən Ermənistan silahlı qüvvələrinin çıxarılması tələb edilir. Minsk qrupu 19 ildir ki, fəaliyyət göstərir. Təəssüflər olsun ki, heç bir praktiki nəticə yoxdur. Status-kvonun dəyiş-dirilməsi, qaçqın və məcburi köçkünlərin işğal edilmiş ərazilərə qayıdışına başlamaq üçün vaxt yetişib. Bu onların öz torpaqlarında yaşamaq üçün fundamental hüquqlarıdır.

Ermənistan silahlı qüvvələri uzun müddətdir ki, onları bu hüquqdan məhrum edib. Əfsuslar olsun ki, danışıqlar zamanı əldə edilən razılaşmalar və qəbul edilən bəyannamələr Ermənistan tərəfindən pozulur. Ən son misal prezident Medvedevin Soçidə təşkil etdiyi görüş oldu. Bu görüşün nəticəsi olaraq etimadın yaradılması tədbirləri və hər bir məsələni sülh yolu ilə həll etmək cəhdinə dair niyyətlə bağlı Birgə Bəyannamə imzalandı. Bundan üç gün sonra ermənilər doqquz yaşlı oğlanı qətlə yetirdilər. Bu uşaqdır, əsgər deyil. Zorakılıq aktına əl atan tərəfə biz necə etimad göstərə bilərik?! Bu onu göstərir ki, Ermənistan tərəfi hətta öz imzasına və bəyannaməsinə belə, hörmət etmir. Bu, qarşılıqlı etimad səviyyəsini ciddi şəkildə azaldır və gözlənilməz nəticələri olacaq vəziyyət yarada bilər. Biz ermənilərdən mülki şəxslərimizə qarşı xüsusi qəddarlıqla edilən hücumlara son qoymağı tələb edirik. Biz

tərəfdən heç vaxt mülki şəxslərə, o cümlədən uşaqlara qarşı belə hərəkətlər edilməyib. Münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapa bilər. Danışıqların hazırkı formatı sülh yolu ilə nizamlanmaya apara bilər. Bunu etmək üçün Ermənistan tərəfinin beynəlxalq təşkilatların qətnamələrini yerinə yetirmək və danışıqların ruhu və formasına uyğun davranmaq üçün siyasi iradəsi olmalıdır. Bu gün müzakirə olunan məsələlər sülh yolu ilə nizamlanmaya, ərazi bütövlüyünün bərpasına, eləcə də bütün qaçqın və məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışına apara bilər. Biz Dağlıq Qarabağa özünüidarəetmə statusunu güclü siyasi və təhlükəsizlik zəmanətləri ilə verə bilərik. Bu düstur müzakirə olunmaqdadır. Danışıqlarda konstruktiv mövqe tutan Azərbaycan müzakirələri bu formatda davam etdirməyə hazırdır.

Mən xanım Prezidentə danışıqların hazırkı durumu haqqında məlumat verdim, ümidvar olduğumu bildirdim ki, biz irəliləyişin şahidi olacağıq. Son illər, xüsusən də 2010-cu ildə çox vaxt itirilmişdir. Fikrimcə, 2010-cu il itirilmiş imkanlar ili oldu. Zənnimcə, əvvəlki illə müqayisədə Ermənistan tərəfi daha aydın şəkildə anlayacaq ki, regionda sülh və sabitliyin bərqərar olması üçün yeganə yol işğal edilən ərazilərdən çıxmağa başlamaqdır.

Bir daha qeyd etmək istəyirəm ki, İsveçrə ilə münasibətlərimiz bizim üçün olduqca vacibdir. Əminəm ki, xanım Prezidentin səfərindən sonra bu münasibətlər davamlı şəkildə uğurla inkişaf edəcək və biz əməkdaşlıq üçün bir çox digər sahələri müəyyən edəcəyik. Ölkələrimiz bir-birinə daha da yaxınlaşacaq və biz gələcəkdə daha yaxşı nəticələr görəcəyik.

**İsveçrə prezidenti Mişelin Kalmi-Renin bəyanatı**

Cənab Prezident!

Xanımlar və cənablar!

Cənab Prezident, Bakıda mənə göstərilən qonaqpərvərliyə və dəvətinizə görə Sizə minnətdarlığımı bildirirəm. Bu gün səhər keçirdiyimiz danışıqlar və apardığımız müzakirələr zamanı məmnunluqla qeyd etdim ki, ölkələrimiz arasında ikitərəfli münasibətlər əladır. 2010-cu ildə ölkələrimiz arasında ticarət olduqca müsbət dərəcədə artıb, lakin hesab edirəm ki, bu sahədə hələ də potensial vardır. Bu gün Azərbaycan İsveçrədə istehlak olunan xam nefti təchiz edən ən mühüm ölkələrdən biridir. Ticarət və birbaşa sərmayələr sahəsində artım üçün bir çox imkanlar vardır. Çünki İsveçrə xaricdə böyük investorlardan biridir. Fikrimcə, Azərbaycanda yeni Sement zavodunun İsveçrənin «Holsim» qrupu tərəfindən tikintisi həmin sərmayələrin yaxşı nümunəsidir. Biz beynəlxalq təşkilatlarda, «Bretton Woods» təsisatlarında tərəfdaşıq, eyni regional qrupdayıq, aramızda gözəl əməkdaşlıq vardır. Biz nəinki «Bretton Woods» təsisatlarında, o cümlədən Avropa Şurasında və ATƏT çərçivəsində əməkdaşlıq edirik. Bizim enerji sektorundakı əməkdaşlığımız çox əhəmiyyətlidir. 10 ildən çoxdur ki, İsveçrə Azərbaycan ilə əməkdaşlıq edir. Beynəlxalq maliyyə təsisatı ilə Azərbaycanın Mərkəzi Bankı, İqtisadi İnkişaf Nazirliyi və Maliyyə Nazirliyi arasında makroiqtisadi sahədə imkanların qurulmasına texniki dəstək layihəsində İsveçrə şirkəti iştirak edir.

İsveçrənin xarici siyasətinin prioritetlərindən biri münaqişələrin sülh yolu ilə həllidir. İsveçrə vasitəçidir, çünki biz neytral ölkəyik. Biz çalışırıq ki, vəziyyətə obyektiv yanaşaq. Regionunuzda olan problemlərin həllində Sizə irəliləyiş arzulayıram.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏT

*14 mart 2011-ci il*

*Martın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından ölkəmizdə rəsmi səfərdə olan İsveçrə Konfederasiyasının Prezidenti xanım Mişelin Kalmi-Renin şərəfinə rəsmi ziyafət təşkil edilmişdir.*

*Dövlət başçıları ziyafətdə çıxış etdilər*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Xanım Prezident!

Hörmətli qonaqlar və dostlar!

Sizi Azərbaycanda bir daha salamlamaq istəyirəm. Sizi görməyimə şadam. Bu gün səhər çox yaxşı danışıqlarımız oldu. Burada iştirak edən insanlar da bilirlər ki, xanım Prezidentlə bizim görüşlərimiz tez-tez baş tutur. Bu ilin əvvəlində biz Davosda görüşmüşdük, bu gün isə müzakirələrimizi davam etdiririk. Hesab edirəm ki, biz ikitərəfli əlaqələrimizin bütün aspektlərini əhatə edə bildik. Zənnimcə, bu səfər siyasi dialoqumuza güclü dəstək olacaq və həm bizim, həm də xarici işlər nazirlikləri səviyyəsində siyasi məsləhətləşmələr davam etdiriləcəkdir. Əminəm ki, səfəriniz iqtisadi əlaqələrimizin inkişafına da təkan verəcəkdir. Bu məsələləri biz geniş müzakirə etdik. Biz Azərbaycanda həm sərmayəçilər, həm podratçılar, həm də tərəfdaşlarımız kimi, daha çox İsveçrə şirkətlərini görmək istəyirik. Təbii ki, regional problemlər danışıqlarımızın bir hissəsini təşkil etdi və görüşlərimizin ilk hissəsində biz əsasən diqqəti bu istiqamətə yönəltdik.

## İsveçrə prezidenti Mişelin Kalmi-Renin çıxışı

Cənab Prezident!

Hörmətli xanım!

Zati-aliləri, ikinci dəfə ölkənizdə olmağımdan çox məmnunam. Mənim üçün bu səfər ölkənizdə baş verən dəyişiklikləri görmək üçün yaxşı bir fürsət oldu. Son 5 ildə gördüyünüz işlər həqiqətən də böyük təsir bağışlayır. Artıq şəhər əvvəlki kimi deyildir. Mən çox şadam ki, ikitərəfli əlaqələrimiz nəinki inkişaf edir, hətta intensiv xarakter alır. Bu hər ikimizin iradəsidir. İqtisadi əlaqələrimiz çox yaxşıdır. Lakin bu əlaqələr qeyri-neft sektorunda inkişaf etdirilə bilər. Hesab edirəm ki, bu çox vacibdir və mən çox şadam ki, «Holsim» şirkəti Azərbaycanda qeyri-neft sektoruna sərmayə yatıran ən böyük şirkətdir. Burada olmaqdan məmnunam və əminəm ki, daha çox İsveçrə şirkəti ölkənizə sərmayə qoymaq üçün Azərbaycana gələcəkdir. Enerji sahəsində isə biz sizə ümid edirik və sizə arxalanırıq. Hesab edirəm ki, əlaqələrimizi daha da gücləndirəcək əsas layihələr enerji sektoruna aiddir. Eyni zamanda, çox şadam ki, İsveçrənin İnkişaf Korporasiyası artıq ölkənizdə fəaliyyətə başlayıb. Bu gün səhər dediyim kimi, bizim daha çox qlobal risklərə yönələn birgə strategiyanı yarada biləcəyimizə ümid edirəm.

*İsveçrə prezidenti Mişelin Kalmi-Re ölkələrimiz arasında çoxtərəfli səviyyədə əməkdaşlığın davam edəcəyinə əminliyini bildirdi. O, Azərbaycan ilə İsveçrənin beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığının olduğunu deyərək qeyd etdi ki, ölkələrimiz arasındakı həmrəylik növbəti illər üçün yaxşı istiqamət alacaqdır. İsveçrənin prezidenti ona və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə Azərbaycan dövlətinin başçısına təşəkkürünü bildirdi.*

## ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİ, LİTVANIN XARİCİ İŞLƏR NAZİRİ AUDRONYUS AJUBALİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 mart 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də ATƏT-in fəaliyyətdə olan sədri, Litva Respublikasının Xarici İşlər naziri Audronyus Ajubalisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Regiona səfərinə Azərbaycandan başladığını vurğulayan ATƏT-in fəaliyyətdə olan sədri, Litvanın Xarici İşlər naziri Audronyus Ajubalis ölkəmizin regionda əhəmiyyətli rol oynadığını və gələcəkdə bu rolun daha da artacağını bildirdi. Azərbaycanın güclü iqtisadiyyata malik olduğunu vurğulayan ATƏT-in sədri ölkəmizdə demokratik islahatların da güclü şəkildə həyata keçirildiyini və bunun həmişə aktual bir məsələ olduğunu dedi. Audronyus Ajubalis keçirdiyi görüşlər və apardığı müzakirələr barədə dövlətimizin başçısına məlumat verdi.*

*Prezident İlham Əliyev regional inkişaf və o cümlədən ölkənin ümumi inkişafı istiqamətində görüləcək işlərlə bağlı bütün məsələləri açıq müzakirə etməyin önəmini qeyd etdi. Dövlətimizin başçısı güclü iqtisadiyyat və güclü siyasi sistem qurmaqla ölkəmizi inkişaf etdirmək və müasirləşdirmək üçün siyasi, iqtisadi və sosial sahələrdə uğurlu islahatların aparıldığını bildirdi.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında geniş fikir mübadiləsi aparıldı.*

## MƏRAKEŞİN ƏDLİYYƏ NAZİRİ MƏHƏMMƏD NƏSİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 mart 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Mərakeş Krallığının Ədliyyə naziri Məhəmməd Nəsirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Qonağın ölkəmizə səfərinin Azərbaycan–Mərakeş ikitərəfli münasibətlərinin inkişafı baxımından əhəmiyyətini qeyd edən dövlətimizin başçısı bu səfərin ölkələrimizin müvafiq qurumları arasında əməkdaşlığın genişləndirilməsi, respublikamızda gedən inkişaf prosesləri ilə yaxından tanış olmaq üçün yaxşı imkan yaratdığını vurğuladı. Prezident İlham Əliyev bu baxımdan qarşılıqlı səfərlərin həyata keçirilməsinin önəmli olduğunu dedi.*

*Ədliyyə naziri Məhəmməd Nəsiri rəhbərlik etdiyi nümayəndə heyətinə Azərbaycanda göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirdi.*

*Mərakeş Krallığının Ədliyyə naziri Məhəmməd Nəsiri ölkəsində islahatların həyata keçirilməsinin nəzərdə tutulduğunu qeyd edərək, Mərakeşin Azərbaycanda müxtəlif sahələrdə aparılan islahatların təcrübəsindən bəhrələnmək istəyində olduğunu bildirdi.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 mart 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də ATƏT-in Minsk qrupunun həmsədrləri İqor Popovu (Rusiya), Bernar Fasyeni (Fransa), Robert Bradtkeni (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.*

## UKRAYNANIN MÜDAFİƏ NAZİRİ MİXAİL YEJELİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 mart 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 16-da Ukraynanın Müdafiə naziri Mixail Yejelin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən müdafiə sahəsində uğurla inkişaf etdiyi vurğulandı. Ukraynanın Müdafiə naziri Mixail Yejelin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin Azərbaycan ilə Ukraynanın müvafiq qurumları arasında əməkdaşlığın hazırkı vəziyyətinin nəzərdən keçirilməsi və yeni perspektivlərin müəyyənləşdirilməsi baxımından əhəmiyyəti qeyd olundu.*

## DÖVLƏT BAYRAĞI MEYDANININ ƏTRAFINDA HƏYATA KEÇİRİLMİŞ ABADLIQ VƏ QURUCULUQ İŞLƏRİ İLƏ TANIŞLIQ

*16 mart 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 16-da Dövlət Bayrağı Meydanının ətrafında həyata keçirilmiş abadlıq və quruculuq işləri ilə tanış olmuşlar.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Dövlət Bayrağı Meydanının ətrafında həyata keçirilən abadlıq və yenidənqurma işlərinin gedişi ilə yaxından tanış olmaq üçün buraya gəldilər.*

*2010-cu il noyabrın 9-da Azərbaycanda ilk dəfə qeyd edilən Bayraq günü münasibətilə təşkil olunan mərasimdə Azərbaycan prezidenti İlham Əliyev Dövlət Bayrağı Muzeyinə baxdı və Bayraq meydanının ətrafında tikinti-quraşdırma işlərinin davam etdirilməsi ilə bağlı tapşırıqlarını verdi.*

*Prezident İlham Əliyev martın 9-da Bakı şəhərinin və paytaxtətrafı qəsəbələrin sosial-iqtisadi inkişafına dair keçirdiyi müşavirədə Bayraq meydanı layihəsinə böyük diqqət göstərildiyini bildirmişdi. Həmin müşavirədə sahəsi 6 hektar olan Dövlət Bayrağı Meydanının ətrafında aparılan böyük quruculuq, abadlıq işlərinə toxunan prezident meydanın ətrafındakı 60 hektar ərazidə parkların, bulvarın, istirahət və gəzinti yerlərinin salınması ilə əlaqədar işlərin getdiyini demişdi.*

*Bayraq meydanının ətraf ərazilərində görülən işlərlə bağlı Azərbaycan prezidenti İlham Əliyevə ətraflı məlumat verildi.*

*Dövlətimizin başçısı və xanımı Bayraq meydanından şəhərin panoramını seyr etdilər.*

*Ərazidə aparılan abadlıq və quruculuq işləri ilə yaxından tanış olan prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.*

## BAKIDA ZABİTLƏR PARKININ AÇILIŞI MƏRASİMİ

*16 mart 2011-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva martın 16-da Bakıda Zabitlər parkının açılışı mərasimində iştirak etmişlər.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Zabitlər parkına gəldilər.*

*Dövlətimizin başçısına parkda görülən işlər və yaradılan şəraitlə bağlı məlumat verildi. Bildirildi ki, 4 hektar ərazisi olan parkda abadlaşdırma işlərinə 2009-cu ildə başlanılıb. Ərazidə mövcud olan çoxyaşlı ağaclar saxlanılmaqla, burada əlavə yaşıllaşdırma tədbirləri həyata keçirilib. Parkda yeni işıqlandırma sistemi quraşdırılıb, sakinlərin istirahəti üçün müxtəlif guşələr yaradılıb. Qeyd edildi ki, parkda yerli mütəxəssislər tərəfindən daşdan yonulmuş yeni fəvvarə quraşdırılıb. Ərazidə yumşaq örtüklü, xüsusi tərtibatı ilə seçilən uşaq meydançası yaradılacaqdır, həmçinin 700 kvadratmetrlik örtülü buz meydançasının, xarici görkəmi və orijinal tərtibatı ilə diqqəti cəlb edən buz kafesinin binasının da inşa olunduğu bildirildi.*

*Dövlətimizin başçısı və xanımı parkın yenidənqurma işlərindən əvvəlki vəziyyətini əks etdirən fotoalboma baxdılar.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva parkın ərazisində həyata keçirilən yenidənqurma işləri və burada yaradılan şəraitlə yaxından tanış oldular.*

## HEYDƏR ƏLİYEV BEYNƏLXALQ AEROPORTUNDA YENİ AEROVAĞZAL KOMPLEKSİNİN TƏMƏLQOYMA MƏRASİMİ

*17 mart 2011-ci il*

*Martın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Heydər Əliyev Beynəlxalq Aeroportunda yeni aerovağzal kompleksinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Mərasim iştirakçıları prezident İlham Əliyevi hərarətlə qarşıladılar.*

*Dövlətimizin başçısı yeni aerovağzal kompleksinin Baş planını və mövcud terminalda aparılacaq əsaslı yenidənqurma işlərini əks etdirən stendlərə baxdı.*

*«Azərbaycan Hava Yolları» Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Cahangir Əsgərov dövlətimizin başçısına məlumat verdi ki, Azərbaycanda sərnişin daşımalarının həyata keçirilməsi üçün aerovağzal binası 1933-cü ildə yaradılmışdır. Respublikamızda beynəlxalq standartlar səviyyəsində aerovağzal kompleksi isə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə tikilmiş və 1999-cu ildə istismara verilmişdir. Cəmi bir neçə il ərzində Bakı aeroportunda uçuş-enmə zolaqları və yönəldici yollar yenidən qurulmuş, uçuşları idarəetmə sistemləri müasirləşdirilmiş, radionaviqasiya və meteo avadanlıq yenilənmiş, digər silsilə tədbirlər reallaşdırılmışdır.*

*Qeyd olundu ki, 2003-cü ildən Azərbaycanın mülki aviasiyası intensiv inkişaf mərhələsinə qədəm qoymuşdur. 2004-cü ildə beynəlxalq standartlara cavab verən Naxçıvan Beynəlxalq Aeroportu işə düşmüşdür. «Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı» çərçivəsində 2006–2008-ci illərdə bir-birinin*

*ardınca Gəncə, Zaqatala və Lənkəranda aeroportlar istismara verilmişdir. Bundan başqa, respublikamızın mülki aviasiyasının kompleks inkişafı çərçivəsində Qəbələ Beynəlxalq Aeroportunun tikintisinin bu ilin payızında tamamlanması nəzərdə tutulmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyevin həyata keçirdiyi sürətli sosial-iqtisadi inkişaf proqramları mülki aviasiyanın inkişafında da mühüm rol oynamışdır. Heydər Əliyev Beynəlxalq Aeroportunda yeni aerovağzal kompleksinin tikintisinə başlanması bu istiqamətdə həyata keçirilən vacib tədbirlərdən biridir. Layihənin həyata keçirilməsində məqsəd sərnişin və yük daşımaları ilə bağlı xidmətin səviyyəsini daha da yüksəltmək, eləcə də təyyarə uçuşlarının təhlükəsizliyini dünya standartlarına uyğunlaşdırmaqdır. Yeni layihə həyata keçirildikdən sonra ildə 3 milyon sərnişinə xidmət göstəriləcəkdir. Ən müasir standartlara cavab verəcək aerovağzal kompleksinin sahəsi 58 min kvadratmetr təşkil edəcəkdir. Üçbucaq formasında inşa ediləcək dördmərtəbəli yeni aerovağzal binası istifadəyə verildikdən sonra buradan beynəlxalq reyslər yerinə yetiriləcəkdir. Mövcud terminal vasitəsilə isə yerli aviareyslər həyata keçiriləcəkdir.*

*Yeni terminalın binasında 18 eskalator və 20 sərnişin lifti quraşdırılacaqdır. Beynəlxalq aviasiyada istifadə olunan ən son elmi-texniki yeniliklər tətbiq ediləcəkdir. Müasir görünüşü ilə də diqqəti cəlb edəcək yeni aerovağzalda sərnişinlərə xidmət ən yüksək tələblər səviyyəsində olacaqdır. Ən son avadanlıqların tətbiqi uçuşların təhlükəsizliyinə hərtərəfli imkan yaradacaqdır. Aerovağzal binasının ərazisində eyni vaxtda 8 təyyarəni qəbul edə biləcək teleskopik traplar quraşdırılacaqdır. Yeni aerovağzalın tikintisi ilə yanaşı, mövcud aerovağzal da tam müasirləşdiriləcəkdir.*

*Bildirildi ki, inşa olunacaq beşmərtəbəli Uçuşları İdarəetmə Mərkəzinin binasında ən son texnologiyalara əsaslanan meteoroloji radar sistemləri quraşdırılacaqdır. Heydər Əliyev Beynəlxalq Aeroportunda uçuş-enmə zolağının uzunluğu 4 min,*

*eni 75 metr olacaqdır. Perron və yönəldici yollar da yenidən qurulacaqdır.*

*Sonra prezident İlham Əliyev kompleksin təməlini qoydu.*

*Dövlətimizin başçısı kapsulu bünövrəyə buraxdı, beton qarışığı tökən qurğunun düyməsini basdı.*

*Dövlətimizin başçısı «Azərbaycan Hava Yolları» QSC-nin əməkdaşlarını və inşaatçıları təbrik etdi.*

**İ l h a m  Ə l i y e v:** Sabahınız xeyir olsun. Mən sizi ürəkdən salamlayıram.

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir hadisədir. Bakıda yeni aeroportun təməl daşını qoyuruq. Ümid edirəm ki, yaxın zamanlarda – iki ildən sonra Bakıda yeni gözəl, əzəmətli aeroport istifadəyə veriləcəkdir. Bir müddət bundan əvvəl mən yeni aeroportun tikintisi ilə bağlı müvafiq tapşırıqlar vermişəm. Çünki indiki aeroport artıq Azərbaycanın inkişafına uyğun deyildir. Azərbaycan sürətlə inkişaf edir, ölkəmizə gələnlərin sayı artır. Yeni müasir aeroportun tikintisinə böyük ehtiyac var idi və çox istəyirdik ki, bu aeroport həm funksional baxımdan, həm də gözəlliyi ilə seçilsin. Əminəm ki, dünyanın ən gözəl aeroportu Bakıda olacaqdır.

Son illərdə Azərbaycanın müxtəlif şəhərlərində aeroportlar tikilib. 2004-cü ildə Naxçıvanda, 2006-cı ildə Gəncədə, 2008-ci ildə Lənkəranda və Zaqatalada. Bu il Qəbələdə beynəlxalq aeroport istifadəyə veriləcəkdir. Bakıda yeni beynəlxalq aeroportun tikintisi də artıq başlayır. Bu işlərə həm yerli şirkətlər, mütəxəssislər, həm də dünyanın tanınmış şirkətləri cəlb edilmişlər.

Aeroport əslində gözəl memarlıq abidəsidir. Hazırda Bakıda və ölkəmizin digər şəhərlərində yeni gözəl binalar tikilir. O binalar ölkəmizin inkişafını göstərir. O binalar yeni Azərbaycanın rəmzlərinə çevrilir. O cümlədən bu aeroport – ölkəmizin giriş qapısı müasir Azərbaycanın inkişafını və indiki vəziyyətini əks etdirməlidir.

Mən əminəm ki, Heydər Əliyev Beynəlxalq Aeroportu dünya miqyasında öz gözəlliyi və funksional keyfiyyətləri ilə

seçiləcəkdir. Həm aerovağzal binası çox gözəl olacaq, həm də uçuş-enmə zolaqları yenidən qurulacaq, 4 kilometr uzunluğunda yeni uçuş-enmə zolağı tikiləcək, aeroportun bütün xidmətləri müasir tələblərə cavab verəcək və sərnişinlər üçün yeni gözəl şərait yaradılacaqdır.

Ölkəmizdə hava nəqliyyatının inkişafı sürətlə gedir. Burada hava nəqliyyatını təmsil edən yoldaşlar bunu yaxşı bilirlər. Son 7 ildə yeni təyyarələr – 10 Airbus təyyarəsi, ATR təyyarələri, 12 helikopter alınmışdır. Növbəti 3 il ərzində Boinq tipli 6 təyyarə alınacaqdır. Onlardan ikisi ən son model olan Boinq-787 drimlayner təyyarələridir. 787 tipli Boinq təyyarələri MDB məkanında birinci Azərbaycana gətiriləcəkdir.

Bu təşəbbüslər böyük vəsait tələb edir və Azərbaycan dövləti bu vəsaiti təmin edir. Bütövlükdə nəqliyyatda gedən işlər çox müsbətdir. Hazırda Bakıda yeni Beynəlxalq Dəniz Ticarət Limanı tikilir, dəmir yolları bərpa olunur, avtomobil yolları salınır, dəniz və hava nəqliyyatı inkişaf etdirilir.

Beləliklə, Azərbaycanda nəqliyyat infrastrukturu tamamilə yeniləşir. Təsadüfi deyil ki, Azərbaycan və Bakı artıq tranzit məsələlərin həlli üçün də mərkəzə çevrilibdir, o cümlədən hava nəqliyyatı sahəsində. Bakı üzərindən daşınan yüklərin həcmi artır. Artıq böyük yük təyyarələri Azərbaycana gəlir və bu da bizim imkanlarımızı genişləndirir. Coğrafi vəziyyətimiz elədir ki, ölkəmizin ərazisindən keçən istər hava, istər avtomobil, istərsə də dəmir yolları Azərbaycanı tranzit mərkəzə çevirib.

Beləliklə, bütün bu tədbirlərin kompleks şəkildə görülməsi ölkəmizi daha da gücləndirəcəkdir. Mən bu gözəl hadisə münasibətilə bütün Azərbaycan vətəndaşlarını təbrik edirəm. Əmin edirəm ki, bu aeroport tezliklə yüksək keyfiyyətlə tikiləcək və onun açılışında biz sizinlə bir daha görüşəcəyik.

Bir daha təbrik edirəm.

## QEYDLƏR

**1. Heydər Əliyev,** H e y d ə r  Ə l i r z a  o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin

həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 9,96,101,103,106,108,156,166, 168,175,180,184,193,194, 201,242,341.

**2. Mehriban Əliyeva,** Mehriban Arif qızı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs»

jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 12,13,14,15,64,65,66,90,102,106,168,180,191,197,248, 251,339,340.

**3. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-

şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 12,18,33,34, 37,48,49,50,68,94,116,130,198,200,212,217,218,245,247,295, 296,330,331,335,337.

**4. Avropa parlamenti,** A v r o p a r l a m e n t – Avropa İttifaqının (Aİ) fövqəlmilli institutlarından biri. 1957-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaradılmışdır. Seçmək və seçilmək hüququndan Aİ vətəndaşları istifadə edir. Deputat mandatlarının ümumi sayı (2007) 785-dir. Plenar iclasları Strasburqda, komissiyaların işi Brüsseldə keçirilir. Avroparlamentin bütün çağırışlarında başlıca mövqe Avropa Xalq Partiyasına və Avropa Sosialist Partiyasına məxsusdur. Avroparlament məcburi xarakter daşımayan qərar verir. Avroparlament beynəlxalq problemlərin müzakirəsi zamanı öz səlahiyyətlərindən geniş istifadə edir, qəbul olunan qətnamələr məcburi qüvvəyə malik deyildir. Avroparlament Azərbaycan Respublikasının Milli Məclisi ilə əməkdaşlıq edir. – 17,82,94,330.

**5. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 $km^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq

Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi.

1992-ci ildə erməni işğalçıları Şuşanı işğal etdilər. Hazırda Şuşa yadellilərin tapdağı altındadır. – 20,199.

**6. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi. 1991-ci ildən erməni separatçıları tərəfindən işğal edilmişdir. – 20,198,199.

**7. Milad bayramı** – İsa peyğəmbərin anadan olması şərəfinə keçirilən xristian bayramı. Dekabrın 25-də qeyd edilir. Milad bayramının ilkin mənbəyi hər il qış günəş duruşu zamanı (21–25 dekabr) xilaskar Allahın «doğulması» ilə əlaqədar keçirilən qədim bütpərəst bayram mərasimi olmuşdur. Milad bayramını ilk dəfə Roma xristian icmaları keçirmişdir. Milad bayramı 431-ci ildə Efes kilsə yığıncağında qanuniləşdirilmişdir. – 21.

**8. İsa,** İ i s u s  X r i s t o s – xristianlığın əfsanəvi banisi. Xristianlığın təliminə görə İsa «Allah–insandır» və «Allah oğludur». Rəvayətə görə İsa Roma imperatoru Avqustin dövründə Fələstinin Vifleyem şəhərində doğulmuş, İudeya, Qalileya, Samirə və s. yerlərdə yeni dini təbliğ etmiş, çarmıxa çəkilmiş, sonra dirilərək qeyb olmuşdur. İsaya etiqad xristianlığın əsas ehkamlarındandır. – 21.

**9. İran,** İ r a n  İ s l a m  R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 78,4 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 22,25,85,147,198,229.

**10. Mahmud Əhmədinejad** (d.1956) – 2005–2013-cü illərdə İran İslam Respublikasının Prezidenti olmuşdur. – 22,25,147, 229.

**11. Hindistan,** Hindistan Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 3,3 milyon km$^2$, əhalisi 1 milyard 300 milyon nəfərdir. Hindistan inzibati cəhətdən 22 ştata və 7 müttəfiq əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nyu-Dehli şəhəridir. – 23.

**12. Pratibha Patil** (d.1934) – hind hüquqşünası, siyasətçi. 2007–2012-ci illərdə Hindistan Respublikasının Prezidenti olmuşdur. – 23.

**13. Avstraliya,** Avstraliya İttifaqı – Avstraliya qitəsində dövlət. Sahəsi 7,7 milyon km$^2$, əhalisi 24 milyon nəfərdir. Avstraliya İttifaqı inzibati cəhətdən 6 ştata və iki əraziyə bölünür. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır. Ölkədə kraliçanı general-qubernator təmsil edir. Qanunverici orqanı ikipalatalı (Senat və Nümayəndələr Palatası) parlamentdir. Paytaxtı Kanberra şəhəridir. – 24.

**14. Kventin Brays** (d.1942) – Avstraliya hüquqşünası. 2008–2014-cü illərdə Avstraliyanın general-qubernatoru olmuşdur. – 24.

**15. Bosniya və Herseqovina –** 1945–92-ci illərdə Yuqoslaviya Sosialist Federativ Respublikasının tərkibində olmuşdur. Yuqoslaviyanın tərkibindən çıxdıqdan sonra əhali arasında (müsəlman başnak, serb və xorvat) milli-dini zəmində qarşıdurma yarandı və qanlı hərbi konfrontasiyaya səbəb oldu. 1993-cü ildə Deytonda (ABŞ) ümumi sülh haqqında saziş imzalandı. 1995-ci ildə qüvvəyə minən Konstitusiyaya görə ölkədə Birləşmiş Bosniya və Herseqovinadan ibarət federativ respublika yarandı. Sahəsi 51,1 min km$^2$, əhalisi 3,5 milyon nəfərdir. Paytaxtı Sarayevo şəhəridir. – 26.

**16. Avropa Komissiyası (AK)** – Avropa İttifaqının (Aİ) dövlət strukturundan üstün siyasi institutlarından biri, ümumi

idarəetmə orqanı. 1958-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaranmışdır.

Komissiya Avropa komissarlarından, sədrdən, sədrin iki müavinindən və üzvlərdən ibarətdir. Avropa İttifaqına hər bir üzv dövlət Avropa Komissiyasında bir yerə malikdir.

Avropa Komissiyasının hazırladığı aktların və qərarların layihələri kitab formasında dərc olunur və geniş müzakirəyə təqdim edilir. Avropa Komissiyası Avropa İttifaqının büdcəsinin layihəsini hazırlayır və onun yerinə yetirilməsini təmin edir. – 28–40,49,77,82,116,329.

**17. Joze Manuel Barrozu** (d.1956) – Portuqaliya və Ümumavropa siyasi və dövlət xadimi. 2002–2004-cü illərdə Portuqaliyanın Baş naziri, 2004–2014-cü illərdə Avropa Parlamenti Komissiyasının sədri olmuşdur. – 28–40,49,77,82,116.

**18. Avropa İttifaqı** (Aİ) – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına bir çox dövlətlər də daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildən vahid valyuta–avro işlənir (Danimarka və Böyük Britaniya istisna olmaqla), vahid pul-kredit siyasəti aparılır. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 28,36,37,39,49,73,77,85,86,87,91,93,116,145,247.

**19. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qoru-

maq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanıb və 1945-ci il oktyabrın 24-də qüvvəyə minib. Hazırda BMT-yə 193 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT-nin Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 34,82, 199,217,250.

**20. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 34,82,94,330.

**21. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 34,82,94,212,250,330.

**22. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay ( 1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 35,298.

**23. Əfqanıstan,** Əfqanıstan İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 32,5 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 37.

**24. Kosovo problemi** – XX əsrin 80-ci illərindən başlayaraq Yuqoslaviya (Yuqoslaviya Federativ Sosialist Respublikası) ciddi iqtisadi və siyasi çətinliklərlə qarşılaşdı. 1991-ci ildə millətlərarası qarşıdurma nəticəsində YFSR parçalandı. Federasiyanın tərkibindən Sloveniya, Xorvatiya, Bosniya və Herseqovina, Makedoniya çıxdı və müstəqil dövlət oldular. 1992-ci ildə Serbiya və Çernoqoriya Yuqoslaviya Respublikası yaradıldı. 1999-cu ildə serb hökuməti tərəfindən Kosovoda (Serbiyanın tərkibində) yaşayan albanlara qarşı zorakılıq başlandı və nəticədə etnik qarşıdurma yarandı. Buna görə də NATO aviasiyası tərəfindən bombardman edildi. Məhz bundan sonra Yuqoslaviya öz ordusunu Kosovodan çıxartdı və NATO-nun sülhməramlı ordusu albanları serblərdən qorumaq üçün Kosovoya girdi. 1999-cu ildən sonra Serbiya hökuməti Kosovo ərazisinə de-fakto nəzarətini itirdi. 2008-ci ildə Kosovo özünü birtərəfli şəkildə müstəqil dövlət elan etdi. Hazırda BMT üzv ölkələrinin 99-u, o cümlədən NATO ölkələri Kosovonun müstəqilliyini tanıyır. – 37.

**25. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 37,212, 217,296,297,330,337.

**26. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min $km^2$, əhalisi 79,4 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 40,85,99,112–113,153,198,255.

**27. Ümumdünya Səhiyyə Təşkilatı** (ÜST)–BMT-yə məxsus beynəlxalq dövlətlərarası təşkilat. 1946-cı ildə yaradılmışdır. Cenevrədə fəaliyyət göstərir. Nizamnaməsinə görə vəzifəsi ən təhlükəli xəstəliklərlə mübarizə, beynəlxalq sanitariya qaydalarının hazırlanması və s.-dir. – 46.

**28. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 49,72,93.

**29. Latviya,** L a t v i y a R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 64,5 min $km^2$, əhalisi 1,9 milyon nəfərdir. İnzibati ərazisi 26 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 64–95.

**30. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir.

MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 53,55,75,76,184,213,218,221,222,223,227, 344.

**31. Artur Rasizadə,** A r t u r  T a h i r  o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin Birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal», «Şərəf», «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 64,95,124,248,294,297.

**32. Ramiz Mehdiyev,** R a m i z  Ə n v ə r  o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin Birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə

Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal» və «Şərəf», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. – 64,95,124,248,294,297.

**33. Hacıbala Abutalıbov,** H a c ı b a l a İ b r a h i m o ğ l u (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı, fizika-riyaziyyat elmləri doktoru. Azərbaycan Respublikasının «Şərəf» ordeni ilə təltif edilmişdir. – 64,95,124,294,297,313.

**34. Valdis Zatlers** (d.1955) – 2007–2011-ci illərdə Latviya Respublikasının Prezidenti olmuşdur. Peşəsi həkim travmatoloq-ortopeddir. 2011-ci ildən Reforma Partiyasının lideridir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 65–87,90–94.

**35. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 85,98,158,221,246.

**36. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 85,111,115,132,164,198,212,221,281,294–297,337.

**37. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min $km^2$, əhalisi 64 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 91,143.

**38. Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi** – BMT-nin əsas orqanlarından biri. BMT üzvü olan bütün dövlətlərdən ibarətdir. BMT üzvlərinə və ya BMT Təhlükəsizlik Şurasına hər cür məsələlərə və işlərə tövsiyələr vermək səlahiyyəti var.

Baş Məclisin qərarları tövsiyə xarakteri daşıyır, yəni hüquqi cəhətdən üzv dövlətlər üçün məcburi deyil. Məclisin hər il növbəti sessiyası olur. Baş Məclisin nəzdində onun funksiyalarını həyata keçirmək üçün 7 əsas komitə var. – 94,250.

**39. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 94,217,218,250, 330.

**40. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon $km^2$, əhalisi 325,6 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresi-

dir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 91,212,245,297,337.

**41. Braziliya,** B r a z i l i y a F e d e r a t i v R e s p u b l i k a s ı – Cənubi Amerikada dövlət. Sahəsi 8,5 milyon km$^2$, əhalisi 205,8 milyon nəfərdir. Braziliya federasiyası 26 ştata və 1 federal dairəyə bölünür. Dövlətin və hökumətin başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. Paytaxtı Brazilia şəhəridir. – 97.

**42. Dilma Roussef** (d.1947) – braziliyalı siyasətçi. 2011–2016-cı illərdə Braziliya Federativ Respublikasının Prezidenti olmuşdur. – 97.

**43. Şri-Lanka,** Ş r i -L a n k a S o s i a l i s t D e m o k r a-t i k R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 65,6 min km$^2$, əhalisi 22 milyon nəfərdir. İnzibati ərazisi 25 əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı rəsmi olaraq Şri-Cayavardenepura-Kotte, faktiki isə Kolombo şəhəridir. – 100.

**44. Mahinda Racapaksa** (d.1945) – 2005–2015-ci illərdə Şri-Lanka Respublikasının Prezidenti, 2004–2005-ci illərdə Şri-Lankanın Baş naziri olmuşdur. Milli Alyansa daxil olan Şri-Lanka Azadlıq Partiyasının liderlərindən biridir. – 100.

**45. 1990-cı ilin 20 yanvarı –** 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yan-

varı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 101–102.

**46. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 106,109,168,180,192,193,197,248,250.

**47. Dmitri Medvedev** (d.1965) – Rusiyanın dövlət və siyasi xadimi, 2008–2012-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur, 2012-ci ilin may ayından Rusiyanın Baş naziridir. – 111,115,295,330.

**48. Sergey Narışkin** (d.1954) – Rusiyanın dövlət xadimi. 2008–2011-ci illərdə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 2011-ci ildən 2016-cı ilə qədər Rusiya Federasiyası Dövlət Dumasının sədri olmuşdur. Hal-hazırda Rusiya Federasiyasının Xarici Kəşfiyyat Xidmətinin direktorudur. – 111.

**49. Taner Yıldız** (d.1962) – Türkiyə siyasətçisi, mühəndis. 2009–2015-ci illərdə Türkiyə Cümhuriyyətinin Enerji və Təbii Sərvətlər naziri olmuşdur. – 112–113.

**50. Abdullah Gül** (d.1950) – Türkiyənin dövlət və siyasi xadimi, iqtisad elmləri doktoru, professor. 1991-ci ildə TBMM-in üzvü seçilmişdir. Abdullah Gül Rəcəb Tayyib Ərdoğanla Ədalət və İnkişaf Partiyasının yaradıcılarından biridir. 2007–2014-cü illərdə Türkiyə Cümhuriyyətinin Prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 112,153,255.

**51. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. – 112,153.

**52.** ***bp,*** «B r i t i ş h  P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 114,133.

**53. İsveçrə,** İ s v e ç r ə  K o n f e d e r a s i y a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 7,1 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident, həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 124–145,324–334.

**54. Mişelin Kalmi - Re** (d.1945) – İsveçrənin dövlət və siyasi xadimi. 2003–2007-ci illərdə İsveçrənin Xarici İşlər naziri, 2007-ci və 2011-ci illərdə prezidenti olmuşdur. – 130,324–334.

**55. Mikrosoft** – müxtəlif hesablama texnikası – şəxsi kompyuterlər, oyun konsolları, KPK, mobil telefonlar, dünyada daha çox yayılmış platforma proqramları, Windows əməliyyat sistemləri istehsal edən ən böyük transmilli kampaniya 1975-ci ildə yaradılmışdır. Mikrosoftun texnikası 80-dən çox ölkəyə ixrac, proqramları isə 45 dilə tərcümə edilmişdir. Mənzil-qərargahı Redmond (ABŞ) şəhərindədir. – 131.

**56. Dünya İqtisadi forumu,** D a v o s İ q t i s a d i f o r u m u – İsveçrənin kurort şəhəri Davosda hər il Ümumdünya İqtisadi forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu forumda iştirak etmişdir. – 124–145.

**57. «LUKoyl»** – neft şirkəti. 1991-ci ildə Rusiya Federasiyası Hökumətinin qərarı ilə yaradılmışdır. Nəhəng sənaye-maliyyə kompleksinə malik olan «LUKoyl» şirkəti Rusiya, MDB və dünyanın bir çox ölkələrində neft məhsullarının kəşfiyyatı, hasilatı, emalı və satışı ilə məşğul olur. Şirkət 1993-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 132.

**58. Vahid Ələkbərov,** V a h i d Y u s i f o ğ l u (d.1950) – 1993-cü ildən Rusiyanın ən böyük neft şirkətlərindən olan «LUKoyl»un prezidentidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 132.

**59. Total** – məşhur fransız neft şirkəti. 1924-cü ildə yaradılmışdır. Bir çox ölkələrdə neftin kəşfiyyatı, emalı və satışı ilə məşğul olur. – 134.

**60. OMV** – Mərkəzi Avropada ən böyük Avstriya neft kompaniyası. Mənzil-qərargahı Vyanadadır. Kompaniyanın əsası 1956-cı ildə qoyulmuş və ilk layihəsi Liviyada olmuşdur. Kompaniya dünyanın 17 ölkəsində neft məhsullarının hasilatı və axtarışını həyata keçirir. OMV-nin gündəlik hasilatı neft ekvivalenti ilə 317 min barreldir. Kompaniya 40 milyard kubmetr qaz satır, təmiz gəliri ildə 1,5 milyard avrodur. – 135.

**61. Avstriya,** Avstriya Respublikası – Mərkəzi Avropada, Dunay hövzəsində dövlət. Sahəsi 83,8 min km$^2$, əhalisi 8,66 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Vyana şəhəridir. – 135,139.

**62. Verner Fayman** (d.1960) – Avstriya siyasi xadimi. 2008–2016-cı illərdə Avstriya Respublikasının Federal Kansleri olmuşdur. – 136.

**63. Kərim Məsimov** (d.1965) – Qazaxıstanın dövlət xadimi, iki dəfə Qazaxıstan Respublikasının Baş naziri (2007–2012, 2014-cü illər); 2012–2014-cü illərdə isə Qazaxıstan Respublikası Prezident Administrasiyasının rəhbəri olmuşdur. – 136.

**64. Ukrayna,** Ukrayna Respublikası – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 42,4 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Radadır. Paytaxtı Kiyev şəhəridir. – 136,141–142,221.

**65. Polşa,** Polşa Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 140.

**66. Bronislav Komorovski** (d.1952) – Polşanın siyasi xadimi 2010–2015-ci illərdə Polşa Respublikasının Prezidenti olmuşdur. – 140.

**67. Endryu,** Y o r k  H e r s o q u,  ş a h z a d ə (d.1960) – Britaniya şahzadəsi, kontr-admiral. Britaniya kraliçası II Elizabetin ikinci oğlu. – 143.

**68. Portuqaliya,** P o r t u q a l i y a  R e s p u b l i k a s ı – Cənub-Qərbi Avropanın Pireney yarımadasında dövlət. Sahəsi 92,1 min km$^2$, əhalisi 11 milyon nəfərdir. İnzibati ərazisi 18 mahala və iki muxtar vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Respublika Məclisidir. Paytaxtı Lissabon şəhəridir. – 146.

**69. Anibal Kavaku Silva** (d.1939) – Portuqaliyanın siyasi xadimi. 1985–95-ci illərdə Portuqaliyanın Baş naziri, 2006–2016-cı illərdə Portuqaliya Respublikasının Prezidenti olmuşdur. – 146.

**70. Serbiya,** S e r b i y a  R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada, Balkan yarımadasının mərkəzi hissəsində dövlət. Sahəsi 88 min km$^2$, əhalisi 7 milyon nəfərdir. Dövlətin başçısı prezident, qanunvericilik orqanı Skupşinadır. Paytaxtı Belqrad şəhəridir. – 148.

**71. Boris Tadiç** (d.1958) – Serbiya siyasətçisi, Serbiya Demokratlar Partiyasının sədri. 2004–2012-ci illərdə Serbiya Respublikasının Prezidenti olmuşdur. – 148.

**72. Bruney,** B r u n e y  D a r ü s s a l a m – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 5,8 min km$^2$, əhalisi 425 min nəfərdir. Bruney konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultandır. Paytaxtı Bəndər-Səri-Bəqavan şəhəridir. – 149.

**73. Hacı Həssənal Bolkiah** (d.1946) – Bruney sultanı. XIV əsrdən hakimiyyətdə olan sülalənin 29-cu nümayəndəsidir. – 149.

**74. Küveyt,** K ü v e y t  d ö v l ə t i – Qərbi Asiyada dövlət. Sahəsi 17,8 min km$^2$, əhalisi 3,3 milyon nəfərdir. Küveyt konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Qanunverici orqan və hökumət əmirə və birpalatalı Milli Məclisə tabedir. Paytaxtı əl-Küveyt şəhəridir. – 150.

**75. Cabir əs-Sabah** (d.1929) – 2006-cı ildən Küveyt əmiri. Hakimiyyətə gəldikdən sonra ölkədə bir sıra demokratik islahatlar keçirmiş, qadınlara dövlət orqanlarında işləməyə icazə verilmiş, onlar seçib-seçilmək hüququ əldə etmişlər. – 150.

**76. Litva,** L i t v a  R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 65,3 min km$^2$, əhalisi 2,8 milyon nəfərdir. İnzibati ərazisi 44 rayona bölünür və respublika tabeçiliyinə 11 şəhər daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Seymdir. Paytaxtı Vilnüs şəhəridir. – 151,155,335.

**77. Dalya Qribauskayte** (d.1956) – Litva siyasətçisi. 2009-cu ildən Litva Respublikasının Prezidentidir. – 151.

**78. Estoniya,** E s t o n i y a  R e s p u b l i k a s ı – Şərqi Avropada dövlət. Sahəsi 45,2 min km$^2$, əhalisi 1,3 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı – Seymdir. Paytaxtı Tallinn şəhəridir. – 152,230.

**79. Toomas Hendrik İlves** (d.1953) – Estoniya siyasətçisi, diplomat, jurnalist, AŞPA-nın sabiq üzvü. 2006–2016-cı illərdə Estoniya Respublikasının Prezidenti olmuşdur. – 152, 230.

**80. Fransa,** F r a n s a  R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 674,6 min km$^2$, əhalisi 67 milyon

nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. –154,210, 212,237,337.

**81. İsmayıl Şıxlı,** İ s m a y ı l  Q ə h r ə m a n  o ğ l u (1919–1995) – Azərbaycanın Xalq yazıçısı, ictimai xadim. İsmayıl Şıxlı məşhur «Dəli Kür» romanında psixoloji baxımdan dərin xarakterlər yaratmışdır. O, Azərbaycan Yazıçılar İttifaqının Birinci katibi, Azərbaycan Respublikası Ali Sovetinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 161.

**82. V a q i f,** M o l l a  P ə n a h  V a q i f (1717–1797) – görkəmli Azərbaycan şairi, dövlət xadimi. Vaqif qəzəl, müxəmməs, müstəzad və s. formalarda şeirlər yazmışdır. Gözəllərin vəsfi Vaqif lirikasının əsas qayəsidir. Vaqif şeirindəki realizmə meyil Azərbaycan poeziyasının inkişafına güclü təsir göstərmişdir. Qarabağ hakimi İbrahim xanın (1769-cu il) Baş vəziri olmuşdur. – 161.

**83. Vidadi, Molla Vəli** (təqr.1709–1809) – Azərbaycan şairi. Ədəbi irsinin az qismi məlumdur. Feodal zülmündən, xanlıqlar dövrünün hərc-mərcliyindən doğan kədər və ümidsizlik, mənəvi tənhalıqdan şikayət Vidadi yaradıcılığının əsas motivləridir. Vidadi lirikası yüksək bədii sənətkarlıq nümunəsidir. – 161.

**84. Osman Sarıvəlli,** O s m a n  A b d u l l a  o ğ l u  Q u r- b a n o v (1905–1990) – Azərbaycan Xalq şairi. Əsasən lirik şeirlər yazmışdır. Yaradıcılığında Cənubi Azərbaycana həsr etdiyi lirik şeirlər xüsusi yer tutur. –161.

**85. Səməd Vurğun,** S ə m ə d  Y u s i f  o ğ l u  V ə k i l o v (1906–1956) – böyük Azərbaycan şairi, ictimai xadim. Azərbaycanın Xalq şairi. Səməd Vurğunun yaradıcılığı XX əsr Azər-

baycan şeirinin inkişafında mühüm rol oynamışdır. Səməd Vurğun Azərbaycan Yazıçılar İttifaqının məsul katibi, sədri, Azərbaycanın Xarici Ölkələrlə Mədəni Əlaqələr Cəmiyyətinin sədri, Azərbaycan MEA-nın vitse-prezidenti olmuşdur, iki dəfə SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüşdür. – 161,165–166.

**86. Gəncə –** Azərbaycan Respublikasında şəhər. Sahəsi 110 km$^2$, əhalisi 500 min nəfərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir, salındığı tarix dəqiq məlum deyil. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–323) salındığını qeyd etmişlər. – 175–183,206,343.

**87. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 190–192,195,196,197,198,200,248–250.

**88. Leyla Əliyeva,** L e y l a İ l h a m q ı z ı (d.1984) – «Baku» jurnalının Baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı, Heydər Əliyevin nəvəsi. 2006–2008-ci illərdə Leyla Əliyeva Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Leyla Əliyeva həm də Moskvada Heydər Əliyev Fondunun rəhbəridir. – 197, 250.

**89. Kuba,** K u b a R e s p u b l i k a s ı – Amerikada, Vest-Hinddə dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 11 milyon nəfərdir. Dövlətin ali orqanı birpalatalı Milli Assambleya, dövlətin və hökumətin başçısı Dövlət Şurasının sədridir. Paytaxtı Havana şəhəridir. – 228.

**90. Bolqarıstan,** B o l q a r ı s t a n R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min $km^2$, əhalisi 7 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 231.

**91. Georgi Pırvanov** (d.1957) – Bolqarıstanın siyasi və dövlət xadimi. Tarix elmləri doktoru. 2002–2012-ci illərdə Bolqarıstan Respublikasının Prezidenti olmuşdur. – 231.

**92. İmamzadə piri,** İ m a m z a d ə t ü r b ə s i, G ö y i m a m – orta əsrlərə aid memarlıq abidəsi. Üzərindəki kitabənin imam Məhəmməd Bağırın oğlu İbrahimin (? – 739) qəbri üstündə tikildiyi və general-leytenant İsrafil bəy Yadigarzadənin təşəbbüsü ilə bərpa edildiyi (1878–79) göstərilir. İmamzadə türbəsinin tikildiyi tarix dəqiq müəyyən edilməmişdir. Memarlıq quruluşuna görə türbənin XIV əsrin sonu – XV əsrin əvvəllərində, ətrafındakı kompleksin isə XVII əsrdə tikildiyi ehtimal olunur. Türbənin hündürlüyü 12 metr, günbəzin hündürlüyü 2,7 m, diametri 4,4 metrdir. Günbəzə mavi kaşıdan üzlük çəkilmişdir («Göy imam» adı da bununla əlaqədardır). – 178,183.

**93. Nizami Gəncəvi,** İ l y a s Y u s i f o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı 5 epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 179,181.

**94. İsrafil bəy Yadiğarzadə** (1815–1884) – hərbçi, general-leytenant. Çar Rusiyasının ordusunda xidmət etmiş yüksək rütbəli Azərbaycan əsilli hərbçi. İsrafil bəy Yadigarzadə Çar Rusiyasının ən yüksək – «Müqəddəs Anna», «Müqəddəs Stanislav», «Müqəddəs Vladimir» ordenləri ilə təltif edilmişdir. – 183.

**95. İrəvan xanlığı** – XVIII əsrin ortalarında Cənubi Qafqazda, keçmiş Çuxursəd bəylərbəyliyi ərazisində yaranmış müstəqil Azərbaycan feodal dövləti; Ağrıdağ düzənliyinin Göyçə gölü hövzəsini və Araz çayından cənub-qərbə doğru uzanan ərazini əhatə edirdi. Azərbaycanın cənub-qərbində yerləşən bu xanlıq paytaxtı İrəvan şəhəri olmaqla, inzibati cəhətdən 15 mahala bölünürdü. İrəvan xanlığı 1747–97-ci illərdə müstəqil dövlət olmuş, 1797–1828-ci illərdə İranın hakimiyyəti altında olmuşdur. Türkmənçay müqaviləsinə (1828) görə Rusiyanın tərkibinə keçmişdir. Bu zaman İrəvan xanlığı ərazisində 420-dən çox kənd dağıdılmış, 10 minlərlə azərbaycanlı əhali məhv edilmişdi. – 198.

**96. Zəngəzur mahalı,** Z ə n g ə z u r q ə z a s ı – XIX əsrin 2-ci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil edilmişdir. Çar Rusiyası Hökumətinin 1867-ci il dekabr tarixli Fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdi. – 198.

**97. Hillari Klinton** (d.1947) – hüquqşünas, siyasi xadim. Prezident Klintonun həyat yoldaşı. 2001-ci ildən Nyu-York ştatından Amerika Senatına üzv seçilmişdir. 2009–2013-cü illərdə ABŞ-ın Dövlət katibi olmuşdur. – 245.

**98. Vano Merabişvili** (d.1968) – 2004-cü ildə Gürcüstanın Daxili İşlər naziri olmuşdur. 2003-cü ildə «qızıl gül inqilabı»nı müdafiə etmiş və M.Saakaşvilinin yaxın əməkdaşlarından biri olmuşdur. – 246.

**99. Oqtay Əsədov,** O q t a y S a b i r o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin sədridir. Azərbaycan Respublikasının «Şərəf» və Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 248.

**100. Rumıniya,** R u m ı n i y a R e s p u b l i k a s ı – Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 238,4 min km$^2$, əhalisi 19,5 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 256.

**101. Xorvatiya,** X o r v a t i y a R e s p u b l i k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 56,6 min km$^2$, əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 20 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Zaqreb şəhəridir. – 257.

**102. Azərbaycan Dövlət İnvestisiya Şirkəti** – Açıq Səhmdar Cəmiyyəti. 2006-cı ildə yaradılmışdır. AİŞ-in məqsədi mövcud və yeni kommersiya müəssisələrinə yerli və xarici investorlar cəlb etmək və öz vəsaiti hesabına müddətli investisiya qoymaq vasitəsilə Azərbaycan ərazisində iqtisadiyyatın qeyri-neft sektorunun inkişaf etdirilməsidir. – 261,317.

**103. Tatarıstan,** T a t a r ı s t a n R e s p u b l i k a s ı – Rusiya Federasiyası tərkibində federal vilayət. Sahəsi 68 min km$^2$, əhalisi 3,9 milyon nəfərdir. Paytaxtı Kazan şəhəridir. – 281.

**104. Rüstəm Minnixanov** (d.1957) – Rusiyanın dövlət və siyasi xadimi. 2010-cu ildən Tatarıstanın prezidenti, «Vahid Rusiya» Partiyası Ali Şurasının üzvüdür. – 281.

**105. Mehdi Hüseynzadə,** Mehdi Hənifə oğlu (1918–1944) – Yuqoslaviyada və Şimali İtaliyada Müqavimət hərəkatı iştirakçısı, məşhur partizan, Sovet İttifaqı Qəhrəmanı. Mehdi Hüseynzadə partizan hərəkatında fəal iştirak etmiş və hitlerçilərə qarşı mübarizədə cəsurluğu ilə əfsanəvi şöhrət qazanmışdı. – 282.

**106. Pakistan,** Pakistan İslam Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 194 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 283.

**107. Asif Əli Zərdari** (d.1955) – 2008–2013-cü illərdə Pakistan İslam Respublikasının Prezidenti olmuşdur. – 283.

**108. Yunanıstan,** Yunanıstan Respublikası – Cənubi Avropada dövlət. Sahəsi 132 min km$^2$, əhalisi 11 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afina şəhəridir. – 284.

**109. Karolos Papulyas** (d.1929) – yunan siyasətçisi, 2005–2015-ci illərdə Yunanıstan Respublikasının Prezidenti olmuşdur. – 284.

**110. İrlandiya,** İrlandiya Respublikası – Qərbi Avropada dövlət. Sahəsi 70,3 min km$^2$, əhalisi 4,6 milyon nəfərdir. İnzibati ərazisi 26 qraflığa və 5 şəhər qraflığına bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Dublin şəhəridir. – 285.

**111. Meri Makalis** (d.1951) – İrlandiyanın siyasi xadimi. 1997–2011-ci illərdə İrlandiya Respublikasının Prezidenti olmuşdur. Meri Makalis İrlandiyanın birləşdirilməsinin ən böyük tərəfdarıdır. – 285.

**112. Banqladeş,** B a n q l a d e ş X a l q R e s p u b l i- k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 147,5 min $km^2$, əhalisi 169 milyon nəfərdir. İnzibati ərazisi 4 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Dəkkə şəhəridir. – 286.

**113. Zillur Rəhman (**1929–2013) – Banqladeşin siyasi və dövlət xadimi. 2009–2013-cü illərdə Banqladeş Xalq Respublikasının Prezidenti olmuşdur. – 286.

**114. Yavər Camalov** (d.1949) – mühəndis. «Azneft» İstehsalat Birliyinin Baş direktoru olmuşdur. 2006-cı ildən Müdafiə Sənayesi naziridir. – 287,292.

**115. 8 Mart Beynəlxalq qadınlar günü** – iqtisadi, ictimai və siyasi bərabərlik uğrunda mübarizədə qadınların beynəlxalq həmrəylik günü. Beynəlxalq qadınlar gününün bayram edilməsi Klara Setkinin təklifi ilə 1910-cu ildə sosialist qadınların II Beynəlxalq konfransında (Kopenhagen) qərara alınmışdı. İlk dəfə bayram 1911-ci ildə bir sıra Avropa ölkələrində keçirilmişdir, Azərbaycanda isə 1917-ci ildən qeyd edilməyə başlamışdır. – 298.

**116. Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksi** – 2008-ci ildə Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə Qala Tarixi-Etnoqrafiya qoruğunun ərazisində açıq səma altında yaradılmış muzey kompleksi. – 315.

**117. Novruz bayramı** – qədim xalq bayramı. Şimal yarımkürəsində astronomik yazın başlandığı gecə-gündüz bərabərliyi

günündə (martın 21–22-də ) keçirilir. Qədim zamanlardan başlayaraq İran, Azərbaycan, Əfqanıstan, Tacikistan, Özbəkistan və bəzi Şərq ölkələri baharın – yeni ilin gəlişini şənliklərlə qarşılayırlar. Respublikamız müstəqillik qazanandan sonra Novruz bayramı rəsmi ümumxalq bayramı və istirahət günü elan edilmişdir.

2009-cu ildən Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə YUNESKO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilmişdir. BMT-nin Baş Məclisi martın 21-ni «Beynəlxalq Novruz günü» elan etmişdir. – 316.

**118. Albaniya,** A l b a n i y a R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 28,7 min km$^2$, əhalisi 3 milyon nəfərdir. İnzibati cəhətdən 26 retiyə (rayona) bölünür. Dövlətin başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Tirana şəhəridir. – 321.

**119. Sali Berişa** (d.1944) – Albaniyanın dövlət və siyasi xadimi. 1992–1997-ci illərdə Albaniya Respublikasının Prezidenti, 2005–2013-cü illərdə isə Albaniyanın Baş naziri olmuşdur. – 321.

**120 Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 378 min km$^2$, əhalisi 127 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 322.

**121. Akihito** (d.1933) – 1989-cu ildən Yaponiya imperatorudur. İmperator Hirohitonun oğludur. – 322.

**122. İslam Konfransı Təşkilatı** (İKT) – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiy-

yə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. Hazırda İslam Əməkdaşlıq Təşkilatı adlanır. – 330.

**123. Mərakeş,** M ə r a k e ş K r a l l ı ğ ı – Şimal-Qərbi Afrikada dövlət. Sahəsi 446,6 min km$^2$, əhalisi 34 milyon nəfərdir. İnzibati ərazisi 16 əyalətə bölünür. Mərakeş konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı Nümayəndələr Palatasıdır. Paytaxtı Rabat şəhəridir. – 336.

## Şəxsi adlar göstəricisi


**Abbasov Tahir** – 182
**Aboltina Solvita** – 88
**Abutalıbov Hacıbala** – 64,95,124,234,297,313
**Adıgözəlzadə Murad** – 15
**Ağayarova Sədaqət** – 190,191
**Ajibalis Audronyus** – 335
**Akihito** – 322
**Alkalay Sven** – 26
**Balodis Antons** – 93
**Barrozu Xose** – 28–40,49,77,82,116
**Berişa Sali** – 321
**Berts Avqust** – 93
**Bolkiah Hacı Həssənal** – 149
**Bradtken Robert** – 212,297,337
**Brays Kventin** – 24
**Camalov Yavər** – 287,292
**Cavanşir Rəşid** – 114
**Çey Tae-von** – 125
**Çinqvanta Ottavio** – 211
**De Marjeri Kristof** – 134
**Dequtiene İrena** – 155
**Dombrovskis Valdis** – 89

**Dumitru Nikolae** – 256
**Edjus Sudrabu** – 93
**Endryu (hersoq)** – 143
**Eyxler Adolf** – 14
**Eyyubov Emin** – 31
**Əhmədinejad Mahmud** – 22,25,147,229
**Ələkbərov Vahid** – 132
**Əliyev Aydın** – 162
**Əliyev Heydər** – 9,96,101,103,106,108,156, 166,168,175,180,184,193,194, 201,242,341
**Əliyeva Leyla** – 197,250
**Əliyeva Mehriban** – 12,13,14,15,64,65,66,90,102, 106,168,180,191,197,248,251, 339,340
**Əmiraslanov Rövşən** – 215
**Ənvəri Reza** – 229
**Ərbakan Nəcməddin** – 255
**Ərdoğan Rəcəb Tayyib** – 225
**Əs-Sabah əl-Cabir** – 150
**Əsgərov Cahangir** – 341
**Əsədov Oqtay** – 248
**Əzizov Eldar** – 179
**Fasye Bernar** – 212,297,337
**Fayman Verner** – 136
**Fidan Hakan** – 153
**Gəncəvi Nizami** – 179,181
**Gül Abdullah** – 112,153,255
**Heydərov Kəmaləddin** – 69,237,241
**Hacinasto Edmond** – 321
**Hrvati Branko** – 257
**Hüseynzadə Mehdi** – 282
**İlves Toomas** – 152,230
**İsa (*peyğəmbər)*** – 21
**İsmayılova Təranə** – 106

**Jezdakova Nelija** – 69
**Kalmi-Re Mişelin** – 130,324–334
**Kasprşik Anji** – 297,337
**Kaylan Filip** – 27
**Kivisaari Tero** – 128
**Klinton Hillari** – 245
**Kobia Roland** – 31
**Komorovski Bronislav** – 140
**Kuadrino Umberto** – 129
**Kurtua Jan-Filip** – 131
**Qarayev Əbülfəs** – 251
**Qocayev Hətəm** – 204–205
**Qribauskayte Dalya** – 151
**Qrosman Vurgen** – 144
**Qurria Angel** – 136
**Lund Helge** – 126
**Makalis Meri** – 285
**Malezan Pyer** – 27
**Maloum Hamad** – 244
**Mariani Tyeri** – 210
**Medvedev Dmitri** – 111,115,295,330
**Mehdiyev Ramiz** – 64,95,124,248,294,297
**Merabişvili Vano** – 246
**Məhəmməd Bağır (*beşinci imam*)**– 183
**Məmmədov Elman** – 179
**Məmmədov Fazil** – 69
**Məmmədov Ziya** – 6,7,8,117,118,120,121,163
**Məsimov Kərim** – 136
**Minnixonov Rüstəm** – 281
**Mirkazimi Seyid Məsud** – 25
**Murniese Linda** – 69
**Narışkin Sergey** – 111
**Nəsiri Məhəmməd** – 336
**Nikolov Georgi** – 215
**Nobel Emmaniel** – 15

**Ozel Necdət** – 99
**Paxomov Anatoli** – 294,297
**Parrilya Bruno** – 228
**Patil Pratibha** – 23
**Papulyas Karolos** – 284
**Popov İqor** – 212,297,337
**Perurena Joze** – 299
**Pırvanov Georgi** – 231
**Pirverdiyev Etibar** – 188
**Racapaksa Mahinda** – 100
**Rasizadə Artur** – 64,95
**Rəhman Zillur** – 286
**Roussef Dilma** – 97
**Rozitis Pavlis** – 93
**Rzayev Baba** – 122
**Saakaşvili Mixeil** – 98
**Sarıvəlli Osman** – 161
**Sarkisyan Serj** – 295,296
**Səməd Vurğun** – 161,165–166
**Semnebi Piter** – 116,247
**Silva Anibal** – 245
**Şirəliyev Oqtay** – 13
**Şıxlı İsmayıl** – 161
**Şpindeleqqer Mixael** – 135,136
**Şvanberq Karl-Henrik** – 133
**Tadiç Boris** – 148
**Tsxodadze Kaxabar** – 214
**Vafanq Sun** – 127
**Vaqif Molla Pənah** – 161
**Vaşadze Qriqol** – 98
**Vidadi Molla Vəli** – 161
**Yeluşiç Lyubitsa** – 282
**Vizer Marius** – 41
**Yıldız Taner** – 112–113
**Yanukoviç Viktor** – 136,141– 142

**Yadigarzadə İsrafil** –183
**Yejel Mixail** – 339
**Yusifov Məmməd** – 161
**Zatlers Lilita** – 65,66,90
**Zatlers Valdis** – 65–87,90–94
**Zərdari Asif** – 283

## Coğrafi adlar göstəricisi

**Abşeron (*rayon)*** – 232–235
**Ağstafa** – 180
**Albaniya** – 321
**Amerika Birləşmiş Ştatları** – 91,212,245,297,337
**Aralıq dənizi** – 38
**Asiya** – 78,91,137
**Aşağı Ağcakənd** – 197
**Avstriya** – 135,139
**Avstraliya** – 24
**Avropa** – 29,32,33,34,39,78,82,85,86, 91,94,137,145,192,221
**Balaxanı** – 306
**Baltik dənizi** – 78
**Banqladeş** – 286
**Bayıl** – 306
**Bilgəh** – 312
**Binə** – 312

**Birinci Şıxlı** – 165
**Bolqarıstan** – 231
**Bozalqanlı** – 168–169
**Böyük Britaniya** – 91,143
**Braziliya** – 97
**Bruney Darüssalam** – 148
**Bosniya və Herseqovina** – 26
**Bruney** – 149
**Buzovna** – 312
**Bülbülə** – 312
**Cənubi Afrika Respublikası** – 291
**Cənubi Qafqaz** – 116,162,247,330
**Corat** – 312
**Çeyldağ** – 106
**Çin** – 137

**Dağlıq Qarabağ** – 12,18,33,34,37,48,49,50,68, 94,116,130,198,200,212,217, 218, 245,247,295,296,330, 331,335,337
**Dağlıq Alayan** – 251
**Daşkəsən** – 180
**Davos** – 124–145,326,328
**Estoniya** – 152,230
**Ələt** – 106
**Əfqanıstan** – 37
**Fatmayı** – 306
**Fransa** – 154,210,212,237,337
**Gədəbəy** – 180
**Gəncə** – 175–183,206,343
**Goranboy** – 180,190–200
**Göygöl** – 180
**Gürcüstan** – 85,98,158,221,246
**Hindistan** – 23
**Hökməli** – 234–235

**Xankəndi** – 20,198,199
**Xəzər dənizi** – 78,137
**Xocalı** – 190–192,195,196,198,200, 248–250
**Xorvatiya** – 257
**İraq** – 37
**İran** – 22,25,85,147,198,229
**İrlandiya** – 285
**İsveçrə** – 124–145,324–334
**Koreya Respublikası** – 125
**Kosovo** – 37
**Kuba** – 228
**Kürdəxanı** – 312
**Küveyt** – 150
**Qara dəniz** – 38
**Qazax** – 156–166
**Qazaxıstan** – 136
**Qobustan** – 315
**Quba** – 184
**Qusar** – 251–254
**Latviya** – 64–95
**Lənkəran** – 343
**Litva** – 151,155,335
**London** – 227
**Lökbatan** – 103
**Masazır** – 312
**Mərakeş** – 336
**Mərdəkan** – 312
**Mərkəzi Asiya** – 137
**Moskva** – 101,224,225
**Naxçıvan** – 343
**Naftalan** – 201–208
**Nardaran** – 312
**Novxanı** – 312
**Pakistan** – 283

**Pirşağı** – 312
**Polşa** – 140
**Portuqaliya** – 146
**Riqa** – 64–95
**Rumıniya** – 256
**Rusiya** – 85,111,115,132,164,198,212, 221,281,294–297,337
**Samux** – 175,180,184–189
**Serbiya** – 148
**Sloveniya** – 282
**Soçi** – 294–297,330
**Sumqayıt** – 105,306
**Şuşa** – 20,199
**Şri-lanka** – 100
**Tatarıstan** – 281
**Tovuz** – 156,167–174,180
**Türkiyə** – 40,85,99,112–113,153,198, 255
**Ukrayna** – 136,141–142,221,338
**Yaponiya** – 322
**Yunanıstan** – 284
**Zaqatala** – 343
**Zəngəzur** – 17,198
**Zığ** – 312
**Zuğulba** – 117,118,119,120,121

# MÜNDƏRİCAT

PAYTAXTDA YENİ İNŞA OLUNMUŞ BİR SIRA YOL-NƏQLİYYAT KOMPLEKSİ OBYEKTLƏRİNİN AÇILIŞI MƏRASİMİ

*29 dekabr 2010-cu il.........................................................................5*

BAKI TİCARƏT LİMANININ YAXINLIĞINDA YENİ PARKIN AÇILIŞI MƏRASİMİ

*29 dekabr 2010-cu il.......................................................................11*

ƏBÜLFƏZ QARAYEV ADINA 2 SAYLI KLİNİK UŞAQ XƏSTƏXANASININ ƏSASLI TƏMİR VƏ YENİDƏN-QURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*30 dekabr 2010-cu il.......................................................................12*

AZƏRBAYCAN DÖVLƏT FİLARMONİYASININ KAMERA VƏ ORQAN MUSİQİSİ ZALININ BİNASININ ƏSASLI TƏMİR VƏ BƏRPA İŞLƏRİNDƏN SONRA AÇILIŞI MƏRASİMİ

*30 dekabr 2010-cu il.......................................................................14*

DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*31 dekabr 2010-cu il.......................................................................16*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

*5 yanvar 2011-ci il.........................................................................21*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA

*10 yanvar 2011-ci il.......................................................................22*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ
XANIM PRATİBHA DEVİSİNQH PATİLƏ

*12 yanvar 2011-ci il*...........................................................................*23*

AVSTRALİYA İTTİFAQININ GENERAL-QUBERNATORU
XANIM KVENTİN BRAYSA

*12 yanvar 2011-ci il*...........................................................................*24*

İRANIN NEFT NAZİRİ SEYİD MƏSUD MİRKAZİMİNİN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 yanvar 2011-ci il*...........................................................................*25*

BOSNİYA VƏ HERSEQOVİNANIN XARİCİ İŞLƏR NAZİRİ
SVEN ALKALAYIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*12 yanvar 2011-ci il*...........................................................................*26*

«EURONEWS» TELEKANALININ MÜŞAHİDƏ ŞURASININ
SƏDRİ PYER LUİCİ MALEZA VƏ TELEKANALIN BAŞ
İCRAÇI DİREKTORU FİLİP KAYLAN İLƏ GÖRÜŞ

*13 yanvar 2011-ci il*...........................................................................*27*

AVROPA KOMİSSİYASININ SƏDRİ XOSE MANUEL
BARROZU İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*13 yanvar 2011-ci il*...........................................................................*28*

AVROPA KOMİSSİYASININ SƏDRİ XOSE MANUEL
BARROZU İLƏ GENIŞ TƏRKİBDƏ GÖRÜŞ

*13 yanvar 2011-ci il*...........................................................................*29*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*13 yanvar 2011-ci il*...........................................................................*31*

AVROPA KOMİSSİYASININ SƏDRİ XOSE MANUEL BARROZU İLƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT-LARLA ÇIXIŞLAR

*13 yanvar 2011-ci il.......................................................................................32*

BEYNƏLXALQ CÜDO FEDERASİYASININ PREZİDENTİ MARİUS VİZER İLƏ GÖRÜŞ

*14 yanvar 2011-ci il.......................................................................................41*

NAZİRLƏR KABİNETİNİN 2010-cu İLİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ 2011-ci İLDƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA NİTQ

*14 yanvar 2011-ci il.......................................................................................42*

YEKUN NİTQİ ..............................................................................................*51*

LATVİYAYA RƏSMİ SƏFƏR

*16 yanvar 2011-ci il.......................................................................................64*

RƏSMİ QARŞILANMA MƏRASİMİ

*17 yanvar 2011-ci il.......................................................................................65*

«AZADLIQ» ABİDƏSİNİ ZİYARƏT

*17 yanvar 2011-ci il.......................................................................................66*

LATVİYA PREZİDENTİ VALDİS ZATLERS İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*17 yanvar 2011-ci il.......................................................................................67*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*17 yanvar 2011-ci il.......................................................................................68*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*17 yanvar 2011-ci il.......................................................................................69*

AZƏRBAYCAN–LATVİYA BİZNES–FORUMU

*17 yanvar 2011-ci il*..........................................................................*70*

MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLAR

*17 yanvar 2011-ci il*..........................................................................*80*

LATVİYA SEYMİNİN SƏDRİ XANIM
SOLVİTA ABOLTİNA İLƏ GÖRÜŞ

*17 yanvar 2011-ci il*..........................................................................*88*

LATVİYANIN BAŞ NAZİRİ VALDİS DOMBROVSKİS İLƏ
GÖRÜŞ

*17 yanvar 2011-ci il*..........................................................................*89*

AZƏRBAYCAN PREZİDENTİNİN VƏ XANIMININ
ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏT

*17 yanvar 2011-ci il*..........................................................................*90*

«SƏS» QƏZETİNİN KOLLEKTİVİNƏ

*17 yanvar 2011-ci il*..........................................................................*96*

BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ
XANIM DİLMA ROUSSEFƏ

*17 yanvar 2011-ci il*..........................................................................*97*

GÜRCÜSTANIN XARİCİ İŞLƏR NAZİRİ
QRİQOL VAŞADZE İLƏ GÖRÜŞ

*18 yanvar 2011-ci il*..........................................................................*98*

TÜRKİYƏ JANDARM QÜVVƏLƏRİNİN BAŞ KOMANDANI,
ORDU GENERALI NECDET ÖZELİN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 yanvar 2011-ci il*..........................................................................*99*

ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHİNDA RACAPAKSAYA

*19 yanvar 2011-ci il............................................................................. ………..100*

QANLI YANVAR FACİƏSİNİN 21-ci İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR ŞƏHİDLƏR XİYABANINI ÜMUMXALQ ZİYARƏTİ

*20 yanvar 2011-ci il.............................................................................101*

LÖKBATAN QƏSƏBƏSİNDƏ HEYDƏR PARKI, HEYDƏR ƏLİYEV MƏRKƏZİ VƏ «CIRTDAN» UŞAQ ƏYLƏNCƏ PARKININ AÇILIŞI MƏRASİMİ

*21 yanvar 2011-ci il.............................................................................103*

QARADAĞ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*21 yanvar 2011-ci il.............................................................................104*

BAKI BULVARININ GENİŞLƏNDİRİLMƏSİ PROQRAMI ÇƏRÇİVƏSİNDƏ HƏYATA KEÇİRİLMİŞ YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*21 yanvar 2011-ci il.............................................................................110*

RUSİYA PREZİDENTİ ADMİNİSTRASİYASININ RƏHBƏRİ SERGEY NARIŞKİN İLƏ GÖRÜŞ

*22 yanvar 2011-ci il.............................................................................111*

TÜRKİYƏNİN ENERJİ VƏ TƏBİİ EHTİYATLAR NAZİRİ TANER YILDIZIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*22 yanvar 2011-ci il.............................................................................112*

«*bp*–AZƏRBAYCAN» ŞİRKƏTİNİN PREZİDENTİ RƏŞİD CAVANŞİR İLƏ GÖRÜŞ

*22 yanvar 2011-ci il.............................................................................114*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

*24 yanvar 2011-ci il..........................................................................115*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ
NÜMAYƏNDƏSİ PİTER SEMNEBİNİN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 yanvar 2011-ci il..........................................................................116*

BAKIDA BİR SIRA YOL-NƏQLİYYAT KOMPLEKSİ
OBYEKTLƏRİNİN AÇILIŞI MƏRASİMİ

*24 yanvar 2011-ci il..........................................................................117*

«BAKIELEKTRİKŞƏBƏKƏ» ASC-nin
MƏRKƏZİ DİSPETÇER XİDMƏTİNİN VƏ
YENİ İNŞA EDİLMİŞ 6 YARIMSTANSİYANIN AÇILIŞI
MƏRASİMİ

*24 yanvar 2011-ci il..........................................................................122*

İSVEÇRƏYƏ İŞGÜZAR SƏFƏR

*26 yanvar 2011-ci il..........................................................................124*

KOREYANIN «SK GROUP» ŞİRKƏTLƏR QRUPUNUN
SƏDRİ ÇEY TAE-VON
İLƏ GÖRÜŞ

*26 yanvar 2011-ci il..........................................................................125*

«STATOYL ASA» ŞİRKƏTİNİN PREZİDENTİ VƏ BAŞ
İCRAÇI DİREKTORU HELGE LUND İLƏ GÖRÜŞ

*26 yanvar 2011-ci il..........................................................................126*

«HUAWEİ TECHNOLOGİES» KORPORASİYASININ SƏDRİ
XANIM SUN YAFANQ İLƏ GÖRÜŞ

*26 yanvar 2011-ci il..........................................................................127*

«TELİASONERA EURASİA» ŞİRKƏTİNİN PREZİDENTİ
TERO KİVİSAARİ İLƏ GÖRÜŞ

*26 yanvar 2011-ci il............................................................................128*

«EDİSON» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU
UMBERTO KUADRİNO İLƏ GÖRÜŞ

*26 yanvar 2011-ci il............................................................................129*

İSVEÇRƏ PREZİDENTİ MİŞELİN
KALMİ- RE İLƏ GÖRÜŞ

*27 yanvar 2011-ci il............................................................................130*

«MİCROSOFT» KORPORASİYASININ VİTSE-PREZİDENTİ
VƏ «MİCROSOFT İNTERNATİONAL» ŞİRKƏTİNİN
PREZİDENTİ JAN-FİLİP KURTUA İLƏ GÖRÜŞ

*27 yanvar 2011-ci il............................................................................131*

RUSİYANIN «LUKOYL» ŞİRKƏTİNİN PREZİDENTİ VAHİD
ƏLƏKBƏROV İLƏ GÖRÜŞ

*27 yanvar 2011-ci il............................................................................132*

*bp* ŞİRKƏTİNİN DİREKTORLAR ŞURASININ SƏDRİ VƏ
QEYRİ-İCRAÇI DİREKTORU
KARL-HENRİK SVANBERQ İLƏ GÖRÜŞ

*27 yanvar 2011-ci il ...........................................................................133*

TOTAL ŞİRKƏTİNİN SƏDRİ VƏ BAŞ İCRAÇI DİREKTORU
KRİSTOF DE MARJERİ İLƏ GÖRÜŞ

*27 yanvar 2011-ci il............................................................................134*

AVSTRİYANIN AVROPA VƏ BEYNƏLXALQ MƏSƏLƏLƏR
ÜZRƏ NAZİRİ MİXAEL ŞPİNDELEQQER İLƏ GÖRÜŞ

*27 yanvar 2011-ci il............................................................................135*

AVSTRİYA–İQTİSADİ ƏMƏKDAŞLIQ VƏ İNKİŞAF TƏŞKİLATININ BİRGƏ NAHAR MƏRASİMİNDƏ

*27 yanvar 2011-ci il*.......................................................................................136

POLŞA RESPUBLİKASININ PREZİDENTİ BRONİSLAV KOMOROVSKİ İLƏ GÖRÜŞ

*28 yanvar 2011-ci il*.......................................................................................140

UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ VİKTOR YANUKOVİÇ İLƏ GÖRÜŞ

*28 yanvar 2011-ci il*.......................................................................................141

BÖYÜK BRİTANİYANIN YORK HERSOQU ŞAHZADƏ ENDRYU İLƏ GÖRÜŞ

*28 yanvar 2011-ci il*.......................................................................................143

RWE ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN SƏDRİ YURGEN QROSMAN İLƏ GÖRÜŞ

*28 yanvar 2011-ci il*.......................................................................................144

«AVROPANIN ENERJİ GƏLƏCƏYİ» MÖVZUSUNDA SESSİYADA İŞTİRAK

*28 yanvar 2011-ci il*.......................................................................................145

PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANİBAL KAVAKU SİLVAYA

*28 yanvar 2011-ci il*.......................................................................................146

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA

*7 fevral 2011-ci il*.........................................................................................147

SERBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BORİS TADİÇƏ

*7 fevral 2011-ci il* ....................................................................................*148*
BRUNEY-DARÜSSALAMIN SULTANI ƏLAHƏZRƏT HACI HƏSSƏNAL BOLKİAHA

*7 fevral 2011-ci il* ....................................................................................*149*

KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA

*7 fevral 2011-ci il* ....................................................................................*150*

LİTVA RESPUBLİKASININ PREZİDENTİ XANIM DALYA QRİBAUSKAYTEYƏ

*7 fevral 2011-ci il* ....................................................................................*151*

ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TOOMAS HENDRİK İLVESƏ

*7 fevral 2011-ci il* ....................................................................................*152*

TÜRKİYƏNİN MİLLİ İSTİHBARAT TƏŞKİLATININ RƏHBƏRİ HAKAN FİDAN İLƏ GÖRÜŞ

*7 fevral 2011-ci il* ....................................................................................*153*

FRANSA SENATININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*7 fevral 2011-ci il* ....................................................................................*154*

LİTVA SEYMİNİN SƏDRİ XANIM İRENA DEQUTİENENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*8 fevral 2011-ci il* ....................................................................................*155*

QAZAX VƏ TOVUZ RAYONLARINA SƏFƏR

*9 fevral 2011-ci il* ....................................................................................*156*

QAZAX RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*9 fevral 2011-ci il* ....................................................................................*157*

TOVUZ RAYONUNDA ÜMUMMİLLİ LİDER
HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*9 fevral 2011-ci il* ........................................................................ *167*

TOVUZ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ
İLƏ GÖRÜŞ

*9 fevral 2011-ci il* ........................................................................ *171*

GƏNCƏ ŞƏHƏRİNƏ VƏ SAMUX RAYONUNA SƏFƏR

*9 fevral 2011-ci il* ........................................................................ *175*

GƏNCƏ ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ
İLƏ GÖRÜŞ

*9 fevral 2011-ci il* ........................................................................ *176*

SAMUX RAYONUNDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN
ABİDƏSİNİ ZİYARƏT

*9 fevral 2011-ci il* ........................................................................ *184*

SAMUX RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ
İLƏ GÖRÜŞ

*9 fevral 2011-ci il* ........................................................................ *186*

GORANBOY RAYONUNA VƏ NAFTALAN ŞƏHƏRİNƏ
SƏFƏR

*10 fevral 2011-ci il* ...................................................................... *190*

GÖRANBOY RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ
İLƏ GÖRÜŞ

*10 fevral 2011-ci il* ...................................................................... *194*

NAFTALANDA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN
ABİDƏSİNİ ZİYARƏT

*10 fevral 2011-ci il* ...................................................................... *201*

KÜRDƏMİR–UCAR MAGİSTRAL AVTOMOBİL YOLUNUN
YENİDƏN QURULMUŞ 42 KİLOMETRLİK HİSSƏSİNİN
AÇILIŞI MƏRASİMİ

*10 fevral 2011-ci il ........................................................................109*

FRANSANIN NƏQLİYYAT MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT
KATİBİ TYERİ MARİANİ İLƏ GÖRÜŞ

*11 fevral 2011-ci il ........................................................................210*

BEYNƏLXALQ KONKİSÜRMƏ İTTİFAQININ PREZİDENTİ
OTTAVİO ÇİNQVANTA İLƏ GÖRÜŞ

*11 fevral 2011-ci il ........................................................................211*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in
HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*11 fevral 2011-ci il ........................................................................212*

«BİRLİK» KUBOKUNU QAZANMIŞ BAKININ «İNTER»
KLUBUNUN FUTBOLÇULARI İLƏ GÖRÜŞ

*14 fevral 2011-ci il ........................................................................213*

«MİR» DÖVLƏTLƏRARASI TELERADİO ŞİRKƏTİNƏ
MÜSAHİBƏ

*17 fevral 2011-ci il ........................................................................216*

KUBANIN XARİCİ İŞLƏR NAZİRİ BRUNO EDUARDO
RODRİQES PARRİLYANIN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*17 fevral 2011-ci il ........................................................................228*

İRANIN İNFORMASİYA TEXNOLOGİYALARI VƏ
KOMMUNİKASİYA NAZİRİ REZA TAĞIPUR ƏNVƏRİNİN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*17 fevral 2011-ci il ........................................................................229*

ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB TOOMAS HENDRİK İLVESƏ

*21 fevral 2011-ci il ..................................................................................230*

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB GEORGİ PIRVANOVA

*21 fevral 2011-ci il ..................................................................................231*

ABŞERON RAYONU ƏRAZİSİNDƏ İNŞA OLUNMUŞ
AZMDF ZAVODUNUN AÇILIŞI MƏRASİMİ

*21 fevral 2011-ci il ..................................................................................232*

ABŞERON RAYONUNUN HÖKMƏLİ QƏSƏBƏSİNDƏ «M-
LİNE» MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİN MEBEL
FABRİKİNİN AÇILIŞI MƏRASİMİ

*21 fevral 2011-ci il ..................................................................................234*

YENİ ZELANDİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB
CON KİYƏ

*23 fevral 2011-ci il ..................................................................................236*

FÖVQƏLADƏ HALLAR NAZİRLİYİNİN MÜLKİ MÜDAFİƏ
QOŞUNLARINA DÖYÜŞ BAYRAĞININ TƏQDİM
OLUNMASI MƏRASİMİ

*23 fevral 2011-ci il ..................................................................................237*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ, SİLAHLI
QÜVVƏLƏRİN ALİ BAŞ KOMANDANI İLHAM ƏLİYEVİN
ÇIXIŞI

*23 fevral 2011-ci il ..................................................................................238*

BEYNƏLXALQ HƏRBİ İDMAN ŞURASININ PREZİDENTİ
HAMAD KALKABA MALBOUM İLƏ GÖRÜŞ

*23 fevral 2011-ci il ..................................................................................244*
ABŞ-ın DÖVLƏT KATİBİNİN BİRİNCİ MÜAVİNİ CEYMS
STAYNBERQİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*24 fevral 2011-ci il* ........................................................................................*245*

GÜRCÜSTAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRİ
VANO MERABİŞVİLİ İLƏ GÖRÜŞ

*25 fevral 2011-ci il* ........................................................................................*246*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ XÜSUSİ
NÜMAYƏNDƏSİ PİTER SEMNEBİ İLƏ GÖRÜŞ

*25 fevral 2011-ci il* ........................................................................................*247*
XOCALI FACİƏSİ QURBANLARININ
XATİRƏSİNİ ANMA MƏRASİMİ

*26 fevral 2011-ci il* ........................................................................................*248*

QUSAR RAYONUNDA ŞAHDAĞ QIŞ-YAY TURİZM
KOMPLEKSİNİN 2 NÖMRƏLİ KANAT VƏ XİZƏK ENİŞİNİN
AÇILIŞI MƏRASİMİ

*27 fevral 2011-ci il* ........................................................................................*251*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB ABDULLAH GÜLƏ

*28 fevral 2011-ci il* ........................................................................................*255*

RUMINİYANIN «NİRO İNVESTMENT GROUP»
ŞİRKƏTİNİN RƏHBƏRİ NİKOLAE DUMİTRUNUN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*28 fevral 2011-ci il* ........................................................................................*256*

XORVATİYA ALİ MƏHKƏMƏSİNİN SƏDRİ BRANKO
HRVATİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*28 fevral 2011-ci il* ........................................................................................*257*

«AZƏRBAYCAN RESPUBLİKASI REGİONLARININ 2009-2013-cü İLLƏRDƏ SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMI»NİN İCRASININ İKİNCİ İLİNİN YEKUNLARINA HƏSR OLUNMUŞ KONFRANSDA NİTQ

*1 mart 2011-ci il ........................................................................258*

YEKUN NİTQİ ........................................................................*267*

RUSİYA FEDERASİYASI TATARISTAN RESPUBLİKASININ PREZİDENTİ RUSTAM MİNNİXANOV İLƏ GÖRÜŞ

*2 mart 2011-ci il ........................................................................281*

SLOVENİYANIN MÜDAFİƏ NAZİRİ XANIM LYUBİTSA YELUŞİÇİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 mart 2011-ci il ........................................................................282*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ

*3 mart 2011-ci il ........................................................................283*

YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KAROLOS PAPULYASA

*3 mart 2011-ci il ........................................................................284*

İRLANDİYANIN PREZİDENTİ XANIM MERİ MAKALİSƏ

*3 mart 2011-ci il ........................................................................285*

BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ZİLLUR RƏHMANA

*3 mart 2011-ci il ........................................................................286*

MÜDAFİƏ SƏNAYESİ NAZİRLİYİ «ŞƏRQ» İSTEHSALAT BİRLİYİNİN YENİ «AZAD SYSTEMS CO.» MÜƏSSİSƏSİNİN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*3 mart 2011-ci il ........................................................................287*

MÜDAFİƏ SƏNAYESİ NAZİRLİYİNİN «CİHAZ» İSTEHSALAT BİRLİYİ BAKI CİHAZQAYIRMA ZAVODUNUN YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*3 mart 2011-ci il ........................................................................................289*

MÜDAFİƏ SƏNAYESİ NAZİRLİYİ «CİHAZ» İSTEHSALAT BİRLİYİNİN «SƏNAYECİHAZ» ELM-İSTEHSALAT MƏRKƏZİNİN YENİDƏNQURMADAN SONRA İŞƏ SALINMASI MƏRASİMİ

*3 mart 2011-ci il ........................................................................................292*

RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*5 mart 2011-ci il ........................................................................................294*

AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN BİRGƏ GÖRÜŞÜ

*5 mart 2011-ci il ........................................................................................295*

AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN BİRGƏ BƏYANATI

*5 mart 2011-ci il ........................................................................................296*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*5 mart 2011-ci il ........................................................................................297*

8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

*7 mart 2011-ci il ........................................................................................298*

BEYNƏLXALQ KANOE FEDERASİYASININ PREZİDENTİ JOZE PERURENA İLƏ GÖRÜŞ

*9 mart 2011-ci il ........................................................................................299*

BAKI ŞƏHƏRİNİN VƏ PAYTAXTƏTRAFI QƏSƏBƏLƏRİN
SOSİAL-İQTİSADİ İNKİŞAFINA
DAİR MÜŞAVİRƏDƏ NİTQ

*12 mart 2011-ci il*............................................................................*300*

YEKUN NİTQİ............................................................................*310*

ALBANİYA BAŞ NAZİRİNİN MÜAVİNİ, XARİCİ İŞLƏR
NAZİRİ EDMOND HACİNASTONUN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*10 mart 2011-ci il*............................................................................*321*

YAPONİYANIN İMPERATORU ƏLAHƏZRƏT AKİHİTOYA

*11 mart 2011-ci il*............................................................................*322*

BAKININ SƏBAİL RAYONUNDAKI 6 NÖMRƏLİ
MƏKTƏBİN YENİ BİNASINDA TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ
İLƏ TANIŞLIQ

*11 mart 2011-ci il*............................................................................*323*

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ XANIM
MİŞELİN KALMİ-REYİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*14 mart 2011-ci il*............................................................................*324*

İSVEÇRƏ PREZİDENTİ MİŞELİN KALMİ-RE İLƏ
TƏKBƏTƏK GÖRÜŞ

*14 mart 2011-ci il*............................................................................*325*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*14 mart 2011-ci il*............................................................................*326*

AZƏRBAYCAN VƏ İSVEÇRƏ PREZİDENTLƏRİNİN
MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLARI

*14 mart 2011-ci il*..........................................................................*328*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏT

*14 mart 2011-ci il*..........................................................................*333*

ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİ, LİTVANIN XARİCİ İŞLƏR NAZİRİ AUDRONYUS AJUBALİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 mart 2011-ci il*..........................................................................*335*

MƏRAKEŞİN ƏDLİYYƏ NAZİRİ MƏHƏMMƏD NƏSİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 mart 2011-ci il*..........................................................................*336*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ İLƏ GÖRÜŞ

*15 mart 2011-ci il*..........................................................................*337*

UKRAYNANIN MÜDAFİƏ NAZİRİ MİXAİL YEJELİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 mart 2011-ci il*..........................................................................*338*

DÖVLƏT BAYRAĞI MEYDANININ ƏTRAFINDA HƏYATA KEÇİRİLMİŞ ABADLIQ VƏ QURUCULUQ İŞLƏRİ İLƏ TANIŞLIQ

*16 mart 2011-ci il*..........................................................................*339*

BAKIDA ZABİTLƏR PARKININ AÇILIŞI MƏRASİMİ

*16 mart 2011-ci il*..........................................................................*340*

HEYDƏR ƏLİYEV BEYNƏLXALQ AEROPORTUNDA YENİ AEROVAĞZAL KOMPLEKSİNİN TƏMƏLQOYMA MƏRASİMİ

*17 mart 2011-ci il*........................................................................................*341*

QEYDLƏR........................................................................................*345*

*Şəxsi adlar göstəricisi*...........................................................................*315*

*Coğrafi adlar göstəricisi*.......................................................................*379*

**Texniki redaktor** ***Zoya Nəcəfova***
**Yığım üzrə operator** ***İlhamə Kərimova***
**Kompyuter tərtibatı** ***Məhəbbət Orucov***

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x1081/32. Ofset kağızı 1. Şərti çap vərəqi
25,75. Uçot nəşr vərəqi 26,25. Tirajı 5000.
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61,
dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.